**İdeya müəllifi:**
**Ülviyyə Ərşad qızı Əliyeva**

**Müəllif:**
**Lətif Ənvər oğlu Aslanov**

# YENƏ VƏTƏN YAXŞI

*(tarixi sənədli publisistik povest)*

Baku-2013

**İdeya müəllifi:**
*Ülviyyə Ərşad qızı Əliyeva*

**Müəllif:**
*Lətif Ənvər oğlu Aslanov*

**Kitab *Bona Diamond* sponsorluğu ilə nəşr olunub.**

*İkinci dünya müharibəsində alman faşizmi ilə mübarizədə Azərbaycan xalqının oğul və qızları böyük əzmkarlıqla iştirak etmiş, qəhrəmanlıq nümunələri göstərmişlər. Onlardan biri Fransa müqavimət hərəkatının iştirakçısı, faşizmin məhv olunmasında göstərdiyi şücaətə görə Fransanın Milli Qəhrəmanı adına layiq görülmüş, bu ölkənin "Fəxri Legion ordeni" ilə təltif edilmiş, Fransa "Hərbi medalını" daşımış yeganə SSRİ vətəndaşı Əhmədiyyə Cəbrayılovdur.*

*Kitabda qəhrəmanın həyat və döyüş yolundan söhbət açılır, Fransa partizanları cərgəsində göstərdiyi igidlikləri əks etdirən maraqlı faktlar təqdim olunur.*

31.1.2. 3101020000
―――――――― qrifli nəşr
036-2013

© "Oğuz Eli," 2013





## MÜNDƏRİCAT

**Oğullar atası**.....5
**Hər şeyin başlanğıcında**..... 11
**Qəhrəmanın doğuluşu**.....15
**Vətəndə son döyüş**.....18
**4167 nömrə ilə başlanan yol**.....22
**Qaz kamerasında**.....27
**D'Ark olmasa da, Xilaskar Janna**.....31
**Qəbirdən evə qədər**.....35
**Partizanlarla ilk görüş**.....39
**Partizan dəstəsində**.....42
**İlk əməliyyatlarda**.....45
**Ölümdən bir az bu yana**.....49
**İlk dəfə baş qərargahda**.....53
**Ən çətin tapşırıqlar ustası**.....56
**Nağıllarda olduğu kimi**.....59
**Fransanın yeni qəhrəmanı**.....62
**Özbaşına qəhrəmanlıq**.....68
**Ölüb, yenə dirilən**.....72
**Mahir əməliyyatçı**.....77
**Salam, dar ağacı**.....81
**İki həmvətən - iki partizan**.....84
**Partizan həyatının sonu**.....86
**Yeni əsirlik - alman komendantı** .....91
**Dost-düşmən Əhmədiyyə: silahdaşlar və həmkəndli ilə görüş**.....95
**Azadlığın son döyüşü** .....99
**Fransa ordusunun zabiti** .....106
**Vətənə doğru**.....109
**Doğma yurdda** .....116
**Vətən xaini**.....123
**Köhnə-təzə qəhrəman**.....128
**Aqronom Əhmədiyyə**.....132
**Keçmişin yolları ilə gedərkən**.....144
**Ataların oğlu - ot kökü üstə bitər**.....201
**«Yenə Vətən yaxşı»**.....207



*İki böyük dost - Fransa xalqının Milli qəhrəmanı Əhmədiyyə Cəbrayılovun və atam Ərşad Əliyevin əziz xatirəsinə*
***Ülviyyə Əliyeva***





# Oğullar atası

XX əsrin uzaq 20-ci illəri. Dünyanı lərzəyə salan hadisələr Azərbaycan torpaqlarından çox uzaqlarda baş versə də, təsiri ondan yan keçmədi. 1914-cü ildə başlamış Birinci dünya müharibəsində Rusiya imperiyası iflasa uğradı. Savaş böyük imperiyanın məhvi ilə nəticələndi. O, bir neçə yerə parçalandı. Amma hakimiyyəti ələ keçirən bolşeviklər partiyası çox tezliklə çar hakimiyyətinin qalıqları üzərində yeni imperiya qurmaq iddiasına düşdülər. Bu sevda imperiya xalqlarını qırmızı qan gölünə qərq etdi. Bolşeviklər tifağı dağılmış imperiyanın sərhədlərini, demək olar ki, əvvəlki vəziyyətinə qaytardılar. 1920-ci ilin aprelində Qızıl ordunun qüvvələri Azərbaycana soxuldu və cəmi 23 ay mövcud olmuş Şərqin ilk demokratik respublikasını beşiyindəcə boğdular.

Respublikada mürəkkəb və gərgin dövr başladı. Yeni qüvvə həqiqətini yalnız silah gücünə yeridirdi və özünü qanuniləşdirib yerini möhkəmlətməklə əhalini talan etməyə başladı. Azərbaycan qaranlığa büründü. Bir-birilə barışmaz mübarizəyə qalxmış tərəflərin hər biri, təbii ki, öz mövqeyini həqiqət sayırdı. Hər tərəf qulluq etdiyi əqidənin həqiqiliyinə, apardığı mübarizənin, əməllərinin doğruluğuna inanırdı. Təbii ki, bu mübarizədə kimisə qınamaq olmaq. Onların hakimi tarix, yalnız və yalnız tarixdir.

Həmin illərdə Şəkinin Oxud kəndində Mikayıl Cəbrayıl oğlu Hacıağamirzəyev adlı şəxs ailəsi ilə ömür sürürdü. 1878-ci ildə elə Oxudda dünyaya göz açmışdı.

Kim deyə bilərdi ki, Şəki Qafqaz dağlarının qoynunda dilbər guşədə yerləşsə də, boyu şöhrətindən də balaca olan bu kəndin tarixində nə Güney dağın ətəyində, nə də kəndin özündə yerləşən eramızdan əvvəlin və sonranın ikinci əsrlərinə aid iki nekropol, nə də VII-XIX əsrlərin qəbirlərini özündə saxlayan məzarıstan əhəmiyyətli rol oynayıb, onu tanıdacaq. Bu kəndi onun tarixi keçmişində əhəmiyyətli rol oynamış zəhmətkeş bir ailənin, məhz Mikayıl kişinin övladı böyük şücaətləri ilə əbədi qəhrəmanlıq diyarı kimi tanıdacaq.

Məşədi Mikayıl orta boylu, enli kürəkli, dolu bədənli bir kişi idi. Təmizliyi, düzlüyü, vicdanı ilə kənd camaatının hədsiz rəğbətini və hörmətini qazanmış Mikayıl kişi kommunist ideallarına ilk inananlardan biri olub. 1920-ci ildə o, kommunist partiyasının sıralarına daxil oldu. O vaxt 42 yaşı var idi.

Azərbaycanda Sovet hakimiyyəti qurulana qədər Mikayıl kişi əkin-



Mikayıl Cəbrayıl



Safura xanum



Paşa



Əbdülsalam



Əhmədiyyə



Məmmədiyyə







Ələsgər



Məmmədsadıq



Nazilə xanum

çiliklə məşğul idi. 1930-cu ildə qurulmuş ilk kolxoz artelinin yaradılmasında o, ən fəallardan biri idi, bu işdə əməyini, qüvvəsini, gücünü əsirgəmədi və «Kommunizm» adlandırılmış kolxoz artelinin ilk sədri olub.

Birinci olmaq həmişə çətin olub. Bütün ittifaqı bürümüş hərcmərclik dövründə bu, ikiqat çətin və mürəkkəb vəzifə idi. Mülkədarlar, qolçomaqlar yeni hakimiyyəti, onun qayda-qanunlarını qəbul etmək istəmir, onunla hər vasitə ilə mübarizə aparırdılar. Hətta dinc, sadə insanlara ziyan vursa, onları həyatdan məhrum etsə belə, bu mübarizə dayanmırdı. XX əsrin 30-cu illərində də bu mübarizə səngimədi. Bolşevik hakimiyyəti ilə silahlı mübarizə amansız cəbhəyə çevrildi. Bu illərdə Mikayıl kişi bütün əziyyətlərə qatlaşaraq, çətinliklərə sinə gərərək, düşmən saydığı varlıqlara, qolçomaqlara, mülkədarlara cavab verir və idealları, əqidəsi uğrunda mübarizə aparırdı.

1930-cu ildən bu mübarizə daha dəhşətli mərhələyə qədəm qoydu. Bir-birinə qənim kəsilmiş iki cəbhə arasında get-gedə daha da alovlanan bu çarpışma «Kommunizm» kolxozunun sədri Mikayıl Cəbrayıl oğlunun da yuxularını ərşə çıxardı. Qaçaqlar hətta Şəkini işğal edərək, 3 gün əllərində saxlaya bilmişdilər. Sovet hökuməti ilə mübarizədə qüvvəsi o qədər də çox olmayan, mütəşəkkilliyi çatışmayan, lakin mübarizəsindən də qalmayan kolxoz düşmənləri meşələrə, dağlara çəkilmişdilər. Onlar get-gedə daha seyrəlir və meşələrin, dağların dərinliklərinə çəkilirdilər. Bu halda onların əsas işi gecələr kolxozların taxıl anbarlarına, mal-qara fermalarına basqın etmək idi. Bu minvalla onlar həm dolanır, həm də kolxozun dayaqlarını sarsıtmağa çalışırdılar. Mübarizənin amansızlığı hətta insanların həyatını qiymətsiz etmiş, şiddət elə bir həddə çatmışdı ki, ölüm adi hala çevrilmişdi. Çöllük-biyabanlıqda insan meyitinə rast gəlmək də adiləşmişdi.

Mülkədarlar «Kommunizm» kolxozunu da dinc qoymur, haqq saydıqları iş uğrunda mübarizədə bu kənddən də yol salurdılar. Kolxozun sədri Mikayıl kişi məşhur atıcı idi və özü kimi mahir atıcılardan, qoçaqlardan anbar və fermaları qoruyan dəstələr təşkil etmişdi. Mikayıl kişi özü də hər gecə mal-qara fermasında yatır, hər iki saatdan bir fermanı, anbarları dolanır, gözətçilərin sayıqlığını yoxlayır, tapşırıqlarını verirdi. Ferma və anbarları qoçu Gülməmmədin dəstəsi qoruyurdu. Dəstədə olan Novruz, Dəriş, İbad və başqaları da sərrast atıcılar sayılırdılar. Qoçu Gülməmməd hər dəfə Mikayıl kişiyə deyərdi:

- Kişi, evinə-eşiyinə get, hər şeydən arxayın ol. Ailənin də üstündən əskik olma. Aman verməərəm ki, ferma-anbarın üstündən bir quş da uçsun.

İbad onun sözünə qüvvət verərmiş:

- Qoçu Gülməmməd düz deyir, sədr, bizdən arxayın ol.

- Mən harada olsam da, sizdən arxayınam. Çünki sizin kimi qoçaq heç yerdə yoxdur. Amma bir anlıq da sayıqlığımızı itirməməliyik, birliyimizi qorumalıyıq.

Kolxozun sahəsi kənddən 15-20 km aralıda, qonşu Qoxmuq kəndi kolxozunun sahəsinin 6-7 km-liyində idi. Qaçaqlar, dəstənin hər bir üzvü bilirdi ki, sədr Mikayılın gülləsi boşa çıxanlardan deyil. Onu yaxşı tanıyır, elə buna görə də onunla üz-üzə gəlməkdən qorxurdular. Qaçaq dəstəsinin başçısı elçi göndərib Mikayıl kişiyə təklif edir ki, hər ay bir baş mal və 500 kq taxıl versin ki, onun kolxozuna toxunmasınlar. Təbii ki, Mikayıl kişi təklifi rədd edir.

Qaçaqlar hiylə işlətmək fikrinə düşürlər. Beləcə, Qoxmuq kəndində yerləşən kolxozun sədri bir axşam Mikayıl kişini qonaq dəvət edir. Mikayıl kişi qoçu Gülməmmədi çağırıb tapşırır ki, axşam onu Qoxmuq kəndinə qonaq çağırıblar, gözətçilər sayıqlığı itirməsinlər. Tapşırığını verib, ətrafı bir daha gözdən keçirən sədr Qoxmuq kəndinə yola düşür.

Qonaqlıq vaxtı Mikayıl kişi başa düşür ki, qonaqlar arasında silahlı qaçaqlar da var. Heç nədən çəkinmədən ev yiyəsinə deyir:

- Səhvməndədir ki, səni kişi bilib evinə gəlmişəm.

Qaçaqların başçısı Mikayıl kişinin məsələdən duyuq düşdüyünü hiss edib dərhal əsas söhbətə keçir. Qaçaqlar məclisə 4 kolxoz və 3 kənd soveti sədrlərini tutub gətirmişdilər. Dəstə başçısı sözə başlayır:

- Başqa kolxozların sədrləri, kənd sovetləri də razılıq veriblər. Sənin kəndinin də sovet sədri razıdır. Gəl, inad etmə, sən də razı ol.

Mikayıl kişi üzünü qaçaqların başçısına tutub deyir:

- «Kommunizm» artelində mənim heç bir malım, taxılım yoxdur. Nəyim var, hamısı evimdədir. Kolxoz artelində olan taxıl, mal-qara kənd camaatınındır. Məni də ora nəzarətçi qoyublar, mənə etibar edib, etimad göstəriblər. Onların inamını yerə vura bilmərəm. «Kommunizm» kolxozundan bir kilo taxıl və bir baş mal-qara da götürə bilməzsiniz. Sizin bir yolunuz var - məni öldürmək. Ayağınızı kəndimə ancaq meyitimin üstündən atıb keçə bilərsiniz. Amma yenə heç nə apara bilməyəcəksiniz. Ona görə ki, kəndin anbarlarını, fermasını qoçaq uşaqlar qoruyur. Hələ heç qoçu Gülməmmədi demirəm.

Qaçaqların başçısı hər cür hədə-qorxu gəlir, min bir hiylə işlədir, amma niyyəti baş tutmur. Vəziyyətin dəyişmədiyini görüb deyir:

- Türk paşası öz ordusu ilə Yevlaxa kimi gəlib, bizimlə birləşəcək. Ondan sonra neyləyəcəksən, ay Mikayıl kişi?

Mikayıl kişi təmkinini itirmədən deyir:

- Siz deyən türk paşası da xalqın malına göz dikənləri sevməz.

Mikayıl kişi bilirdi ki, qaçaqlarla razılığa gəlsə, Sovet hökuməti onu ailəsi ilə birgə sürgün edər. Elə buna görə də son sözü bu olur: öldü var, döndü yoxdur.

Ev yiyəsinə:

- Bilsəydim, bir ləçək düzəltdirib gətirərdim, papaq yerinə taxasan başına - deyib, ayağa qalxır.

Bu zaman kolxozun mal-qarasını otaran Baxış kişi də ayağa qalxır. Baxış kişi də çox sərrast atəş açanlardan sayılırdı.

Qoxmuq kəndinin kolxoz sədri qaçaqların başçısının qulağına deyir:

- Siz məni zəlil etdiniz.

Qaçaqların başçısı ayağa qalxır. O biri qaçaqlar da onun kimi qalxmaq istəyəndə, əli ilə oturanlara işarə edir və üzünü Mikayıl kişiyə tutub deyir:

- Mikayıl kişi, çox qoçaq adamsan. Elə buna görə sənin kolxoz artelinə dəyməyəcəyik.

Söhbət elə burada da tamamlanır.

Gecə saat 12 olardı. Mikayıl kişi fermada idi. Bir nəfər təngnəfəs gələrək, sədrə deyir ki, təcili onu evə çağırırlar. Mikayıl kişi:

- Nə xəbər, nə olub görəsən?

Xəbər gətirən adam:

- Bilmirəm, evdən dedilər ki, təcili gəlsin.

Qoçu Gülməmməd:

- Sədr, get, gör nə xəbər var, bizdən arxayın ol, özünə fikir ver.

Mikayıl kişi son göstərişlərini verir, dağla evə gedəcəyini deyəndən sonra yola düşür. Kəndə qədər dağ yolu 5 km idi. Çox qısa olduğu üçün Mikayıl kişi bu yolu seçir.

Dəriş kişi:

- Sədr, dağ qorxuludur.

Mikayıl kişi Allahın adını çəkib yola çıxır.

Qaçaqların başçısı on nəfərə tapşırır ki, həmin gecə Mikayıl kişini öldürsünlər. Qaçaqların ən fəalları Oxud kənd sakinləri - H.Seyidov, İsmayıl və Kərimbala bu söhbəti eşidir. Dəstə başçısına deyirlər ki, Mikayıl

kişini öldürsələr, onları kəndlərinə buraxmazlar. Ona görə də Mikayıl kişi ilə işləri olmasın. Başçı deyir:

- Əmr etmişəm, sözümü geri götürən deyiləm.

H.Seyidov, İsmayıl və Kərimbala tez özlərini Oxuda gedən yolun cığırına çatdırıb, Mikayıl kişini gözləməyə başlayırlar. Mikayıl kişi özünü onlara çatdıranda, ona qoşulurlar. Sədri kəndə kimi müşayiət edirlər. Pusqu quran qaçaqlar səsdən duyurlar ki, yoldaşları Mikayıl kişinin yanındadırlar. Ona görə də atəş açmırlar.

Qaçaq dəstəsinin üzvləri H.Seyidov, İsmayıl və Kərimbala sərrast atıcı olmaqla yanaşı, həm də çox incə qəlbli, səmimi və ədalətli insanlar idi. Savadsız olsalar da, haqq tərəfdarı idilər. Mikayıl kişi yol boyu onlara kolxozu təbliğ edir və inandırır ki, qaçaqlığın axırı yoxdur.

Səhəri gün sədr onları kolxoz artelinə işə götürür.

Bir atalar məsəlində deyilir ki, ətlə gələn sümüklə çıxar. Mikayıl kişinin altı oğlu və bir qızı var idi: Paşa 1909, Əbdülsalam 1913, Əhmədiyyə 1920, Məmmədiyyə 1924, Ələsgər 1934 və 1926-cı ildə dünyaya gəlmiş ögey oğlu Məmmədsadıq Mustafa oğlu Sadıqov. Qızı Nazilə 1938-ci ildə anadan olmuşdu. Oğulları atalarına layiq övlad kimi yetişib böyüdülər, vətənlərinə güclü, qoçaq və qəhrəman övlad oldular. İllər keçdi, onlar bunu canları, qanları ilə sübut etdilər. Müharibənin odlu-alovlu illərində Mikayıl kişinin övladlarının rəşadəti, qoçaqlığı dillər əzbərinə çevrildi.





# Hər şeyin başlanğıcında

30-cu illərin axırlarına doğru beynəlxalq münasibətlərin kəskinləşməsi ən yüksək həddinə çatdı. 1939-cu il sentyabrın 1-də vermaxtın qoşunları Polşa sərhəddini qırıb keçdilər. Bu, İkinci dünya müharibəsinin başlanğıcı idi.

1940-cı ilin iyul ayının sonlarında vermaxtın baş qərargahında «blitskriq» planı – SSRİ-yə ildırımsürətli hücumun hazırlanmasına başlandı. Həmin il dekabrın 18-də Adolf Hitler 21 saylı əmri imzaladı. Buna uyğun olaraq, «Barbarossa» planının həyata keçirilməsinə başlanıldı. 1941-ci il iyulun 22-də isə alman qoşunları Sovet sərhəddini aşıb keçdilər. Ölkədə ümumittifaq səfərbərliyi elan edildi.

Mikayıl kişinin oğlanları Paşa ilə Əbdülsalam 1941-ci ildə öz xahişləri ilə «Kommunizm» kolxoz artelindən müharibəyə yollandılar, Məmmədiyyə Şəkinin Lenin adına ipək kombinatından əsgər getdi.

Mikayıl kişinin bir oğlunun taleyi isə tam fərqli oldu. Məhz o, müharibənin bütün ağrı-acılarını



əvvəldən axıra qədər yaşamalı oldu. Doğma Oxud kəndinə isə o, əsl qəhrəman kimi qayıtdı. Azərbaycanın uzaq əyalət kəndlərindən birinin sakini 5 il davam edən müharibədə bir ölkənin deyil, iki böyük dünya dövlətinin qəhrəmanı kimi şöhrət tapdı. Ona Fransa müqavimət hərəkatının qəhrəmanı kimi ölkənin ən ali hərbi mükafatlarından biri təqdim olundu.

Əhmədiyyənin həyat yolunu bir axşam mütaliə etdiyi qəzet müəyyən edir. O, nəşrlərdən birinin səhifəsində hərbi məktəbə qəbul elanını görür. Səhəri Bakı şəhərinə gedib Qızıl ordu sıralarına daxil olmaq üçün Hərbi Komissarlığa ərizə ilə müraciət edir. O, Bakı Hərbi Komissarlığında qəzetdəki elanı göstərərək, "Nevinomıskı" təyyarəçilik məktəbinə göndərilməsini xahiş edir. Bu onun uşaqlıq arzusu idi.

Əhmədiyyə Mikayıl oğlu Cəbrayılov 1920-ci il senytabrın 22-də anadan olmuşdu. 1927-ci ildə Şəkinin doğma Oxud kəndində natamam orta məktəbə getmiş, 1935-ci ildə təhsil ocağını müvəffəqiyyətlə bitirmişdi. Həmin il Şəki Kənd Təsərrüfatı Texnikumunun Zootexnika və Aqronomiya fakültəsinin Maldarlıq-ipəkçilik şöbəsinə daxil olaraq, 3 il təhsil almış, ipəkçi ixtisasına yiyələnmişdi.

Azərbaycan SSR Nazirlər Sovetinin əmrinə əsasən, 1939-cu ildə "Quba-Qusar-Xaçmaz-Dəvəçi-Yalama" rayonlararası ipək idarəsinin aqronomu kimi fəaliyyətə başlamış, il ərzində yaxşı göstəricilərinə görə, dövlət onu 3 min manat mükafata və döş nişanına layiq görmüşdü. Çox gənc olsa da, aldığı biliklər onu özünü təcrübəli mütəxəssis kimi göstərməyə kömək edirdi. Tezliklə Əhmədiyyə bacarığı sayəsində nüfuz qazanmağa başladı.

Kim deyə bilərdi ki, sadəcə, bir elan onun həyatını tam dəyişəcək, onu məşəqqətlərdən, əzablardan keçirib uca, əbədi qəhrəmanlıq zirvəsinə aparacaq.

Arzularına qovuşmaq istəyən Əhmədiyyənin yolunu elə komissarlıqdaca açırlar və onu istədiyi məktəbə göndərirlər. O, özü ilə 1934-cü ildə sıralarına daxil olduğu leninçi gənclər təşkilatının - komsomol biletini, ona verilən xasiyyətnaməni, idman yarışında qazandığı diplomu, təşəkkürnaməni və döş nişanını da aparır. İmtahanlardan müvəffəqiyyətlə keçərək, məktəbə daxil olur.

Əhmədiyyə atasından bir xasiyyəti, xüsusiyyəti də əxz etmişdi. Onun gələcək həyat yolunu müəyyən edən bir sirdən də söz açmaq lazımdır. Məşədi Mikayıl bütün bölgədə mahir ovçuluğu ilə məşhur idi. O, ova yola düşəndə, axşam çağı bütün kənd onun pişvazına çıxıb heyranlıqla ov qənimətinə baxar, onları necə ovlaması barədə maraqlı əhvalatlara qulaq asmağı xoşlayardılar. Mikayıl kişinin bu ov məharəti oğlu Əhmədiyyəyə də keçmişdi. Bəlkə də ona görə ki, atası onda bu bacarığı lap əvvəldən hiss edib, hər dəfə ov səfərinə onunla çıxarmış. Tezliklə Əhmədiyyə onun ən yaxın ov silahdaşına çevrildi və onun da şöhrəti «durnanı gözündən vuran» ovçu kimi dildən-dilə düşdü.









Əhmədiyyə həmin vaxtlar hələ orta məktəbdə oxuyurdu. Hələ bütün yaşıdları kimi təhsil alırdı. Lakin idmana həvəsi xüsusi idi. O, idman hərəkətləri etməkdən doymur, turnikdən əl çəkmirdi. Çəldliyi və bacarığı ilə görənləri mat qoyurdu. Şəkidə, Bakıda keçirilən idman yarışlarında iştirak edər, qalib gələrdi. Hər dəfə yarışa yollananda bütün kənd onu yola salar, yalnız qalib kimi geri dönməsini arzulayar və sonra elə belə həvəslə qarşılayar və hər dəfə sorğu-suala tutardılar.

Əhmədiyyə Şəki Kənd Təsərrüfatı texnikumuna daxil olandan sonra da yarışlarda iştirak edər, amma bu dəfə Azərbaycandan kənara da çıxardı. Moskva, Xarkov, Kiyevdə onun uğurları haqqında xatirələr bu gün də yaşayır. Amma bu uğurlardan cəmi bir mükafatı haqqında rəsmi məlumat qalıb. Həmin fəxri fərmanda deyilir ki, Azərbaycan pionerləri və məktəblilərinin 3-cü spartakiadasında Nuxa rayonundan Əhmədiyyə Cəbrayılov 100 metr məsafəyə qaçış yarışında 13,2 saniyə nəticə ilə 1-ci yerə layiq görülüb.

1939-cu ilin noyabr ayında kursant formasını əyninə geyinəndə sevincinin həddi-hüdudu yox idi. Orconikidze diyarının Nevinnomısk şəhərindəki aviasiya məktəbində ən qısa müddətdə o, təyyarənin bütün sirlərinə bələd olur. Təyyarədə istifadə edəcəyi silah növlərini mənimsəyir, texnikanın dilini öyrənir. Hətta alman dilində sərbəst danışırdı. Kursun sonunda ona kiçik leytenant hərbi rütbəsi verilir və Moskva yaxınlığında yerləşən 35-ci diviziyanın 350-ci bombardmançı eskadrilyasına texniki xidmət sahəsinə təyin olunur. 1940-cı ildə isə Kommunist Partiyasının sıralarına daxil olur.





# Qəhrəmanın doğuluşu

Müharibə. 1941-ci il iyunun 22-də alman qoşunları SSRİ sərhədlərini dağıdıb keçəndən sonra milyonlarla gənc kimi, Əhmədiyyə də bütün arzularını təxirə salmalı oldu. Sonu bilinməyən, hər günü, hər anı ölümlə üz-üzə keçən günlər başladı.

Alman qoşunları gündən-günə ölkənin dərinliklərinə doğru irəliləyirdi. Get-gedə cəbhədə vəziyyət kommunistlərin əleyhinə dərinləşməyə başlamışdı.

İyunun 22-də başlayan müharibə zamanı Macarıstan, Rumıniya, Finlandiya və İtaliya da Almaniya ilə bir ittifaqda SSRİ-yə hücum etmişdi. Sovet sərhədlərində alman qoşunlarının 70 faizi, eləcə də hərbi tərəfdaşlarının da qoşun hissələri cəmlənmişdi. Sərhəddə toplanan qoşunların 5,5 milyon canlı qüvvəsi var idi. Bütün qoşunlar 190 diviziyadan ibarət idi. Onların 4,3 min tankı və hücum silah-sursatı, 47,2 min topu və minaatanı, 5 minə yaxın döyüş təyyarəsi, 192 gəmisi var idi.

Vermaxtın baş komandanlığı əsas zərbələrin endiriləcəyi istiqamətlərdə həm canlı, həm də silah-sursat üstünlüyü yaratmışdı.

1941-ci ilin iyununa Qızıl ordu hissələrinin Qərb hərbi dairələrində



190-dək diviziyası və ya 3 milyona qədər canlı qüvvəsi cəmlənmişdi. Lakin qoşunlar şəxsi heyətlə tam formalaşmamışdı, 144 diviziyanın hərəsində 8 min, 19 diviziyada 600 mindən 5 mindək, 7 süvari diviziyada 6 minə qədər canlı qüvvə toplanmışdı. Qızıl ordunun tank, təyyarə, silah-sursat, minaatanların sayında üstünlüyü var idi. Lakin bütün bunlar hamısı köhnəlmiş texnika idi. Onunla düşmənlə başabaş müharibə aparmaq mümkün deyildi. Yalnız 1475 tank və 1540 təyyarə yeni tipli idi.

«İldırımsürətli müharibə»yə hesablanmış «Barbarossa» planına əsasən, 4 ordu hissəsi razılaşdırılmış şəkildə hərəkət etməli idi. Finlandiya qrupu general Ditlin və fin feldmarşalı Mannergeymin komandanlığı ilə Murmansk, Belomorsk və Ladoqanı hədəfə almışdılar. «Şimal» qoşunları qrupunun əsas vəzifəsi (komandan general-feldmarşal fon Leeb) Leninqrad üzərində cəmlənmişdi. Daha böyük qüvvə general-feldmarşal fon Bokun başçılığı ilə «Mərkəz» qoşunlar qrupunda cəmlənmişdi və hədəfi birbaşa Moskvaya tuşlanmışdı. «Cənub» qoşunlar qrupu general-feldmarşal fon Rundştedtin rəhbərliyi ilə Ukraynanı işğal etməli idi.

Qüvvələr nisbətinin qeyri-bərabər şəraitində alman faşistləri Sovet qoşunlarının müqavimətini qıraraq, strateji üstünlüyü ələ aldılar, hava məkanına tam ağalıq etməyə başladılar. Bütün cəbhə boyu amansız döyüşlərdə alman ağır zirehli texnikasının və maşınlarının sürətlə irəliləməsi Sovet qoşunlarını idarəolunmaz hala saldı. Sərhədyanı hərbi dairələrin qoşunları ciddi itkilərə məruz qaldılar. Almanların və müttəfiqlərinin qoşunları ölkənin 300-600 km dərinliyinə qədər irəlilədilər. 1941-ci ildə Qızıl ordu ağır döyüşlərdə 3 milyon canlı qüvvəsini itirdi, daha 3 milyonu isə əsir düşdü.

Elan edilməmiş müharibə başlayanda Əhmədiyyə yoldaşları ilə bombardmançı təyyarədə Rostov-Xarkov-Kiyev-Poltava-Moskva-Minsk-Smolensk-Lvov ətrafında vuruşmaların fəal iştirakçılarına çevrildi. Lakin Rostov-Xarkov-Lvov və bir çox şəhərlər artıq alman əsarətində idi. Kiçik leytenant Əhmədiyyə Cəbrayılovun bacarığını nəzərə alaraq, komandanlıq onu 1942-ci ilin aprelində Ukraynanın Donbas şəhərinə göndərir, 350-ci atıcı alaya siyasi məsələlər üzrə müavin təyin edir. Bu alayın tərkibində o, Ukraynanın Barvinka-Lozovaya-İzyum rayonu ətrafındakı döyüşlərdə iştirak edir. Bu alay neçə-neçə obanı, kəndi, şəhəri işğalçılardan təmizləyir. İlk döyüşündə Əhmədiyyə Xarkovdan 200 kilometr aralıda yerləşən bir şəhərə göndərilir. Olduqca mühüm strateji mövqeyə malik olan bu şəhəri düz 3 dəfə almanlar işğal etsələr də, sovet ordusu onu geri qaytarır və bu döyüşlərdə Əhmədiyyə də xüsusi şücaəti ilə fərqlənir. Buna görə Əhmədiyyə Cəbrayılova leytenant hərbi rütbəsi verilir.

1942-ci ildə əfsanəvi döyüşçü Əhmədiyyə Cəbrayılovun siyasi rəhbəri olduğu alay şücaətlər göstərirdi. Döyüşlərdən birində Serebryanka və Dronovka kəndləri ələ keçirildikdən sonra alay, ilkin plana görə, hücumu Slavyanskaya və Krasnoarmeyskaya istiqamətində







inkişaf etdirməli idi. Lakin qəfil əmr gəlir: alay sağa – Barvinka və Lozaya tərəfə istiqamət götürməlidir. Əslində, burada «qəfil» olacaq bir şey yox idi. Bu hərəkətlər başa düşülən idi. Məsələ onda idi ki, Donbas qruplaşmasının hücumlarının qarşısını almalı olan 9-cu ordu qüvvələri özü əks-zərbə ilə böyük itkilərə məruz qalmışdı. Düşmən onu hər bir mənada üstələyirdi. Onun batalyonlarının sayı 1,5 dəfə, silah-sursatı 82 dəfə, tankları isə 6,5 dəfə çox idi.

Düşmənin tank hissələrinin birbirindən ayrı saldığı 350-ci batalyonun əsgərləri rəşadətlə vuruşurdular. Siyasi məsələlər üzrə müavin Cəbrayılov hadisələrin ən gur cərəyan etdiyi sahələrdə zirehlənmiş əsgər kimi qəhrəmanlıq nümunələri göstərirdi. Tank savaşının ən qaynar nöqtələrində o, tank əleyhinə sursatla düşmənin azman tanklarının «ov»una çıxmışdı. Budur, sol cinahda hitlerçilərin tanklarından biri onun mahir ovçu hissiyatının qurbanına çevrilir. Lakin daha bir tank grupu əks istiqamətdən açıq qalmış döyüş bölgəsini əzməyə can atır. Əhmədiyyə cəld özünü bu tərəfə atmağa çalışır. Nəhayət, o, özünü yetişdirir və nağıllarda olduğu kimi, nəhəng düşməninin ürəyinə növbəti xənçəri sancır – zireh əleyhinə mərmini düşmən qruplaşmasının baş maşınının burunluğuna atır. Amma o, öz silahını yenidən doldurmağa vaxt tapa bilmədi. Yaxınlıqda irəliləyən tankın atəşinin partlayışı elə onun da sancdığı mərminin atəşi ilə eyni zamanda partlayır. Cəbrayılovu sanki ölüm quşu caynağına alıb apardı.

Əhmədiyyə özünə gələndə başının üstündə rotanın sanitarı dayanmışdı. Onu müalicə kursu keçmək üçün hospitala göndədilər.

Sağaldıqdan sonra yenidən döyüşə atılır – onu kəşfiyyata göndərirlər. Əlahiddə kəşfiyyatçı məharətinə görə, 1942-ci ildə o, artıq baş leytenant idi.

Cəbhədə isə vəziyyət çox ağırlaşmışdı.

# Vətəndə son döyüş

1942-ci il mayın 8-də vermaxtın 11-ci səhra ordusu Kerç yarımadası istiqamətində hücuma keçdi və Sovet qoşunlarına ciddi zərbə vurdu. Arası kəsilməyən döyüşlər mayın 20-nə qədər davam etdi. Alman faşistləri, nəhayət, Kerçi ələ keçirdilər. Onların qənimәti 170 min əsgər və zabit, 3 min top, 350 tank və külli miqdarda silah-sursat oldu. Sovet qoşunları böyük itkilərlə Taman yarımadasına çəkilmək məcburiyyətində qaldılar.

Həmin vaxtlarda Əhmədiyyə yeni tapşırıq əsasında çalışırdı. Aprel-may ayları olardı. Alman faşistləri Lozovoy-Barvinka-İzyum-Denes şəhər və xutorları mühasirəyə almışdılar. Əhmədiyyəni 48-ci atıcı alayına siyasi məsələlər üzrə rəhbər kimi göndərirlər. Komandanlığın əmri ilə baş leytenant Cəbrayılov bombardmançı təyyarə ilə döyüşə atılır. 1942-ci ilin may ayında tapşırığı uğurla başa vurub geri qayıdarkən Kursk ətrafında təyyarəsi vurulur. Ağır yaralı halda təyyarənin düşdüyü ərazidə vuruşan 9-cu ordunun döyüşçüləri Əhmədiyyənin yaralarını sarıyıb dincəlmək üçün onu səyyar xəstəxanaya yerləşdirirlər. Lakin gənc Əhmədiyyə ağır yaralanmasına baxmayaraq, zabit və əsgərlərlə əks hücum əməliyyatında iştirak edir.

Onlar düşməndən uzaqda deyildilər. Köməyə isə ümid yox idi. Hətta patronu da qorumaq lazım idi. Döyüş sursatını nə vaxt gətirə biləcəklər - heç bilmək olmur. Əhmədiyyə çantasını açır:

- Cəmi 30 güllə qalıb. Bununla neyləmək olar axı?!

Əhmədiyyə ətrafa göz gəzdirir. Sonuncu dəfə nə vaxt istirahət etdiyini də unudubmuş kimi, özünə də qəribə gəlir:

- Bu, nə sükut, bu, nə əcaib sakitlikdir.

Yəqin, almanlar təzə qüvvə toplayıb hücuma hazırlaşırlar.

- Yox, onu görməyəcəksiniz.

«Sovinformbüro»nun məlumatlarına görə, Sovet qoşun hissələri Xarkovda Barvinka-İzyum istiqamətində hücuma keçiblər.

- İndi onlarla birləşmək üçün düşmən cərgəsini yarıb keçmək lazımdır. Amma necə?

Almanların topunun, tankının sayı-hesabı yoxdur, avtomatçılar ağzına qədər dolu disklərlə əmr gözləyirlər, gülləni yağış kimi səpirlər.

- Hə, nə edək, quş olub göylə səssiz keçək, yoxsa milçək olub uçaq?

Elə bu vaxt ondan bir qədər aralıda ağır mərmi partlayır, qəlpələr sel kimi yağır, yerin tozu-dumanı aləmi bürüyür, sanki yerin bağrı yarılırmış kimi torpaq parçaları yerlə-göyü bərabər edir.





Положение и группировка войск на советско-германском фронте к лету 1942 года.



- Al gəldi, bu da sənə quş olub, milçək kimi uçmaq.

Almanlar get-gedə atəşi gücləndirirlər. Əhmədiyyə 3 əsgərlə birgə yolun kənarında dərin küvetdə uzanıb gözləyir.

Yolun kənarı ilə bir yük maşınının səsi eşidilir:

- Mənim əmrim olmadan heç kim atəş açmasın - deyə, Əhmədiyyə əsgərlərə göstəriş verir. Bu an maşın döngədən burulub onlara sarı yönəlir. Kuzovda onlarla alman əsgəri dayanıb. Bir-birinin çiynindən tutublar ki, yolsuzluqda silkələnmədən yıxılmasınlar.

Əhmədiyyə qəfil əmr verir:

- Siz qumbaraları kabinaya atın, mən isə pulemyotla kuzanı nişan alacağam.

Cəbrayılov əl pulemyotunun qundağını çiyninə dayayır.

- Lənət sənə, əfsus ki, cəmi bir diskim qalıb.

Maşını lap yaxına buraxırlar. Almanların şən bağırtı ilə oxuduqları mahnının səsi ətrafa yayılır, deyib gülür, bağırırlar. Qollarını lap çiyinə qədər çırmayıblar.

«Hə, gəzintiyə çıxmısınız. Deyin, gülün, indi lap ürəkdən güldürəcəyəm sizi» - Əhmədiyyə beynindən bu fikri keçirib nişan alır. Yanındakı yaşlı əsgər qumbaranı atır, ardınca Əhmədiyyənin pulemyotu dilə gəlir.

Bir dəqiqədən sonra nə maşının səsi qalır, nə şıdırğı alman gülüşü, nə qalın boğaz mahnısı. Ətrafa sakitlik çöküb.

Bir saatdan sonra almanlar yeni qüvvələri irəli atdılar. Bir batalyonluq piyada, bir batareyalıq minaatan hərəkətə gəldi. Əhmədiyyə öz əsgərləri ilə əyilib yaxınlıqdakı kolluğa - rotanın səngər qazdığı istiqamətə doğru qaçır.

Amma hitlerçilər onları hiss etmişdilər. Dərhal da yanlarında silah-sursat partlayışı eşidilməyə başladı. Yaşlı əsgər yıxıldı, amma nədənsə qalxmaq bilmir. Əhmədiyyə geri qanrılır. Əsgərin çiyni parça-parça olub. O, güclə dilini tərpədir:

- Qaç, oğlum, qaç, artıq mənə kömək edə bilməzsən.

Əhmədiyyə onun sözünə baxmır, qocanı çiyninə alıb qaçmağa başlayır. Lakin özünkülərə çatanda, çiynindən əl sallanmağa başlayır. Bu an özü də ağrı hiss edir. Elə bil çiyni bu saat yerindən çıxacaq. Dəhşət ağrıdan o, qolunu tutur. Bu an yoldaşları onun köməyinə yetişirlər. Əhmədiyyə heç özü də anlamır. Elə bil ,çiyni get-gedə şişməyə başlayır. Hərbi köynəyi elə bil, bu saat cırılıb əynindən çıxacaq. Bu nədir - qan yığılır, yoxsa çiynində apardığı kişinin ağırlığındandır? Onun yarasını sarıyırlar.

Almanlar Sovet döyüşçülərini çaya tərəf sıxışdırırlar. Atəş səsi kəsilmək bilmir. Mərmilər yerə sanki ağır çəkic kimi dəyib şaqqıldayırlar. Əhmədiyyə yaralı çiyninə fikir vermədən avtomatını sıxıb güllə cərgəsini bir-bir düşmənə sarı paylayır. Birdən tətiyi çəkəndə, avtomatdan səs çıxmır. Bir, iki – yenə tətiyi dartır - yox, çaqqıltıdan başqa qulağına bir səs gəlmir. Bu da son – artıq patron yoxdur. Çantasına göz gəzdirir. Son ümidini çıxarır. Almanlar lap yaxınlıqdadırlar. Çiynindəki ağrı da imkan vermir, get-gedə ağırlaşır. Tələsmək lazımdır. Elə bu an başı üzərində üç nəfərin dayandığını görür:

- Ey, rus, təslim ol!

O, qoruyucu halqanı çəkib atır...

Atəş açıldımı, kimə nə oldu – artıq Əhmədiyyə heç nə eşitmirdi.

Gözlərini açanda, başı üzərində tanımadığı bir sima canlandı. Gözünün toru açıldıqca sima əynində alman





Замыслы германского главнокомандования на лето 1942 года.




geyimi olan soyuq baxışlı naməlum əsgərə çevrildi. O, yalnız bu an anladı: ölümdən də betəri baş verib...

Şimali Donets çayının sahilində, İzyum çayının yaxınlığında ağır yaralanan Əhmədiyyə almanlara əsir düşüb.

Şimaldan və cənubdan hücuma keçmiş alman qoşunları mayın sonlarında birləşərək mühasirə çevrəsini daralda bildilər. Ayrı-ayrı Sovet hissələri və döyüşçü qrupları mühasirə xəttini yarıb keçə bildilər. Ümumən mühasirədən 6-cı və 9-cu Sovet qoşunlarının şəxsi heyətinin bir çərəyi heç bir ağır silah-sursatı olmadan mühasirəni yarıb keçə bildi. Alman əsirliyinə 200 mindən artıq döyüşçü və komandir düşdü. Mindən artıq tank, iki mindən artıq top düşmənin qəniməti oldu.

Əhmədiyyə mühasirəyə düşən 9-cu ordunun döyüşçüləri sırasında, ağır yaralı vəziyyətdə idi.

Alman faşist ordusunun «B» qruplaşması cənub-şərq istiqamətindən ağır zərbələrlə Don və Şimali Donets çaylarının arasındakı dəhlizi də tutdular.

Stalinqrad uğrunda döyüşlər isə 1942-ci il iyulun 17-dən 1943-cü il fevralın 2-nə qədər davam etdi.

Mühasirə düz 200 gün çəkdi.

# 4167 nömrə ilə başlanan yol

Bir düşərgədən başqa düşərgəyə keçid 3 ay davam edir. Maşın, motosiklet və velosipedlə təchiz olunmuş alman ordusu yaralı, ac-susuz əsirləri piyada hər gün 60 km yol ölçdürür, rəhm nə olduğunu bilmirdilər. Ləkəli, his-paslı hərbi köynəklər, başlarına, bədənlərinə sarınmış bintləri qırmızı qan ləkələrinə bürünmüş əsgərlər kimi qızdırmalı, kimi yorğunluqdan halsız, kimi dərin fikirlərə qərq olmuş vəziyyətdə arğın-arğın yol ölçürdülər.

Yerə yıxılana aman yox idi. Yoldaşına kömək edənə də, yıxılana da rəhm etmir, parabellumdan boynunun ardına güllə sıxırdılar. İzyumdan Lvova qədər uzanan ikihəftəlik o yolda kim bilir, neçə nəfər peysərində şaqqıldayan güllənin qurbanı oldu.

Almanlar yolboyu şənlənir, kimisi dodaq qarmonu çalır, kimisi özü üçün zümzümə edir, kimisi bir-birinə nəsə deyib gülürdü. Əsirləri dörd keşikçi köpəyi müşayiət edir. Hərdən bu heyvanların da əsirlərə qısqır-













ması almanların kefini bir qədər də yaxşılaşdırırdı. Kimsə sıradan çıxıb gizlincə yol kənarındakı kolluğa özünü atmaq istəyəndə, çoban itləri bunu hiss edir, kolluğa tərəf qanrılır, hürür, yemini parça-parça etməyə hazırmış kimi kolluğa tərəf dartınırdı.

Yerli camaat yol boyu əsirlərin bu halına dözməyib, onlara çörək qırıntıları, kartof, meyvə-tərəvəz və s. - əllərinə hər nə keçirdisə, atırdılar. Amma bu da heç də asan məsələ deyildi. Bu risk həyat bahasına başa gəlirdi. Çünki almanlar əsirlərə yemək verən kimisə görəndə, onu yerindəcə güllələyirdilər.

Əsirlər arasında mülki vətəndaşlar da az deyildi. Çoxu qoca, qadın, uşaq idi. Buna görə onlar bu rəzalətə dözmür, gücü-qüvvəsi tükənir və tələf olurdular. Faşistlər əsirlərin yolda yeməyə əl uzatdığını görəndə də silaha əl atırdılar.

Əhmədiyyənin əynində təyyarəçi paltarı var idi. Ukraynalı əsirlər onun aqibətinin daha acı olacağını dəqiq bilirdilər. Həm də almanlar əsirlərin içərisində olan komandirləri, partizanları və yeriyə bilməyən adamları xəndək qazaraq basdırırdılar. Hətta sonradan meyitlər atılan xəndəkləri torpaqlayıb atəşə tuturdular.

İlk iki gün onları açıq səma altında saxladılar. Hər dəfə də dəmir yol relsləri olan tərəfə çəkir, burada gecələmək əmri verirdilər. Gündə bir dəfə yemək verilirdi. Əvəzində hər stansiyaya çatanda, yük olan qatarları boşaltmağı əmr edirdilər.

İkinci gün boşaltdıqları qatarda onlar vaqonlarda və platformalarda vurulub sıradan çıxarılmış alman texnikası gördülər. Hamının gözü işıldadı. Sanki əsirlərə bir ömür də hədiyyə etdilər. Dərhal hamı həvəsə gəldi.

«Hə, bu müharibə sizə asan başa gəlməyəcək. Özünüzə əziyyət verib bu texnikanızı da geri aparmayın, onsuz da təmirə yararlı deyil» deyə, Əhmədiyyə dodaq altında mızıldandı.

Yaralı Əhmədiyyəni acı aqibət gözləyirdi. Elə buna görə meşədən keçərkən qaş qaralanda, onun qaçıb canını qurtarmasını təşkil etmək fikrində idilər. İlk belə cəhdi Əhmədiyyə Kiyev yaxınlığındakı kəndlərdən birində yoldaşlarından birinin təklifi ilə etdi.

Onunla yanaşı, hündürboy cüssəli bir kişi də yeriyirdi. O, yolboyu ağrıdan inləyir. Əhmədiyyə tez-tez onun yaralı başındakı binti dəyişirdi.

Növbəti dəfə Əhmədiyyə onun zarıdığını görüb:

- Petroviç, gəl bintini dəyişim.

Yoldaşı başını bulayıb:

- Bir kirli binti o biri ilə dəyişməyin nə faydası var? Yox, mən burada çox tab gətirə bilmərəm. Elə bu axşam aradan çıxıram. Gedirsənsə, bir yerdə qaçaq.

- Əlbəttə.

Axşama yaxın kəndlərdən birində dayandılar. Sanki bura müharibə üzü görməmişdi. Evlər sapsağlam, eyvanları tərtəmiz, hər tərəfdən çiçək-yaşıllıq ətri gəlirdi. Bağlardan həzin quş cingiltisi eşidilirdi. Əhmədiyyə bir anlıq özünü doğma kəndində hiss edirmiş kimi, bu təmiz havadan içinə çəkdi.

Əsirləri samanlıq anbarlarından birinə doluşdurub kiçik heyətli gözətçi dəstəsi də qoydular. Qalanları şam etmək, əylənib dincəlmək üçün komalara yollandılar. Əhmədiyyə Petroviçlə birgə anbarın lap arxasına keçdilər, ətrafa göz gəzdirməyə başladılar.

- Bir ora bax, anbar divarında dəlik var. Taxta ilə üzərini örtüblər. Nə deyirsən, risk edək? Başqa belə fürsət ələ heç düşməyə bilər.

- Başqa söz ola bilməz – qaçırıq.

Əhmədiyyə dəlikdən başını çölə çıxardı. Ətrafda heç kim yox idi.

- Əvvəlcə, mən çıxacam, sən vacib adamsan. Bir az irəliləyəcəm, görsən ki, səs çıxmır, sən də gəl. Səni meşənin girəcəyində gözləyəcəm.

Əhmədiyyə dişini qıcayıb həsrətlə gözləməyə başladı. Əhmədiyyə də dəlikdən çıxmaq istəyirdi ki, o biri əsirlər Cəbrayılovun qaçmaq niyyətində olduğunu görüb dəliyə tərəf üz tutdular. Əhmədiyyənin bəxti gətirmişdi. O, anbardan xeyli uzaqlaşmışdı və hələ də əsgərlərdən səssəmir çıxmırdı. Lakin qəfil o büdrədi və özünə gələndə almanların hayqırtısını eşidirdi. Hər tərəfdə axtarış gurlayırdı.

Çoxları həmin gecə qaça bildi. Bəzilərinin bəxti gətirmədi, güllləyə tuş gəldilər. Əhmədiyyəni isə yetərincə kötəklədilər. Boynunun ardına güllə gözləyirdi ki, səs çıxmadı. Almanlar onu yoldaşlarının yanında atıb getdilər.

Ona özünə gəlməyə kömək etdilər.

Əsirlər düz üç dəfə onu əsirlikdən qurtarmağa çalışdılar. Lakin hər üç halda Əhmədiyyə çox uzağa gedə bilmir. Ya yorulub dincini alanda, ya da huşunu itirib yıxıldığı vaxt almanlar onu tapıb döyür, ümumi dəstəyə qoşurlar. Taleyin qəribə hökmü var. Sən demə, Əhmədiyyəni əynindəki təyyarəçi paltarına görə öldürmürlərmiş.

Lvov yaxınlığında Əhmədiyyə əsir düşərgəsinin nə olduğunu ilk dəfə gördü. Hər tərəfdən məftillə çəpərlənmiş ərazidə qüllələrdən əsirlərə tuşlanmış lülələr, əynində zo-

laqlı gödəkçələr olan zavallılar və hər birinin sinəsində rəqəmli damğalar.

Burada Əhmədiyyə də adını itirdi. Ona 4167 nömrəsini verdilər.

Əsir düşərgəsində xoş, sakit axan günlərdən danışmaq yersizdir. Hərbi düşərgələr əsirlərə verilən işgəncələri, məhrumiyyətləri, əzabları ilə ad-san çıxarmışdılar. Burada itləri əsirlərin üstünə qısqırdıb ləzzət almaq, bu vəziyyətdə şəkil çəkdirib, evə göndərmək adi hal sayılırdı. Əsirlər elektrik stuluna bağlanır, ətrafı bürüyən ah-nalədən, fəryad bağırtısından tamaşalar qururlurdu.

Düşərgədə əsirləri saf-çürük edirdilər. Demək olar ki, yemək də vermirdilər. Hər səhər oyananda gördükləri ilk mənzərə cəsədələrlə dolu maşının düşərgəni tərk etməsi idi.

Günlər beləcə keçirdi. Amma bir gün gecə yarısı projektorlar işə düşdü, onları yuxudan oyadıb, tələsdirə-tələsdirə sıraya düzdülər. Hamının ürəyi döyünməyə başladı. «Gecənin xeyrindənsə, gündüzün şəri yaxşıdır» atalar məsəlini yada salan Əhmədiyyə gözün-gözü görmədiyi bir vaxtda almanlardan heç xeyir gözləməyə dəyməz deyə, nəsə pis bir şey olacağını düşündü. Amma yox, onları harasa aparacaqdılar. Əsirləri vaqonlara doluşdurdular.

Əhmədiyyə bərk yaralı idi. Yara sağalmaq istəmirdi. Vaqonda uzanıb hər yırğalandıqca, sanki ona layla çalırdı. O, şirin xəyallar içərisində kəndini, texnikumda oxuduğu illəri xatırlamaq istədi.

Hə, bu, həmin qatardır. O, tələbə yoldaşları ilə praktikaya gedir. Şən, məzəli bir məclisdə, dostların əhatəsində onlar hər dayanacaqda sanki bazar açıblarmış kimi, qatarın qapısı ağzını kəsdirən insanların satdığı nemətlərdən alır, sonra bu stansiyadan o birinə aldıqlarını yeyə-yeyə, yenə zarafatlaşa-zarafatlaşa yol gedirdilər.

Qəfil qatar dayandı. Ağrı onun çiynini dağıdırdı. Əhmədiyyə gözlərini açanda, ətrafında bir-birinə sıxılmış, üzündə min bir kədər olan insanları gördü.

Onun qatarla bütün yolu bu əzablar içərisində keçdi. Hər dəfə də yuxusunda tələbəlik illərini görürüdü. Gah komsomol iclaslarında kəskin müzakirələrdə, gah yoldaşları ilə dərsə hazırlaşanda, gah elə dərs saatının özündə masa arxasında, gah məclislərdə keçən yuxular - gənc həyatının bu məqamında o, yuxusunda daha nə görə bilərdi ki?!

Hər yolayrıcında qatar silkələnir, Əhmədiyyə şirin yuxudan, mürgüdən ayılır və reallıq acısı ilə üz-üzə qalırdı. Yuxuda bambaşqa aləm, ayılanda bir başqa rəzil dünya həqiqəti onun ruhunu da ağrıtmağa başlamışdı.

Mürgüləyəndə bəzən ona elə gəlirdi ki, doğma kəndindədir. Atası ilə ova gedir, əllərində qənimət evə dönərkən, kənddə qənimətlərinə baxıb onların məharətinə heyranlığını bildirmək üçün toplaşmış camaat qarşılayacaq. Ya da böyük bir ağacın altında uzanıb aydın göy səmaya gözlərini zilləyib gələcək barədə xəyallara dalır. Yenə qatar silələnir və o, mürgüdən ayılıb çirkab içində əziyyət çəkən xəstə əsirlərin ahı-zarı görəndə, özünü daha da pis hiss edir.





## Qaz kamerasında

1942-ci ilin sonu idi. Əsirlərə işgəncəsi ilə şöhrət tapmış məşhur Dahau düşərgəsi. Burada əsirləri iki hissəyə böldülər. Hündür, sağlam bədənlilər, cüssəlilər bir tərəfə, qalanları digər tərəfə keçirilirdilər. Əhmədiyyə balacaboy, zəif, cılız olduğuna görə, onu ümumi qrupa «təzə paltar verəcəyik; təmizlik yaxşıdır, sağlamlıqdır» deyə, hamama aparırlar. Hamamda əmr edirlər ki, hamı üzərindəki paltarı tamamilə çıxarsın, lüt-üryan olsun. Yeni paltarlar əsirlər çimizdirildikdən sonra veriləcək. Amma...

Əhmədiyyə 1940-cı ildə ona təqdim olunmuş partiya biletini pencəyin çiyin hissəsinə tikmişdi. Təyyarəçi paltarında zabit olduğu bilinmədiyi üçün çox sevinirdi. Ancaq partiya biletinin tapılacağından çox qorxurdu. Almanlar əsirlərin üst-başını axtaranda, canına üşütmə düşdü.

Leninin, Stalinin şəkli olan vəsiqə, bilet çıxardısa, onu elə yerindəcə güllələyərdilər. Amma hər şey ötüşdü.






Ворота, через которые с 1933 года прошли более 200 тысяч заключенных



Bəlkə də onu sevgi qorudu. Təhsil almaq üçün el-obasını tərk edəndə, ona aşiq olmuş bir qız dəsmal bağışlamışdı. Ağ parçanın dörd küncünə dövlət başçılarının şəkilləri iplə toxunmuşdu. Əhmədiyyə bütün cəbhə boyu dəsmalı göz bəbəyi kimi qorumuşdu. Dəsmal ona hər şeydən əziz idi. Çünki dəsmal ona doğma el-obasından yeganə yadigar, bir gün onu yenidən Vətənə qaytaracaq ümid parçası idi. Hər dəfə bu əski parçası ona keçmişini unutmağa qoymur, ən ağır anlarında ona təsəlli verir, yenidən həyat eşqini qaytarırdı. Həyatı bahasına başa gələcəyini bilsə də, əsirlikdə də dəsmalı əldən vermək fikrində deyildi. Bəxti gətirdi. Hamamda bərk səs-küy düşdüyünə görə təyyarəçi paltarında gizlətdiyi sənədləri tez dəsmala büküb ağzına qoydu.

Əmr gəldi:

- Hamı çimməyə.

Əsirlər mal-qara sürüsü kimi hamamxanaya qovuldular. Su kranı açıldı. Amma su əvəzinə krandan buxar çıxmağa başladı. Əsirlər nəyisə dərk etməmiş, bir-bir yıxılmağa başladılar. Sanki kütləvi qırğın silahı işə düşmüşdü. Amma həqiqətən elə belə idi: almanlar zəhərli qazı işə salmışdılar.

Əhmədiyyə yavaş-yavaş halsızlaşır, taqətdən düşür və qəfil yıxılır. Gözünü açanda, özünü kəndli evinə oxşayan komada görür.

- Mən haradayam?

Alman dilində astadan bir qoca kişi səsi eşidilir:

- Almanlar əsirləri qazla boğub, meyitləri dərəyə atırlar. Biz qocalar onları basdırırıq. Səni görəndə, bədənin isti idi, soyumamışdı. Tez arabaya qoyub otun arasında gizlətdim və evə gətirdim. Kənddən bir qoca həkim çağırdım ki, sənə baxsın. Tanrıya şükür, sən həyata döndün. Burada qalmaq təhlükəlidir. Alman «eses»çiləri bilsələr ki, evdə naməlum, özü də əsir düşmüş düşmən saxlayıram, məni öldürərlər və evimi yaxıb yandırarlar. Kasıb adamam,









özümü zorla dolandırıram. Odun yığanda, ağacların altında paraşüt və kostyum tapmışam. Kostyum əyninə gələr.

Qoca kişi kostyumu gətirir. Həyatın qəribəliyi bu dəfə də özünü tam gücü ilə göstərir. Əhmədiyyənin qarşısına vaxtilə vurğunu olduğu təyyarəçi geyimi qoyulur. Sanki tale özü onu bu geyimlə sınağa çəkəcəyini nümayiş etdirirdi.

Çox-çox sonralar, Əhmədliyyə Fransaya qonaq gedəndə, həmin məhbəsdə işləmiş növbətçilərdən biri etiraf etmişdi ki, qaz kamerasından meyitlər çıxarılanda Əhmədiyyənin ölmədiyini aşkar etmişdilər. Lakin SS həkimi «Onu sakit buraxın, onsuz da öləcək» demişdi. Buna görə də Əhmədiyyəni də ölü kimi digər əsirlərlə birgə dərəyə atmışdılar. Həmin qocalar da onu elə oradan götürmüşdülər.

Əhmədiyyə onu əyninə geyindi, elə bil, onun boyuna ölçülmüşdü.

- Paraşütü yandır, tapsalar, başına oyun açarlar, - deyə, Əhmədiyyə ev sahibinə təşəkkür əlaməti olaraq, ona məsləhətlərini verir.

Ev sahibi təşəkkürünü bildirir və qonağını yola salır. Əhmədiyyə, yolunu azmış adamlar kimi, gah sağa addımlayır, gah sola dönür - heç özü də bilmirdi hara gedir, nə edirdi. Sanki yenə təyyarəçi geyimində onu əcəl axtarırdı. Tapdı da.

Kənddən çox uzaqlaşmamışdı ki, yenə almanların əlinə keçdi. Ondan haralı, kim və nəçi olduğunu soruşdular, amma bir cavab almadılar. Elə zənn etdilər ki, o, lal-kardır və yenidən əsirlərə qoşdular. Üst-başını axtarıb heç nə tapa bilmədilər. O, yalnız bir söz sayıqlayırdı: Azərbaycan, Azərbaycan, Azərbaycan. Rusca bilən tərcüməçi gətirdilər. O da əsirlərdən biri idi. Almanlar tərcüməçilik qabiliyyəti olanlara rəhm edir, onları xidmətə götürürdülər. Əhmədiyyə onu bir tövr başa salır ki, azərbaycanlıdır. Tərcüməçi almanlara anlatdı ki, müsəlmandır. Almanlar Cəbrayılovun müsəlman olmağına və dil bilmədiyi üçün sayıqlamasına inandılar.

Təyyarəçi olduğundan onu yük vaqonunda Almaniyaya apardılar. Elzamsiya əsir düşərgəsində

düşməndən sirr almaq üçün əsirə çox işgəncə, əzab-əziyyət verir, məhrumiyyətlərə düçar edirdilər. Baş leytenant Əhmədiyyə Cəbrayılov təyyarəçi olduğunu danır, özünü təyyarələri təmizləyən sıravi kimi qələmə verir.

Əynindəki geyimi işarə edib soruşurlar:

- Yaxşı, bəs bu təyyarəçi mundiri haradandır?

- Təyyarəçi geyimi çox xoşuma gəlir. Ona görə də hədiyyə ediblər.

Bu minvalla Əhmədiyyə növbəti dəfə ölümdən can qurtarır. Amma ona rəhm etmirlər. Çox ağır işlərə göndərirlər. Hərçənd yaxşı işlədiyi üçün hər gün 200 qram jımıx çörəyi alırdı. Bu da ona kifayət etmirdi. Çox vaxt ot yemək məcburiyyətində qalırdı.

Yenə düşərgə, yenə əsirlik, yenə məhrumiyyətlər, yenə işgəncələr. Bir-birinə o qədər bənzər, elə bir o qədər bir-birinə bənzəməyən günlər. Havanın istisinə, soyuğuna, qarına, yağışına açıq komalar, sivrilənmiş düyünlərlə əsirlərə hədə-qorxu gələn tikanlı məftillərdən çəpərlər. Ən vacibi, həmin bu hasarların arxasında uzun-uzadı uzanan o çöllüklərin azadlıq qoxusu gələn havasında idi. Əsirlərə qüvvət verən, onların şirin xəyallarına güc verən, arzularını sönməyə qoymayan da həmin ucu-bucağı bilinməyən dünya idi.

Əhmədiyyə bir şey arzulayırdı – yenidən azadlığa çıxmaq, silahı ələ alıb döyüşdən-döyüşə azadlıq uğrunda savaşmaq. Vətənə aparan yeganə yol da bu idi. Başqasını düşünmək də olmazdı. Bu, bütün mümkün yolların ən çətini və şərəflisi idi. Burada da o, qaçmağa cəhd edir. O, yemək zamanı bıçağı paltarının qolları arasında gizlədə bilir. Gecə düşəndə özünü sərxoşluğa vurur, qaranlıqdan istifadə edərək gözətçiyə yaxınlaşır və boğazını kəsmək istəyir. Cəhd baş tutmur, lakin onu əmrsiz öldürə bilməzdilər. Xüsusi təhlükəli əsir kimi onu daha uzağa göndərirlər.





# D`Ark olmasa da, Xilaskar Janna

Fransanın cənubunda Tuluza yaxınlığında yerləşən Montoban hərbi düşərgəsi Cəbrayılovun sonuncu əsir dayanacağı oldu. Onu Rodezdəki Bürlup kazarmasına göndərirlər.

1942-ci il oktyabr ayında bir qrup xüsusi təhlükəli əsiri Fransaya apardılar. Cəbrayılov da onlar arasında idi Burada da o, 4167 nömrəli əsir idi. Tuluzada dağılmış binaları təmizləyən zaman Cəbrayılovun vəziyyəti ağırlaşır, sətəlcəm olur, vərəm xəstəliyinə tutulur.

Günlərin bir günü alman əsgəri yerdə qan görür. Əsirləri sıraya düzərək, kimin tüpürdüyünü soruşurlar. Qorxudan heç kim cavab vermir. Hər bir əsirin ön və arxa tərəfində taxta parçası asaraq, üzərinə nömrə və düşərgənin adını yazırlar.

Alman əsgəri sıra ilə çağıraraq, 20 nəfəri cərgəyə düzür və “kim boynuna almasa, hamınızı güllələyəcəyəm” deyir. Əhmədiyyə dözmür, «xəstə mənəm» deyir. Alman əsgəri onu güllələmək üçün xəlvəti yerə aparmaq istəyəndə, SS zabitlərindən biri avtomobillə buradan keçirmiş. Əsgərdən soruşur:

- 4167 nömrəli əsiri hara aparırsan?

Əsgər:

- Ağır xəstədir. Güllələməsək, o birilərinə də keçirəcək.

SS zabiti:

- Bu gün mənim şad günümdür. Bu gün öldürmək olmaz, onu bağışlayıram, aparın lazaretə.

Növbəti qaçış cəhdinə görə xüsusi qəddarlıqla döyülmüş Əhmədiyyə çətinliklə nəfəs alırdı. O, uzanılı vəziyyətdə qalmışdı, nə tərpənir, nə də əlini bir şeyə uzada bilirdi. Ağzının kənarlarında qan laxtasının izləri var idi. Bir təhər qüvvəsini toparlayıb, son cəhdini edirmiş kimi belini qaldırıb dirsəkləndi, başını divara dayayıb kədərdənmi, ya xəstəlikdənmi çöküb qaralmış gözünü otağının uzaq küncünə zillədi.

Qəfil ona elə gəldi ki, başının üstünü kimsə kəsdirib. Bir təhər başını qaldırıb baxdı – qarşısında yaşı elə də az olmayan, ancaq səliqə-sahmanla geyinmiş bir qadın dayanmışdı. Elə bil, yuxuda idi. «Bu qadın burada nə edir. Ona nə lazımdır? Başımın üstünü niyə kəsdirib? Çox pis yuxudur. İstəmirəm» deyə, o, öz-özünə mırıldandı və fikrə getdi.

Qadın fransızca tələskən və bir qədər də həyəcanla danışmağa başladı. Əhmədiyyə bir kəlmə də başa düşmədi. Onun gözü önündən 1942-ci ilin iyul ayı, əsir düşdüyü vaxt keçirdi. Onun taleyinə yazılmış ağır

günlər, soyuq, aclıq, vəhşiliklər, cəzalar, güllələnən əsirlər gözləri önündən canlanırdı. Nə qədər xəstə, vəziyyəti ağır olsa da, xəyalından yalnız bir şey keçirdi – qaçmaq və yenidən döyüşə atılmaq.

Birdən qadının dilindən çıxan bir sözə diqqət yetirdi. Hə, deyəsən, nəyisə anladı. Qadının «Janna» «Madam Janna» ifadələri ona çatdı. Qadın öz adını deyirdi.

Birdən qadının nitqi Əhmədiyyəyə sanki məlahətli, səlis bir mahnını, kəndlərində axan arxın həlim şırıltsını xatırladırmış kimi xoş gəldi. Əhmədiyyə azərbaycanca cavab verdi. Sonra öz-özünə danışmağa başladı.

Onun sözlərindən qadının dili-ağzı qurudu, gözləri bərəldi. Sanki bu an onu ildırım vurubmuş kimi qurudu. Çox keçmədi, qadının gözləri işıldamağa başladı, ona elə bil, həyat, can verdilər. Sanki onu qucaqlamaq istəyirmiş kimi əllərini havada yellədi:

- Oooo, müsyö, Siz... Sizzz... Siz türkmüsünüz?!! Mən də abdalcasına öylə anlamışdım ki, siz russunuz.

O, türkcə danışmağa başladı. Əhmədiyyə onu tam anlayırdı.

- Mən azərbaycanlıyam. Sovet əsiriyəm.

Onlar söhbətə başladılar. Məlum oldu ki, Jannanın 65 yaşı var. O, Kipr vətəndaşı olub. Türkə ərə gedibmiş. Türk dilini də buna görə yaxşı bilir. Orada onun ərini və oğlunu faşist hakimiyyəti güllələyib və o, canını qaçmaqla qurtarıb. Bu qadın komendantın qulluqçusu və lazaretin süpürgəçisi işləyirdi. Onu «Madam Janna» deyə çağırırdılar.

Əhmədiyyə öskürməyə başladı. O, əli ilə sinəsin vurdu. Öskürək kəsmək bilmirdi. Ağzından ara-sıra qan gəlirdi. Qadın dərhal əlindəki əski parçası ilə onun dodağındankı qanı sildi. Başına tumar çəkdi. Əhmədiyyənin gələcək taleyini müəyyən edəcək hadisələr də bundan sonra baş verdi.

Onlar əməllicə dostlaşdılar. Hər gün Madam Janna ona baş çəkməyə başladı. Əhmədiyyə ilə həmişə türkcə söhbət edirmiş. Ara-sıra Madam Janna ona taleyindən danışırmış.

- Özümü həmişə türk qadını saymışam. 28 il İstanbulda ərdə olmuşam. Mən Fransaya Kiprdən qaçmaq məcburiyyətində qaldım.

Əhmədiyyə də ona öz taleyindən, kəndindən, elindən-obasından söhbət açarmış. Bu minvalla onlar doğmalaşırlar.

Madam Jannanın Rober adlı oğlu da cəbhədəymiş. Artıq neçə ildir ondan xəbər-ətər də yox imiş. Əhmədiyyənin başının üstünü kəsdirəndə də o, rus əsirindən oğlunu xəbər alırmış. Bəlkə də onun oğlu da haradasa əsirdir, Əhmədiyyə kimi əziyyət çəkir, bəlkə də artıq bu dünyada yoxdur, zalım gülləsinə tuş gəlib. Elə buna görə də o, hər qarşısına çıxandan oğlunu xəbər alır. Onun üz cizgisinin əlamətlərindən danışırmış. Əhmədiyyə ilə yaşıd olarmış. Əhmədiyyə kimi, o da kürəndir. Yanağındakı xalları da lap bənzərdir. Əhmədiyyə ona «ana», o isə Əhmədiyyəyə «oğul» deməyə başladılar. Qadın bəlkə də Əhmədiyyədən oğlunun iyini almağa, Əhmədiyyənin qulluğunda durmaqla oğlunun nəfəsini hiss etməyə başlayıb, bir az da ruhlanmışdı.

Qadın bilirdi ki, Əhmədiyyəyə verilən dərmanların nəinki xeyri olacaq, əksinə, onun vəziyyətini pisləşdirəcək və ölümcül vəziyyətə salacaq. Qadın Əhmədiyyəyə qoltuğunda xəlvəti çörək, dərman gətirərmiş. Lazaretə hərdən bir həkim gəlir, ona baş çəkir, əlinə nə gəlirdisə, verirdi. Janna Əhmədiyyəyə verilən dava-dərmanı qəbul etməyə qoymur, özü gətirdiklərini verərmiş. Əhmədiyyənin vəziyyəti get-gedə xeyli yaxşılaşır, lakin o bunu heç biruzə vermir.

Bir gün Madam Janna ona deyir ki, amerikanlar Atlantik sahillərinə qoşun toplayır və o, Əhmədiyyəni xilas edib amerikalılar tərəfə keçirmək istəyir.

Əhmədiyyə:

- Mən heç nə edə bilmərəm. Xəstəyəm. Məni tez də yaxalayar, bu dəfə heç aman vermədən güllələyərlər.

- Mən sənə kömək edəcəyəm, narahat olma.

Başqa çarəsi qalmadığından, onsuz da ölümlə üz-üzə olduğundan , o, dərhal razılaşdı.

Madam Janna düşərgə komendantının yanına yollandı. O, əhvalatı ona danışıb, Əhmədiyyənin rus olmadığını və oğlunun da müharibənin qurbanı olduğunu deyib xahiş etdi ki, tezliklə öləcək bu əsirin cəsədini ona versinlər ki, o da oğluna çox bənzəyən bu gənci oğlu kimi dəfn etsin.

- Siz əsl xristian kimi mən biçarənin bu xahişini, yəqin, yerinə yetirərsiniz, mənə rəhminiz gələr.

Komendant yumşaldı və ona razılıq verdi. Kağız parçasını yazıb, qol çəkdi və icra üçün əsgərə verdi.

Qadın geri dönüb Əhmədiyyəyə heç nə demədi.

1942-ci ilin son ayı olardı. Bir gün o, Əhmədiyyəyə dərman verdi. 20 dəqiqədən sonra Əhmədiyyə artıq özündə deyildi. Komendant Jannanı yanına çağırıb istədiyi 4167 nömrəli əsirin öldüyünü və artıq onun ixtiyarında olduğunu dedi. O, ölümü qeydə alan həkimi və bir zabiti yanına çağırıb ölüm faktını qeydə almağı və dəfn mərasimində iştirak etməyi tapşırdı. Həkim artıq hazır vəziyyətdə idi. Janna əvvəlcədən onu yedirib içirmişdi. Ayaq üstə güclə dayanırdı. Komendant buna görə onu danladı da. «Heyvan kimi içirsiniz, gedin, işinizi görün!» deyə, kobudcasına əmr etdi.

- Ölməyib, amma indi gəbərəcək - deyə, əli ilə torpağı göstərən həkim qəhqəhə çəkib güldü, - gedin, qəbrinizi qazın və onu basdırın, siz qazana qədər o, hazır olacaq.

Axşam çağı köhnə taxta parçalarından düzəldilmiş tabut hazır idi. Janna 3-4 fransızın müşayiəti ilə tabutu götürüb qəbiristanlığa apardılar. Alman zabiti tələsirdi:

- Şney, şney. Sizə sərf etməyə vaxtım yoxdur.

Tabutu qəbirə qoyan kimi, zabit maşınına minib çıxıb getdi. Madam Janna həyəcanla yanındakına dedi:

- Hər şeyi düz etmisinizmi? O, nəfəs ala biləcəkmi?

- Narahat olmayın, Madam Janna, tabut elədir ki, onun içində ölmək yox, deşiklərindən hava keçsə, soyuqdəyməyə tutulmaq olar. Əsas odur ki, alman zabiti rədd olub getdi.

Bir neçə saat sonra Əhmədiyyə gözlərini açanda, harada olduğunu heç özü də bilmirdi.

Qəfil Madam Jannanın siluetini gördü, dərhal tanıdı və nələrisə xatırlamaq istədi, alınmadı. Evdə başqa adamlar da var idi. Kimsə onun başı

üzərində idi. Başını onun sinəsinə qoyub sonra ayağa qalxdı.

- Narahat olmayın, madam, ürəyim lap təzə uşağın ürəyi kimi döyünür.

- Armed, ayıldın? – deyə, Madam Janna ona artıq «Əhmədiyyə» deyil, fransızsayağı «Armed» deyə müraciət etdi. Elə evdəkilər də onu «Armed» deyə çağırmağa, vəziyyətini soruşmağa, hal-əhval tutmağa başladılar. Əhmədiyyə heç nə anlamırdı.

- Mən hardayam, hara düşmüşəm? – deyə, soruşdu.

Madam Janna:

- Sənə dərman verdim, huşunu itirdin. Sən huşunu itirən kimi almanlara öldüyünü söylədim. Komendantdan xahiş etdim ki, oğlumun harada və necə öldüyünü bilmirəm, oğluma oxşadığını söylədim və səni dəfn etmək istədiyimi dedim. İcazə verdilər. Tabuta qoyub qəbiristanlığa gətirdilər, basdırdıq. Ertəsi gecə səni qəbirdən çıxarıb evə gətirdim. Bir sutkadır yatmısan. Qalx ayağa, vanna qəbul et, sənə təzə paltar verəcəyəm.

Yuyunub rahatlaşandan sonra onlar süfrə arxasına keçdilər. Madam Janna harada gizlənəcəyini ona anlatdı.

Beləcə, Əhmədiyyə həyatın qəribə təzadı ilə ikinci dəfə ölkəsindən, doğulub boya-başa çatdığı torpaqdan minlərlə kilometr uzaqda yerləşən bir qəbiristanlıqda ikinci dəfə dünyaya gəlmiş oldu. Amma onun qəbiristanlıq günləri hələ bitməmişdi.





# Qəbirdən evə qədər

Elə həmin gecə səhər saat 5-də evlərindən bir kilometr aralıda olan qəbiristanlığa getdilər.

Orada hazırlanmış təzə qəbiri Əhmədiyyəyə göstərdilər. Hazırlanmış qəbirə uzandı, tabutun üstünü taxta ilə örtüb torpaqladılar. Hava gəlmək üçün xüsusi boru qoydular. Hava işıqlaşanda, borudan qəbirə düşən işıqdan Əhmədiyyə günün başladığını anladı. Ac qalmaması üçün qəbrin içinə bir şüşə su, çörək, yağ, pendir, kolbasa qoymuşdular. Bircə nəfəs almaq çox çətin idi. Borudan işıq kəsiləndə, o, axşam çağının yetişdiyini bildi. Gecə gəlib onu evə apardılar. Yaxşı qulluq etdilər. Amma o, artıq dözə bilmirdi. Bir gün gecə yenə qəbirdən çıxanda dedi:
- Madam Janna, qəbirdə yatmaq əsirlikdən də pisdir.

Səhər açılanda, yenə diri-diri qəbirə gömüləcəyindən əhvalı heç də yaxşı deyildi. Onu hamama saldılar. Təzə paltar verdilər. Güzgü qarşısında dayanıb xeyli özünə tamaşa etdi. Nəhayət, ilk dəfə o, güzgü qarşısında nə qədər dəyişdiyini gördü. Nəyə görəsə əhvalı xeyli düzəlmişdi.

Madam Janna:

- Armed, alman jandarmları bütün evləri axtarış edirlər - deyə, onu



həyətdəki zirzəmiyə tərəf apardı.

Zirzəmi çaxır çəlləkləri, şüşə qablarla dolu idi. Madam Janna ondan ağac çəlləklərdən birinin içərisində gizlənməyi xahiş etdi.

- Armed, təvəqqe edirəm, zirzəminin işığı yanıb sönüb, yenidən yanmasa, çəlləkdən çıxma. Kimsə səslənsə, nə səs çıxarsa da, çəlləkdən nə çıx, nə də hay ver.

Madam Janna bu tapşırığı qızı Saraya da verərək evdən gedir. Gözləri ilə Jannanı xatırladan, gözləri də lap onun kimi kədərdən dərinləşmiş Saranın bu tapşırığı yadından tam çıxır. O, yeməyi gətirərkən işığı yandırıb-söndürmür, Əhmədiyyəni səsləməyə başlayır. Lakin Əhmədiyyədən səs çıxmır. Günorta yenə eyni səhnə təkrarlandı.

Yeməklərə baxdıqca, Əhmədiyyə köks ötürür, nəfsi keçir, amma vədinə xilaf çıxmaq istəmir. Axşama qədər ac qalsa da, qarşısında az qala onu indi məst edəcək yeməklərə əl vurmadı.

Saranı dəhşət bürüyür. Ona elə gəlir ki, Əhmədiyyə evlərindən çıxıb gedib. Lakin gedib anasına da bir söz deyə bilməzdi. Çünki Janna indi alman düşərgəsində otaqları silib-süpürməklə məşğul idi.

Axşam anası otağa girən kimi o, vəziyyəti ona nəql edir. Hər ikisi tələsik anbara gedirlər. Janna işığı yandırıb-söndürür. Əhmədiyyə çəlləklərdən birindən çıxır. Sara onu görüb soruşur:

- Siz burada idiniz?

- Bəli.

- Bəs mən sizi nə qədər çağırdım. Səsimə niyə səs vermədiniz?

- Siz gələndə mən ayaq səsləri eşidib çəlləklərdən birinin içinə girdim. Siz içəri daxil olanda, işığı yandırıb-söndürmədiniz. Ananız isə bunu parol kimi tapşırmışdı.

Qız qəfil ayılıbmış kimi, Əhmədiyyədən üzr istədi.

- Bəs yeməklərinizi niyə yeməmisiniz?

- İşıq yanıb-sönməyəndə, mən elə düşündüm ki, bu, tələ də ola bilər. Yeməyi yesəydim, təkrar qayıdıb, burada, ya da yaxınlıqda olduğumu bilərdilər.

- Ay aman, yəqin, indi acsınız.

- Dəhşətli dərəcədə. Bu cür yeməklərə baxa-baxa qalmaq əsirlik qədər zülmdür, - Əhmədiyyənin zarafatla dediyi sözlər Saranın çöhrəsini qıpqırmızı qızartdı.

Anası:

- Qızım, bir daha belə etmə. Bir qədər diqqətli ol. Yoxsa qonağımızı əsirlikdən qurtarıb aclıqdan öldürərik.

- Oldu, ana!

Jannanın Əhmədiyyəyə güvənci birəbeş artdı. Çünki Əhmədiyyə aşkar olunsaydı, bundan onun ailəsi də əziyyət çəkəcəkdi. Almanlar partizan axtarışı ilə evləri bir-bir gəzir, basqın etməkdən də çəkinmirdilər. Tutduqları partizanları və qaçmaq istəyən əsirləri dar ağacından asır, ev sahiblərini güllələyirdilər. Beləcə, Əhmədiyyə artıq qəbiristanlıqda deyil, səhərlər zirzəmidə, gecələr evdə rahat yataqda günlərini saymağa başlayır.

Madam Jannanın bir tapşırığı da var idi. Sara və Əhmədiyyə yalnız qapının döyülməsindən bilirdilər ki, gələn kimdir, təhlükə var, ya yox. Belə olanda, Əhmədiyyə tez şkafdakı gizli qapıdan keçib aşağı mərtəbəyə enir, oradakı otaqlardan birindən bağa, oradan da zirzəmiyə gedirdi.







Sara hər axşam ona fransız dilini öyrədirdi. «Anamla türk dilində danışmağınızı, onun sizinlə türk dilində necə coşğu ilə danışdığını görəndə, sizə həsəd aparıram. Siz anamın ömrünə ömür qatırsınız. Sizin diliniz fransızca ilə necə də səsləşir, uyğun gəlir» deyə, bu məşğələlər Saraya da xüsusi zövq verirdi.

Hər gün ona İkinci dünya müharibəsinin başlanması, Fransanın işğalı, azadlıq və müqavimət hərəkatı haqqında ətraflı məlumatlar verirdi.

1940-cı ildə Fransanı alman və italyan faşist ittifaqı birlikdə zəbt etmişdi. Həmin vaxt ölkədə «Vişi» faşistyönlü hökumət qurulmuşdu. Bu mənfur siyasətə qarşı olmaq, Fransanın azadlığını qaytarmaq uğrunda hərəkat da elə o vaxt yaranmışdı. Fransa Müqavimət Hərəkatı və Şarl de Qollun başçılığı ilə «Azad Fransa» (1942-ci ildən «Döyüşən Fransa») hərəkatı yaradıldı. «Azad Fransa»nın («la France Combattante») mərkəzi qərargahı müvəqqəti Londonda yerləşirdi. Qrup antifaşist koalisiyasına qoşuldu. 1944-cü ildə antifaşist ittifaqının təmsilçiləri Normandiyaya desant çıxaranda «Döyüşən Fransa»nın sıralarında 300 mindən artıq döyüşçü toplaşmışdı. Bu hərəkat 1944-cü ilin iyununda Parisin azad olunmasına çox az qalmış özünü Fransa Respublikasının müvəqqəti hökuməti elan etdi.

Bu hərəkat 1942-ci ildə SSRİ-yə bir qrup fransız təyyarəçisi də göndərmişdi. Onlar burada almanlara qarşı mübarizə aparmalı idilər. Bu xəbərə Əhmədiyyə böyük məmnuniyyətlə qulaq asdı. Həmin dəstə sonradan Fransaya Amerika desantı çıxarılanda «Normandiya-Neman» qrupu adlandırıldı.

Artıq əsirliyin ağrı-acısı, məşəqqətləri uzaqda olsa da, Əhmədiyyə get-gedə özünə rahatlıq tapa bilmirdi. O, hər bir qulluqla, naz-nemətlə əhatə olunduğu evin qapısının ağzında belə, müharibə getdiyi, vətəninin od alov-içində olduğu bir vaxtda dinclik, rahatlıq tapa bilməzdi. Xüsusən də fransız təyyarəçilərin SSRİ-nin işğaldan azad edilməsi uğrunda döyüşməsini eşidəndən sonra tezliklə özü də Fransa üçün müharibəyə atılmaqla, onların bu dostluq ismarıcına qarşılıqlı cavab vermək istəyirdi. İndi bu onun müqəddəs borcu idi. O, tez-tez Jannadan partizanlar haqqında soruşar, onlarla nə vaxt görüşə biləcəyi ilə maraqlanardı.

- Sən hələ özünə gəlməlisən, narahat olma, partizanlar qaçıb getməyəcəklər. Onlarla birlikdə hələ döyüşmək imkanın da olacaq. İndi sağalmalısan, özünə gəlməlisən, qüvvə toplamalısan deyə, Janna onu sakitləşdirərdi.

Sara onu fikirlərdən ayırmaq üçün tez-tez cəbhələrdən məlumat gətirərdi. Almanların cəbhə bölgələrində itkiləri çoxalmışdı, elə Montobanda Əhmədiyyənin qəbri olan qəbiristanlıqda da hər gün alman əsgərlərini dəfn edirdilər. Sara da hər gün ona fransız qəzetlərini gətirərdi. Bir gün eşitdi ki, Qızıl ordu hissələri Stalinqrad uğrunda döyüşlərdə böyük qələbə əldə ediblər. Həmin gün onun üçün böyük qələbə günü oldu.





# Partizanlarla ilk görüş

1943-cü ilin yanvar ayının əvvəli idi. Bir gecə Madam Janna üst mərtəbədəki otağın qapısını döydü: bu, Əhmədiyyəyə «içəri gəl» demək idi. Əhmədiyyə təəccüblənir: «Görəsən, bu, niyə belə edir?». Əhmədiyyə təəccüb və müəmma içində otağa daxil olanda, duruxur. Burada naməlum dörd nəfər oturmuşdu.

Onlar Əhmədiyyəni görən kimi ayağa qalxdılar. Qarşısındakılardan biri velvet şalvarda, uzun qalın corablarda, uzunboğaz ikiqat altlığı olan çəkmədə idi. Onun əynindəki alman zabitinin geyimi Əhmədiyyəni çaşdırsa da, başa düşmüşdü ki, qarşısındakı alman zabiti deyil. Bunun geyimində bir qədər fərqlilik var.

Onlar Əhmədiyyə ilə çox səmimiyyətlə görüşdülər. Əhmədiyyə hələ də nə baş verdiyini bilməsə də, bir qədər sakitləşdi. Oturdu.

Həmin alman zabitinin pencəyində olan adamın cibində iri nəsə var idi. Əhmədiyyə təxmin etmişdi ki, bu, tapançadır. «Görünür, hər nədirsə, təzə, iri tapançadır» deyə, öz-özünə düşündü.

- Tanış olun, partizanların kapitanı Dümadır – deyə, Madam Janna onu təqdim etdi.

Madam Janna Əhmədiyyəyə anlatdı ki, bu adamlar Fransada yeni təşkil edilmiş gizli partizan dəstələrindən birinin nümayəndələridir və Əhmədiyyə ilə bağlı hər şeyi bilirlər. Madam Janna onları təqdim etdi. Gələnlər arasında dəstə başçısı kapitan Delplonla yanaşı, (onu «Düma» deyə çağırırdılar) Rene, Pınar, Piter var idi. Jannanın dediyinə görə, dəstə Fransada adlı-sanlı cəngavər, qorxmaz, qırıcı dəstə sayılırdı.

Onlar Əhmədiyyə ilə hal-əhval etdilər, onun vəziyyəti, səhhəti ilə maraqlandılar.

- Adınız nədir? Deyirlər, yaman döyüşmək istəyirsiniz...

- Mən Əhmədiyyə Mikayıl oğlu Cəbrayılovam - deyə, Əhmədiyyə özündən, tutduğu vəzifədən söhbət açdı.

Onun adı qonağa o qədər çətin gəldi ki, tələffüz edə də bilmirdi.

- Yox, sizin adınız çox mürəkkəbdir. Sizə «Armed Mişel» deyəcəyik. Etiraz etmirsiniz ki?

Əhmədiyyənin gözləri işıldadı. Onun cavabı da olmadan artıq hər şey aydın idi.

- Hazır olun, bizdə sizin üçün kifayət qədər çox iş tapılacaq.

Sonra bir qədər oradan-buradan, keçmişdən-gələcəkdən danışdılar.

Qonaqlar artıq bilirdilər ki, o, Sovet ordusunun komandiridir. Rus ordusunda təyyarəçilik məktəbini



bitirdiyini, baş leytenant olduğunu deyəndə, həmin adamlar bir-birinə nə isə pıçıldaşıb, gülümsədilər.

Kapitan Əhmədiyyəyə hədiyyə və ehtiram əlaməti olaraq cibində saxladığı həmin tapançanı bağışladı. Bu, Polşa istehsalı olan «P-35» tapançası idi.

Onlar tez-tez Madam Jannadan nəsə soruşurdular, Əhmədiyyə başa düşürdü ki, onun haqqında danışırlar. Söhbət bir xeyli çəkdi, sonra qonaqlar vidalaşıb, ayrıldılar.

Ertəsi axşam çağı Madam Janna evə iki qadınla gəldi. Əhmədiyyəni onlarla tanış etdi:

- Bu, madmuazel Maria, bu isə madmuazel Jüaledir. Onlar sənə fransız dilini öyrədəcəklər.

Həmin gündən bu xanımlar hər gün onlara baş çəkir, evdə yalnız fransızca danışırdılar. Nəyisə düz söyləmədikdə, bir sözü 5-10 dəfə təkrarlatdırırdılar. Onlar fransız dilini ona ən qısa vaxtda öyrətməyə çalışırdılar. Sonra evə tez-tez başqa qonaqlar da gəlməyə başladılar. Hamısı onunla yalnız fransızca söhbət edir və Əhmədiyyədən də fikrini fransızca anlatmağa cəhd göstərməyi xahiş edirdilər. Çünki yalnız ünsiyyətlə o, fransızcanı ən qısa vaxtda mənimsəyə bilərdi. Evə gələnlərdən birini o, artıq tanıyırdı. Bu, kapitanla birgə onu ziyarət etmiş Pınar idi və sənəti həkimlik imiş. O, Əhmədiyyəni tez sağaltmaq üçün evə tez-tez baş çəkir, hər gün müayinə edir, səhhətini nəzarət altında saxlayırdı.

Bir aydan bir az artıq vaxt keçdi. 1943-cü ilin fevral ayının sonları idi. Bir dəfə artıq yaxından tanıyıb ünsiyyət qurduğu partizanlar Düma, Rene, Piter onlara qonaq gəldilər. Üç gün Madam Jannanın evində qonaq qaldılar. Günləri xoş söhbətlərdə,





məzəli məclislərdə şən keçdi. Amma Əhmədiyyə hələ də Madam Jannanın evində idi. Səbri tükənməyə başlamışdı. Axı hər tərəfindən müharibənin səsi gəlir, ətrafda hamı bu və ya başqa formada müharibə iştirakçısıdır. Bircə o – Əhmədiyyə Cəbrayılov döyüş meydanlarından, cəbhədən kənardır.

Bunu evdəkilər də hiss edirdilər.

Bir gecə maşın səsi gəldi. Ehtiyatı əldən verməmək üçün gecələr bu səslərə daha həssas yanaşırdılar. Maşın sanki qapının ağzında dayandı. Əhmədiyyə ehtiyatı əldən verməyib gizləndi. Qapı döyüldü. İçəri daxil olan Madmuazel Jüale idi. Onunla bir nəfər də gəlmişdi. Jüale qəmli görünürdü. Amma otaqda olanlar təşvişə düşməmiş o, hamını məsələdən agah etdi. Üzündə kədər, gözündə yaşı gizlətməyə çalışaraq, Jüale əlindəki kağızı Madam Jannaya uzatdı:

- Armed Mişelin getmək məqamı yetişib. Onunla vidalaşmalıyıq. Armed, tanış olun, bu, Bessekdir. Siz onunla gedəcəksiniz.

Ayrılıq məqamı həqiqətən yetişmişdi. Ortaya qəribə nisgilli ab-hava çökmüşdü. Qadınlar Əhmədiyyə ilə görüşüb vidalaşdılar. Heç biri ondan ayrılmaq istəmir, boynuna sarılıb için-için ağlayırdılar.

## Partizan dəstəsində

O, partizanlarla da görüşüb ayrıldı. Maşına minib Besseklə yola düşdü. Çox keçmədi, şəhər kənarına çıxdılar. Yolda alman postu qurulmuşdu. Bessek ona əsgəri nişan almaq lazım olduğunu dedi və oturacağın altından avtomatı çıxarıb Əhmədiyyəyə uzatdı. Posta çatarçatmaz maşının sürətini aşağı saldı. Əhmədiyyə avtomatın ucunu pəncərədən çıxarıb əsgəri nişan aldı və atəş açdı.

Bessek dərhal maşının sürətini artırdı. Onlar qarşıya çıxan küçələrdən birinə döndülər. Sürücü maşının işığını söndürdü, beləcə darısqal küçələrlə xeyli yol getdilər. Nəhayət, bir dağın ətəyinə çatdılar.

Bessek maşından işıq verib yenə söndürdü. Əks tərəfdən ona qırmızı işıq yandırdılar. Bu, parol idi.

Bessek maşını sürüb bir kilsənin qarşısında saxladı.

- Narahat olma, bura partizanların görüş yeridir - deyə, Bessek müəmma içində olan Əhmədiyyəyə toxtaqlıq verdi.

1943-cü il mayın 22-si idi.

Müharibə illərində Fransada 30-dək Sovet partizan dəstələri fəaliyyət göstərib. Onların cərgələrində 25 minədək Sovet vətəndaşı olub. Əhmədiyyə bu 25 mindən biri olmalı idi.

Kaberta partizan dəstəsi Əhmədiyyənin Fransa qəhrəmanlığının başladığı ilk düşərgə oldu. Maşından düşüb içəri daxil oldular. Kilsə gözəl idi. Orada 25-ə qədər partizan toplaşmışdı. Onu səmimiyyətlə qarşıladılar. Kilsə sahibi keşiş Lo da partizanlardan biri idi. Ancaq şəhərdə bunu bilən yox idi. Sakinlər onu yalnız ibadətlə məşğul olan keşiş kimi tanıyırdılar. Gecəni partizanlarla birgə kilsənin həyətində keçirdi. Yeyib içdilər, bir az söhbət etdilər, sonra ot tayasının üstündə yatdılar. Səhər kilsədə təmizlik işləri









aparıb meşəyə çəkildilər. Beləcə, daha 8 gün keçdi. Partizanlar bir-bir gəlib gedirdilər. Yalnız o bu 8 günü keşişin yanında qaldı.

Əhmədiyyə hiss edirdi ki, ona münasibət heç də gözlədiyi kimi deyil. Kimi soyuq yanaşır, kimi lap düşmən gözü ilə baxır, kimi hərdən söz atır – bir sözlə, Əhmədiyyə başa düşmüşdü ki, ona inanmır, ona güvənmir, ona etibar etmirlər. İlk əvvəl, bu münasibət Əhmədiyyəyə çox toxundu. Bu qədər əzab-əziyyətdən sonra o özünü təsdiqləməli, doğrultmalı idi. Əhmədiyyə sonralar həmin günləri belə xatırlayırdı:

- Mənə çox ağır gəlirdi ki, onlar azərbaycanlıların kim olduğunu bilmirdilər, bilmirdilər ki, bu xalqda heç vaxt dosta xəyanət olmayıb, bu xalqın qəhrəmanları dünyanın böyük şücaət sahibləri arasında belə, seçilə bilərlər.

Amma dözmək lazım idi. İlk əvvəl, onu kiçik əməliyyatlara aparırdılar. Yanında, əsasən, təcrübəsizlər olurdu. Buna görə hər dəfə Əhmədiyyə onlara nəyisə başa salmalı, döyüş texnikasını öyrətməli, bəzi kəşfiyyatçı məsləhətləri ilə həm onları, həm də öz həyatını təhlükədən qorumaq məcburiyyətində qalırdı. Hər əməliyyatda onu bir neçə kilometr önə göndərirdilər ki, onları satsa, tez də geri çəkilə bilsinlər.

Əhmədiyyə kənddə bir ağacın altına çəkilər, saatlarla ağaclarla danışarmış. Ona doyunca yemək də vermirlərmiş. Bir gün partizanlardan bir neçəsi ona yaxınlaşıb, səmimi söhbət etməyə başlayırlar. Sonra meşədə ziyafətə dəvət edirlər. Əhmədiyyə onlara qoşulub gedir. Onlar Əhmədiyyəyə bir alman zabitinin meyitini göstərib «doyunca ye», deyirlər. Əhmədiyyə «mən vəhşi deyiləm» deyəndə, partizanlardan biri «bəs deyilənə görə, siz adam əti də yeyirsiniz» deyir, və partizanlar gülüşməyə başlayırlar.

Beləcə, Əhmədiyyə partizanların təhqir dolu münasibətinə də dözməli oldu.

Bir gün səhər ertədən eşitdi ki, axşama toplanmaq əmri verilib və bütün dəstə kilsədə yığışacaq. Axşam düşdü. Deyilən vaxtda hamı artıq kilsədə idi. Deyəsən, kilsədə ziyafət verilirdi. Hər halda Əhmədiyyə məclisin gedişindən belə hiss etdi.

Keşiş ona xüsusi diqqət göstərirdi. Partizanlar tez-tez rus zabitinin – Əhmədiyyənin sağlığına içdilər. Qonaqlıqdan sonra partizanlar onu özləri ilə kəndə apardılar. Ziyafət burada da davam etdi. Əhmədiyyənin sağlığına badələr qaldırıldı.

Axırda birinci korpusun rəisi Delplon və onu daim müşayiət edənlər badələrini qaldırdılar ayağa qalxdılar.

Delplon:

- Qana-qan, intiqam. Vətən azadlığı uğrunda rus qardaşlarımız da bizimlədir - deyən kimi Əhmədiyyə də ixtiyarsız ayağa qalxdı. Bunu

gözləyirmiş kimi bütün məclis əhli bir an içində artıq ayaq üstə idi. Hamı badəni birnəfəsə boşaltdı.

Əhmədiyyə onlarla qalası idi. Bu həm onun, həm də Madam Jannanın ailəsinin təhlükəsizliyi üçün vacib idi. Madam Jannanın onu «Armed» deyə çağırması burada da bir qaydaya çevrildi. Əhmədiyyə Mikayıl oğlu olduğundan ona «Armed Mişel» və ya «Mişel Armed» də deyirdilər. Əhmədiyyə buna heç etiraz etmirdi də. Axı bu, həm də fransız partizanlarının onu özlərinə yaxın, doğma saymasının göstəricisi idi.

«Sovet vətənim qarşısında borcumu yerinə yetirərək, eyni zamanda söz verirəm ki, fransız xalqının maraqlarına şərəf və ləyaqətlə xidmət edəcəyəm. Bütün qüvvəmlə fransız qardaşlarımı ümumi düşmən – alman işğalçıları ilə mübarizəsində dəstəkləyəcəyəm» - həmin gecə bütün dəstənin qarşısında Əhmədiyyə bu andı içdi.

- Bundan sonra bütün əməliyyatları Rus Əhmədin iştirakı ilə hazırlayın. Onun sözlərinə diqqət edin, - deyə, gedəndə Delplon müavini Bessekə xüsusi tapşırıq və tövsiyəsini çatdırdı.

Əhmədiyyə elə ilk əməliyyatdan partizanların dillər əzbəri olacaq ifadəni dəbə saldı. Hər dəfə əməliyyata gedəndə o, «Bizi şən xatırlayın» deyərdi.

Beləcə, Əhmədiyyə Tarn və Qaronn departamentinin frantiyerlər korpusunun 4-cü eskadronunun döyüşçüsünə çevrildi. Onun döyüş həyatına qayıdışı – çoxdan, sanki bir ömür qədər gözlədiyi bu gün yetişmişdi.

Tarn və Qaronn Fransanın cənub-qərbində departamentlərdən biridir. Əyalət adını hər iki sahilində yerləşdiyi Tarn və Qaronn çaylarından götürüb. Bu əyalət 1808-ci il noyabrın 4-də Birinci Fransa İmperiyası dövründə 1-ci Napoleonun əmri ilə yaradılıb. Ərazisinin çoxu Montaban və Mussa lotlarından götürülüb. Üçdə birini isə Yuxarı Qaronn təşkil edir. Qalan hissələri Jer və Aveyrondan alınıb.

Günlər keçir, Əhmədiyyə bu ərazilərə uyğunlaşmağa çalışır. Onun təbiətini öyrənir. Coğrafi quruluşu haqqında məlumat toplayır, əhalisinin məşğuliyyəti və maraqları, insanların xüsusiyyətlərini mənimsəməyə çalışırdı. Dəstədə isə yeni dostlarına uyğunlaşır, onlarla get-gedə daha sıx ünsiyyət qururdu. Amma vaxt ötdükcə artıq ona əziz olan Madam Janna və qızı Sara üçün darıxmağa başlamışdı.

Bir dəfə partizanlara Madam Jannanı görmək istədiyini dedi. Onlar məmnuniyyətlə ən yaxın vaxtda onları görüşdürəcəklərini söylədilər. Tezliklə o, Madam Jannanın evini ziyarət etdi. Janna onu çoxdandır görmədiyi əzizi kimi hərarətlə qarşıladı. Onun üzərinə atılaraq bağrına basdı, əzizlədi, gözlərindən xəfif yaş da axırdı. O, partizanlar məsləhət görəndə, Madam Jannanı ziyarət etməyə başladı.

Daha 2 ay keçdi. Bir gün Madam Janna qızları və bir dəstə adamla Əhmədiyyənin partizanlarla qaldığı kəndə gəldi. Əhmədiyyəni görər-görməz «oğlum» deyə, yeyin addımlarla ona sarı irəlilədi. Əhmədiyyə də Jannaya tərəf atıldı. Onlar bir-birini bərk-bərk qucaqlayıb bağrına basdılar.





# İlk əməliyyatlarda

Yenə günlər keçdi. Artıq Əhmədiyyə də onlardan biri olduğunu hiss etməyə başlamışdı. O, kimlərin arasına düşdüyünü özü də dəqiq müəyyənləşdirmişdi. Fransanın qırıcı-dağıdıcı dəstəsi, qorxmaz partizanlar korpusu sayılan Birinci "Tarn et Garonne" partizan korpusunun rəisi Delplonun və ən qoçaq partizan, leytenant Bessekin adları bütün Fransada məşhur idi. Onların adı çəkiləndə çoxmillətli alman ordusunun general və zabit heyəti vəlvələyə düşürdü. Kapitan Dümanın özəlliklərindən biri qətiyyəti, digəri düşmən üzərinə qəfil və cəsarətli hücumlar etməsi, üçüncüsü, döyüş fəaliyyəti rayonlarını sürətlə dəyişmək bacarığı idi. Məsələn, dəstə körpünü partladıb, dərhal başqa rayonda məskunlaşırdı, sanki bu işdə heç əlləri də ola bilməzdi. Və ya qəfil hücumla bir eşalon düşmən ordusunu qırıb dərhal da onlarla kilometri birnəfəsə qət edib yoxa çıxırdılar. Onun dəstəsinin ən böyük özəlliyi də bundan qaynaqlanırdı: ən təhlükəli və vacib əməliyyatları onlara tapşırırdılar. Ən nəhayət, bu dəstə alman geyimlərində hərəkət edir, alman silahları daşıyırdı. Əlbəttə, onların hamısı hücumlarda əldə olunmuş qənimətlər idi. Bir sözlə, bu dəstədə həqiqətən də vuruşmağı bacaran qoçaq, qorxmaz döyüşçülər toplaşmışdılar. Əhmədiyyə də onlardan biri olmalı idi.

Fransada Müqavimət Hərəkatı (fransızca - «Résistance») 1940-cı ildə yarandı və dərhal da dili, dini, irqi, əqidəsindən asılı olmayaraq, bu ölkənin azadlığını sevən hər bir kəsi ətrafına topladı. Bu hərəkat bir neçə iri qruplaşmadan ibarət idi. Onun əsas qüvvəsini Şarl de Qollun başçılıq etdi «Döyüşən Fransa» təşkil edirdi. Burada «İspan partizanları», «Yəhudi döyüşçü təşkilatı», «Vişi-müqavimət», «Taras Şevçenko adına 2-ci Ukrayna batalyonu», «Komba», «Liberasyon-Süd» də var idi. Onlar arasında Fran-tiryerlər də xüsusi çəkisi ilə fərqlənirdi. Fransızca «Le Franc-Tireur» Azərbaycan dilinə «Azad atıcı» kimi tərcümə olunur. O vaxta qədər «azad atıcılar»ın əsas hərəkət dairəsi Fransanın cənubu idi. Onlar əsasən, Lion, Limoj, Klermon-Ferranda fəaliyyət göstərirdilər. Əsas işi ilk əvvəl kəşfiyyat və mətbu təbliğat idi. Təşkilatın adı 1870-1871-ci illərdə Fransa-Prussiya müharibəsi zamanı fəaliyyətdə olmuş «azad atıcılar»dan götürmüşdü. 1943-cü ildə o, «Komba» (fransızca – «Combat») və «Liberasyon-Süd» (fransızca – «Libération-Sud») təşkilatları ilə «Milli Müqavimət Şurası»nı



(fransızca – «Conseil national de la Résistance») yaradaraq böyük partizan ordusuna çevrildi. Elə bu vaxt da Əhmədiyyə onların cərgəsinə qoşulmuşdu.

Dəstəyə qoşulduğu gün ona alman feldfebelinin paltarını verəndə də, dəstə yoldaşlarından biri Şampanidən dəstəyə qoşulmuş qocaman şərab istehsalçısı Fransua zarafatla dedi:

- Bax ha, əlinə silah alan kimi səni alman feldfebeli etdik. Zarafat deyil ha, bu gedişlə tezliklə general rütbəsi də ala bilərsən.

Nəhayət, bunu sübut etmək məqamı da yetişdi.

1943-cü ilin iyun ayı idi. Bir gün əsl adı Delplon olan kapitan Düma bütün partizanları yığaraq dedi:

- Bu gündən Armed Mişeli «Xarqo» deyə çağırın.

Ümumiyyətlə, Əhmədiyyə Fransada müxtəlif adlar, ləqəblər, ayamalar qazandı. Ona «Fraji», «Qoçaq», «Rus Armed», «Rus Ahmed» də deyirdilər.

Sonra o, bir az ara verib ətrafı süzdü və üzünü Əhmədiyyəyə tutub sözünə davam etdi:

- Xarqo, sənin təxribatçı partlayış işindən, minalamadan anlayışın var?

- Bir az tanışam - deyə, Əhmədiyyə bir qədər utancaqlıqla cavab verdi.

- Sənə ətraf əraziləri də öyrənmək lazımdır. Ona görə də bu tapşırıqda həlledici rol sənə həvalə olunur. Çalış, hər tərəfi öyrənəsən.

Bu, Əhmədiyyənin ilk böyük tapşırığı idi. Hələ bu az imiş kimi, elə birinci tapşırıqdan Delplonun dəstəyə rəhbərliyi Əhmədiyyəyə həvalə etməsi böyük məsuliyyətdən xəbər verirdi.

Əməliyyat planı ən xırda detallarına qədər işləndi və dəfələrlə təkrarlanıb, nəzərdən keçirildi. Partlayıcıların hamısı hazırlanıb yoxlanıldı.

O və daha dörd nəfərlə meşənin dərinliyinə üz tutdular. Kəndlərdən keçəndə, yollarının üstündə evlərdə





yaşayan, qarşılarına çıxan alman əsgər və zabitlərini öldürüb silahları özləri ilə götürürdülər. Əhmədiyyə hiss etmişdi ki, ona tapşırılan bu uşaqlar bir az xamdırlar. Amma heç biri onun sözündən çıxmır, tapşırıqlarını dinməzcə yerinə yetirirdilər.

Yol boyu o, tabeliyində olanlara özlərini necə aparmalı olduqlarını, xüsusi hallarda silahla necə davranmalı olduqlarını anlatmağa başladı. Gedəndə avtomat və ya hər iki əlində tapança hazır vəziyyətdə olmalıdır. Yerli əhali tanımasın deyə, üzlərinə qara parçadan torba kimi örtük də çəkmişdilər, ayaqlarına dəri çəkmə, əyinlərinə kəndli pencəyi geyinmişdilər, başlarına şlyapa qoymuşdular.

Bu minvalla Xarqo bir neçə əməliyyatda iştirak etdi. Bunun sayəsində ətraf kəndləri də yaxşı öyrənə bilmişdi.

Get-gedə partizanlara qoşulan əhalinin sayı artdı. Tezliklə Əhmədiyyənin dəstəsi 120 nəfərə çatdı. Onlar şəhər və kəndlərdə almanlara xidmət edənləri gecəliklə oğurlayırdılar. Gündən-günə onun tapşırıqlarının sayı artırdı. Xarqo daimi çöllərdə, dağlarda, meşədə, yağışda qaldığından, müqaviməti hələ zəif idi. Amma heç nədən şikayət etmirdi. Bir gün o, yenə xəstələndi.

Leytenant Bessek tanış bir kəndli partizanın evinin çardağında ona yer düzəltdirdi. Həkim gətirdilər. Evin sakinlərindən 15 yaşlı oğlan, 13-16 yaşlarında iki qız və qonşuluqda yaşayan 17 yaşlı bir qız gecəgündüz ona qulluq edirdilər. Xarqo artıq fransız dilində kifayət qədər inamla danışırdı. Hərdən səhv söz işlədəndə, ona düzəliş verirdilər. Tezliklə bütün kəndə yayıldı ki, partizanlara qoşulmuş Xarqo adlı rus əsgəri evdə gizlənib. Ona baş çəkənlərin sayı beləcə artdı. Onun haqqında şayiələr də gəzməyə başlamışdı. Kənddə deyirdilər ki, ruslar fransızlara kömək üçün komandir göndəriblər.



Fransızlar Xarqo adına çox böyük hörmətlə yanaşırdılar. Onun hər bir tapşırığı, hər bir sözünə, istəyinə sözsüz əməl edirdilər. Çox keçmədi, kəndlilərin köməyi sayəsində Əhmədiyyə ayağa qalxdı və yenidən partizan yoldaşlarına qoşuldu.

Partizanların arasında elələri var idi ki, almanların qərargahında xidmət göstərir, biri katibə, digəri qulluqçu işləyirdi. Dəmir yolunda işləyənlər də var idi. Onlar tez-tez məlumat gətirir, partizanlara kömək edirdilər. Artıq onların məlumatları əsasında qurulan əməliyyatların ən təhlükəliləri bir təcrübəli zabit kimi Əhmədiyyəyə tapşırılırdı. Xarqonun bacarığı, məharəti artıq dilləri dolaşmağa başlamışdı. Onun adı gələndə tapşırığa yollanmaq istəyənlərin sayı artırdı.

Bütün bunlar o qədər sürətli baş verdi ki, cəmi iki aydan sonra avqustun ortalarında onlar İspaniya sərhədlərinə qədər irəliləyə bilmişdilər. Dəstə Fransanın Tarn şəhərindən dağlara yetişmişdi. Qərargah həmişəki kimi, meşədə quruldu. Xarqo artıq qərargah bürosunun üzvü idi.





# Ölümdən bir az bu yana

Bir gün alman qərargahında işləyən Süzanna adlı partizan qadın onlara xəbər gətirmişdi.

Düma bütün rəhbərləri başına topladı.

- Bizim dəstəyə Tuluza və Bordo arasındakı magistral yolun üstündəki dəmir yolu körpüsünü partlatmaq tapşırılıb. Onu partlada bilsək, boşlar (Fransada vətən xainlərinə belə ad qoymuşdular – *müəl.*) Aralıq dənizi istiqamətində ən böyük müdafiə səddi olan bəndin tikintisini başa vurmaq imkanından məhrum olacaqlar. Bununla həm də Atlantik okeanına çıxış üçün daha bir şansı qaçıracaqlar. Bu isə müttəfiqlərə həmin ərazilərə qoşun çıxarmağa kömək edəcək, düşmənlərin isə ora qoşun, texnika atmasının qarşısını alacaq. Bax, belə - deyə, bir qədər ara verib xəritəni süzdükdən sonra əlini



çənəsinə sürtüb Düma sözünə davam etdi, - Xarqo, sən bütün qrupa rəhbərlik edəcəksən. Mən özüm də tapşırığın yerinə yetirilməsində iştirak edəcəyəm. Amma başçı istənilən halda sən olacaqsan.

O, bir qədər də fikirləşdikdən sonra yenidən üzünü Əhmədiyyəyə tutdu:

- 10 partizan götür, Bordoya gələn hərbi sursat dolu qatarı nəyin bahasına olursa-olsun, məhv et. Qatarı Tarn şəhərinin şimal-qərbində yerləşən körpüyə çatanda partlatmalısınız.

Bələdçilər dəstəni naməlum körpüyə səhərə yaxın saat 4-5 arası çatdırdılar. Gecəyə qorxu ab-havası hakim kəsilmişdi. Aydın sezilirdi ki, tezliklə ildırım gurlayacaq, şimşək çaxacaq. Səhərə yaxın idi. Amma hələ göz-gözü görmürdü. Kənd yuxuda idi. Ətrafa sakitlik hakim kəsilmişdi. Amma ehtiyatı əldən vermək olmazdı. Xarqo partizanları iki-iki bölərək bir-birinə yaxın məsafədə postlar qurdu. Onu elə yerləşdirdi ki, partizanlar pulemyot və avtomatlardan atəş açanda hədəfi dəqiq nişan ala bilsinlər, qumbaraları dəqiq yerinə atsınlar. Leytenant Bessekin qardaşı Arbeti özü ilə götürdü.

Hava çox qaranlıq idi, üstəlik, yağış başladı, sonra bərkidi. Havanın belə olması onların karına gəlirdi. Ətrafı bürüyən zülmətdə onlar rahat hərəkət edə bilərdilər. Lakin tez-tez çaxan ildırım maneə törədirdi. Bu üzdən onlar sürünə-sürünə dəmir yoluna yaxınlaşdılar. Tezliklə gecə aydınlaşdı. Səma ulduzlara büründü, ay işığı ətrafı elə aydınlatmışdı ki, elə bil, günün-günorta çağıdır. Onun şüaları artıq su içində olan torpağı da işıldadırdı.

Bir problem yaranmışdı. Gözətçi əsgəri aradan götürmək lazım idi. Əhmədiyyə sürünə-sürünə öz mövqeyindən çıxıb kapitana sarı gəldi. Uzun müddət onu razı salmağa çalışıb planının icrasına izn istədi. Nəhayət, inadı qalib gəldi, o, istəyinə çatdı, həm də kapitanın başqa çarəsi qalmırdı. Tezliklə buradan qatar keçəcəkdi.

Yerindən ayağa qalxıb feldfebel köynəyini dartışdırdı. Silahını və baş geyimini düzəldib, irəliləməyə başladı. Hərdən sərxoşcasına hərəkətlər edir, gah dodaqlatı mahnı mızıldayır, gah söyür, gah deyinir, səngiyir, ayağa qalxıb yeriyirdi.

O, addımbaaddım gözətçiyə yaxınlaşırdı. Birdən növbətçi əsgərin «Halt, halt» səsi eşidildi. O, qarşısında feldfebeli görüncə lap çaşıb qaldı. Əhmədiyyə sərxoşluğundan istifadə edib səndələyə-səndələyə özünü əsgərin üzərinə atdı. Hər ikisi yerə yıxıldılar. Amma əsgərdən nəfəs çıxmırdı. Böyrünə sancılmış bıçaq yerindən qan fışqırırdı.

Bunu görüncə daha bir dəstə körpünün əks istqamətində gözətçini aradan götürmək üçün yollandı. Xarqo əlindəki qarmaqla minaya yer hazırladı.

Amma almanlar da duyuq düşmüşdülər. Güllələr onların üzərindən yağış kimi yağırdı. Partizan yoldaşları «Xarqo» deyə, səsləməyə başladılar. Sən demə, Əhmədiyyə onlardan aralanan kimi hamısı bir yerə yığışıbmış. İldırımın işığında alman patrulu onları görüb və atəş açmağa başlayıb. Partizanlar qışqırdıqca almanlar atəşi daha da gücləndirirdilər.





Xarqo isə Arbetlə körpünün lap altında gizlənmişdilər.

Arbet vəziyyətin çıxılmaz olduğunu düşünüb, əli ilə geri dönməyin zamanı olduğunu işarə etdi. Lakin Xarqo, elə həmin qaydada, əl hərəkəti ilə başa saldı ki, ölmək var, dönmək yoxdur.

«İstəyirsən, sən get» deyə dodaqaltı ifadə işlədərək Xarqo əli ilə ona uzaqlaşmağı təklif edəndə, Arbet başı ilə qətiyyətli işarəsini verdi. Atışma bir yandan da onların köməyinə çatmışdı. Çünki bu şəraitdə onlar diqqətdən yayına bilərdilər. Beləcə, körpünün tağı ilə qalxıb minanı dəmir yolu relsinin altına qoydular və körpünün əks tərəfindən kənara çəkildilər. Artıq atışma onlardan kənarda davam edirdi. Partizanlar atışa-atışa geri çəkilmək məcburiyyətində qaldılar. Xarqo isə Arbetlə körpüdən təqribən 300 metr aralanıb, hündür ağaclardan birinə dırmandılar və qatarı gözləməyə başladılar. Arbet yenə ondan yola çıxmağı xahiş etdi:

- Tapşırıq artıq yerinə yetirilib. Gün çıxanda ağacdan enib hərəkət etmək mümkün olmayacaq. Almanlar da duyuq düşüblər. Körpünü tam nəzarətdə saxlayacaqlar. Onu mühasirəyə alacaqlar.

Xarqo:

- Körpü partladılmalıdır. Başqa çarəmiz yoxdur. Körpü partlamasa, hansı üzlə geri dönəcəyik? Buna haqqımız çatmır. Bizə tapşırılıb nəyin bahasına olursa-olsun, bu işi görməliyik, - deyə, Xarqo dərindən köks ötürdü və əlavə etdi - Hələ heç bilmirik, partizan yoldaşlarımız sağdırmı? Onların da əziyyətini hədər verə bilmərik.

Arbet soruşdu:

- Yaxşı, körpü partlamasa, nə edəcəyik?

- Dua et ki, partlasın. Sonrası həyatımızı qurban vermək olacaq.

20 dəqiqə keçdi. Uzaqda qatar göründü, Xarqo həyəcan içində səbirsizliklə nəyin baş verəcəyini gözləyir, sanki gözü ilə körpünü yeyir, yoldaşı isə hey dua edirdi.

Qatar körpüyə çatdı və elə ilk metrləri saymışdı ki, qəfil gurultu aləmi bürüdü. Qatar körpü ilə birlikdə göyə sovruldu. Dəmir qalıqları gurultu ilə çaya töküldü. Gözlərində təşviş sevinci ilə Albert onu qucaqlayıb kövrəldi. Tapşırıq yerinə yetirilmişdi.

Onlar tanımadıqları meşənin içində kol-kosa ilişə-ilişə yola düzəldilər. Kiçik bir kəndə yetişdilər. Amma buranın hara, necə bir yer olduğunu, sakinlərinin əhvalını bilmirdilər. Risk edib hansı qapını döymək lazım olduğunu da bilmirdilər.

Pusqu qurulmuş kimi, bir yerdə daldalanıb gözləməyə başladılar. Evlərdən birindən yarıçılpaq bir cavan oğlan onlar olan istiqamətdə addımlağa başladı. Yaxınlaşar-yaxınlaşmaz arxadan onu qucaqlayıb, ağzını tutdular, sonra tapançanı alnına dirəyib səsini çıxarmamağı tapşırdılar:

- Səsini çıxarsan, gülləni beyninə sıxaram. Sən bizə yol göstərəcəksən.

Arbet həmin adama Əhmədiyyəni göstərib:

- Rus kommunistidir, yol göstərməsən, heç düşünmədən səni öldürəcək.

Sonra onu sorğu-suala tutub evini xəbər aldı. Komada kiminsə olmadığını biləndən sonra oğlanı Əhmədiyyəyə həvalə edib, evə sarı yollandı. Oradan onun üçün paltarlarını alıb gətirdi. Oğlanı geyindirib,

qollarını dala bağlayıb qabaqlarına qatdılar. Yol boyu girov götürdükləri cavan partizanlara rəğbətini nə qədər ifadə etsə də, ona inanan olmadı. Həqiqətən də o, Əhmədiyyə ilə yoldaşını ən münasib yolla apardı, qarşılarına bir ins-cins də çıxmadı. Çaydan keçəndə səhər açılırdı. Artıq sayıqlığı itirmək olmazdı. Onlar təhlükəli mövqeyə yaxınlaşmışdılar.

Yoldan 300 metr aralı böyük ağaca dırmanıb gözləməyə başladılar. Həm də ağacdan gedəcəkləri istiqaməti təxminən müəyyənləşdirməyə çalışdılar. Axşama qədər ağacda qaldılar. Qaş qaralan kimi onu yola salıb, yola düzəldilər. Gecə artıq onlara tanış olan kəndə çatdılar. Qəfil qarşılarını kimsə kəsib:

- Dayan, parolunu söylə.

Əhmədiyyə bildiyi son parolu dedi:

- "Dylo". Patrullardan biri partizan Bero idi. Əhmədiyyəni tanıdı və dərhal onu qucaqlayıb bağrına basdı. Hal-əhval tutub dərhal da muştuluq üçün kəndə tərəf qaçdı.





# İlk dəfə baş qərargahda

Əhmədiyyə sanki üzərindən böyük yük götürülübmüş kimi rahatladı. Sifətinə məmnunluq sevinci çökdü, artıq özünü güvəncli hiss edirdi. Arbetlə yavaş-yavaş qərargaha yollandı.

Otağa daxil olan kimi ətrafı hay-küy bürüdü. Onları qucaqlayan kim, sorğu-suala çəkmək istəyən kim, sevincdən gözləri yaşaran kim. Partizanlar bu iki qoçağı havaya atıb tutmağa başladılar.

Sonra dəstə komandiri Bessekin və qərargah rəisi Valdekin yanına getdilər. Əhmədiyyə məlumat verdi:

- Qatarda 10 maşın, 25 tank, 500-dən çox alman əsgəri və saysız-hesabsız sursat var idi. Əmr yerinə yetirildi: hamısı məhv edildi - deyə, Xarqo qürurla hesabat verdi.

Lakin bir an içində onun gözlərindəki sevinc və qürur hissi yoxa çıxdı.

Sara astadan:

- Səninlə gedib körpünün o üzündə qalan yoldaşlarınızın taleyi pis olub. Öləni ölüb, qalanları da əsir düşüb.



Xarqonu qəhər bürüdü. Bir an içində sanki dünya başına fırlandı. Sanki özünü qınayırdı. Göz yaşlarını güclə saxladı. Otaqda olan Bessek, Valdek, Sara, Jülyetta, Simone, Vasili, Yusizkin, Kalmak, Bero, Jate, Jozur, Jert, Perrakanon, Pınar, Alber, Janbar və başqaları onları əhatəyə alıb toxtaqlıq verməyə çalışdılar. Bessek:

- Bu, şərəf tapşırığı idi. Siz nəyin bahasına olursa-olsun, yerinə yetirməli olduğunuz bir işi başı ucalıqla yerinə yetirdiniz. Yoldaşlarımızın qanı hədər getmədi. İndi almanlar ən böyük zərbəni aldılar. Sursatsız qalmaqla yanaşı, indi canlarını da qorxu bürüyüb. Bu, tarixi hadisədir. Tanrı onlara rəhmət eləsin. Yoldaşlarımızın qanı yerdə qalmayacaq. O biri yoldaşlarımızı da ən yaxın vaxtda həbsdən qurtararıq. İndi bunun üçün plan cızırıq. Siz əsl qəhrəmanlarsınız!

Düma onların yedirdilib - içirdilməsi, rahat yataqla təmin olunması üçün əmr verdi:

- Gedin, dincəlin. Yol yorğunusunuz. İndi sizə bir müddət istirahət veririk.

Xarqo qəfil yüksək tonla, bir az da bağırtı ilə:

- Yoldaş komandir, bizə istirahət lazım deyil. Yoldaşlarım əsirlikdə ikən mən nə yeyə, nə içə, nə də dincələ bilərəm. Mən gedirəm.

Komandirləri nə desə də, Əhmədiyyə fikrindən dönmədi. Partizanların hamısı birdən «biz də gedirik» dedilər.

Düma əlini yuxarı qaldırıb hamıya susmaq əmri verdi.

- Yaxşı, Əhmədiyyə 8 partizanla yola düşəcək. Gedin, sizi də tutsunlar, elə hamınızı bir yerdə orada assınlar. Onsuz da bu rus kommunistləri tərsdirlər, heç vaxt sakitləşdirmək olmur, dediklərini, gərək, yerinə yetirsinlər.

Əhmədiyyə dəstəsi ilə yenidən stansiyaya tərəf yola düşdü. Onunla yol yoldaşı olmuş Arbetdən savayı, Pınar, Şofer də alman forması geyinmişdilər. Biri SS zabitinin, qalanları alman əsgəri formasında idilər.

Almanlar meyitləri yığıb stansiyada işıq ağaclarından asmışdılar. Dəstə həmin əraziyə çatanda, asılmış meyitləri iki alman əsgərinin qoruduğunu gördülər. Əyinlərində alman hərbi geyimi olduğundan, özlərini meşə tərəfdən qərargahdan verilmiş əmri yerinə yetirib qayıdan dəstənin üzvləri kimi apararaq, meyitlərin keşiyini çəkən əsgərlərə yaxınlaşdılar. Bir an içində onlara səslərini çıxarmağa aman vermədən hər ikisini yerə sərdilər. Partizanları ağacdan azad etmək üçün çox yuxarı dırmanmaq lazım idi. Yoldaşları teleqraf dirəyinə çıxa bilmədiklərini söyləyincə Xarqo özü hirslə yuxarı dırmandı. O, məftilləri bir-bir kəsir, yoldaşları isə asılmışları maşına yığırdılar.

Hava da yağmurlu, dumanlı idi. Qayıdanda maşını postdan keçirməli idilər. Elə vaxtda posta çatdılar ki, əsgərlər yerlərini təhvil verirdilər. Maşınla ora yaxınlaşıb, təzim etmədən aşağı düşdülər. Hərə bir tərəfdən əsgərlərin hamısını yerə sərdilər. Dərhal maşına doluşub stansiyadan uzaqlaşmağa başladılar.

Həmin gecə bu şücaətə nə kimsə sevindi, nə də bir söz dedi. Nə onlara yemək, nə də istirahət təklif edən oldu. Qərargaha yetişib, hamısı bir nəfər kimi, qəhrəman partizanları dəfn etməyə başladılar, orada olanlar da onlara qoşuldular.





Həmin gecə heç kim çörək kəsmədi. Sabah açılana qədər yoldaşlarını dəfn edib, onları xatırladılar. Səhər açılanda bütün partizanlar acsusuz və taqətsiz idilər. Bu qədər itki verməək hamını, kədərləndirmişdi. Heç kimin boğazından çörək də keçmirdi.

Nəhayət, komandirin əmri ilə süfrə hazırlandı. Hamı masa arxasına keçdi. Amma yenə dinib danışan da yox idi. Nəhayət, Əhmədiyyə qədəhi əlinə götürüb ayağa qalxdı.

- Fransa torpaqlarının azadlığı uğrunda qəhrəmancasına həlak olan yoldaşlarımın sağlığına - deyib, şərabı başına çəkdi. Hər kəs onun bu addımını təkrarladı. Sonra Əhmədiyyə 10 dəqiqəlik sükutla yoldaşlarının hər birini xatırlamağı təklif etdi. Həmin gün qərargahda yalnız sükut hökm sürdü. Partizanlar yalnız vacib bir şeyi soruşanda, bir-birinə müraciət etdilər.

Ertəsi xəbər gəldi ki, Əhmədiyyəni mərkəzi qərargaha dəvət edirlər. O, yola düşdü.

Burada siyasi rəhbər Moris Torez və Şarl de Qollun adından general Jak Düklo ona təşəkkür elan etdi. General partizanların rəhbəri Şarl De Qolla raport yazdıqlarını dedi və şəxsən tanış olmaq üçün Əhmədiyyəni mərkəzə dəvət etdiklərini bildirdi.

Vasili, Sara Simoni, Jülyetta, Janbar və başqaları bunu eşidib Əhmədiyyəni dövrəyə aldılar və hər biri sanki onu fərqləndiriblərmiş kimi sevinirdi.

General Şarl de Qoll 1940-cı ildə Vişi hökümətinin təslimçi siyasətinə etiraz olaraq Fransa müqavimətinin hərəkatının əsas mərkəzi olan «Azad Fransa»nı yaradaraq, ölkənin əsas antifaşist liderinə çevrilmişdi.

1940-cı il iyunun 18-də o, Fransa xalqına radio müraciəti ilə müharibədə liderlik funksiyaları, onun bütün ağrı-acılarını öz üzərinə götürərək faşizmə əsl vətənsevər fransızları müqavimət hərəkatına qoşulmağa dəvət etdi.

Müttəfiqlər 1944-cü il iyunun 6-da Normandiya sahillərinə desant çıxarana qədər o, demək olar ki, bütün Fransada müqavimət hərəkatının vahid lideri və mübarizənin əsas mərkəzinin rəhbəri idi.

Müharibənin sonuna az qalmış o, artıq Fransanı Amerika və digər müttəfiqlərin caynağından qurtarmaq üçün mübarizəyə başlamalı oldu. 1944-cü ilin avqustun sonunda Fransa Nazirlər Şurasının müvəqqəti sədri kimi o, ilk növbədə SSRİ ilə əlaqələri bərpa edərək, ikitərəfli müqavilə imzalamağa cəhd etdi. 1945-ci ilin yanvarında məşhur Yalta görüşünə dəvət almayacağını bilən Şarl de Qoll 1944-cü il dekabrın 10-da Bakıdan keçərək Moskvaya yola düşdü.

Müharibədən sonra müttəfiqlərin də köməyi ilə o, siyasi səhnədən uzaqlaşdırılsa da, 1959-cu il yanvarın 8-də 5-ci Respublikanı yaradaraq, 10 il onun prezidenti oldu.

Elə həmin dövrdə o, SSRİ-yə səfəri zamanı Əhmədiyyə Cəbrayılovun görüş üçün Moskvaya dəvət edilməsini xahiş etmişdi.

# Ən çətin tapşırıqlar ustası

Əhmədiyyəyə üçgünlük istirahət verdilər. Qərargaha qayıdanda eşitdi ki, leytenant Bessekə əmrlə növbəti tapşırıq verilib. Vəziyyəti öyrənmək, bir köməyinin lazım olub-olmadığını soruşmaq üçün Əhmədiyyə Bessekin yanına getdi. Bessek onu görən kimi qucaqlayıb bağrına basdı. Amma sözləri Əhmədiyyəyə toxundu.

- Qardaşım Armed, gəl, öpüşüb halallaşaq. Sən tapşırığa «on bir gedib, iki döndün». Mənsə «üç gedib bir qayıtdım».

Söz Əhmədiyyəni tutdu. Bessekdən ayrılan kimi, birbaş qərargah rəisinin yanına yollandı. Tapşırıq Tarn şəhəri komendaturasını partlatmaq idi. Almanlar partizanların ailələri haqqında məlumat toplamışdılar. Bu barədə Fransa Kommunist Partiyasının rəhbəri Moris Torez və 1940-44 cü illərdə Fransa Müqavimət hərəkatının rəhbəri Jak Dükloya dəqiq məlumat verilmişdi. Partizanların 300-dək ailə üzvü, qoca-cavan, uşaq-qadın hamısının ailəsi təhlükə altında idi. Bunun qarşısını almaq üçün mütləq irimiqyaslı əməliyyat təşkil edilməli idi. Onlar da bu işin öhdəsindən ancaq bu dəstənin gələcəyini qət edərək, əməliyyat hazırlanmasını Delplonun qrupuna tapşırmışdılar. Dəstə qərargaha daxil olmalı, bu siyahıdan xəbəri olanları məhv etməli idi. Bu, həm çətin, həm də qorxulu vəzifə idi. Çünki şəhərdə hərəkət məhdudlaşdırılmışdı.







- Cənab rəis, leytenant Bessekə həvalə olunan tapşırığı mən yerinə yetirmək istəyirəm.

- Armed, siz yenə inadınızdan dönmək istəmirsiniz. Sizə istirahət lazımdır. Ağır tapşırıqdan yenicə çıxmısınız. Biz sizi qorumalıyıq. Qarşıda bizi hələ çox mürəkkəb tapşırıqlar gözləyir.

- Bu tapşırıqda mən də iştirak etməliyəm. Mən hökmən getməliyəm. Çünki bir az almanlara oxşayıram, dillərini də təmiz bilirəm.

Onların söhbəti xeyli çəkdi. Amma Əhmədiyyənin inadından dönməyəcəyini görüncə razılaşdı.

Əvvəlcə, Əhmədiyyə çoban paltarı geyinib komendaturanın ətrafını gəzdi. Axşam çağı qayıdıb məlumat verdi və plan cızıldı. Əhmədiyyə Bessek və onun tabeliyinə verilmiş yoldaşlarla yola çıxdı.

Şəhərə yaxın gizlincə ara küçələrlə hərəkət edib alman zabitlərinin evi ilə bir yerdə olan komendaturaya yetişdilər. Binanın dörd ətrafı hasarlanmışdı. Hasara dırmandılar. Ətraf işıqlı idi və buna görə alman əsgərlərinin mövqelərini aydın görə bilirdilər. Onlar aşağı enib gizləndilər. Hasarın üzərində dayana biləcək bir nəfər gözətçi qaldı. Bu an üçün əsas vəzifə postun dəyişməsini gözləmək idi.

Səhərə az qalmışdı, nəhayət, bir dəstə postu dəyişmək üçün gəldi. Fürsətdən istifadə edib, səs çıxarmadan hasarı aşdılar. Əhmədiyyə və Bessek planı gecədən müəyyən etmişdilər. Hər dəstə üzvü postda dayanan bir əsgəri nişan almalı idi. O, bir neçə nəfərlə hasarın bayır tərəfində olan postu təmizlədi. Sonra yoldaşları geri çəkildilər. Əhmədiyyə bir, Bessek isə əks tərəfdən binaya daxil oldular. İçəridə iki əsgər növbə çəkirdi. Əhmədiyyənin dəstəsi səssizcə iki əsgəri bıçaqla susdurmalı idi.

O, növbətçiyə yaxınlaşmaq istəyirdi ki, əsgər geri döndü. Əhmədiyyənin ürəyi bir an içində bərk döyünməyə başladı. Amma alman zabitinin formasında olduğundan, əsgər heç nə olmamış kimi ona yaxınlaşdı. Əhmədiyyə bir an içində ölümlə üz-üzə olduğunu düşündü. Lakin hər şeydən əvvəl o yoldaşlarını düşünürdü. Ani bir səhv bütün planı alt-üst edəcəkdi.

Əlindəki avtomat hazır vəziyyətdə olan əsgər ona yaxınlaşar-yaxınlaşmaz Əhmədiyyə cəld hərəkətlə onu qarın nahiyəsindən bıçaqladı, dərhal onun avtomat tutan əlini zərərsizləşdirdi ki, atəş açılmasın. Heç nəyi anlamayan alman əsgəri onun üzərinə yıxıldı. Əhmədiyyə dizi ilə onu özündən uzaqlaşdırıb kənara atdı. Dərhal üzərinə atıldı və əli ilə ağzını tutub, bir neçə bıçaq zərbəsi də endirdi.

Binaya iki yerdən mina qoyub, fitili odlayıb hasardan aşdılar. Pusquda duran partizanlar təşviş içində onları gözləyirdilər. Dəstə üzvləri birləşdikdən sonra heç nəyi gözləmədən qərargahdan uzaqlaş-

mağa başladı. On beş dəqiqə keçər-keçməz partlayış səsləri ətrafı bürüdü. Amma atəşfəşanlıq həddən artıq gur idi. Sanki cəbbəxana partladılmışdı.

Bu, Əhmədiyyənin işi idi. Qərargahın binasından çıxanda, Bessekə hələ vaxt qaldığını və yaxınlıqdakı anbarı da minalamağın heç də pis olmayacağını demişdi. İçəri daxil olmaq mümkün olmasa da, kənardan binanın bir neçə yerindən mina qoymuşdular. Sən demə, həmin köməkçi bina hərbi sursat anbarıymış. Bir sutka ərzində həmin ərazidən partlayış səsləri kəsilmədi. Şəhəri vəlvələ bürümüşdü. Almanlara hədsiz ziyan dəymişdi. 30-dan artıq zabit heyəti bir dəfəyə məhv edilmişdi.

Bu hadisə almanları necə hiddətləndirmişdisə, onlar hər zabitə görə 10 fransızı güllədilər. Şəhər qorxu içinə düşdü. Amma partizan ailələri artıq təhlükəsizlikdə idilər. Bunun əvəzində almanlar hər tin başı, hər evin fasadına "Tarn et Garonne» partizanını gətirənə və ya yerini deyənə 10 min marka mükafat təyin etmişdi. Dərhal bütün ərazi boyunca postlar möhkəmlədildi. Qəzəblənmiş faşistlər hər tini-bucağı, hər evi-eşiyi ələk-vələk edirdilər.

Partizan dəstəsi artıq buralarda çox ləngiyə bilməzdi. Onlar gecə ikən şəhəri tərk etdilər və Mon-dö-Marsan şəhərinin ətrafında yerləşən dağlara çəkildilər.

Yol üstündə onları az qala haqlayacaqdılar. Amma cəld tərpənib yol kənarında gizləndilər. Əhmədiyyə bu an kənarda yıxılmış ağacı görcək ağlına bir fikir gəldi. Dərhal bir neçə nəfəri səsləyib qırılmış ağacı yolun ortasına çəkdilər. Maşın ağaca çatar-çatmaz əylədi və həmin istiqamətdə iki qumbara atdılar və maşından düşənləri bir-bir güllələdilər.

Belə xırda əhvalatlar çox oldu və tez-tez baş verdi. Artıq partizanların səsi-sorağı hər tərəfə yayılmışdı. Onlara rəğbət göstərənlərin, sıralarına qoşulmaq istəyənlərin sayı gündən-günə artırdı. Bir neçə gün ərzində onların sayı 200 nəfəri keçmişdi. Belə şayiə gəzirdi ki, ruslar Fransaya desant atıblar və onlar almanları xüsusi amansızlıqla məhv edirlər.





# Nağıllarda olduğu kimi

Düşmənlə üz-üzə dayananda, həyatın sürprizlərini bəzən anlamaq olmur. Günlərin bir günü Əhmədiyyə növbəti tapşırığına yollanırdı. Ona hitlerçilərin növbəti qatar eşalonunu məhv etmək tapşırılmışdı. Həmişəki qayda üzrə minaları relsin altına yerləşdirib kolluqlarda gizləndilər. Budur, paravozun səsi eşidilir. O, mina qoyulan yerin lap yaxınlığındadır. Qəfil gurultu səsi ətrafı bürüyür. Vaqonlar sanki bir-birinə yol verməyənlər kimi üst-üstə çıxırlar. Səs-küy, hayqırtı, bağırtı əsəsi ətrafı bürüyür. Arxa vaqonlardan kifayət qədər sağ zabit və əsgər qalmışdı. Onlar silahlanıb yaralıları bir-bir axtarmağa başladılar. Bir qrupu hazır vəziyyətdə ətrafı gəzib partizanları axtarmağa başladı. Qəfil hayqırtı səsi ilə bütün zabit və əsgər heyəti partizanlara sarı atəş aça-aça irəliləməyə başladı.

«Harınlamış əclaflar, indi mən sizə göstərərəm» deyə, Əhmədiyyə əl pulemyotunu işə saldı. Elə bu an almanların «yerə yıxıl» əmri eşidildi. Partizanlara tərəf qumbara yağışı yağdı. Əhmədiyyə anlayırdı ki, almanların qarşısını belə almaq mümkün olmayacaq. Qüvvələr qeyri-bərabər idi. Çünki o, bu əməliyyata döyüş üçün lazım olan sayda partizan götürməmişdi.

- Nə qədər ki gün çıxmayıb, hamı geri çəkilsin – deyə, əmr etdi.

O, dostlarını təkcə sığortalamalı idi. Onlar heç olmasa, buradan bir kilometr uzaqlaşmalı idilər ki, Əhmədiyyə özünü rahat hiss edib, qaçmaq planını həyata keçirsin. Elə bu an sanki qulağının dibində nəsə dəhşətli bir ağrı qalxdı.

Sonra nə baş verdiyini xatırlamır. Lakin özünə gələndə, iri ağ divarları olan bir otaqda geniş və rahat çarpayıda uzanmışdı. Əvvəl elə bildi ki, haqq dünyasına qovuşub. Amma haradasa ağrı fəryadlarını eşidəndə, başa düşdü ki, xəstəxanadadır.

"Yəqin, alman hospitalıdır" - deyə, Əhmədiyyəni dəhşət bürüdü.

- Mən bura necə düşmüşəm, haradan gətiriblər, görəsən. Necə olub ki, ələ keçmişəm». Onu fikir götürdü, amma nəyisə xatırlaya bilmirdi. «Bəlkə onların mənim kimliyimdən xəbəri yoxdur. Əynimdəki feldfebel geyimini görüb eldə zənn ediblər ki, alman zabitiyəm?».

Sonradan partizanlar ona dedilər ki, geri qaytdıqdan sonra Əhmədiyyəni xeyli gözlədilər. Səs-soraq çıxmadığını görüb yenidən hadisənin baş verdiyi yerə gəldilər. Lakin burada Əhmədiyyədən iz-soraq, bir əlamət də yox idi. Elə biliblər ki, onu öldürüblər.

Amma elə həmin xəstəxanada gecə ikən Əhmədiyyə zarıya-zarıya olsa da, özünü itirib yenə ələ keçəcəyindən də ehtiyatlanmayaraq, pəncərədən özünü aşağı atıb. Əynində ağ xəstə köynəyi ilə bütün yolu necə qət etdiyini heç özü də bilməyib. Bir də partizanların qolunda yenidən ayılıb.

Bu əhvalatı partizanlar uzun müddət xatırlayıb, hər dəfə yada düşəndə də, doyunca gülüşürdülər. Əhmədiyyənin meşələrin vəhşi ayıları kimi hissiyyatı olduğunu deyirdilər.

Onun haqqında rəvayətlər də elə hər belə macərasına görə formalaşmağa başladı. Tezliklə, o, əsatirlərin, nağılların, dastanların qəhrəmanları qədər məşhurlaşdı.

"Tarn et Garonne " korpusunda onun ləqəblərinin sayı-hesabı qalmamışdı: "Armed Mişel", "Xarqo", «Rus Ahmed", «Kuraji" və s. bunlardan bir qismidir. Bu qorxmaz partizan, cəsur komandir, ələkeçməz leytenant haqqında əfsanələr, rəvayətlər bütün Fransanı dolaşmağa başlamışdı. Almanlar Xarqonun başına əlavə 10 min marka mükafat təyin etdilər. Bu elana hər addımda rast gəlmək olurdu.

Əhmədiyyə Fransanın dörd bir yanından gənc oğlan və qızlardan məktublar almağa başladı.

1943-cü ilin sentyabrı idi. Dəstə Mon-dö-Marsan dağlarında möhkəmlənmişdi.

O ərəfədə Əhmədiyyənin bir qəhrəmanlığı da dillər əzbəri idi.

Əhmədiyyəni hətta dəstədə belə, qoruyurdular. Çox adama onu tanıtmırdılar. Bir gün dəstə üzvlərindən sayılan Simone adlı qadın Əhmədiyyəni görmək istədiyini bildirir. Bir az çək-çevir edirlər. Çünki o, şəhərdən təzə gəlib onlara qoşulanlardan idi. Qadın yalnız Əhmədiyyə ilə danışmaq istədiyini bildirir. Bu söhbəti eşidən Əhmədiyyə ona özü yaxınlaşır.

- Şəhərdə almanların qərargahında makinaçı işləyirəm. Bir plan cıza bilsəniz, sizə alman zabitlərinin başını bəxş edə bilərəm.

- Çox maraqlı fikirdir. Gəlin, ətraflı söhbət edək - deyə, Əhmədiyyə Simone ilə qərargah çadırın çəkilir. Elə oradaca plan yaranır.

Qız Əhmədiyyəyə vaxtaşırı məlumatlar gətirir və yeni planın detalları hazırlanırdı. Nəhayət, bir gün Əhmədiyyə 9 silahdaşı ilə yola düşür.

Simone nişan verdiyi evin ətrafında pusqu qururlar. Çox keç-




АЛМАН КОМАНДАНЛЫҒЫ ОНУН БАШЫ ҮЧҮН 10.000 МАРКА ТӘКЛИФ ЕДИРДИ.





mir, Simone daha dörd madmuazellə onların yanından keçir. Bu an o, rəfiqələrinə alman zabitinin evinə yeyib içməyə gedəcəyini deyir. Bu, dəstəyə nişan idi.

Onlar Simone və rəfiqələrini təqib etməyə başlayırlar. Kef məclisi xeyli çəkir. Dəstə bir an belə sayıqlığı itirmədən keşikdə dayanaraq işarə gözləyirdi. Bir qədər yeyib-içdikdən sonra zabitlər qızları dizləri üstə oturdub məzələnməyə başladılar. Amma nədənsə əvvəldən razılaşdırıldığı kimi Simone hələ onlara bir işarə vermirdi.

Simone almanlara hörmət və nəvazişlə davranır, başlarına dolanır, özünü keflənmiş yüngül qadın kimi aparır, «qızlar, cənablara yaxşı qulluq edin», «qızlar, qonaqlara fransız həyatının ləzzətini bəxş edin», «qızlar, cənabları darıxmağa qoymayın» və s. kimi ifadələrlə alman zabitlərini ovundurur, onların əhvalı ilə oynayır, badələri, qədəhləri boş qalmağa qoymurdu. Məclisdən meyxoş olmuş alman zabitlərinin qəhqəhəsi evdən əskik olmurdu. Onlar ucadan danışıb get-gedə hərəkətlərini də itirirdilər. Əyyaşlıq məclisi, nəhayət, kulminasiya nöqtəsinə çatdı. Gecə saat 3 idi. Simone rəfiqələrinə güclə ayaq üstə duran beş alman zabitinin yerini rahatlamaq göstərişini verdi. Bu Əhmədiyyə və yoldaşlarına da bir işarə idi.

Bu zaman Əhmədiyyə on silahdaşı ilə, kimi pəncərədən, kimi qapıdan içəri soxuldular. Əhmədiyyə alman dilində «əllər yuxarı» deyə bağırıb irəli atıldı. Alman zabitlərini bir an içində zərərsizləşdirdilər. Əl-qollarını bağlayıb ara yollarla meşəyə üz tutdular.

Bu hadisədən sonra Simone və beş rəfiqəsini alman qərargahında sorğu-suala tutdular, onlara işgəncə verdilər, lakin bir söz ala bilmədilər. Almanlar itirdikləri beş zabitin qisasını fransız gənclərindən aldılar. Onlar şübhəli bildikləri, gözlərinə xoş gəlməyənləri elə yerindəcə güllələyirdilər. Bir neçə evi yerlə yeksan etdilər.

Partizanlar da yerlərində saymadılar, qana-qanla cavab verdilər, əməliyyatlar keçirdilər, şəhərdə vərəqələr yayır, əhalini ruhlandırır, almanları isə daha böyük təşvişə salırdılar. Artıq yerli əhali də amansızlaşmağa başlamışdı. Almanlar da əks vasitələrdən istifadə etməklə, partizan düşərgəsinə öz agentlərini yerləşdirməyə cəhd etməyə başlamışdı.

Buna görə partizanlar daha da ehtiyatla tərpənib, mövqelərini tez-tez dəyişməyə başlamışdılar. Lakin onların dəstəsi o qədər böyük idi ki, almanlar qəfil hücumla meşələrə basqın edə bilmirdi.

Partizanların yerləşdiyi qərargahları yalnız dörd nəfər bilirdi. Onların müxtəlif yerlərdə qərargahları var idi. Məhz bu dörd nəfər qərargahdan qərargaha, dəstələrdən dəstələrə xəbər aparırdı və toplantıların yerini yalnız onlar bilirdilər.

Onlar bu minvalla hər şəhərdə, hər kənddə, hər obada öz rəhbərlərini təyin etməyə başladılar. Bütün xəbərlər və əmrlər də bu adamlar vasitəsilə ötürülürdü.

# Fransanın yeni qəhrəmanı

1943-cü ilin oktyabr-noyabr ayları idi. Dəstə Bordo ətrafında, şəhərdən 10 km aralıda yerləşən meşəlikdəki xutorlarda qərar tutmalı idi. İlk əvvəl onlar yalnız gecələr hərəkət edirdilər. Yol boyu körpüləri partladır, kiçik alman qarnizonlarının müqavimətini qırıb düşməni məhv edirdilər. Gündüzlər isə dəstə istirahət edirdi.

Bordoya çatdılar. Əhmədiyyə alman dilini bildiyindən bəzən şəhərə kəşfiyyat xarakterli gəzintiyə çıxırdı. Bordo işıqlı şəhər idi. Əhmədiyyə çoxdan idi belə mühitdən uzaq düşmüşdü. Hündür, göz oxşayan qədim, sütunları heykəldən düzəldilmiş binalar, enli küçələr, çoxsaylı maşınlar ona nə vaxtsa sakit, öz axarı ilə davam edən bir ömür sürdüyündən xəbər verirdi. Xoş xəyallarla bu şəhəri o başbu baş necə də gəzib dolaşmaq olardı. Amma yox, qəfil həqiqət mənzərəsi Əhmədiyyəni xəyallardan ayırırdı. İndi müharibə gedir və sayıqlığı itirmək olmaz. Hər an təhlükə baş üzərini ala bilər.

Şəhərdə yerləşən limana alman hərbi sursatı ilə dolu olan çoxlu hərbi gəmilərin gəlməsi gözlənilirdi. Günlərdən birində orada hambal işləyən təəssübkeşlərdən biri xəbər gətirdi ki, gəmilər sahilə yan alıb. Amma limana girmək, hətta ona yaxınlaşmaq qeyri-mümkün idi. Onu gecə-gündüz hər tərəfdən qoruyurdular. Hər gün ora işə gələnlərin hər birinin üst-başı belə, ciddi yoxlanılırdı.

Amma əmr gəlmişdi: nəyin bahasına olursa-olsun, istər yerlə, istər hava ilə, istərsə də su ilə limana daxil olmaq lazımdır. Əhmədiyyə partizanlarla birgə vəziyyəti təhlil edib hər gün çıxış yollarını axtarmaq üçün kəşfiyyata gedirdi. Bir gün yerli partizanlardan biri 80 yaşlı qoca, gözləri dərddən-fikirdən dərinləşib qaralmış atası ilə Əhmədiyyənin yanına gəldi. O, limana daxil olmağın ən yaxşı yolunu bilirdi. Qoca limana şəhərdən keçən kanalizasiya xətti ilə girməyin mümkün olduğunu söylədi.

Onun göstərdiyi yolu öyrənmək üçün limanda işləyən partizanlardan birinə tapşırıq verdi. İşçi partizan limana aparan kanalizasiya xəttinin keçdiyi yolların xəritəsini çəkib gətirdi.

Əməliyyat üçün 6 nəfər ayrıldı. Şəhərə həmişəki kimi ara yollarla getdilər. Kanalizasiya borusuna aparan liftə səhərə yaxın çatdılar. Əhmədiyyə əvvəlcə Kolmak adlı partizanı irəli göndərib borunun qapağını açmağı tapşırdı. Sonra özü və bir də Jambar adlı partizanla boruya sarı getdi. Daha üç nəfəri - Bero, Valdes və Vasili yuxarıda növbətçi saxladı. Nəsə baş versəydi, onlar partizan dəstəsinə yetişib xəbər çatdıracaqdılar.







Əhmədiyyə daha iki yoldaşı ilə boruya enəndə, səhər saat 5 idi. Boru böyük idi. Amma qaranlıq və qoxudan dayanmaq olmurdu. Əhmədiyyə əvvəlcədən əlində çoxlu çubuq götürmüşdü. Getdikcə hər yol ayrıcında çubuqları boru divarına sancırdı ki, qayıdanda azmasınlar. Get-gedə onların getdikləri boruya birləşən hissələrin sayı da artmağa başlamışdı. Onlar yollarına gözə çox da çarpmayan sarı işıqlı əl batareyaları ilə işıq salırdılar. Onlar xəritəyə əsasən, lazım olan yerə çatmışdılar. Düz limanın altında idilər. Gecənin qaranlığında ətrafdakı sakitlikdə gəmilərin səsi də onların doğru yerdə olduqlarını göstərirdi. Əhmədiyyə kanalizasiya qapağını aralayıb, ətrafa göz gəzdirdi. Gözətçilərin sayı həddən artıq çox idi.

Növbə ilə kanalizasiyadan çıxdılar. Limanın əsas dirəklərinə minaları bağladıqdan sonra Əhmədiyyə yoldaşlarına geri qayıtmağı əmr etdi. Tapşırdı ki, qayıdanda çöplərə əsasən hərəkət etsinlər. Yoldaşları kanalizasiyaya düşən kimi Əhmədiyyə mina fitillərini yandırmaq istədi. Amma alışqan işə düşmək istəmirdi. O, əynindəki plaşı başına çəkib fitilləri alışdırdı. Sonra ona bürünüb kanalizasiyaya sarı getdi. Quyuya düşüb irəlilədi. Çıxmağa az qalmışdı ki, birinci partlayış səsini eşitdi. Ardınca ikincisinin də səsi eşidildi. Onlar quyunu tərk etdilər. Ancaq üçüncü partlayışın səsi gəlmədi. Əhmədiyyə əsəbi halda öz-özünə deyinməyə başladı. Bir az getmişdilər ki, üçüncü partlayış daha gurultulu oldu. Onlar küçədən burulub bir bağa girdilər. Xeyli keçdi. Ara sakitləşən kimi yenidən yola düzəldilər.

Bu da patrullar. Bu qədər işi görəsən, gör, gəlib harada ilişəsən. Artıq gözləməyə dəyməzdi. Atışma başladı. Onlar qarşısına çıxanları bir-bir zərərsizləşdirib ara yollarla irəlilədilər. Qəfil Bero yıxıldı. Yaralanmışdı. Köməkləşib onu da götürdülər. Atışa-atışa küçələrlə şəhərin çıxışına yollandılar. Nəhayət, səs kəsildi. Onlar izi itirmək üçün müxtəlif qarışıq yollarla dəstəyə qovuşana qədər irəlilədilər. Nəhayət, tapşırıq da yerinə yetirildi, dəstə itki vermədən də geri qayıtdı. Əhmədiyyə

*4 gün kənddən kənara çıxmağı qadağan etdi.*

Sonradan xəbər gəldi ki, almanlar 30-a yaxın gəmi itiriblər, dəyən ziyan milyardlarla ölçülür.

Əhmədiyyə sonrakı tapşırığında əks-kəşfiyyatçı bacarığından istifadə etməli oldu. Bir gün onu qərargaha çağırdılar. O, anlayırdı ki, qərargaha çağırılıbsa, tapşırığı da xüsusi olacaq.

- Armed Mişel, siz dəllək sənətini öyrənməlisiniz, sizə tapşırıq veriləcək.

- Mən dəlləkliyi yaxşı bacarıram, deyə Əhmədiyyənin cavabı otaqda olanların təəccübünə səbəb olmaqla yanaşı, onları bir az da çaşdırdı.

Kapitan dərhal göstəriş verdi.

- Gəlin, bu masanı ortaya çəkək - deyə, o, masaya yaxınlaşdı, köməkləşib onu ortaya qoydular, kapitan sözünə davam etdi - bu partizanın üzünü, başını təraş edin.

Əhmədiyyə Vasilin üzünü qırxıb, başına əl gəzdirdi. Onun gördüyü iş partizanları heyran qoydu.

- Afərin sizə, deyəsən, sizin hər bir sahədən biliyiniz var. Bu bacarığınız isə indi bizə daha çox lazım olacaq, deyə, kapitan tapşırığı ona başa salmağa başladı - şəhərə gedəcəksiniz. Orada bir bərbərxana var, həmin yerdə bərbər Düşale ilə birgə çalışacaqsınız.

Əhmədiyyə yola düzəldi. Bərbərxanaya çatanda, yaxınlıqdakı qəhvəxanalardan birinə getdi. Qəlyanaltı edə-edə ətrafa, həm də bərbərxanaya nəzər saldı, ora girib-çıxanları bir xeyli müşahidə etdi. Orada bir bərbər alman zabitinin üzünü təraş edirdi. Gəlib-gedənlərin sayı heç də az deyildi.

Yeməyi başa vurub, düşüncələrini toparlayan Əhmədiyyə bərbərxanaya yollandı. Otağa daxil olub növbə gözləyənlərin sırasına qoşuldu. Masa arxasında əyələşən kimi, cibindən bir kağız parçası çıxardı. Səliqə ilə onu 4 yerə böldü. Qəfil kağız parçalarından birini əlindən yerə saldı.

Dəllək daha bir müştərini yola salan kimi üzünü Əhmədiyyəyə tutdu.

- Cavan oğlan, növbə sizindir.

Dəllək onun üzünü isti su ilə kompres edib sabunlamağa başladı. Ətrafa nəzər salıb mətləbə keçdi:

- Xoş gəlmisən, Armed.

- Siz məni tanıyırsınız?

- Diqqətimi bayaqdan çəkmişdinir. Birinci dəfədir sizi burada görürəm. Amma parolu tam səlis yerinə yetirdiniz. Ətrafdakılar heç duyuq da düşmədilər.

Dəllək onun üzünü təraş etdikdən sonra qapını bağladı.

- Düyməli masanız budur. Gəlin, zirzəmiyə enək - Düşale onu bütün şəraitlə tanış etdikdən sonra dedi: - bura çoxları gəlib gedib, görürsünüz, masaları indi boş qalıb. Hamısını almanlar asıb, ya da güllələyiblər. Ehtiyatlı olmalısınız. Bura şəhərdir, hər tərəf almanlarla doludur və hər yana onlar nəzarət edirlər. Ona görə də sayıqlığı itirmək olmaz. Bu qız da sizə kömək edəcək, Adı Saradır.

- Mənə köməkçi lazım deyil, bu işə qadınları qatmaq istəməzdim. Tək də bacararam.

- Yox, inad etməyin, Sara təcrübəli partizandır. Almanları bura gətirməkdə sizə kömək edəcək.

Ertəsi sübh tezdən Əhmədiyyənin bərbərliyi başladı. Yerli əhalidən gələn olanda Düşale, almanları isə Əhmədiyyə yola salırdı. Elə buna görə də Əhmədiyyənin masası daha bər-bəzəkli, üzəri isə bahalı kosmetik yağ, kirşan, sürmələr, ətirlərlə dolu



YENƏ VƏTƏN YAXŞI



idi. Sara ara-sıra onun yanına alman zabitlərini gətirməyə başladı. O, üzü azacıq tüklü alman zabitini görən kimi lütfkarlıqla üzlərini təraş etməyə çağırır, alman zabitləri də bu nəzakətli davranışdan keçə bilmir və masa arxasına əyləşərdilər. Əhmədiyyə alman zabitlərinin üzlərini təraş edə-edə ətrafa göz gəzdirir, kiminsə onları müşahidə etmədiyini, sakitçilik olduğunu hiss edincə düyməni basır, bir an içində kreslo çevrilir və yenə həminki vəziyyətinə qayıdırdı.

Bir neçə həftə beləcə davam etdi. İş təhlükəli idi. Üstəlik, bərbərxana əksərən adamla dolu olardı. Hər istəyəndə, düyməni sıxmaq olmazdı. Aşağıda oturan partizanlarınsa növbə gözləməkdən başqa çarələri yox idi. Bir sözlə, iş təhlükəli olmaqla yanaşı, həm də darıxdırıcı və ürəksıxıcı idi. Hər kəsdən böyük səbr istəyirdi.

Nəhayət, partizanlara lazım olan an da gəlib yetişdi. Bir alman zabiti yanında iki başqa zabitlə içəri daxil oldu. Sara ona işarə etdi ki, partizanlar bu adamı əsir götürməlidirlər. Əhmədiyyə üzünü təraş etdiyi zabiti əldən buraxmaq istəmirdi. Arada əlini düyməyə basmaq istəyirdi. Amma həmin iki nəfərdən çəkinirdi. Sən demə, zabit də ona göz gəzdirirmiş. Əhmədiyyənin düyməni basmaq istəyini duyub, onu özü sıxır. Dərhal da zirzəmiyə yuvarlanır. Heyrətdən gözləri bərəlmiş həmin iki zabit əllərini kəmərələrinə sarı atıb tapançalarını çıxarmaq istəyirdilər ki, Əhmədiyyə onlara aman vermədən özü hər ikisini güllələyir. O, heç düşünmədən Saranın əlindən yapışıb otaqdan çıxır. Yolları bura-bura düşərgəyə gəlib çatır. Bütün yol boyu onu Düşalenin sonrakı aqibəti, zirzəmidəki partizanların taleyi hey düşündürürdü. Qəfil hadisə izsiz ötüşməyəcəkdi. Sonradan ona dedilər ki, almanlar bunun əvəzində fransızlara divan tutublar. Qarşılarına çıxanları güllələməyə başlayıblar.

Fransada vəziyyət birmənalı deyildi. Boşlar – satqınlar da partizanlara mane olurdular. Almanlara xidmət göstərən bu satqınlar da partizanları yaxşı tanıyırdılar, hər fürsət düşəndə onları qurban verməklə alman ağalarının yanında hörmətli olmağa çalışırdılar. Qərargahdan tapşırıq gəlmişdi ki, bələlərinin sayı artır. Onlar cəzasız qaldıqca, almanlarla mübarizə aparmaq da çətinləşəcək. Buna görə də boşlarla mübarizəni bir az da gücləndirmək lazımdır.

Jak Düklo bir gün Əhmədiyyəni qərargaha çağırdı. Burada kifayət qədər

çox general və zabit toplaşmışdı. Jak Düklo Əhmədiyyəni görən kimi ayağa qalxıb, səmimiyyətlə və gülərüzlə ona yaxınlaşdı:

- Xoş gəlmisiniz. Tanış olun, bu, rus komandiri Armed Mişeldir.

Üzünü ona tərəf çevirmiş general və zabitlərin üzlərinə məmnunluq ifadəsi ilə təəccüblə çökdü. Ona daha diqqətlə baxmağa başladılar.

Jak Düklo sözünə, davam edərək dedi:

- 3 gün əvvəl komandanımız general Şarl de Qoll məndən sizi xəbər alaraq soruşmuşdu ki, Armed Mişel, Xarqo, Rus Armed adı ilə məşhur olan partizanlar haqqında çox eşidib. Amma hələ də onlarla tanış olmaq şərəfinə nail olmayıb. Necə ola bilər ki, almanların başına böyük pullar qoyduğu partizanları tanımayım. Ona dedim ki, bu adları daşıyan, sadəcə, bir adamdır. O, Sovet zabiti Əhmədiyyə Cəbrayılovdur – onu biz Armed Mişel və Xarqo deyə çağırırıq.

Bu an masa arxasından bir general ayağa qalxıb sifətində geniş təbəssümlə Əhmədiyyəyə tərəf addımladı. Əhmədiyyənin əlini sıxıb, sonra əlini onun çiyninə qoydu:

- Sizinlə tanış olmaq mənə şərəfdir. Halal olsun sizə. Vətəninizin çörəyi sizə halaldır. Biz eyni amal uğrunda, eyni düşmənə, istibdada qarşı vuruşuruq. Əmin olun ki, Fransa sizin bu xidmətlərinizi heç vaxt unutmayacaq.

Sonradan Düklo Əhmədiyyəyə dedi ki, ona əl uzadan bu şəxs Pyer Paskinidir.

Əhmədiyyəyə seçim etmək imkanı verdilər. Özü ilə, neçə nəfər istəsə, götürə bilərdi. Əhmədiyyə Bessek, Rene Janbart, Vasil, Bero, Arbet, Süzanna, Simone və Saranı seçdi. Onlar








əvvəlcədən verilən ünvanlara yollanır və əməliyyatı yerinə yetirirdilər.

Satqınlara münasibət almanlardan da pis idi. Buna görə onların cəzası da daha ağır olurdu. Həmin adamları, əsasən, Besseklə ikilikdə tuturdular. Onlar alman zabiti formasını geyinib satqınları meşəyə gətirir, bıçaqla öldürüb, sənədələri götürür, meyitin üzərinə xüsusi ifadələr yazıb qoyurdular. Vərəqələrdə həm satqınlara, həm də almanlara nifrət ifadələri yazılırdı. Almanlara işləyən qadınlarınsa başlarını qırxıb, alınlarına alman xaçı nallayırdılar. Bu qadınlar ən azı başlarında yeni tük bitənə qədər gözə görünmürdülər. Küçəyə çıxanda isə uşaqdan-böyüyə hamının nifrətini görür, xüsusən uşaqlar onları daş-qalaq edirdilər.

Partizanlar müxtəlif tədbirlərə əl atırdılar. Küçələrə gecə ikən şüşə qırıqları tökür, maşınların təkərlərini partladır və bu sayaq bütün təxribatlara əl atıb həm də almanların narahatlığını artırırdılar.

Onların bu tapşırığı da xüsusi əks-sədaya səbəb olmuşdu. Artıq almanlarla işləmək satqınlara və vətən xainlərinə asan başa gəlməyəcəkdi. Bundan sonra partizanların imkanları bir qədər də genişləndi. Onlar almanları vahiməyə sala bilmişdilər.

1943-cü ilin sonları idi. Artıq bütün Fransa yeni qəhrəmanını da tanımağa başlamışdı. Əhmədiyyənin şəxsiyyəti hər kəsə o qədər maraqlı idi ki, hər dəfə döyüşdən, tapşırıqdan qayıdandan sonra onu sorğu-suala çəkirdilər. Hamı bu qorxmaz igidin həyatını ən xırda detallarına qədər bilmək istəyirdi. Əhmədiyyənin söhbətlərində fransızlara tanış olmayan, qaranlıq qalan məqamlar da çox idi. Onlar hər dəfə kolxoz haqqında soruşur, onun mahiyyətini anlamaq istəyirdilər. Kollektiv təsərrüfat anlayışı partizanları lap heyrətə salmışdı. Onlar insanların birgə çalışması, əmək bölgüsü, vahid təsərrüfat anlayışı ilə bağlı Əhmədiyyənin danışdıqlarını daim müzakirə edirdilər.

1943-cü il dekabrın sonlarında dəstə Dijon şəhərini əhatə edən dağlara köçdü.

# Özbaşına qəhrəmanlıq

1944-cü il gəlib çatdı. Artıq Əhmədiyyənin səsi-sorağı Fransaya yayılmaqdaydı. Yanvar ayının əvvəlində Əhmədiyyəni yenidən qərargaha çağırdılar. Artıq onu burada hərkəstanıyırdı. O, qərargahın həyətinə qədəm qoyan kimi «Qəhrəman Xarqo buradadır», «Cəngavər Armed gəlir», deyə, yoldaşları onu alqışla qarşıladılar. Onların arasında təzə simalar da var idi. Dərhal bütün partizanlar Əhmədiyyəni dövrəyə alıb suallar yağdırmağa başladılar.

- Ruslar, deyilənə görə, yaman içəndilər?

- Ruslar ölümdən qorxmurlar?

- Ruslar qorxmaz igid olurlar? və s. suallarla Əhmədiyyəni söhbətə çəkdilər. Azərbaycanlı qəhrəman onların suallarına cavab verib, Sovet insanının həyatından danışdı.

- Rus zabiti Xarqo nə üçün fransızlara kömək edir? – bir gəncin sualı Əhmədiyyənin lap ürəyincə oldu.

- Ruslar fransızların dostudur. Həm də biz bir düşmənə qarşı vuruşuruq. Bu gün birləşməliyik, qüvvələrimizi birlikdə səfərbər etməliyik ki, amansız düşmənə qalib gələk.

Qərargah rəisi ona birgünlük istirahət verdi. Əhmədiyyə qərargah rəisinin yanından çıxıb yenə partizanlarla birgə əyləndi. Onlarla çoxlu söhbət etdi.

Axşam tərəfi meşəlikdə gəzişərkən qərargahın yerləşdiyi evə gəlib çatdı. Evin qarşısında partizanlar toplaşıb söhbət edirdilər. Əhmədiyyəyə elə gəldi ki, nəsə ciddi bir şey baş verdiyi üçün orada ciddi söhbət qızışıb. Onu görən anda partizanlar bir nəfər kimi ona sarı atılıb qucaqladılar.

- Armed, tapşırıq verilib, səfərə çıxırıq.

Əhmədiyyə qərargaha daxil oldu.

- Armed, hərbi sursatla dolu üç maşın Dijona tərəf gəlir. Onu kifayət qədər silahlı və güclü alman dəstəsi qoruyur. Onları zərərsizləşdirmək üçün 40 partizan ayrılıb. Dəstənin komandiri leytenant Kofmandır.

Leytenant Kofman özü də burada idi. Nəsə haqqında ciddi düşünürdü. Əhmədiyyə ona yaxınlaşdı. Kofman Əhmədiyyənin gözünə bir az bikef dəyirdi. Əhmədiyyənin gəldiyini görüb onu qucaqladı, bərk-bərk sıxıb bağrına basdı, elə bil, doğma qardaşı ilə görüşürdü.

Qərargahdan birgə çıxdılar. Leytenant Kofman:

- Xarqo, qardaş, gəl bir də öpüşüb-görüşək. Qismətdən qaçmaq olmaz. Bəlkə qayıtmadım. Qayıtmasam, bizə, qızıma məktub yaz. Yolun düşəndə, ailəmə bir baş çəkərsən, oğluma ürək-





dirək ver. Sənin kimi qəhrəmanın nümunəsi ona çox təsir edə bilər.

Bu sözlər Əhmədiyyəyə bərk təsir etdi, qəhər onu boğdu. Kofman elə hərarətlə, həssaslıqla danışırdı ki, elə bil, bu dəqiqə axırı çatacaq, dünyasını dəyişəcək.

Əhmədiyyə dərhal fikrə getdi. «Nə qızım var, nə də ki, oğlum. Heç ev-eşiyim də yoxdur». Bilirdi ki, qərargaha qayıdıb icazə istəsə, əməliyyata yollanmaq üçün ona icazə verməyəcəklər. Axı, o, təzə tapşırıqdan qayıtmışdı, həm də uzunmüddətli əməliyyatlardan sonra dincəlməli idi. Dəstənin yola düşmə vaxtını öyrəndi.

Axşam saat 8 olardı. Partizanlar maşına toplaşırdılar. Əhmədiyyəni görüb təəccübləndilər. O da tam hazır döyüş vəziyyətində gəlmişdi. Əynində alman zabitinin forması, SS-lərin aypara şəkilli dəmir lövhəsini də sinəsindən asmışdı, başına dəbilqə qoymuşdu. Çatan kimi o, leytenant Kofmanın motosikletinə minib, yük maşınının qarşısına keçib, onlara hərəkətə keçmək işarəsini verib irəli sürdü. Kofman Əhmədiyyənin niyyətini dərhal anlayıb, digər motosikletə əyləşib onun ardınca sürdü.

Yük maşınındakı partizanlar Əhmədiyyənin hərəkətindən vəcdə gəldilər. «Xarqo da bizimlədir», «Xarqo bizi tək qoymayacaq» deyə, onların sədası aşkar eşidilirdi.

Qərargah yerindən xeyli uzaqlaşdılar. Meşəlikdə qrupun yerləşməli olduğu əraziyə çatanda, motosikleti saxlayıb düşdü. Partizanlar da maşından yerə tökülüşdülər.

Əhmədiyyə onlara ağacların, kolların arxasında gizlənməyi tapşırdı. Əhmədiyyə özü alman zabiti formasında SS-çi kimi yolun kənarında oturub gözləməyə başladı.

Bero ilə Vasil də alman zabiti formasında əllərində avtomat onun yanında ayaq üstə dayanmışdılar. Uzaqdan maşın səsi eşidildi. Tezliklə karvanın ucu da göründü. Əhmədiyyənin oturduğu yerdən təxminən 100 metr aralıda idilər.

Əhmədiyyə əlindəki qamçını fırlada-fırlada silah-sursatı müdafiə edən almanlarla dolu maşının kənara çəkilməsinə göstəriş verə-verə irəliləyirdi. Maşın dayanan kimi, kuzovda əyləşmiş mayor rütbəli bir şəxs özünü maşından bayıra atıb, təbəssümlə ona tərəf irəliləməyə başladı. 5 metr qalmış Əhmədiyyənin tapançası işə düşdü. Elə bu an maşının üzərinə qumbara, güllə yağışı yağmağa başladı. Öldürülən öldürüldü, yaralananlar yaralandı, elə qalanları da təslim oldu.

Sursat olan maşınları partizanlar sürə-sürə qərargaha apardılar. Əsirlər dindirildikdən sonra güllələndi. Onları sağ buraxmaq olmazdı. Yerlərini bilib düşmənə işarə verə bilərdilər.

Əhmədiyyə dəstəni qərargaha gətirdikdən sonra motosikletə minib yenidən meşəyə sarı yollandı. Bu günün qənimətindən o, çox razı idi. Hələ kənddə yaşadığı vaxtlardan onda bir adət yaranmışdı. Kefi kök olub, özünü xoşbəxt hiss edəndə, həmişə meşəyə gedər, özü üçün tək-tənha gəzib dolaşardı. İndi də belə etdi. Sanki doğma Oxudda idi. Hələ üstəlik, əlinə fürsət də düşmüşdü. Kursant olduğu vaxtlardan motosiklet sürmək onun sevimli məşğuliyyətinə çevrilmişdi. Əlinə imkan düşübsə, fürsəti qaçırmaq olmazdı. Amma, əslində, bəlkə də artıq partizanların mühitinə öyrəşib, onlarla

həmkəndliləri kimi doğmalaşdığı üçün onun ovqatında belə dəyişikliklər baş vermişdi. Əhmədiyyə bir anlıq olsa da, gənclik nəfəsinin şövqü, ilğımı ilə nəfəs almağa başlamışdı.

İki saatdan da artıq dolaşıb qərargaha qayıtdı. Motosikletdən düşər-düşməz oraya toplaşmış partizanlar hay-küylə onu qarşıladılar, Əhmədiyyəni atıb-tutmağa başladılar, hər tərəfdən ona alqış sədaları gəlirdi. Leytenant Kofman xüsusi canfəşanlıq edirdi:

- Bu cür əməliyyat heç kimin ağlına da gəlməzdi. Sən həqiqətən də böyük qəhrəmansan!

Qərargah qarşısına toplaşanların hərəsinin ağzından bu kimi ifadələr hələ çox səsləndi.

Səs-küyə qərargah rəisi də çıxdı:

- Gəl, otağa.

Əhmədiyyə içəri keçdi.

- Bilirsənmi, əmri pozmusan - deyə, Əhmədiyyəni bir xeyli məzəmmət etdi.

- Yoldaş rəis, axı, mənə icazə verməyəcəkdiniz. Mənsə dostlarla birgə bu əməliyyatda iştirak etmək istəyirdim.

Ertəsi səhər tezdən Əhmədiyyəni təcili qərargaha çağırdılar. Otaqda yenə yüksək rütbəli zabitlər və generallar toplaşmışdılar. Əhmədiyyə onlar arasında Jak Düklo, Moris Torez, Pyer Paskinini tanıdı. Əhmədiyyə içəri daxil olan an hamı bir nəfər kimi ayağa qalxıb sıra ilə düzüldülər.

Fransa partizan korpusunun rəisi sıranın önünə irəliləyib onun əlini sıxdı, təşəkkür elan etdi. Korpus rəisi elan etdi ki, Armed Mişel hər iki əməliyyatı itkisiz başa vuraraq, böyük şücaət, igidlik qorxmazlıq nümunəsi göstərib. Burada bir neçə partizana, o cümlədən Əhmədiyyəyə orden və medallar təqdim edildi.

Partizanlara bu qoçaqlığa görə istirahət verdilər. Əhmədiyyə dostlarının yanına gələndə, onu hərarətlə qarşıladılar. Dostlar bir yerdə şənlənib, şəkillər çəkdirdilər. Əhmədiyyə ilə şəkil çəkdirməyi hamı özünə şərəf bilirdi və elə buna görə onların istirahət etdiyi yerə axışırdılar. Sonra istirahət edən partizanlara evlərinə baş çəkmək icazəsi verildi. Hər bir fransız onu özü evində qonaq görmək istəyirdi. «Xarqo ilə tanış olmaq mənim ailəm üçün böyük şərəf olardı», «Sən bizim ailəyə şərəf verə bilərsənmi?» və s. sözlərlə hərə bir neçə saatlıq da olsa, ona dəvət verirdi.

Əhmədiyyə qaldıqları yerdən çox uzağa getmək istəmirdi. Elə buna görə də yaxınlıqda yaşayan və dəstədə daim yanında olan 18 yaşlı Mişel adlı gəncin sözünü yerə sala bilmədi. Nədənsə, bəlkə də hələ yeniyetmə olmasına baxmayaraq, heç nədən çəkinməməsinə, digər yandan, hələ uşaq saflığına, səmimiyyətinə görə Əhmədiyyənin bu Mişelə böyük rəğbəti yaranmışdı. Daim onu qorumağa çalışır, qayğısına qalırdı. Əhmədiyyə onun sözünü yerə salmaq istəmədi. Alman zabiti formasını geyinərək, yola çıxdı.

Küçələrdə vəziyyət yenə qarışmışdı. Hamının sənədlərini, buraxılış vərəqəsini soruşurdular. Amma Əhmədiyyə zabit geyimində olduğundan ona dəyib-dolaşan yox idi.

Nəhayət, Mişelgilə gəlib çatdılar. Bu gəncin 2 qardaşı, 2 bacısı, təxminən 50 yaş civarında atası və yaşı 40-a qədər anası var idi. Özlərinə məxsus həyət-bacası olan, malikanəyə bənzər evdə yaşayırdılar.

Ailə onu səmimiyyətlə qarşıladı. Hal-əhval tutdular, xeyli söhbət etdilər.







Ertəsi gün Mişelin bacısı Marqole onu rəqs meydançasına dəvət etdi. Orada alman zabitləri və bir də fransız qızlarından başqa, heç kim yox idi. Bir xeyli rəqs edib əyləndilər. Artıq çıxmaq vaxtı idi. Elə bu an Əhmədiyyə cibinədki qumbaranı çıxarıb elə rəqs edə-edə qapıya tərəf addımlamağa başladı. Heç kim nəyin baş verdiyini anlamırdı. Hamıya elə gəlirdi ki, alman zabitlərindən biri yenə sərsəm çılğınlığını edərək, zarafat edir. Qapıya çatanda, Əhmədiyyə qumbaranın fitilini çəkib atdı. Onlar qapını tərk edib çıxanda partlayış sədası ətrafı bürüdü. Tələsə-tələsə rəqs meydançasından uzaqlaşmağa başladılar. Bu, iki patrulun diqqətini çəkdi. Onların qabağını kəsib sənəd tələb etdilər. Əhmədiyyə, guya, sənəd axtarırmış kimi ciblərində eşələnməyə başladı və qəfil tapançanı çıxarıb hər ikisini güllələdi.

Marqole özünü tam itirmişdi və deyəsən, nəyin baş verdiyini artıq heç anlamırdı. Ara yollarla özlərini Mişel gilə çatdırdılar. Qızın sifəti ağappaq ağarmışdı. Atası həyəcanla nə baş verdiyini soruşdu. Marqole bərk qorxmuşdu, amma özünü sındırmayıb, yorulduğunu söylədi və yataq otağına getdi.

Səhər xəbər yayıldı ki, rəqs meydançasında 50 alman, 18 fransız qızı öldürülüb, çoxlu yaralanan var. Evdəkilər də dərhal məsələnin nə yerdə olduğunu anladılar. Xəbər hətta partizanlara da çatmışdı.

Qərargaha qayıdanda rəis yenə otağına çağırdı:

- Xarqo, sən heç istirahətdə də dinc dayana bilmirsən. Qardaşım, sənə istirahət lazımdır. Özünü qoru, bizə hələ çox lazımsan - deyə, guya məzəmmət edirdisə də, Əhmədiyyənin bu hərəkətindən məmnunluğu da gözlərindən aydın hiss olunurdu.

1944-cü ilin aprel ayına qədər Əhmədiyyə partizanlarla birgə müxtəlif əməliyyatlarda iştirak etdi. Onları daha vacib sayılan Oş və Mondö Marsan şəhərləri arasında yerləşən dağlıq meşələrə göndərdilər. Burada da partizan dəstələri var idi. Amma hər dəfə bir yerə köç edəndə, onlara qoşulanların sayı artırdı. Qərargahda aparılmış siyahıya əsasən, partizanların sayı on iki min iki yüz əlli üç nəfərə çatmışdı.

# Ölüb, yenə dirilən

Həmin ilin qışı mülayim keçmişdi. Havaların isti keçməsi partizanların da xeyrinə idi. Onlar qışın soyuğu-sazağı, qarı-şaxtası ilə çox da mübarizə aparmamışdılar. Onlar bir neçə gün idi ki, yeni ərazidə qərarlaşmışdılar. Xəbər gəldi ki, Oş şəhərinin kəndlərindən birində partizanlara qoşulanların evlərinin yandırılması, ailələrinin sürgün edilməsi barədə əmr verilib və alman qoşunlarından bir dəstə əmrin icrası üçün kəndə göndərilib. Xəbəri bir naxırçı gətirmişdi. Onun sözlərinə görə, alman komendaturasında işləyən bir fransız polis 13 yaşlı kiçik qızını xəbər üçün dostluq etdiyi bir partizan ailəsinə göndərib. Həmin ailə də məlumatı bir kağız parçasına yazaraq, çörəyin arasına yerləşdirib naxırçıya veriblər.

Qərargah rəisi dağ ətəyində yerləşən kəndi üzük qaşı kimi mühasirəyə almaq əmrini verdi. «Kəndə nə bir alman zabiti, nə də bir alman əsgəri keçməlidir» tapşırığı gəlmişdi:

SS-lərin dəstəsi gündüz saat iki radələrində gəlib çıxdı. Əvvəlcə bir motosiklet göründü. Əhmədiyyə ehtiyat üçün əmri təkrarladı

- Mən deyənə qədər heç kim silaha əl atmasın.

Motosiklet onların pusqu qurduqları yerdən sağ-salamat keçdi. 15 dəqiqə sonra artıq maşın göründü. Bu, həmin an idi. Əhmədiyyə düşməndən hiyləgər tərpənmişdi. Bundan əvvəl keçən motosikletçi, sadəcə, yoxlama manevri edirmiş. Motosiklet keçəndən sonra yola ağac kötüyü qoydular. Maşın yaxınlaşırdı. Ağaca çatıb dayandı. Pusquya cəmi 15 metr qalmışdı. Əhmədiyyə hücum əmri verdi. Qumbara atıldı, partlayış səsi ətrafa yayıldı, güllələr maşına sarı yağış kimi yağmağa başladı. Almanlar nəinki atəş açdılar, deyəsən, hətta nəyin baş verdiyini də anlaya bilmədilər. Partizanlar 35 SS-çi meyiti saydılar. Uzaqdan daha bir maşın göründü. Partizanlar dərhal pusqu yerinə qayıtdılar. Maşın gəlib əvvəlki maşının yaxınlığında saxladı. Amma onun içərisində cəmi iki alman var idi. Onların da işini bitirdilər. Görünür, bu maşını fransızları daşımaq üçün yollamışdılar. Maşınlara od vurub yandırdılar. Əhmədiyyə partizanlara dağlara çəkilmək əmrini verdi, özü isə yerində qaldı.

Arbet onun niyyətini soruşdu

- Motosikletçini irəli buraxmışıq. Onun da payını verib qayıdıram, - deyə, Əhmədiyyə Arbetə də partizanlara qoşulmağı tövsiyə etdi.





- İcazə ver, mən də qalım. Bəlkə köməyim dəydi.

Artıq partlayış, güllə-boran səsini eşitmiş motosikletçi də arxada işlərin rəvan getmədiyini anlayıb geri qayıdırdı.

Motosikletçi yanan maşınları görüb bərk təşvişə düşdü. O, tez də aradan çıxmaq istəyirdi ki, avtomatın güllə növbəsi onu da digər 37 almanın cərgəsinə qoşdu. Əhmədiyyə motosiklete minib Arbetlə oradan aralandılar. Bir az getmişdilər ki, motosiklet söndü. Əhmədiyyə düşüb onun ora-burasına baxdı.

Arbet:

- Xarqo, at bu motosikleti, gəl gedək. Almanlar daha bir dəstə göndərə bilərlər, ələ keçərik.

- Narahat olma, motosikletdən anlayışım pis deyil. Görək bunun dərdi nədir - deyə, Əhmədiyyə motosikletin motor hissəsinə nəzər saldı. Çox keçmədi o, miniyin dərdinə əlac tapdı və onlar yenidən yola düzəldilər. Bir az getmişdilər ki, qarşıdan dörd alman motosikleti və bir minik maşını çıxdı.

- Bərk dur, Arbet, özünü itirmə - deyə, Əhmədiyyə sürət yığmağa başladı. Almanlar da onun ardınca düzəldilər. Almanlar get-gedə onlara yaxınlaşmağa başladılar. Atəş açmağı da unutmamışdılar. Əhmədiyyə motosikleti gah sağa, gah da sola bururdu ki, güllərdən yayınsınlar. Məsafə get-gedə azalırdı. Əhmədiyyə qəfil hiss etdi ki, almanların niyyəti onları öldürmək deyil, canlı ələ keçirməkdir. Əhmədiyyənin sürdüyü motosiklet nasaz, həm də köhnə idi. O, iki nəfəri apara bilmirdi. Əhmədiyyə anlamışdı ki, onlar ələ keçə bilərlər. O, fürsət düşən kimi, Arbetə sıçrayıb atılmağı və aradan çıxmağı əmr etdi.

- Motosiklet iki nəfərin yükünə tab gətirmir. İkimiz də ələ keçə bilərik. İmkan düşən kimi, atıl və meşəyə çəkil, sonra da partizanlara qoşul. Mən bunlarla özüm bacararam. Sən mənə görə narahat olma.

- Bu, olum, ya ölüm məsələsidir, mən heç yana gedən deyiləm, - deyə, qəzəblənmiş Arbet arxaya çevrilib atəş açdı. İki alman motosikletinin dağa-daşa dəyən səsi ətrafa yayıldı. O, geri qanrılıb daha bir atəş açdı. Bəli, üçüncünü də vurmuşdu. Daha bir motosikleti vurmağa ehtiyac qalmadı. O, özü yoxa çıxdı.

Amma maşın da özünü yetirməkdə idi. Maşından da güllə yağış kimi yağdırılırdı. Onlar yaxınlaşmaq üzrəydilər. Arbet qumbaranın ağzını açıb geri tulladı. Deyəsən, maşın bir az yubandı.

- Xarqo, daha patron və qumbaramız qalmayıb.

Əhmədiyyə motosikleti dağa sarı sürdü.

- Arbet, döngəyə çatan kimi sən tullan.

- Yox, səni qoyub heç yana gedən deyiləm.

- Sənə qəti şəkildə əmr edirəm! Əmrə tabe ol! Tullan!

Arbet çarəsiz qalıb əmrə tabe oldu və dərəyə çatan kimi atıldı. Əhmədiyyənin bir məqsədi var idi: almanları özü ilə çəkib sonra onlardan aralanmaq. Bu, həm də Arbetə uzaqlaşmaq, aradan çıxmaq üçün imkan verərdi. Dağın döngələri çox sərt idi. Həyəcan o həddə idi ki, artıq Əhmədiyyə də heç nəyi hiss etmirdi. Döngələrdən birində o, nəyin baş verdiyini özü də hiss etmədi. Motosiklet

20 metrə qədər uçub qayaya çırpıldı. Əhmədiyyə hara və necə düşdüyünü heç özü də anlamadı. Huşunu itirdi.

Sonradan Əhmədiyyə bildi ki, ölümlə həyat arasında olub. Dərənin dibi iki yüz metrə yaxın qazan imiş. Motosikletin qaya parçasına dəydiyini və dərəyə yuvarlandığını görüb almanlar onu ölü zənn edib, çıxıb gediblər. Həqiqətən də bu dərədə sağ qalmaq möcüzə idi.

Əhmədiyyə iki sutka burada yarımcan vəziyyətdə huşsuz qalır. Burada mal otaran naxırçılardan biri əvvəlcə motosiklet təkəri tapır. Ona çox qəribə gəlir ki, bu təkər bura necə düşüb. Ətrafı bir az da dolaşır. Motosikletin parça-parça olmuş hissələrini tapanda, anlayır ki, burada kimsə qəzaya uğrayıb. «Dərəyə kimsə düşüb» deyə, fikirləşir. Elə bu an aşağıdan kiminsə zarıdığını eşidir. Tez özünü yetirib, əlindəki qabdan ona su verir. Əl-üzünü yuyur. Paltarını çıxarıb yaralarını təmizləyir və sarıyır ki, qan itkisinin qarşısını alsın. O, yaralını xəzəllərin arasında gizlədib sürünü yiyəsinin evinə aparır. Qaş qaralanda geri qayıdıb yaralını götürüb öz evinə sürüyür. Partizanlarla əlaqəsi olan həkim Sen Jermeni evinə çağırır. Həkim yaralını görən kimi tanıyır. Ev yiyəsinə heç nə demədən dərhal əməliyyata başlayır. İşini qurtarandan sonra naxırçıya üzünü tutub deyir:

- Bilirsən, bu kimdir? Yəqin, eşitmiş olarsan, bu, Xarqodur. Rus zabiti, rus qəhrəman Xarqo. Qorxmaz, cəsur oğlandır. Almanlar əlindən qan ağlayır - deyərək, sonra bir az yüksək səslə öz-özünə düşünür, - Görəsən, o bu dərəyə necə düşüb, onu bura kim yuvarlayıb?

- Yəqin, almanlar ediblər. Orada tapdığım motosiklet hissələri alman markasıdır.

Həkim gün ərzində heç yana getmədi. Nə bilirdisə, etdi. Lakin iki gün huşsuz qalıb çoxlu qan itirmiş Əhmədiyyənin vəziyyətini adi ev şəraitində düzəltmək çox çətin idi. Əhmədiyyə gah ayılır, gah sayıqlayır, gah da zarıyırdı.

Ertəsi Əhmədiyyə gözünü açanda, ətrafında sevinc səsləri eşitdi. Kimlərsə atılıb düşür, sevinirdilər. O, tərpənmək istədi. Vücudunda ağrı hiss etdi, heç qımıldana da bilmədi.

Elə zənn etdi ki, yatıb, dəhşətli yuxu görür. «Ana, ata» deyə, gözləri yaşardı. Amma ayıla bilmirdi. Yenidən huşunu itirdi. Sonra yenə gözlərini açmaq istədi. Yenə ətrafında tanımadığı adamlar kütləsi gördü. Onlar ondan nəsə soruşurdular. Əhmədiyyə isə heç nəyi anlamırdı. Qəfil o, fransızca sözləri anlamağa başladı

- Sizə nə olub?
- Özünüzü necə hiss edirsiniz?
- Bizi eşidirsinizmi?
- Ürəyiniz nə istəyir?

Lakin Əhmədiyyə onların sorğusualına cavab verə bilmirdi. Əslində, özü onlardan soruşmaq istəyirdi ki, onlar kimlərdir, o, özü haradadır, bu evdə nə edir, ümumiyyətlə diridirmi, ölüdürmü, cənnətdədir, yoxsa cəhənnəmdə...

Axşama qədər bu mənzərə bir neçə dəfə təkrarlandı. O, gah ayılır, gah da huşunu itirirdi. Nəhayət, Əhmədiyyənin dodaqlarından pıçıltı kimi səslənən zəif, xəfif ifadələr eşidilməyə başlandı. Bu an naxırçı otağa daxil olur. Onun söhbət etməyə başladığını və özünə gəldiyini görüb sevincindən yerə-göyə sığmırdı. Tez-





tələsik özünü Əhmədiyyənin yatağının kənarına atıb, üzündən öpdü:

- Axşamınız xeyir. Ayılmağınızı gözləyirdim ki, sizinlə tanış olmaq, söhbət etmək şərəfinə nail olum. Özünüzü necə hiss edirsiniz, sizə nə kömək edə bilərik, ürəyiniz nə istəyir?

Əhmədiyyəni yalnız bir şey düşündürürdü. Onun xatırladığı son şey Arbetin motosikletindən tullanması idi. Onun Arbet ifadəsini otaqda heç kim anlamadı.

Əhmədiyyə, nəhayət, nə baş verdiyini düşünüb daşınmağa və anlamağa başladı. Özünə toxtaqlıq vermək üçün belə təsvir etdi ki, Arbet motosikletdən düşən kimi, kolluqda gizlənib. Əhmədiyyənin və almanların uzaqlaşdığını görüb və partizanlara qoşulmağa, qərargaha çatmağa tələsib. İndi onlarladır. Yəqin, indi Əhmədiyyəyə görə çox narahatdırlar. Axı, o, dəqiq bilirdi ki, bütün partizanların ona xüsusi rəğbəti var. İndi özünü partizanlara yetişdirməlidir ki, heç kim ona görə qəm yeməsin. Hamı bilsin ki, o, sağ-salamatdır, kefləri açılsın. Elə bunları düşünürdü ki, qəfil ağrı canını sıxdı.

Sonra o, almanlarla atışmanı xatırladı. Almanlarla motosiklet qaçdı-tutdusunun bütün səhnələrini xatırlamağa başladı.

Arbet həqiqətən də qərargaha yetişir. Əhvalatı olduğu kimi danışır. O, dərədən sıçrayan motosikleti də görür. Bu barədə xəbəri çatdıran Arbet hönkür-hönkür ağlayır. Onu sakitləşdirirlər. Qərargah rəisi əmr edir:

- Ölü, ya diri - Əhmədiyyə tapılmalıdır!

İki gün sonra həkim Sen Jermen Əhmədiyyənin naxırçının evində olması xəbərini partizanlara çatdırır. Xəbər hamını sevindirir. Amma onu görmək istəyirdilər: bəlkə həkimin dediyi adam heç Xarqo deyil.

Qərargah rəisi naxırçının yaşadığı kəndə dəstə ilə getməyi tapşırır. Çünki almanlar da Əhmədiyyənin kənddə olmasından xəbər tuta bilərdilər. Rəis tapşırıq verir ki, hər hansısa hadisə baş versə, almanlara müqavimət göstərib, Əhmədiyyə olduğu düşündükləri partizanın orada ələ keçməsinə imkan verməsinlər.

Gecə Bessek, Pınar, Perrakanon, Jozuz, Bero, Jote, Kolmak, Lusinskin, Vasil, Simon, Cülyetta, Sara, Valdek, Eliza, Antuana, Suranna, Mişel, Marqolle, Kofman, Arbeti Sen Jermenlə birgə naxırçının evinə yollanırlar.

Gizli yollarla, səs çıxarmadan naxırçının evinə çatırlar. Xarqonu yataqda görəndə, hamı sevinir. Növbə ilə onu öpüb bağırlarına basırlar.

Onlar naxırçıya böyük təşəkkür edib, ondan razılıq edirlər. Amma Xarqonu yerindən tərpətmək olmazdı.

Ailəyə pal-paltar, 50 min frank da pul verirlər ki, Əhmədiyyənin qulluğunda dursunlar. Həkimin dediyi hər bir şeyi tapıb alsınlar.

- Ondan muğayət olun. Elə edin ki, onun başından bir tük də əskik olmasın. O, bir orduya bərabər döyüşçüdür. Bir az vəziyyəti düzələn kimi onu buradan aparacağıq.

Bir neçə gündən sonra sübh tezdən onu kənddən çıxarırlar. Əvvəlcədən hazırlanmış planla onu maşınla bir dağ kəndinə gətirirlər.

Bura çox mənzərəli, bağ-bağatlı bir ev idi. Onun üçün əvvəlcədən də xüsusi yer hazırlamışdılar. Bütün lazım olan tədarük əvvəlcədən görülmüşdü.

Əhmədiyyəyə birdən-birə üç həkim qulluq edirdi. Ona lazım olan bütün dərmanlar, məlhəmlər tapılıb gətirilmişdi. Gündən-günə Əhmədiyyənin səhhəti yaxşılaşmağa başladı. Həkimlər onunla hər gün maraqlı söhbətlər edir, tez-tez əlindən tutub gəzintiyə çıxarırdılar. Partizanlar da onu tək qoymurdular. Növbə ilə tez-tez baş çəkirdilər.

Nəhayət, onun dəstəyə qayıtmaq vaxtı da gəlib çatdı. Əhmədiyyəni kənarda çox saxlamaq da olmazdı. Almanlar duyuq düşsəydilər, dərhal əməliyyat hazırlayıb onu tutmağa çalışacaqdılar.

Dəstəyə qayıdan Əhmədiyyə böyük sevinc, alqış sədaları ilə qarşılandı. Sanki böyük qəhrəmanı qarşılayırdılar.

Onun şərəfinə ziyafət verildi. Dəstə başçısı:

- Bu gün bura əlamətdar bir hadisəni qeyd etmək üçün toplaşmışıq. Səbəbkar böyük həyata yenidən qayıtmış, sıralarımıza yenidən qoşulan Xarqodur. Sovet ordusunun şərəfli sərkərdəsinin şərəfinə badələrimizi qaldıraq və onun sağlığına içək.

Məclis gurladı. Onunla badə qaldıran kim, şəkil çəkdirən kim. Bir sözlə, həmin gün partizan dəstəsində böyük bayram quruldu.





## Mahir əməliyyatçı

Tezliklə qərargahın yerləşdiyi əraziyə korpusun rəisi, general Jak Düklo da gəldi. O, Əhmədiyyəyə üzəri naxışla bəzədilmiş və xüsusi yazı olan tapança, enli bəzəkli finka bıçağı və xüsusi təşəkkürnamə təqdim etdi.

Xarqo partizanların sırasına qayıtmışdı, amma alman qəzetləri, onların təsiri altında olan nəşrlər hamısı yazırdılar ki, Xarqo alman təqibindən qaçarkən hündür qayalığa dəyərək parça-parça olub. Qəzetlərdə hətta motosiklet parçalarının fotoşəkilləri də yerləşdirilirdi. Bəzilərində hətta meyit şəkli də vurulur və bunun Əhmədiyyə olduğu iddia edilirdi.

Fransada bu məqalələr birmənalı qarşılanmamışdı. Bəziləri buna inanmır, bəziləri əfsanəvi qəhrəmanın, sadəcə, qayaya çırpılmaqla ölümünə inanmırdılar. İnananlar isə ayağa



qalxıb təzim edir, qəhrəmana son təşəkkürünü bildirir, onun ruhunun şad olması üçün dualar oxuyurdular. Onun haqqında hər yerdə - otellərdə, restoranlarda, parklarda, insanların toplaşdığı hər yanda danışırdılar. Hər yerdə də məhz bu mübahisələr aparılırdı: Xarqo ölüb, yoxsa almanlar bunu uydururlar? Fransa cəmiyyəti Əhmədiyyənin ölüm xəbərlərini belə qarşıladı.

Bu xəbərləri dəstədə də maraqla qarşılayırdılar. Bu məlumatları eşidən Əhmədiyyə gözlərinə inana bilmirdi. Bessek özünün əyani görməsi və inanması üçün Əhmədiyyəni belə məclislərdən birinə apardı. Masa arxasına toplaşanlar sakit oturmuşdular. Məclisi aparan birinci olaraq, qəhrəman Xarqonun ölümünü bir dəqiqəlik sükutla yad etməyi təklif edir. Bessekdən bərk qəhqəhə çıxır. Məclisə toplaşanlar ona qəzəblə, ikrahla tərs-tərs baxanda, Bessek özünü itirdi, amma tez də özünə gəlib ayağa qalxdı:

- Almanlar sizi yalan məlumatlarla yedizdirirlər. Xarqo sapsağlamdır, özü də bax, burada – sizin məclisinizdə iştirak edir - deyərək, Bessek əli ilə Əhmədiyyəni göstərir.

Hamı həyəcan içində idi. Nə deyəcəklərini, nəyə inanacaqlarını heç özləri də bilmirdilər. Yavaş-

yavaş Bessek özü məclisin ovqatını dəyişməyə başladı.

Təbii ki, Əhmədiyyənin ölümü haqda məlumatlar inandırıcı görünə bilərdi. Fotoşəkillərdən savayı, alman ordusunun yüksək komandanlığı Xarqonu təqib edib, onun ölümünə səbəb olmuş zabitləri orden və mükafatlarla təltif etmişdi.

Xarqo elə buna görə uzun müddət müalicə kursu keçə bilməzdi. O, yenidən üzə çıxmalı idi. Çünki onun sağ olması haqqında xəbərlər almanları daha da sarsıdacaq, Fransa Müqavimət Hərəkatına güc verəcək, almanlara inananların sırasını da xeyli zəiflədəcəkdi.

Bunun üçün ən layiqli addım məhz yüksək rütbəli alman zabitinin dərsinin verilməsi ola bilərdi. Xarqonun yeni tapşırığı da məhz qərargahın yerləşdiyi ərazinin komendaturasının rəisinin ələ keçirilməsi olur.

Partizanlar şəhərə gedib-gələn qızlardan biri olan Marini təlimatlandırıb alman komendaturasında makinaçı işləyən fransız qızla əlaqə qurmağı tapşırırlar.

Qız zabiti ələ vermək istəmirdi. Çünki o, makinaçısını həqiqətən sevirdi. Lakin onu başa salırlar ki, gec-tez almanlar bu torpaqdan çəkilib gedəcəklər. Həmin vaxt onun sevimli zabiti ya ölü olacaq, ya da özünü düşünərək aradan çıxmağa çalışacaq. Həmin vaxt qızın vəziyyəti heç də yaxşı olmayacaq. Onsuz da partizanların vətənə xəyanət edənlərə münasibəti və onlarla necə davranması da məlumdur.

Mari qızı razı salır. Bir gün o, özünü xəstəliyə vurub komendaturaya getmir və yataqdan çıxmır. Partizanlar bu an evi mühasirəyə almışdılar. Əhmədiyyə, Bessek və Vasil evin içində gizlənmişdilər. Axşam alman zabiti qızın evinə gəlir.

Qapının ağzında oturmuş balaca oğlandan kef-əhval tutub, sonra xəstə yatan Jannanın vəziyyətini və yerini xəbər alır. O, əli ilə otağı göstərir. Zabit otağa daxil olub, qızın yatağına yaxınlaşır. Qızın əlini öpmək istəyəndə, Əhmədiyyə peyda olur və onu yerə sərir. Əl atıb tapançasını çıxarmaq istəyəndə, artıq gec idi. Sifətinə üç tapança tuşlanmışdı. Onun əl-qolunu bağlayıb, ağzını dəsmalla tıxadılar. Bayırda pusqu quranlar həmin vaxt maşında zabiti gətirmiş növbətçiləri də yerbəyer etmişdilər. Zabiti sağsalamat əsir aparmaq mümkün deyildi. Elə buna görə də onu da öldürüb, cəsədini kolluğa atdılar.

Xarqonun qayıdışı belə oldu. Artıq onun səsi-sorağı da ətrafa yayılmağa başlamışdı. Bu əməliyyatın səsi sorağı Fransaya yayıldı və onun təsiri də tezliklə bəhrəsini verdi. Amma dəstə də uzun müddət eyni yerdə qala bilməzdi. Bu, təhlükəli idi. Çünki almanlar dəstəni zərərsizləşdirmək üçün min bir oyundan çıxacaqdılar.

Partizanlar Tuluza və Montabon şəhərləri arasında yerləşən dağlarda məskən saldılar. Bir neçə gün idi onlar istirahət edir, ətrafda dolaşır, möhkəmlənmək üçün ərazini öyrənirdilər.

Vaxt-vədə yetişirdi. Tapşırıq gəlməli idi. Əhmədiyyə dolaşa-dolaşa qərargahın yerləşdiyi evə gəldi. Hissiyyatı onu aldatmamışdı. Təzəcə xəbər gəlmişdi ki, almanlar ətrafda olan əraziləri bir-bir gəzib kəndlərdə partizanları aşkar edib öldürməli, əhalini isə uzaq yerlərə sürgün etməlidirlər. Bunun üçün xüsusi dəstələr də ayrılıb. Partizanlar





almanların basqın edəcəyi ilk kənd haqqında məlumat toplayıb, kəndi mühasirəyə aldılar. Bu kənd şəhərdən 10 kilometr aralıda yerləşirdi.

Günəşli, şux bir hava var idi. Alman maşınları yaxınlaşmaqdaydı. 10 metr qalmış leytenant Bessek əlindəki qumbaraları maşına sarı atdı. Partizanlar qəfil hərəkətlə hücuma keçdilər. Lakin almanların ardıarası kəsilmirdi. Onlar çox idilər. Bu an onların əsas ümidi olan pulemyotçu atəşi dayandırdı. Yəqin, onu vurmuşdular. Əhmədiyyə dərhal vəziyyəti qiymətləndirib, kolluqların arasından keçdi və özünü pulemyota çatdırdı. Həqiqətən də o, al-qan içində idi. Əhmədiyyə pulemyotu yenidən daraqlayıb düşmənə sarı tuşladı və qışqırdı: «dağlara çəkilin».

Əhmədiyyə döyüşün bütün yükünü üzərinə götürüb, yoldaşlarını sığortalamağa başladı. Haradan daha çox atəş səsi gəlirdisə, pulemyotu ora yönəldirdi. Dəstə yavaş-yavaş geri çəkilməyə başladı. Əhmədiyyə də onların hərəkətinə uyğun olaraq geriləmək barədə düşünməyə başladı. Bu zaman ayağından qəfil ağrı hiss etdi. Sanki ayağına od vurmuşdular. Onu yaralamışdılar. Artıq onun hərəkət etməsi mümkün deyildi.

- Hə, bu da sonu - deyə, bir anlıq onun fikrindən düşmənlə başa-başa döyüşmək, son nəfəsdə onun qarşısını almaq, dostlarını xilas etmək istəyi keçdi, - indi mən sizə göstərərəm.

Ayağındakı ağrı get-gedə ağırlaşır və dözülməz olurdu. Dönüb aşağı baxdı. İki güllə dəymişdi. Döyüşə-döyüşə bir qədər geri çəkilə bildi. Amma yox, daha taqəti qalmamışdı. Yerə sərildi. Atəş aça-aça sürünmək istədi, alınmadı. Artıq yoldaşlarının da səsi lap uzaqdan gəlirdi. Almanların qalın və kobud hayqırtısı isə lap qulağının dibində eşidilirdi. Əlini belinə atdı. Nə bir patronu qalmışdı, nə də qumbarası. Tapançasını da nəzərdən keçirdi. 4 güllə var idi:

- Hə, gəlin, üçü sizin, biri də mənim.

Çox qan itirmişdi. Gözləri qaralırdı. Bütün diqqətini cəmlədi ki, almanlar yaxınlaşan kimi sərrast atəş açsın, gülləsi yayınmasın. Qəfil gözündən qığılcım qopdu. Elə bil dünya başına dar oldu. Bir onu hiss etdi ki, alnından alman silahının qundağı dəydi.

Onu ayağından tutub iki kilometrə yaxın sürüdülər. Əynindəki paltar cırıq-cırıq olmuşdu, bədəni al-qan içində idi. Sonra onu qaldırıb çuval atırmışlar kimi, yük maşınına atdılar. Maşında ondan başqa bir neçə ağır yaralı partizan da var idi.

Almanlar elə yaralıların üzərində oturub şəhərə üz tutdular. Yol boyu əllərindəki fotoaparatla şəkillər çəkirdilər. Sonra qəhqəhə çəkib deyirdilər ki, onlara bu şəkillər qənimətdən daha yaxşıdır. Qəniməti haradasa qoyacaqlar, şəkillər isə hər zaman onları əyləndirəcək.

Əhmədiyyəni onlardan fərqli olaraq, başqa xəstəxanaya apardılar. Xəstəxana otağının pəncərələri dəmir barmaqlıqlarla sarınmışdı, qapı ağzında əsgərlər keşik çəkirdi, bir-birini əvəzləyirdilər. Əhmədiyyə çoxlu qan itirib özündə olmasa da, ətrafında baş verən hər şeyi sanki görür və anlayırdı. Bircə danışa bilmirdi. Almanlar dəstə-dəstə gəlib Əhmədiyyəyə baxır, qəhqəhə çəkib gülüşür və gedirdilər, elə bil, lap zoopark açmışdılar.

Sonra bir həkim gəldi, onun yarasını sarıyıb, iynə vurdu. Ertəsi gün bir

alman zabiti tərcüməçi ilə gəlib başının üstünü kəsdirdilər. Onu sorğu-suala tutmaq fikri var idi. Əvvəlcə, mülayim şəkildə, hətta qayğıkeşliklə suallar verdi. Sonra istədiyi cavabları ala bilməyincə, qəzəbləndi, qışqır-bağır saldı, hətta ayaq atıb onu təpikləmək də istədi.

Əhmədiyyə fikirləşdi ki, fransızca danışsa, rus zabiti olduğunu anlayacaqlar və onun üçün daha pis olacaq. Bəlkə də Xarqo olduğunu anlayıb daha böyük işgəncələr verəcəkdilər.

Zabit Əhmədiyyədən partizanların yerini, harada məskunlaşdıqlarını, neçə nəfər olduqlarını xəbər alırdı. Nə qədər təpik yesə, ağrıları onu ərşə çıxarsa da, bir kəlmə də demədi. «Ölmək – ölməkdir, xırıldamaq nə demək» deyə, dişlərini sıxıb dözürdü. «Siz bildiyinizi edin, onsuz da mən buradan salamat çıxmayacağam, qoy, dostlarım sağ olsun, vətən azad olsun» deyə, özünə toxtaqlıq verir, ağrıları beynindən uzaqlaşdırmaq istəyirdi.





## Salam, dar ağacı

Əhmədiyyə sorğu-suala çəkildiyi vaxt artıq partizanlar onun ələ keçdiyini bilirdilər. Onu da eşitmişdilər ki, əsir götürülənlərin hamısı dar ağacına çəkiləcək. Qərargahda dərhal Xarqonun azad edilməsi üçün plan cızıldı, əməliyyat hazırlandı. Dar ağacı şəhərin ən görkəmli yerində qurulmalı idi. Dar ağacının ətrafına zabit heyətinin meyxoşluqla oturub asılma səhnəsini izləməsi üçün qırmızı stullar da qoyulmuşdu. Bu səhnəni izləmək üçün şəhərdə, ətraf kəndlərdə yaşayan əhali də zor gücü ilə toplanmışdı. Hər tərəfdə çoxsaylı postlar düzülmüş və növbətçilik rejimi gücləndirilmişdi. Əhmədiyyənin başına torba keçirilmişdi, ağzını əski ilə bağlamışdılar ki, səsini çıxarmasın.

Əhmədiyyə hiss edirdi ki, amansız ölüm artıq onu haqlayıb. Amma belə ölmək istəmirdi. Lakin çarəsiz idi. Gözü önündən yenə həyatının ən gözəl anları bir lent kimi keçməyə başladı. Sonsuz arzular artıq onu tərk edirdi.

Artıq bütün zabitlər də yerlərini tutmuşdular. Əhmədiyyə bunu onların kobud ləhcəli səslərindən hiss edirdi.

Qəfil ona tanış səs eşidildi.

- Partizanı gətirin - bu, Əhmədiyyənin bərbər işləyərkən düyməni



basıb əsir götürməli olduğu mayor Qottfrid idi.

Lakin onun səsi bir daha çıxmadı. Kimsə ona yaxınlaşıb, qulağına nəsə pıçıldadı və o, qəzəb içində yumruğunu masaya çırpıb, tez də maşına oturub yola düşdü. Gedərkən, qəzəblə və amiranə şəkildə komanda verdi:

- Mən gedirəm. Zabit, əmri siz icra edin və mənə məlumat verin.

Dar ağacı qoyulan meydan tezliklə nədənsə narahatmış kimi qaynaşmağa, pıçıltılar ətrafı bürüməyə başlayır. Partizanı gətirməli olan maşın hələ də yoxdur. Səbirsizlik həyəcanı get-gedə artmağa başlayırdı. Budur, maşın göründü. Xaralı açıb Əhmədiyyəni çıxardılar, amma başı torbada qaldı. Maşın düz dar ağacının altında dayanmışdı. Kəndiri onun boğazına keçirdilər. Almanlar bu səhnəyə əl çalırdılar. Əmr səslənir:

- Maşın hərəkətə gəlsin!

Qəfil kəndir kəsilir, maşın sürətlə hərəkət etməyə başlayır. Lakin Əhmədiyyə açıq hiss edirdi ki, o, hələ ölməyib, sağdır. Axı ölmək üçün əvvəlcə onun boğazı sıxılmalı, nəfəsi daralmalı, xırıldamalı, beyninə hava getməməli və çabalayıb canını tapşırmalı idi.

Meydanı təşviş bürüyür. Almanlar çaşıb qalırlar. Qəfil zabitlərdən birinin əlini tapançasına atması və atəş səsinin eşidilməsi ilə aləm bir-birinə qarışır. Atışma başlamışdı. Əhmədiyyənin xəbəri yox idi ki, onun asılmalı olduğu meydana artıq partizanlar da yığışmışdılar və onlar da aranı qatmalı idilər.

Əhmədiyyə hiss edirdi ki, atəş səsləri get-gedə ondan uzaqlaşır. Amma bir şeyə artıq əmin idi: bu, partizanlardır, onu xilas etmək üçün gəliblər və planları, deyəsən, baş tutmaq üzrədir.

Maşın Əhmədiyyəni yaman bərk atıb-tuturdu. Birdən maşın dayandı, amma atəş səsi də eşidilmirdi. Başından torbanı çıxardılar. Qarşısında korpus komandiri, Düma deyə çağırdıqdan kapitan Delplon və Vasil dayanmışdılar. Çox keçmədi, onun başına toplaşanların sayı artmağa başladı. Hamı bir-bir onu qucaqlayır, sevincdən tullanıb düşürdülər. Alqış sədası hər tərəfi bürümüşdü.

Dərhal haradansa həkim də peyda oldu və onun yaralarını sarımağa başladı.

Bessek zarafatından qalmırdı:

- Xarqo, başına, deyəsən, ağ rəng qoydurmusan, olmaya, bu iki-üç günə qorxudan qocalmısan? Yox, deyəsən, ağ rəng qoydurmusan. Öz aramızdır, almanlar başına ağ rəng qoyublarsa, deməli, yaman dostlaşmısınız orada.

Hamı qəhqəhə çəkib gülüşdü. Ona bir şüşə tapıb gətirdilər. Əhmədiyyə heç özü də özünü tanıya bilmirdi. Saçı həqiqətən də ağarmışdı.

Beləcə, günlər keçir, Əhmədiyyə yenə sağalmağa başlamışdı. Artıq özünü yaxşı hiss edir və darıxmağa başlamışdı. Hamı hiss edirdi ki, Əhmədiyyə sakit dayana bilmir, əməliyyatlara qoşulmaq istəyir. Lakin həkim hər baş çəkəndə, deyirdi ki, hələ tezdir, Əhmədiyyə nə badə əməliyyata qoşulmaq barədə düşünsün.

Əhmədiyyə eşitmişdi ki, partizanlara Montabon şəhərinin dəmir yolunu partlatmaq əmri verilib. Komandanlığın diqqətindən yayınıb yoldaşlarının ardına düşdü. Yolda onu hiss etdilər. Ona yalvaran





kim, mane ola biləcəyini bəhanə gətirib fikrindən daşındırmaq istəyən kim – Əhmədiyyəni heç nə verdiyi qərardan daşındıra bilməzdi. Əlac kəsildi, onu da dəstəyə qoşdular. Bessek ehtiyatı əldən verməyib gizlicə Əhmədiyyədən muğayat olmağı tapşırdı. Onlar mənzil başına çatdılar.

Leytenant Bessek, Perrakonon, Rene, Jambar, Pınar körpüyə tərəf getdilər. Bessek məhz Əhmədiyyənin öyrətdiyi kimi körpüyə yaxınlaşdı. Onlar relsə mina qoyub qayıtdılar.

Dəstə bir kilometrə yaxın ərazidən uzaqlaşdı, qrup-qrup bölünüb kolluqlarda gizləndi, gözləməyə başladılar.

- Xarqo, ürəyim yaman bərk döyünür. Mina partlamasa, elə burada ürəyim partlayıb öləcəyəm.

- Narahat olma, hər şey yaxşı olacaq. Sən bacardığın hər şeyi düz etmisən.

Çox keçmədi, qatarın səsi eşidildi, ardınca sanki bir şəhəri göyə sovurubmuşlar kimi, tüstü, səs aləmi bürüdü.

Bessek qeyri-ixtiyari Əhmədiyyəni qucaqlayıb bağrına basdı. Dəstə gördüyü işdən məmnun idi. Lakin son döyüşdə itirdikləri yoldaşların ağrı-acısı hələ də onları yandırırdı. Yolboyu onlar qarşılarına çıxan bütün dirəkləri, teleqraf naqillərini qıra-qıra qayıdırdılar. Qarşılarına çıxan almanlara aman vermədən öldürürdülər.

Son qəhrəmanlıqlarına görə, Əhmədiyyə ali komandanlığın daha bir mükafatına layiq görüldü. «Tarn et Garonne» korpusunun generalı Pyer Paskini qızıl qol saatını şəxsən təqdim etdi.

Az sonra dəstə yerini dəyişməli oldu.

# İki həmvətən - iki partizan

Günlər Marsel, Albe və Lion şəhərlərini əhatə edən dağların kənd və qəsəbələrində, malikanələrində keçirdi. Əraziyə yenicə yerləşmişdilər. Ətrafı gəzib dolaşır, gözdən keçirirdilər. Bir gün uzaqda tanış olmayan formada, naməlum tonda danışıq səsi eşitdilər. Dərhal Düşale gizlənmək əmri verdi. Yad adamlar onları təşvişə salmışdılar. Onlar hücum üçün qərargah komandirinin əmrini gözləməyə başladılar. Birdən Düşale əmr verdi:

- Çıxın.

Bunu o qədər sakit və təmkinlə dedi ki, hamı çaşıb qaldı.

- Narahat olmayın, bunlar italiyalı partizanlardır. Onlar bir-biri ilə səmimiyyətlə və mehribanlıqla görüşdülər. Partizanlardan biri italyan dilini bilirdi və tərcüməçilik etməyə başladı. Birdən komandir Əhmədiyyəni səslədi.

- Əhmədiyyə onlara tərəf gəldi. Hamının ovqatı yüksəlmişdi.

- Xarqo, sizi təbrik edirəm. Sizə özəl şad xəbərim də var.

- Buyurun, eşidirəm.

- İndi sizi həmvətəninizlə tanış edəcəyəm.

Əhmədiyyəni maraq bürüdü. Açığı, ürəyi tez-tez döyünməyə başladı. Axı nə vaxtdandır Vətəndən bir ins-cins görməyib, az qala, bir ömür qədər vətəndən uzaqlaşıb, sanki yadlaşıb. «Vətənindən» sözünü eşidən kimi gah qəhər onu boğdu, gah maraq üstələdi, gah da gözləri yaşardı. Sanki bu an anladı ki, Vətəndən şirin heç nə yoxdur. Onun dağı, daşı o qədər əzizdir ki, bəlkə elə bu an Vətən torpağının bir parçasını qucaqlamaq, bağrına basmaq, topağı əlinə almaq üçün həyatının olan-qalan hissəsini də qurban verməyə hazırdı.

Komandir əli ilə ona bir nəfəri işarə etdi. Əhmədiyyə kövrəlidiyini hiss edərək, bir az da qırıq səslə:

- Tanış olaq, mən Əhmədiyyə Cəbrayılovam. Azərbaycandanam.

- Mən də Bakıdanam. Mehdi Hüseyn-zadəyəm. Ancaq harada doğulduğunuzu demədiniz.

- Nuxadanam, Oxud kəndindən.

Onlar bir xeyli həsrətlə bir-birinə baxdılar. Əslində, bir-birinə deyiləcək sözləri çox idi, hədsiz çox idi. Amma nədənsə nə Əhmədiyyədən, nə də Mehdidən bir kəlmə çıxırdı. Elə bil, dilləri qurumuşdu, elə bil, sözləri qurtarmışdı. Bəlkə də bir-birindən soruşacaq, xəbər alacaq sözləri o qədər çox idi ki, hansından başlamaq lazım olduğunu müəyyən edə bilmirdilər.

- Sizin haqqınızda həddən artıq çox eşitmişəm. Səsiniz sorağınız bütün Avropadan gəlir. Xarqo, Armed Mişel deyəndə, almanlar tir-tir əsirlər. Elə bil, onları ildırım vurur.









Cəsarətinizlə fəxr edirəm. Ən əsası, fəxr edirəm ki, azərbaycanlısınız. Sizin qəhrəmanlığınız mənə sizinlə hər yanda öyünməyə əsas verib.

Düşale söhbətə qoşuldu:

- Xarqo, bilirsən Mixaylo kimdir?

Əhmədiyyənin dili-ağzı qurumuşdu, nə deyəcəyini heç özü də bilmirdi. Sanki xəyallar artıq onu doğma Azərbaycana qaytarmışdı.

Düşale sözünə davam etdi:

- İtaliyada almanların gözünün odunu yeyən, canına üşütmə salan, Apenninləri lərzəyə gətirən, gözəgörünməz, almanların dili ilə desək, şeytan, ümumiyyətlə, aylarla, illərlə qəhrəmanlıqlarından danışsaq belə, bitib-tükənməyəcək dastanlara qəhrəman olacaq bir şəxs. Bax, bu, həmin Mixaylo, sənin həmvətənin Mehdidir.

Onlar dörd saata yaxın bir yerdə oldular. Partizanlar iki azərbaycanlının bir-biri ilə şirin-şirin söhbət edib, bir-birinə ürək açması üçün şərait yaratdılar. Onlara mane olmamağa çalışdılar. Axı hamısı ya öz vətənində, ya da doğma el-obasına yaxın idi. Bu iki qəhrəmanın bir də nə vaxt üz-üzə gəlib qucaqlaşacağı, dərdləşəcəyi heç məlum deyildi. Ümumiyyətlə, adı Avropaya dillər əzbəri olmuş bu qəhrəmanlar bir daha görüşə biləcəkdilərmi? Tale onlara nə hazırlayıb, müharibənin sabahkı hökmü necə olacaq – kim bilir...

Ayrılanda onların bir-birinə son sözü

- Özündən muğayat ol.

- Sən də özünü qoru, - oldu.

Artıq bir-birindən ayrılmışdılar, Mehdi gedə-gedə geri dönüb:

- Bakıda görüşərik, - deyə, Əhmədiyyəyə əl yellədi.

Onun məhz bu obrazı ömrünün sonuna qədər Əhmədiyyənin bütün müharibə illərindən qoruyub, daim xatırladığı ən şirin xatirəyə çevrildi. Onlara nəinki Bakıda, ümumiyyətlə, görüşmək bundan sonra qismət olmayacaqdı. Mehdi Adriatika dənizin sahillərində qəhrəmanlıqla əbədiyyətə qovuşacaqdı.



# Partizan həyatının sonu

Almanlar məğlub olacaqlarını artıq dəqiq bilirdilər. Buna görə Fransanı soyub talayır, qiymətli hər nə varsa, Almaniyaya daşıyırdılar. Onlar son vaxtlar daha əzazil olmuşdular. Artıq partizanlara rəhm etmir, qarşılarına çıxanları məhv edirdilər, yerli əhaliyə də münasibətləri dəyişmişdi. Şübhələndiklərinə, ailəsində partizan olanlara əzablı işgəncələr verir, zülm edirdilər. Partizanlar ailələrinə xətər gəlməsin deyə, onları başqa şəhərlərə köçürürdülər. Buna görə də almanlara müxtəlif yerlərdə və istiqamətlərdə zərbələr endirilməli idi ki, qorxuya düşüb, bu planlarını bir az səngitsinlər və Fransa mədəniyyətinin talanması, insanların qul kimi vaqonlara doldurulub daşınmasının qarşısı alınsın.

Əhmədiyyə dalbadal eyni planlı iki əməliyyatın yerinə yetirilməsində iştirak etdi.

Birincisi, Tuluza şəhərində baş verdi. Tərslikdən həmin gün yaşlı partizan Fransua dünyasını dəyişmişdi. Müharibədə, xüsusən də partizan dəstəsində insanın öz ölümü ilə dəyişməsi adi hadisə deyildi. Lakin xəbər gəldi ki, almanlar yaşlı, qadın və uşaqdan ibarət bir qrupu Almaniyaya köçürmək fikrindədirlər. Komandanlıq dərhal maklarla birgə əməliyyat planı tərtib etdt. 10-12 nəfərlik dəstə faşistlərin bu niyyətinin qarşısını almalı idi.

Dəstələrdən birinə Əhmədiyyə başçı təyin edildi. Tuluzadan kənarda yerləşən kiçik stansiyalardan birinə çatdılar. Hamısı alman ordusuna məxsus geyimdə idi. Onları feldfebel geyimində bir zabit müşayiət edirdi. Onlar zarafatlaşır, gülüşürdülər. Bu, elə Əhmədiyyənin qrupu idi.

Eşalon stansiyaya yaxınlaşdı. Stansiya kiçik olduğundan, qatar burada çox dayanmayacaqdı. Onlar qatara atıldılar. Alman əsgərləri onlardan nəsə soruşmağa macal tapmamış eşalon yerindən tərpəndi. Parovoz kabinəsində alman əsgəri ondan nəsə soruşmağa başladı. Əhmədiyyə fikirlərinə qapılıbmış kimi özünü eşitməməzliyə vurub, cavab vermədi. Ona meşəyə çatana qədər vaxt udmaq lazım idi. Qatar sürət yığaraq meşə ərazisinə daxil olan kimi avtomatdan atəş səsi eşidildi. Bu, Əhmədiyyənin silahı idi. Onun atəşi həm də digər dəstə üzvlərinə atəş komandası idi. Səs get-gedə çoxaldı və gurlaşdı.

Parovoz kabinəsindəki maşinist, köməkçisi və ocaqçı nə baş verdiyini heç özləri də anlamırdılar. Bir qədər də təəccübdən özlərini itirmişdilər. Onlara qəribə gəlirdi ki, bu alman zabiti nə üçün öz yefreytorunu vurub öldürdü. Qorxudan onlar Əhmədiyyənin fransızca qatarı saxla komandasını da anlaya bilmirdilər. Əhmədiyyə əlini maşinistin sinəsinə basıb əmri təkrarladı və qışqırdı:

- Maklar!

- Nə? – maşinistin təəccüb dolu baxışları ilə əyləci basması bir oldu.

O, artıq özünə gəlməyə başlamışdı. Əhmədiyyə onlara qatardan atılmaq əmri verdi və özü də onların ardınca tullandı.

«Maklar! Maklar!» sədası ətrafa yayıldı. Əsirlikdən qurtulan yüzlərlə insan bir az qorxu, bir az da təlaş içində dağlara tərəf qaçmağa başladılar. Əhmədiyyə və dəstəsi alman əsgərlərini qırıb qurtardıqdan sonra silahları da yığıb dəstəyə qayıtdılar.

Onları böyük sevinc və gurultu ilə qarşıladılar.

Delplon Əhmədiyyənin məlumatını dinlədikdən sonra dedi:

- Sağ ol, Armed Mişel. Sən bu gün neçə-neçə Fransa ailəsini xilas etdin. Sənin bu qəhrəmanlığın heç vaxt yaddan çıxmaz.

Lion ətrafında vəziyyət çox gərgin idi. Hitlerçilər bura artilleriya ilə gücləndirilmiş xüsusi cəza batalyonu yerləşdirmişdilər. Almanlar bütün ətrafı ələk-vələk edirdilər. Burada partizanlara böyük zərbələr vurulurdu. Tank qoşunları ilə vuruşmaq partizanlar üçün çox çətin idi. Onlar Fransanın, demək olar ki, bütün ərazilərinə aparan yollarda nəzarəti hədsiz gücləndirmişdilər. Hərəkət etmək olmurdu. Elə ilk növbədə, bunun qarşısı alınmalı idi. Amma əsas məqsəd başqa idi. Baş qərargaha məlum olmuşdu ki, muzeylərdə, arxivlərdə olan qiymətli, xüsusi dəyərli və tarixi əhəmiyyətə malik olan əşyaların, eksponatların qarət olunmasına mane olsunlar. Ən vacibi, buradan sadə Fransa əhalisini kütləvi şəkildə Almaniya istiqamətində aparacaqlar. Qərargahda yeni əməliyyat planı hazırlanırdı.

Lakin ilk əvvəl ərazi öyrənilməli, əsas zərbə hədəfləri seçilməli idi. Bunun üçün kəşfiyyat aparmaq məcburiyyəti yaranmışdı. Amma qərargah rəisi Əhmədiyyənin bu əməliyyatda iştirakına razı deyildi:

- Xarqo, sən hələ tam sağalmamısan, get, istirahətini davam etdir. Narahat olma, sən sağalana qədər işlərimiz hələ çox olacaq. Deyəsən, hələ bundan sonra daha gərgin işləməli olacağıq.

Partizanlar artıq hazırlaşmışdılar. Hamısının əynində alman ordusu heyətinin geyimləri var idi. Əhmədiyyə də alman leytenantı formasını geyinib dəstəyə tərəf gəldi. Onu görənlər heç nəyə təəccüblənmədilər. Artıq Əhmədiyyənin belə inadlarına öyrəncəli olmuşdular. Qərargah rəisi onu görüncə özündən çıxdı:

- Sən, deyəsən, ipə-sapa yatmaq fikrində deyilsən. Nədir, sənin əlqolunu bağlayaq?

- Komandir, səbrim çatmaz. Nə olacaqsa, qoy olsun. Bu həyatda bir dəfə yaşayırıq. Həyatımın qalan hissəsini peşmançılıq içərisində keçirmək istəmirəm. Şəhərin bu istiqamətində heç olmamışam. Gedib oraları da görsəm, pis olmaz. Həm də buralarda məni tanıyan da yoxdur.

Qərargah rəisi yumşaldı.

- Yaxşı, sən deyən olsun.

Onlar şəhərin stansiya yerləşən hissəsinə tərəf yola düzəldilər. Deyilənə görə, artıq qüvvəsi tükənməkdə olan almanlar müxtəlif millətlərdən olan qoşun hissələri düzəldib döyüş bölgələrinə göndərir. Deyirdilər ki, burada da almanlar

və fransızlarla yanaşı, serblərə, balkanlılara və digər millətlərdən olan əsgərlərə rast gəlmək olur.

İmkan olan kimi ən böyük manealərdən birini aradan götürmək və ya güclü zərbə endirmək lazım idi. Buna görə dəstə üzvləri həm də kimyəvi partladıcılar da götürdülər. Əslində bu, təhlükəli iş idi. Çünki istənilən yoxlama zamanı onların üzərindən «Molotov kokteyli» çıxsaydı, elə yerindəcə güllələyərdilər. Şəhərə partizanların soxulduğu elan edilər və nəzarət lap gücləndirilər, şəhər əhalisinə isə aman verməzdilər. Buna görə dəstəyə kifayət qədər təcrübəli partizanlar daxil edilmişdi. Onun yanında, gənc olmasına baxmayaraq, elə ilk günlərdən partizan dəstəsində Əhmədiyyənin dostu olmuş Marsel Pyer və parisli Filipp də gedəcəkdilər. Kapitan Düma Lionlu dərzi Jaklini də dəstəyə əlavə etdi.

- Belə bir iş üçün gənc qazı aparmaq nə dərəcədə düzgündür - deyə, Əhmədiyyə etiraz etdi.

- O, Lionda yaşayıb. Şəhəri hamınızdan yaxşı tanıyır, sizə bələdçilik edəcək. Şəhərdə tankların yerini də dəqiq bilmirik.

Yolüstü dəmir yolunun üzərindəki yolayrıcının yaxınlığında planı bir də müzakirə etdilər. Şəhərə iki-iki getmək lazım idi. Onlar bir-birindən bir az aralı irəliləyəcəkdilər. Qabaqda Əhmədiyyə Jaklinlə gedəcəkdi. Xeyli gəzib dolaşdılar, əsas obyektlərin yerini müəyyən etdilər. Lakin tankların yerini təyin edə bilmirdilər.

- Armed, bilirsən, müharibədən əvvəl bu yaxınlıqda mənim bir rəfiqəm yaşayırdı. Gəl, bir onlara da baş çəkək. O da kommunist idi. Atası İspaniyada beynəlmiləlçi briqadanın üzvü idi, orada həlak olub. Rəfiqəm Lionda anası ilə yaşayır. Bəlkə onlara baş çəkək? Bəlkə bir məlumat da ala bildik.

- Hə, pis fikir deyil.

- Amma... - qız birdən təntidi.

- Sənin alman geyimin... heç bilmirəm... Raymonda alman geyimində səni tanımayacaq və dərhal da qapısından qovacaq.

- Bəlkə başa salaq?

- Biz başa salana qədər... Amma yoxlamaq olar. Gəl, gedək.

Köhnə dördmərtəbəli bir binanın qarşısına çatdılar. Evin qapısının astanasına çatmışdılar ki, tindən tankçı geyimində iki alman peyda oldu. Qəfildən hər ikisi bir-birinə baxıb az qala sevincdən bir-birinə sarılacaqdılar. Amma elə də olmuşdu. Kəşfiyyatçı partizan instinkti işə düşmüşdü. Tankçılar onların yanından keçəndə:

- Gör, bir necə sarılıb. Bu piyada qoşunlarının həmişə bəxti gətirib. Əsas işi biz görürük. Onlar hamıdan qabaq şəhərə girib ən yaxşı qızları bişirirlər, - deyib, keçdilər.

Əhmədiyyə dəqiq müəyyən etdi ki, tanklar məhz burada, yaxınlıqdadır. O, Jaklinə almanların dediyi ifadələri tərcümə etdi. Əhvalları bir qədər yaxşılaşdı.

- Hə, yadıma düşdü. Düz bu evin arxasında iri qaraj da var idi.

Bəxtləri gətirmişdi. Raymonda da evdə idi. Qapını açan kimi Jaklini görüb az qala sevincdən atılıb-düşəcəkdisə, alman geyimində olan Əhmədiyyəni görən kimi üz-gözü turşudu, rəngi dəyişdi. O, reaksiya verməyə macal tapmamış Əhmədiyyə lap astadan fransızca ona dedi:

- Mən də partizanam, narahat olmayın.







Raymonda onları evə buraxdı. Qısa hal-əhvaldan sonra Əhmədiyyə arxa tərəfə açılan pəncərəyə tərəf getdi. Evin 30-40 metrliyində alman tankları bir-birinin ardınca düzülmüşdü.

Əhmədiyyə Jaklini digər partizanları gətirməyə göndərdi. Tezliklə o, Filipp və Pyerlə qayıtdı. Qalanları onların dəstəyə qayıdışı üçün yollarda keşik çəkib, lazım olsa, köməyə yetişəcəkdilər.

Döyüş nöqtələrini müəyyənləşdirib, partlayıcı şüşələri tanka atacaqları istiqamətləri bir də razılaşdırdılar, sonra qızlara həmin dəmir yol ayrıcına gedib gözləməyi tapşırdılar.

Qərarlaşmışdılar ki, onlara atəş əmri Əhmədiyyənin atdığı ilk partlayıcının səsi olacaq. Tezliklə, müxtəlif istiqamətlərdən partlayış səsləri eşidilməyə başladı. Tanklar olan yer qəfil zabit-əsgərlə dodu. Qışqırıq səsləri aləmi bürümüşdü.

Bir qədər hay-həşirdən sonra almanlar ayıldılar ki, atəş açmaq da lazımdır. Hara gəldi, atəş açırdılar. Əhmədiyyə sürünə-sürünə Filippə tərəf gəldi. O, hərəkətsiz idi. Lakin ondan səs-səmir çıxmırdı. Güllə alnından dəymişdi. Amma onu özləri ilə apara bilməyəcəkdilər. Sənədlərini götürüb aradan çıxdılar. Tapşırıq yerinə yetirilmişdi.

Sonrakı məsələlər artıq aydın və asan idi. Bundan sonra Liona elə bir təşviş düşmüşdü ki, partizanlar burada rahat hərəkət edə bilərdilər.

Muzey eksponatları və Almaniyaya qovulan eşalonların qarşısının alınması üçün tapşırığa və plana uyğun olaraq, partizanlar stansiya yaxınlığında münasib yer seçib gözləməyə başladılar. Əhmədiyyə kəşfiyyatçı gözü ilə ətrafa nəzər salıb, yoldaşlarına düşündüklərini çatdırdı.

Sonra partizanlardan ayrılıb daldalandıqları yerdən çıxdı. Stansiya yanındakı mağaza-qəhvəxanaya tərəf üz tutdu. İçəridə olanlara fikir vermədən piştaxtaya yaxınlaşıb içki sifariş etdi. Çubuqla stəkanında eşələnməyə, hərdən bir qurtum içə-içə ətrafa göz gəzdirməyə başladı.

Bu vaxt bir alman zabiti onun lap yaxınlığındak piştaxtaya yaxınlaşıb içki sifariş etdi. Sonra Əhmədiyyəyə diqqətlə baxıb gözlərini qıımışdırdı. Əhmədiyyə ona heç fikir vermirmiş kimi öz işində idi.

Elə bu vaxt qatar fitinin qışqırığı ətrafı bürüdü. İçkisini başına çəkib elə saymazyana şəkildə qapını açıb bayıra çıxdı, stansiyaya tərəf üz tutdu. Qatar stansiyada dayandı. Pəncərə yerləri dəmir barmaqlıqlarla baglanmış vaqonlardan hay-haray, qışqırıq səsləri eşidilirdi.

Alman zabiti onun ardınca bir qədər irəlilədikdən sonra dayandı. Qatar yerindən tərpənən kimi Əhmədiyyə sıçrayıb, ayağını vaqon pilləkəninə qoydu. Əvvəlki vaqonda alman zabitləri yerləşdirilmişdilər. Bu vaqonda isə hamısı fransızlar idilər. Qapı-pəncərəsi bağlı idi. Vaqonda qiymətli eskponatlar, müxtəlif əşyalar açıq-aydın görünürdü. Əhmədiyyə mindiyi vaqonda gözətçilər qoyulmuşdu. Onlardan biri Əhmədiyyəyə müraciətlə:

- Cənab zabit, nahaq bu vaqona mindiniz. Sizin vaqonunuz qabaqdakıdır.

- Özümü vaqona zorla çatdırdım. Başqa çarəm qalmamışdı. Eybi yox, gələn stansiyada qarşıdakı vaqona keçərəm - deyə, Əhmədiyyə cavab verdi.

Qatar stansiyadan aralanıb müəyyən yol qət etdikdən sonra Əhmədiyyə gözətçiləri bir-bir zərərsizləşdirib vaqondan atmalı idi. O, gözətçilərdən biri ilə söhbətə başladı. Vaqon meşəlik sahəyə yetişmişdi. Artıq partizanların yerləşdiyi sahəyə çox az qalmışdı: onun işarəsini gözləyirdilər.

Əhmədiyyə şalvarının ətəyini düzəltməyə hazırlaşırmış kimi aşağı əyildi, dərhal tapançasını çıxarıb gözətçilərdən birini vurdu. Sən demə, o biri gözətçinin tüfəngi üst ayaqda hazır vəziyyətdə imiş. O da gözünü qırpmadan atəş açdı. Güllə Əhmədiyyənin boynuna tuş gəlmişdi. Əhmədiyyə tapançasını ona sarı yönəldəndə, əsgər təpiklə onu vurub vaqondan saldı. Partizanlar elə zənn etdilər ki, artıq Əhmədiyyəni itiriblər. Amma tapşırıq elə tapşırıqdır. Əvvəlcə əmri yerinə yetirmək lazım idi. Partizanlara rəhbərlik edən Bessek, həmçinin Borlisi, Vasil, Valdek, Janbar, Kolmak, Bero, Jorir, Pınar, Arbet və başqaları vaqonlara tərəf qaçaraq, qapıları bir-bir açır, nə qədər alman varsa, hamısını xüsusi qəzəb və qəddarlıqla məhv edirlər. Fransızları və dəyərli əşyaların hamısını meşəyə tərəf daşıyırlar. Nəhayət, işi başa vurduqdan sonra Bessek partizanlara əməliyyatı tamamlamağı tapşırıb, Vasil, Janbar, Kolmakla Xarqonu axtarmağa başlayırlar. Onun nə ölüsü, nə də dirisi tapılır. Amma yubanmaq olmazdı. Artıq duyuq düşmüş almanlar yaxınlaşmaqda idilər. Onlar kor-peşman geri çəkildilər.

Almanlar, axır ki, vaqonun soyulub-talandığı yerə gəlib çatdılar. Hadisə yerinə bir general da gəlmişdi. O, ətrafdakılara göstəriş verirdi. Onun tapşırığına əsasən, xüsusi reqaliyası olan zabitlərin meyitlərini yığırdılar ki, onları xüsusi hörmət-izzətlə dəfn etsinlər. Vaqonları bir-bir gəzib partizanların dağıntılarını peşmanlıqla seyr edirdilər. Qatarın axırına çatanda, relsin kənarında alman zabiti geyimində bir nəfərin əlində tapança ilə uzandığını gördülər.

- Onu da götürün. Görünür, xüsusi qəhrəmanlıqla döyüşüb. Amma ömrü bura qədərmiş.

Əsgərlər həmin zabitə tərəf yüyürürlər. Amma ona çatanda, əsgərlərdən biri nəsə məlumat verir və dərhal əsgərlərin üzərində dayanmış zabit generala yaxınlaşıb məruzə edir:

- Cənab general, onun üzərində heç bir sənəd yoxdur. Partizanlar onu öldürüb silahını da mənimsəyiblər.

Elə bu vaxt onun ayaqlarından yapışmış əsgərlər səndələyirlər. Biri çığırır:

- O, hələ ölməyib, sağdır, nəfəs alır, bədəni istidir, ürəyi də döyünür.

General özü də dərhal maşından düşüb zabitə yaxınlaşır. Əmr verir ki, onu təcili xəstəxanaya çatdırsınlar.

- Həkimlərə deyin ki, nəyin bahasına olursa-olsun, bu zabiti sağaltsınlar. Özüm də tezliklə gəlib baş çəkəcəyəm.

Həkimlər təcili əməliyyat otağını hazırlatdırıb naməlum zabiti cərrahiyyə masasına uzadırlar.





## Yeni əsirlik - alman komendantı

Bir neçə saatdan sonra generala məlumat verilir ki, zabit uğurla əməliyyat olunub, artıq ölüm təhlükəsi də yoxdur. Bu tapşırığı verən general Jüber imiş. Əhmədiyyə sifət quruluşuna görə general Jüberə oxşayırmış. Hamı da elə bilir ki, o, generalın qohumu olduğundan belə tapşırıq gəlib. Onun xüsusi tapşırığı əsasında, demək olar ki, bütün xəstəxana bu zabitin başına pərvanə kimi fırlanır, onu hər bir qayğı ilə əhatə edirlər.

Əhmədiyyə gözünü açanda, ətrafda olan xəstələrin, həkimlərin, tibb personalının yalnız alman dilində danışdığını müəyyən etdikdən sonra bir qədər çaşır: bura haradır belə; görəsən, niyə hamı almanca danışır, axı o, fransız partizanlarla birlikdə idi, necə olub ki, xəstəxanaya düşüb? Sanki yatıb, dəhşətli qarışıq yuxu görürdü. Xeyli fikirləşir, lakin bir məxrəcə gələ bilmir, elə bil, yaddaşı silinmişdi. Hələ bu az imiş kimi, ətrafdakıların onun nazını çəkməsi,



başına pərvanə kimi fırlanması, tez-tez ona müraciət edib nəzakətlə nəsə soruşmağa cəhd göstərməsi lap qəribə idi. Əgər almanların əlinə düşübsə, indi gərək o, əsirlər üçün lazaretdə olaydı, iynə-dərman, nəzakət-qayğı nədir, indi gərək, başının üzərini bir neçə keşikçi əsgər alaydı, zabitlər gəlib tez-tez onunla kobudcasına davranıb sorğu-suala tutmağa cəhd göstərəydilər.

Amma hissiyyatı onu aldatmırdı. Başa düşmüşdü ki, burada nəsə bir yanlışlıq var. Onu ya kiminləsə səhv salıblar, ya da özlərinki kimi qəbul ediblər. Axı Əhmədiyyə partizan kimi daim alman ordusu zabitinin geyimində olurdu.

Əhmədiyyə boynundan yaralanmışdı. Elə bu təsadüf də bəlkə onun üçün zəruri xilasa çevrilmişdi. O, yalnız lazım bildiyi vaxt, həm də istədiyi kimi cavab verir, danışırdı. Bilirdi ki, düz-əməlli danışsa, dərhal ondan necə vurulduğunu, adını-soyadını xəbər alacaq, hansı qoşunlarda, hərbi hissədə xidmət etdiyini və ya hansı cəbhədə döyüşdüyünü soruşacaq, haradan olduğunu bilmək istəyəcəklər.

Boğazının ağrısı çox olmasa da, Əhmədiyyə özünü bir qədər ağır yaralanmış kimi göstərib dərin xəyallara daldı. Gecələr hey düşünüb daşınır, plan cızırdı ki, bir əfsanə uydursun və onun yalanı bilinməsin.

Həkimlər, tibb bacıları ona yaxınlaşıb nəsə soruşanda əhvalı ilə bağlı, boğazını göstərib ağrı olduğunu deyir, söhbət bir az dərinləşən kimi, özünü boğazından ağrı tutmuş, dili-ağzı quruyubmuş kimi üz-gözünü turşudur və çətinliklə cavablar verməyə başlayır, sonra əlini boğazına aparıb ağrı hiss edirmiş kimi sifətinə əzab cizgiləri gətirirdi.

Hər gün təmiz hava almaq üçün onu xəstəxananın həyətində gəzdirirdilər. Bir gün iki nəfərin rus dilində danışması ona çox maraqlı göründü. Əvvəlcə, Əhmədiyyəyə bu, çox qəribə göründü. Sanki beyni dumanlanmağa başladı. Elə zənn etdi ki, buna qədər heç doğru düşünmürmüş – o, xüsusi rejimli həbsxanadadır. Sadəcə, onu hansısa böyük məqsəd üçün burada saxlayır və xüsusi davranışla yumşaltmaq istəyirlər. Yəqin, almanların bir planı var. O, vəziyyəti öyrənmək qərarına gəldi. Ertəsi o, rusca danışan bu iki nəfərə yaxın yerdə qərarlaşır, onlarla salamlaşır, sonra özünü, guya, əlindəki jurnalı oxuyurmuş kimi aparır və onların söhbətinə qulaq asır. Amma eşitdikləri ona çox pis təsir edir və dərhal məsələnin nə yerdə olduğunu anlayır.

Məlum olur ki, onlar almanlara işləyən Sovet vətəndaşlarıdır. Sonra məlumat toplamağa başlayır. İki nəfərdən birinin Vanya Klaçok, digərinin isə tatar Zahir Sahirov adlı şəxs olduğunu öyrənir. Onlar doğulduqları şəhəri almanlar alanda, düşmən tərəfə keçirlər, sonra almanlar həmin şəhərdən gedəndə, onlar da orada qala bilməzdilər. Bu iki nəfər partizanların xüsusi amansızlıqlarından, vəhşiliyindən bəhs edir, onlara lənətlər oxuyurdular. Hər gün onların söhbətinə qulaq asmaq ona çox baha başa gəlirdi. Az qalırdı ki, Əhmədiyyə oturduğu yerdən qalxıb, ikisini də gülləyib aradan çıxsın. Lakin bu, ağılsızlıq olardı. İki dönük, satqına görə hər şeyi alt-üst etmək olmazdı. Axı artıq Əhmədiyyə yeni





plan cızmaq istəyirdi. Lakin o, hələ də xəstəxanadan sonra aqibətinin necə olacağını bilmirdi. Elə buna görə də qurtulmaq üçün müxtəlif variantlar üzərində düşünüb daşınırdı.

Beləcə, Əhmədiyyə hər gün onlara yaxın əyləşərək, söhbətlərinə qulaq asmağa başlayır. Bu, həm də ona məlumat toplamağa kömək edirdi. Onlar danışırdılar ki, sovet ordusu Amerika-ingilis alyansı ilə birləşərək hücuma keçəcəklər. Almanlar isə artıq müxtəlif millətlərdən dəstələr düzəldərək cəbhəyə yola salmağa başlayıblar. Beləcə, yavaş-yavaş Əhmədiyyə cəbhədə də vəziyyəti öyrəndi.

Bir gün general Jüber zəng vurub həkimlərdən onu xəbər alır. Xəstəxana müdiri hər şeyin yaxşı olduğunu deyib, artıq Əhmədiyyənin özünün də onunla söhbət etməyə hazır olduğunu deyir. Həkim dərhal onun qaldığı palataya gedir.

- Sizi general Jüber telefonda gözləyir. Tələsin.

Əhmədiyyə bu anın bir gün yetişəcəyini gözləyirdi. O, artıq buna hazır idi.

Otağa daxil olurlar. Həkim dəstəyi qaldırıb, Əhmədiyyənin yanında olduğunu deyir.

Əhmədiyyə dəstəyə yaxınlaşır:

- Bəli, eşidirəm.

- Necəsiniz?

- Çox sağ olun. Sayənizdə çox yaxşıyam.

- Yaman naxışın var. O boyda həngamədən sonra yenidən sıraya qayıtdın. Görünür, Tanrının sevimli bəndəsisən.

- Bəlkə də - deyə, Əhmədiyyə təbəssümlə cavab verir.

- O, axmaqlara harada rast gəldin elə. Orada nə baş vermişdi? Onlar öldürdüklərini zənn etdikdən sonra səni lap talayıblar da. Hələ silahını da özləri ilə aparıblar.

- Üzr istəyirəm. Amma onlara layiqli cavab vermək imkanından məhrum oldum. Lion şəhərindən gəlirdim, general - deyə, artıq Əhmədiyyənin səsində bir cəsarət hiss olunmağa başladı. O, rola girə bilmişdi - partizanlar basqın etdilər. Məni də vaqondan atdılar. Onlar çox idi, hücum da qəfil olmuşdu. Döyüşü qəbul etmək imkanından məhrum idim.

- Narahat olma. Sənin burada heç bir günahın yoxdur. Səni həkimlərə tapşırmışdım. Necə qulluq edirlər?

- Çox sağ olun, general, çox əla. Həyatımı qurtardığınıza və mənə ikinci həyatı bəxş etdiyinizə görə sizə dərin təşəkkürümü bildirirəm.

Əhmədiyyə sağollaşıb dəstəyi asdıqdan sonra artıq təhlükənin sovuşduğunu anladı. Sanki həqiqətən yenidən həyata qayıtmışdı. Artıq planlarını bir daha dəqiqləşdirməlidir. Əks-halda o, aradan çıxmaq üçün ehtiyat variantlara da hazır olmalıdır.

O, hələ də alman dilini unutmamışdı. Müharibədən əvvəlki illər yadına düşdü. Xatirələr onu ağuşuna alıb hey aparırdı. Tələbəlik illəri, dərs və məşğələlərin ağırlığını, tələbə dostları ilə münasibətləri, xoş anları bir lent kimi gözü önündən keçdi. Həmin vaxt Ukraynada hərbi məktəbdə oxuduğu illərdə alman dilini mənimsəməyi indi karına gəlirdi. Doğrusu, tək indi deyil. O, partizan kimi qəhrəmanlıqlarının çoxunu, uğurlu əməliyyatlarında da

məhz alman dilində sərbəst danışması sayəsində düşmənlə hətta problemsiz üz-üzə gələ bilirdi.

Bir neçə gün də keçdi. Həkimlər onu tam sağaldıb yenidən «vətən»ə – Almaniyaya qulluq etmək üçün sıraya qaytardılar. Amma o, hələ də bundan sonrakı taleyini bilmirdi.

Əmr gəldi ki, Əhmədiyyə Him şəhərinin komendaturasına yollanmalıdır. Xüsusi göndərilmiş maşında ora yollandı. Onu səmimiyyətlə qarşılayanda, başa düşdü ki, burada da öz rolunu yaxşı oynasa, hər şey yaxşı olacaq.

Xəstəxana vərəqəsinə baxıb, bir neçə standart sual verdilər. Onu ora general Jüberin yollaması artıq başqa suallara yer qoymurdu. Əhmədiyyə rotasının axırıncı dəfə Lionda olduğunu dedi.

- Məni də ora ezam etmişdilər. Qalanını da siz bu kağızdan bilirsiniz, - deyə o, alman təbiətinə xas quru dəqiqliklə lakonik cavab verdi, - amma indi rotamın harada olduğunu sizə dəqiq deyə bilməyəcəyəm.

İki gün Əhmədiyyə komendaturada qonaq evində qalmalı oldu. Nəhayət, əmr gəldi ki, Əhmədiyyə 25 əsgər və 5 zabitlə Albe şəhərinə yollanmalıdır. Onu ora komendant təyin ediblər. Əhmədiyyə bilmədi bu xəbərə ağlasın, ya sevinsin. Hər halda əsirlikdə qalmaqdan daha yaxşıdır. O, bundan sonra da faydalı işlər görə biləcək.

Albeyə çatdılar. Şəhərlə tanış oldu, ona hər şeylə bağlı ətraflı məlumat verdilər. Təhvil-təslimdən sonra qəti bildirdilər ki, ehtiyatlı olsun, nəzarəti əldən verməsin. Onun borcu əhalini və şəhəri partizanlardan qorumaqdır. İndi hər yanda partizanlar almanlar üçün cəbhədəki düşmənlərdən də qorxuludurlar.

Ona şəhərdə almanlara xidmət göstərən əhalinin nümayəndərinin də siyahısını verdilər ki, hər zaman onlardan istifadə edib vəziyyəti nəzarət altında saxlasın.

Bundan sonra Əhmədiyyəyə, sadəcə, ağılla hərəkət etmək qalırdı.

O, hər fürsət düşdükcə birinci növbədə məhz almanlara xidmət edənləri aradan götürməyə başladı. Müxtəlif bəhanələrlə onları həm də partizanlara satqınlıq edən, xəyanətkar, ya da vəziyyətdən sui-istifadə edən kimi təqim edir, bir dindirilmədən sonra boyunlarına qoyur güllələdirdi. Bu işləri almanların da çox xoşuna gəlmişdi. Çünki onlar elə güman edirdilər ki, bununla fransızların iki tərəfə işləməsinin qarşısını alacaq, satqınları qorxuya salacaq və onlara işləyənləri daha sədaqətli edəcəklər. Bundan sonra almanlar bu şəhərdə özlərini güvəncdə hiss edəcəkdilər.

Ona partizanlığı da çox kömək etdi. O, metan benzin anbarını yandırıb, asanlıqla bunu partizanların üzərinə yıxdı. Buna görə fürsətdən istifadə edib bir neçə satqın fransızı da asdırdı.





## Dost-düşmən Əhmədiyyə: silahdaşlar və həmkəndli ilə görüş

Marqolle də bu şəhərdə yaşayırdı. O, vaxtilə sevdiyi zabiti hədə-qorxu ilə ələ verməyə məcbur edilmiş fransız qadın məhz bu Marqolle idi. Marqolle onun kim olduğunu bilirdi. Özözlüyündə Əhmədiyyənin almanlara satıldığını zənn edib, qisas planı da hazırlamışdı. Əhmədiyyə də bunu onunla elə ilk dəfə üz-üzə gələndən hiss etmişdi. Əhmədiyyə özünü elə aparırdı ki, guya, onu tanımır və planlarından da xəbəri yoxdur. Bir gün Marqolle onu evinə qonaq dəvət edir.

- Mənə bu şərəfi lütf edərsinizmi?

Əhmədiyyə dərhal anladı ki, bunun arxasında nəsə bir plan var. Amma dərhal da razılıq verdi:

- Əlbəttə, yaxşı fransız qonaqlığına etiraz etmərəm - deyə, axşam onlara təşrif buyuracağını dedi.

Əvvəlcədən hazırlanan plana əsasən, bir qrup partizan əvvəlcədən Marqollenin evində toplaşmışdı. Əhmədiyyə bunu dəqiq bilirdi. O, Marqollegilə dediyi vaxtda gəldi. Ev yiyəsi onun üçün məclis qurmuşdu. Elə qapıda qarşılayanda, Əhmədiyyə bunun tələ olduğuna tam əmin oldu. Marqolle nə qədər istəsə də, sifətindəki bir az qorxu, bir az ehtiyatlıq, bir az təşviş izi aydın görünürdü. Onun narahatlığını bu qədər biruzə verməsi Əhmədiyyənin simasına təbəssüm gətirdi. Amma Marqolle bunun nə demək olduğunu anlamadı. Əhmədiyyə keçib masa arxasına əyləşdi. Elə bu an, guya ki, Marqollenin dəvət etdiyi digər qonaqlar da evə daxil olmağa başladılar. Məclisin bir vaxtında Marqolle ayağa qalxıb ikrah hissi ilə Əhmədiyyəni işarə edib deyir:

- O, partizan olub, indi isə almanlara satılmış Xarqodur. Onu öldürün.

Partizanlardan biri - Pataşonla Əhmədiyyə bir-birini çox yaxşı tanıyırdılar. Əhmədiyyə qeyri-iradi güldü. Pataşon da təbəssümlə onu qucaqladı. Marqolle bunun nə demək olduğunu heç anlamadı, qəhər onu boğdu. Bir yandan da təəccüb ona o qədər güc gəlmişdi ki, nə edəcəyini heç özü də bilmirdi. O, anladı ki, qisas niyyəti hədər gedib və onun anlamadığı çox mətləblər var.

Pataşon məclisin kef vaxtında bir kənara çəkilib Əhmədiyyə ilə xeyli söhbət etdi. Sonra Pataşon Marqolleni yanına çağırdı. Onun gözləri yaşla dolu idi. Sanki indi qəhərdən, qəzəbdən bu dəqiqə ürəyi gedəcəkdi.

- Marqolle, bəlkə də sən bilməzsən, o bura gələndən bizə daha çox kömək edib. O, şəhəri satqınlardan, almanlardan təmizləyir, onları zərərsizləşdirir, əsas mərkəzlərini elə özü dağıdır. Yeri gələndə, alman

zabitlərini bizə təhvil verir. Şəhərdə əməliyyat keçirmək üçün bizə kömək edir.

Marqollenin Əhmədiyyəyə qəzəbi o qədər idi ki, artıq Pataşonun dediklərindən heç nə anlamırdı. Pataşon qorxdu ki, vəziyyət tam dəyişə bilər. Ona görə də partizanların qərargahına xəbər yolladı. Xeyli vaxt keçdi.

Nəhayət, Pataşonun gözlədiyi partizanlar - Bessik və Vasil içəri daxil oldular. Elə daxil olmaqla da onlar Əhmədiyyənin üzərinə atılıb, onu bərk-bərk qucaqladılar.

- Armed, biz elə bilirdik ki, səni öldürüblər. Nə qədər axtarsaq da, cəsədini də tapa bilmədik. Elə bildik ki, almanlar səni tanıyıb meyitini özləri ilə aparıblar. Nə yaxşı, nə yaxşı ki, yanılmışıq.

Dostlar bir xeyli söhbət etdilər. Əhmədiyyə başına gələnləri onlara nəql etdi. Nəhayət, Marqollenin də qəzəbi soyumuşdu. O da yaxınlaşıb Əhmədiyyədən üzr istədi.

Ayrılanda Əhmədiyyə qərargahda bu məsələyə münasibəti öyrənmək istədi.

- Qərar belədir: sən bizə burada daha çox lazımsan. Komandir məsləhət gördü ki, özün istəyirsənsə, qalıb işləyə bilərsən. Sən gələndən, bu şəhərdə bizi işsiz qoymusan.

Beləcə, gülə-gülə bir-birlərindən ayrıldılar.

Amma Əhmədiyyəni burada çox saxlamadılar. Çünki son vaxtlar şəhərdə partizan əməliyyatlarının sayı artmışdı, hadisələr də azalmaq bilmirdi. Tapşırıq gəldi ki, Əhmədiyyə komendantlığı alman SS zabitlərindən birinə təhvil verib Montabon şəhərindəki xəstəxananı nəzarəti altına götürməlidir. Ora komendant təyin ediləndən sonra o, partizanlarla daha çox ünsiyyət qurmaq imkanı əldə etdi.

Burada sovet əsgərləri, alman zabitləri çox idi. Ona görə də yüyəni əldən vermək olmazdı. Hər dəfə sovet xalqlarının dilində bir söz eşidəndə, ürəyi dağa dönürdü. Amma ona özünü itirmək olmazdı. Hərçənd daxildən özünü yeyirdi, qıvrıla-qıvrıla qalmışdı: axı belə də iş olar. Həmvətənlərinlə üz-üzə olasan, amma onlarla bir kəlmə də kəsməyə cəsarətin çatmaya?!

Fransada sovet əsirlərindən təşkil olunmuş batalyonlar çox idi. Azərbaycanlılar Rodezdə, ruslar - Marseldə, gürcülər - Himdə, özbəklər - Montabonda, tatarlar- Oşda saxlanılırdılar.

Əsirlər fransızca bilmirdilər. Elə buna görə də yerli əhalinin onlara heç bir rəğbəti yox idi. Bir satqın ola biləcəklərindən ehtiyatlanırdılar. Onlar paritzanlarla da əlaqə qura bilmirdilər.

O, partizanlarla hər görüşəndə, özü ilə dava-dərman da aparırdı. Hər dəfə də çatışmayan dərmanların adlarını öyrənir, əldə etdikdən sonra partizanlara verirdi.

Bir dəfə görüş zamanı ona dedilər ki, sovet kapitanı Mirzəxan Məmmədovla görüşməlisən. Bundan sonra dərmanları ona çatdırmaq lazım idi. Mirzəxan Poder şəhərində legion kapitanı idi, partizanlarla əlaqələri möhkəm idi.

Almanların tapşırığına əsasən, Əhmədiyyə bu ətrafda olan bütün xəstəxanaları gəzir, təftiş edir, çatışmazlıqları aradan qaldırırdı. Podere getməyi çoxdan arzulayırdı. Çünki





orada azərbaycanlılar çox idi. Tapşırığı alan kimi sevinə-sevinə Podere



getdi. Mirzəxan Məmmədovu tapıb görüş təyin etdi.

Əhmədiyyə sonradan xatirələrində orada olan azərbaycanlıları tez-tez xatırlayırdı. Xəstəxanaya gələndə, o, əvvəlcə palataları gəzməyə başladı.

*«Birinci otaqda ilk gördüyüm şəxs Nuru Abdullayev oldu, o mənim həmkəndlim idi. Ondan savayı, Koroğlu Paşabəyli, Mikayıl, Əsabəli Məmmədov, Həzrət Həmrətoğlu, Gəncədən Namazov soyadlı, hamının «Müəllim» deyə çağırdığı göyçaylı, sabirabadlı və İsmayıllıdan üç gənci, İmişlidən Hüseyn Qarayevi, astaralı Tade Bəhramovu, balakənli Şirin Moxuxovu, daha bir həmyerlisi Umar Bəkirovu orada tanıdım. Yanlarından keçəndə, onlar azərbaycanca almanları söyürdülər, alman zabiti formasında olduğumdan məni alman zənn etmişdilər. Onlar söydükcə, içim qaynamağa başladı. Qəribə hisslər keçirdim. Bilmirdim doğma dilimdə söz eşitdiyimə görə sevinim, yoxsa bunlara azərbaycanca bir-iki kəlmə deməklə, özümü tanıdım, yoxsa söyüşlərinə elə azərbaycanca söyüşlə cavab verim. Açığı, söyüş də mənə yaman toxunurdu, deyəsən. Nuru məni az qala lap öldürəcəkdi. Axı ikimiz də Şəkinin Oxud kəndində anadan olmuşuq. Nuru məni tanımışdı, üstümə gəlməyə başladı».*

Sonralar Nuru Abdullayev həmin hadisəni belə xatırlayırdı:

- Əhmədiyyəni görəndə, lap mat qaldım. Elə bildim ki, o, almanlara satılıb. İstədim dərhal üstünə atılıb onu boğub öldürüm. Amma özözümə təəccübləndim. Bəlkə bu o deyildi. «Əhmədiyyə, bu, sənsən?» deyə, soruşdum. Almanca məni elə söydü ki, lap mat qaldım».

Nuru əvvəlki yerinə çəkildi və yenidən söyməyə başladı. Amma Əhmədiyyə onu yaxşı tanıyırdı, bilirdi ki, Nuru tərsdir, onu belə sağ qoymayacaq, mütləq izləyib arxasınca gələcək, həyatı bahasına olsa da, onu öldürəcək.

Elə də olur. Nuru 10 əsiri də götürüb, onun arxasınca düşür. Əhmədiyyə çevrilib ona əli ilə geri qayıt işarəsi verir. Nuru buna əvvəl məhəl qoymur, Əhmədiyyə vəziyyəti hiss edib, qəsdən Nuruya yaxınlaşdı, cibinə tapança atıb, astadan «sus» dedi və yenə alman dilində söyərək uzaqlaşdı.

Eyni səhnə ikinci palatada da təkrarlanır. O, otağa daxil olan kimi azərbaycanca ürək dolusu söyüş eşidir. Burada Əli Cəbiyev, Məhərrəm Məmmədov, Nuxadan ona tanış gələn Müddəlif müəllim adlı şəxs, Ənvər Məmmədov yerləşdirilmişdi.

Əhmədiyyə anlayır ki, hər palataya daxil olub, bu qədər nifrət dolu söyüş eşitməklə iş bitməyəcək. Dəliqanlılardan biri ona əl qaldıra və ya dözməyib özü özünü ələ verə bilər. Elə buna görə, guya ki, xəstəxana ilə tanış olduqdan sonra oranı tərk etdi. Amma bu görüşlər hələ bir neçə dəfə də oldu.

Nuru bu tapança əhvalatından lap çaşır. Mütləq bu vəziyyəti araşdırmaq istəyir. Əhmədiyyə yola düşməzdən əvvəl imkan edib Nurunu bir kənara çəkə bilir.

Nuru yaxınlaşan kimi:

- Mən Xarqoyam.

- Nə? – deyə, təəccüblə Nuru quruyub qalır, bir söz də deyə bilmir, sonra birtəhər özünə gəlib, - Necə yəni, almanların canına vəlvələ salan Xarqo sənsən?

Onlar ayrılmaq məcburiyyətində idilər. Çünki bu vəziyyət uzun davam edə bilməzdi. Nuru sonralar xatırlayır ki, məhz həmin pistolet əsirlikdən qaçış təşkil edəndə onların karına gəldi.





# Azadlığın son döyüşü

1944-cü ildə amerikan və ingilis qoşunları qərb tərəfdən hücüma keçdilər. Artıq hər şey həll olunmuşdu. Əhmədiyyə anlayırdı ki, artıq xəstəxanada qala bilməyəcək. Bundan sonra o, daha çox partizanlarla birgə olmalı idi. Birlikdə görüləcək işlər çox idi. Bunu partizanlarla da müzakirə etdi, qərargahda da bunu anlayırdılar. Ona istədiyi qərarı verməyi məsləhət gördülər.

1944-cü il avqustun 19-da Montabonun azad edilməsindən beş gün əvvəl Əhmədiyyə vaxt təyin edib komendant olduğu xəstəxanada yeriməyi bacaranları da toplayıb naməlum istiqamətdə apardı. O, Montobanın 18 kilometrliyində yerləşən «La Tangin» adlı yerdə almanları partizanlara təhvil verdi. Əhmədiyyə yenə özünü lap rahat hiss edəcəyi, özü kimi olacağı bir mühitdə idi.

Ertəsi Kossad və Realvil arasında gedən vuruşmalarda 6-cı briqada tərkibində döyüşməyə başladı. Onlar almanların bir şəhərdən digərinə keçməsinin, əlaqə saxlamasının qarşısını almaq məqsədilə əməliyyatlar keçirirdilər, rabitə xətlərini kəsir, yolları minalayır, sıradan çıxarırdılar.

Əhmədiyyə eşitmişdi ki, Rodezdə onun Montoban xəstəxanasının komendantı kimi ziyarət etdiyi həbsxanada azərbaycanlılar qaçmağa hazırlaşırlar. Düşərgənin gizli fəaliyyət göstərən üzvləri partizanlarla əlaqə saxlayıb kömək istədilər. Qərara alındı ki, üsyan partizanların düşərgəyə hücumu ilə eyni vaxtda başlasın. Lakin 1944-cü il avqustun 15-də əsir düşərgəsində dini xidmət göstərən faşist agentlərindən birinə bu əməliyyat barədə məlumat çatdı. Bütün səbəbkarları həbs edib, amansız işgəncələr verdilər, sonra yığıb güllələməyə aparmaq üçün maşına doldurdular. Yolda bir neçə nəfərə əl-qolunu kəndirdən açmaq müəssər oldu. Onlar yoldaşlarının da əllərini açaraq, faşistlərlə qeyri-bərabər döyüşə atıldılar. Mirzəxan Məmmədov, Mirzəli Məmmədli, Həsən Əliyev, Qurban Məmmədov və Paşa Cəfərxanlı həlak oldular. Qalanları döyüşə-döyüşə meşəyə qaça bildilər. Onlar burada silahlanıb digər gizli fəaliyyət göstərən azərbaycanlılarla birgə avqustun 17-də Rodezi azad etdilər.



Avqustun 18-də Hüseyn-rza Məmmədovun başçılığı ilə azərbaycanlı partizanlar dəstəsi artıq onlara qoşulmuş fransızlarla birlikdə Pandesarl qəsəbəsində alman qarnizonundan əsər-əlamət qoymadılar və 2 mindən artıq əsiri azad etdilər. Onlar da burada azərbaycanlılara qoşuldular. Bu dəstə Larzak, Kursmak, Maid, Nim şəhərlərinin azad olunmasında fəal iştirak etdi.

İllər sonra bu əsirlərdən biri - vaxtilə Astara rayon torpaq şöbəsində



aqronom işləmiş Tağı Qəhrəmanov Əhmədiyyə ilə görüşüb birgə həmin illərin xatirələrinə daldılar. Tağı Qəhrəmanov 1942-ci ilin mayında əsir düşmüşdü. Tağı Qəhrəmanov azad olduqdan sonra Əhmədiyyə ilə iki döyüşdə iştirak edib. Sonra Əhmədiyyə öz partizan dəstəsi ilə Montobana yola düşüb.

Avqustun 19-da Montoban Əhmədiyyə Cəbrayılovun da dəstəsinin fəal iştirakı ilə azad edildi. Almanlar bu şəhəri itirməklə, demək olar ki, Fransanı təhvil verdilər.

Qarşıda bircə böyük döyüş mərkəzi Paris qalırdı.

Almanlar müharibənin başa çatdığını anlayır və aradan çıxırdılar. Partizanlar isə pusqularda olur, onları ələ keçirməyə çalışırdılar.

Qırıcı, dağıdıcı, qorxmaz «Tarn et Garonne» partizan korpusunun köməyi ilə Bordo, Marmon, Monde Marşan, Oş, Tarb, Tuluza, Montaban, Frez şəhərləri almanlardan azad edildi.

Dümanın dəstəsi Paris civarındakı İvriyə yaxınlaşanda, Əhmədiyyə yenə yüngül yara alır. Lakin buna baxmayaraq, o, döyüşçü yoldaşlarından geri qalmaq istəmir. Partizanlar Fransanın ürəyinə - Parisə üz tutdular. Artıq Parisə nə qalmışdı ki?! Paris çox çətinliklə təslim edildi.

1944-cü il avqustun 25-də Amerika-ingilis zirehli tank diviziyasının müşayiəti ilə partizanlar da Parisə daxil oldular. Onlar şəhərə daxil olan kimi qaçıb gizlənən faşist qalıqlarını tutub məhv etməyə başladılar. Əhmədiyyə Besseklə birgə axtarışda idi.

Əhmədiyyə və Bessekin qrupu mərkəzi hissədə ikimərtəbəli bir evi əhatəyə aldı. Əhmədiyyə hamıya ehtiyatlı olmağı tapşırdı. Lakin cavan partizanlardan biri qapını açıb içəri soxulmaq istəyəndə, atəş səsi onu yerə sərdi. Əhmədiyyə qapının kənarına yaxınlaşıb əsgəri oradan dartıb çıxardı. Onun yarasını sarımağa başladılar. Sonra «Evin sahibi çölə çıxsın» deyə, bağırdı.

- Bəli, eşidirəm.

- Zirzəmidə kim var elə?

- Heç kim.

- Əminsən?

- Nə bilim, bəlkə də gecədən soxulublar.

- Mənə bir qazan gətir.

Təəccüb hissi ilə çiynini çəkən ev sahibi qazanı gətirdi. Əhmədiyyə onu avtomatının başına keçirib zirzəmiyə tərəf yönəltdi. Bu an avtomatdan yaylım atəş açıldı. Əhmədiyyə tüstü qumbarasını içəri atdı, hıçqırıq, öskürək səsləri içərini bürüdü. O, yoldaşlarına asta-asta içəri daxil olmağı tapşırdı. Qəfil avtomatdan atəş açıb «Həndxox» deyə bağırdı.

Zirzəməsində başı gözü ağarmış, alçaq boylu, arıq qoca kişini də həbs etdilər. Bessek dərhal qımışdı. Əhmədiyyə anladı ki, burada qəribə və xoşagəlməz nəsə baş verdi.

- Bunu tanıyırsan? – deyə, o, Əhmədiyyəyə müraciət etdi.

- Məni ələ salmısan, nədir, bu qocanı haradan tanımalıyam ki?!

- Hə, sən tanımasan da, Fransa onu yaxşı tanıyır. O, Fransa prezidenti olmuş Petenin köməkçisidir. Onun dərsini verərdim, amma qocalıb, əldən düşüb, qoy, ona son sözünü ədalət desin. O, etdiklərinə görə bütün Fransa qarşısında cavab verməlidir.

Əhmədiyyə Peten haqqında çox eşitmişdi. Onun adı Fransada ümumiləşmiş bədnamlıq ayamasına çevrilmişdi. Ona «Püten» (fr. – «fahişə») deyirdilər. Onun adı xəyanət rəmzinə çevrilmişdi. İkinci dünya müharibəsi dövründə o, kollaborasionist Vişi hökumətinin başçısı olmuşdu. 1940-cı ilin iyununda o, hökümət başçısı olanda 84 yaşı var idi. Həmin il oktyabrın 24-də Hitlerlə şəxsən görüşmüşdü və bu ona imkan vermişdi ki, şimalı işğal altında olan Fransanın cənubunda idarəçiliyini yerinə yetirə bilsin. «Kollaborasiya» termini də elə ona məxsusdur. O, oktyabrın 30-da radio ilə müraciətində Fransa xalqını işğalçılarla əməkdaşlıq etməyə çağırmışdı. Ona Fransa müstəmləkələri də tabe idi. Lakin onların əksəriyyəti Londonda yerləşən Şarl de Qoll hökumətini tanıdığını elan etmişdi. Maraqlıdır ki, onun hökumətini dünyanın əksər ölkələri, o cümlədən ABŞ və SSRİ tanıdılar. O, hökuməti 1942-ci ilə qədər idarə etmişdi. Həmin ilin noyabrında artıq almanlar Fransanın bütün ərazisində hökmran olduğu bir vaxtda o, Pyer Lavalı hökumət başçısı elan etmişdi. Əhmədiyyənin də Fransadakı əsirliyi məhz bu dövrdən başlamışdı.

Tarixi mənbələr deyir ki, Fransa Müqavimət Hərəkatı 1944-cü ilin avqustunda hücuma keçəndə, almanlar Peten hökumətini Baden-Vüremberqdə Ziqmaringen qəsrinə köçürdülər. Bəzi məlumatlara görə, o, 1945-ci ilin yazında müttəfiq qoşunlarının hücumu zamanı əsir götürülərək, beynəlxalq məhkəməyə verilib.

Ümumiyyətlə, Əhmədiyə Peten hakimiyyəti ilə bağlı təzadlı münasibətə rəy verməkdən çox uzaq idi. Çünki onun bütün düşüncəsi Vətəninə bağlı idi, ürəyi Vətənlə döyünürdü. Bu məsələ isə Fransa xalqının öz işi idi.

***

Müqavimət hərəkatı Parisdə qərar tutduqdan sonra şəhərdə böyük mitinq keçirildi. Tədbirdə Əhmədiyyə dostları ilə bir guşəyə çəkilib istirahət etmək istəyirdi. Bu an Delplon sevinc və həyəcan içində onun qarşısını kəsdi.

- Bilirsən, səni kim görmək istəyir? Moris Torez! Gəl, gedək.

Moris Torez 1920-ci ildən Fransa Kommunist partiyasının üzvü idi. 10 il sonra o, partiyanın sədri seçilmişdi. 1936-cı ildə Xalq Cəbhəsini yaradanlardan biri olmuşdu. 1939-cu ildə Fransa Kommunist Partiyasının fəaliyyəti qadağan edildi. Torezin ölkədə hərəkət azadlığı və vətəndaş hüququ əlindən alındı, o, orduya göndərildi. Hərbi

xidmətdən boyun qaçırdığı üçün İkinci dünya müharibəsi zamanı qiyabi olaraq ölümə məhkum edilmişdi. 1944-cü ildə Fransa azadlıq əldə etdikdən sonra Şarl de Qoll onu əfv etdi və o, yenidən siyasi arenaya qayıtdı. Əhmədiyyə onun haqqında çox eşidib oxumuşdu. SSRİ-də ona xüsusi rəğbət var idi. Ona böyük hörmət edənlər arasında məhz Əhmədiyyə də var idi.

Belə bir şəxsiyyətlə görüşəcəyini eşidən kimi Əhmədiyyəni həyəcan bürüdü. Onlar görüşə yollandılar.

- Yoldaşlarınız sizin haqda mənə çox şey danışıblar. Siz igid əsgərsiniz. Fransa sizin qəhrəmanlıqlarınızı daim xatırlayacaq - deyə, onu salamlayan Torez sözə başladı. Əhmədiyyənin qırarıb başını aşağı saldığını görüb, mövzunu dəyişdi.

- Deyilənə görə, qafqazlısınız.

- Azərbaycandanam.

- Eləmi, Anri Barbüs də sizin məmləkətdə olub. Deyirdi ki, Bakı çox gözəl şəhərdir. İnsanları çox mehriban və qonaqpərvərdir, eynilə bizim Marseldə olduğu qədər şən və gülərüzdürlər.

Söhbətin əvvəlində özünü bir qədər rahat hiss etməyən Əhmədiyyə bu mövzu ətrafında fikir mübadiləsi sayəsində bir qədər ürəkləndi. Əhmədiyyə fransızların insanpərvəriliyindən, madam Janna və qızı Sara, qəhrəman yoldaşlarından danışdı.

- Bura baxın, siz fransızca kifayət qədər yaxşı danışırsınız. Gəlin, belə edək, bugünkü mitinqdə siz də çıxış edin.

Əhmədiyyə nə deyəcəyini heç özü də bilmirdi. Bu vaxta qədər o, heç bir mitinqdə, insan kütləsi qarşısında çıxış etməmişdi. Doğrudur, iclas zalları, partiya üzvləri, kursantlar, əsgərlər qarşısında çıxış etmişdi, lakin böyük izdiham qarşısında tribunaya çıxıb söz demək ciddi məsuliyyət tələb edirdi.

Onlar birlikdə mitinqə yollandılar. Moris Torez Əhmədiyyəni də liderlərin toplaşdığı tribunaya dəvət etdi. İzdiham qarşısına çıxanlar arasında beləcə, Fransa Kommunist Partiyasının sədri Moris Torez, Jak Düklo, kapitan Delplon və bir də Sovet vətəndaşı, qorxmaz zabit Əhmədiyyə Cəbrayılov da yer aldı. Moris Torez Fransa xalqını böyük tarixi qələbə munasibətilə təbrik edir. Bu yolda o, müxtəlif xalqların nümayəndələrinin də fransızlara dəstək olduğunu və döyüş meydanlarında Fransanın azadlığı uğrunda canlarından keçməyə hazır olduqlarını deyir və sözü Əhmədiyyəyə verir. Mitinqdə Əhmədiyyənin səhnədən fransız və rusca çıxışı mitinq iştirakçılarına xüsusi ovqat gətirdi. Ona diqqətlə qulaq asdılar. Hərdən bəzi ifadələri özünəməxsus tərzdə söyləməsi məzəli alınır və bu sözləri təbəssüm və alqışla qarşılayırdılar.

O, rusca çıxış edəndə, qəfil izdiham içindən səs gəldi: «Yaşasın Sovet İttifaqı – Fransa xalqının sadiq dostu!». Ardınca «Katyuşa»nın sədaları eşidildi. Mitinqə toplaşan Sovet vətəndaşlarının sayı da kifayət qədər imiş. Çünki çox keçmədi, mahnının sözləri müxtəlif yerlərdən eşidilməyə başladı, elə bil, xor oxuyurdu.

Əhmədiyyənin gözü yaşardı...

Alqış gurultusu ətrafı bürüdü. Əhmədiyyə çıxışını başa vurub kənara çəkiləndə, təsirlənmiş Moris Torez Əhmədiyyəyə yaxınlaşıb dedi:

- Görürsünüz, sizdə çox əla alındı.

Fransa xalqı və hökuməti adından Torez Əhmədiyyəyə «Döyüş xaçı», «Könüllü xidmətə görə», «Hərbi





medal»ı təqdim etdi. Medalları onun sinəsinə taxan Moris Torez qürur hissi ilə dedi:

- İndi siz çox vacib personasınız, yoldaş Cəbrayılov!

Dostları elə səhnədə onu atıbtutmağa başladılar.

Sonra bütün mitinq iştirakçıları Fransa Müqavimət Hərəkatının «Le Chant des Partisans» və ya «Chant de la Libération» himnini əzbərdən oxudular.

Meşədən-meşəyə
Yol gedir,
Sıldırımlar boyunca

Oralar çox hündürdü
Haradasa ay üzür,
Tələsə-tələsə...

Gəlin gedək,
quzğunlar uçub gedə,
heyvanlar soxula bilmədiyi
yerlərə

Heç kim, heç bir qüvvə
Bizi fəth edə,
Qova bilməz!

Xalq qisasçıları,
Biz qara qüvvələri
Vurub əzərik.

Qoy, azadlıq yeli
Qəbirlərimizə
Sığal çəksin

Yolumuzdan dönmərik,
Düşmən üzərinə
axıradək gedərik

Qoy, bilsin hamı,
Bilsin övladlarımız,
Həqiqət qurbanı olub neçəmiz

Fransa Kommunist partiyasının sədri Moris Torez elə burada Əhmədiyyəyə öz təşəkkürünü elan etdi. Üçüncü dəfə idi, o, Əhmədiyyəyə şəxsən minnətdarlığını bildirirdi. Mitinq başa çatdıqdan sonra Fransa hərəkatının rəhbərlərinin şərəfinə ziyafət verildi. Həmin məclisə Əhmədiyyə də dəvət aldı. Məclisin başında Fransa azadlıq hərəkatının lideri Şarl de Qoll, Moris Torez, Jak Düklo, Pyer Paskini oturmuşdular. Əhmədiyyə Şarl de Qoll və digər üç qəhrəmanla görüşüb söhbət etmişdi. Məclisin gur vaxtında zabitlərdən biri ona yaxınlaşıb Şarl de Qollun onunla görüşmək istədiyini bildirdi. Əhmədiyyə zabitlə liderlərin oturduğu masaya yaxınlaşanda, de Qoll üzündə parlaq təbəssümlə əlini uzatdı. Əhmədiyyə də onu çox gözlətməmək üçün tələsib tez de Qollun əlindən yapışdı.

- Rus oğlum, gəl, yanımda otur.

Məclisdə Əhmədiyyənin və Sovet ordusunun şərəfinə badələr qaldırıldı. *Burada da elan olundu ki, Əhmədiyyə göstərdiyi şücaətə, qəhrəmanlığa və sədaqətinə görə, Fransanın ali ordeninə layiq görülüb.*

*Bu mükafatın sahibi hərbi paradlar zamanı hətta yüksək rütbəli generallardan da öndə addımlayır. Döyüş medalı və ya fransızcası «Medaille*





*militaire» olan bu mükafatı hələ imperator kürsüsünə əyləşib, III Napoleon tituluna yiyələnməmişdən əvvəl 1852-ci ildə Lui-Napoleon Bonapart təsis etmişdi. Döyüşlərdə düşmənə qarşı əməliyyatlarda qəhrəmanlıq şücaəti göstərmiş həqiqi hərbi xidmətdə olan hərbçilər, sıravilər, unter-zabitlər bu medala layiq görülürlər. Medal zabitlərə təqdim olunmur. Lakin baş komandan rütbəsində olan general və admirallar bu medalla mükafatlandırıla bilərlər. Elə buna görə bu medal hərbi təltiflər sırasında Şərəf Legionu Ordeninin Böyük xaçından sonra ən böyük mükafat hesab olunur. Əhmədiyyə Cəbrayılov da məhz bu böyük şərəfə nail olan qəhrəmanlar cərgəsində əbədi yer alıb.*

*Bu, Əhmədiyyə üçün unudulmaz an idi. O, bilirdi ki, bu ordenə layiq görülmək xüsusi şərəf deməkdir. Bundan sonra bütün paradlarda o, əbədi qəhrəman kimi hamıdan öndə irəliləyəcək. Hələ, üstəlik, əksər hallarda bayrağı daşımaq şərəfi də ona verilirdi. Bayraqdarlığın ona həvalə*





YENƏ VƏTƏN YAXŞI

*edilməsi artıq böyük inam və etibarın nümunəsi idi. Həmin medal hazırda Moskvada Silahlı Qüvvələr Muzeyində saxlanılır. Ondan savayı, bu ordenə SSRİ-də heç kim layiq görülməmişdi.*

***

Mərasimin qızğın çağında qara çarşablı bir qadın Şarl de Qolla yaxınlaşır. Elə bu an Əhmədiyyə iti addımlarla onlara yaxınlaşıb həmin qadının başına zərbə endirib onu yerə yıxır. Onun bu dəli qərarı hamını şoka salır. Məclisə bir anlıq sükut çökür, çaşqınlıq yaranır.

- Sən nə etdin? – deyə, qəfil arxadan səs gəldi - sən öz dinindən olan qadına necə əl qaldıra bildin?

Əhmədiyyə bu qeyri-müəyyən vəziyyətdən çıxmaq üçün çarşabı qadının üzündən açır və bu an məclis yenidən şoka düşür. Sən demə, qadın geyimi – çarşab altında gizlənən kişi imiş.

Tez Əhmədiyyənin zərbə endirdiyi adamı dövrəyə aldılar. Əlindən silahı götürdülər, vurulmuş kişi:

- Cənab de Qoll, Tanrınıza və bir də bu oğlana minnətdar olun. Yoxsa sizi o dünyaya göndərəcəkdim.

De Qollun hərbi mühafizəsinin üzvləri onun qolundan sərt yapışaraq:

- Düş qabağımıza, biz indi səni o dünyaya göndərərik.



Artıq Əhmədiyyə həm də Fransa liderinin xilaskarı idi. Ondan bu adamın kişi olduğunu necə müəyyən etdiyini soruşdular. Əhmədiyyə cavab verdi:

- Addımları kişi addımları idi, həm də özünü qəribə aparırdı - görkəmi heç xoşuma gəlməmişdi. Əlində, silaha bənzər nəsə olduğu da bilinirdi.

Əhmədiyyə artıq məclis iştirakçılarının diqqət mərkəzinə düşdü. Şarl de Qoll ona yaxınlaşıb təşəkkürünü bildirdi. Əhmədiyyəyə Fransa dövləti adından üzərində nikeldən xüsusi xatirə sözləri və ehtiram ifadəsi yazılmış tapança da bağışladı.

Təltifetmədən sonra bir qadın ona yaxınlaşıb yaylıq bağışladı. Yaylığın dörd küncündə müttəfiq ölkələrin dövlət başçılarının - İosif Stalinin, Franklin Ruzveltin, Uinston Çörçillin və Şarl de Qollun şəkilləri düzülmüşdü. Qadın ortada Əhmədiyyənin şəklini toxumuşdu.

# Fransa ordusunun zabiti

Paris azad olunduqdan sonra bütün partizanlar sıravi qoşun kimi bir araya gətirilirlər. Onların xidmətləri xüsusi qeyd olundu. Artıq onlardan nizami qoşun hissəsi kimi istifadə etmək zamanı yetişmişdi.

Elə həmin gün o, öz xahişi ilə müharibənin iştirakçısına çevrilir. Əhmədiyyə Fransanın 1-ci eskadron 2-ci sinfi adlandırılan batalyonun kavaleri adına layiq görüldü və ona «Ahmed» adı verildi. Bunu Müdafiə Nazirliyinin Mərkəzi milli xidmət müdiriyyətinin hərbi komendaturasının Mərkəzi Arxiv İdarəsinin verdiyi çıxarış da təsdiq edir.

Avqustun 28-də Əhmədiyyənin də daxil olduğu dəstə Montobanda yaradılan 3-cü briqadaya göndərilir. Tezliklə batalyon döyüşlərə başladı. Onlar həmişəki kimi, sürətlə hərəkət edir və almanlara ağır zərbələr endirirdilər. Ancaq bu, partizan döyüşlərindən fərqli olaraq, gizli əməliyyat deyildi. Onlar düşmənlə üz-üzə idilər. Açıq döyüşdə qələbələr bir-birini sıralayırdı.

Sentyabr ayında dəstə Dijonu azad etmək üçün göndərildi. Həmin vaxt bura SS qoşunları və vermaxtın böyük sayda qüvvəsi yerləşdirilmişdi. Dijon civarında meşəliyin lap kənarında silah-sursat anbarı yerləşirdi. Artıq polkovnik rütbəsi almış Dümaya bu anbarları partlatmaq tapşırılmışdı. Düma kiçik məsləhətləşmədən sonra bu işi leytenant Bessekə və Əhmədiyyəyə tapşırdı. Qalanları isə şəhərdə digər əməliyyatlarda iştirak etmək üçün göndərildi.

Onlar silah-sursatla yüklənib meşə cığırı ilə yola düşdülər. Meşənin lap ağzında yerləşən yanacaq çənləri onların ilk hədəfi oldu. Ətrafa yayılan yanğın, tüstü duman almanların içinə təşviş saldı. Onlar hərəsi bir tərəfdən digər obyektləri də qumbara atəşinə tutdular. Sanki burada atəş-fəşanlıq başlamışdı. Bu, partizanlara hücum üçün işarə oldu. Amma döyüşlər bir neçə gün davam etdi. Sentyabrın 18-də Dijon azad edildi. Bunun ardınca Kot-d'Or departamentini faşistlərdən təmizləmək asanlaşdı.

Bu istiqamətdə onların həlledici döyüşü Fransanın şərqində Yuxarı Reyn uğrunda oldu. Kolmar və Strasburda döyüşlər gərgin keçdi. Öz sərhədlərinə doğru sıxılmış almanlar son qüvvələrini də bura atmışdılar. Lakin müqavimət qırıldı. Bu əməliyyatlar başa çatandan sonra Əhmədiyyə artıq müharibədən uzaq qalmaq imkanına malik idi. Lakin Fransa xalqının müqəddəs mübarizəsində o, axıradək kömək əlini əsirgəməyəcəkdi. Çünki düşmənin qırılan müqaviməti, ona hər dəyən zərbə





onun vətəninə təcavüzə də cavab idi. Oktyabrın 4-də o, yenidən, könüllü olaraq, Fransa ordusunda xidmət etməyə başlayır. 3-cü batalyonda xidmətə başlayır. Lakin çox keçmir o, yaralanır. Müdafiə Nazirliyinin Mərkəzi milli xidmət müdiriyyətinin hərbi komendaturasının Mərkəzi Arxiv İdarəsinin verdiyi çıxarışda deyilir ki, noyabrın 7-də o, yaralı vəziyyətdə hospitala daxil olub. Dekabrın 19-da o, sağalaraq hospitaldan buraxılır. O, aldığı yüngül yaradan sağaldıqdan sonra bərpa dövrünü keçmək üçün yenidən Parisə göndərildi. 1945-ci ilin yanvarında Moris Torezlə onun daha bir görüşü oldu. Onlar yenə döyüş bölgələrindən, Qafqazdan söhbət açdılar. Moris Torez Azərbaycanın qəhrəman övladına həmişə kömək etməyə hazır olduğunu bildirib, ona təşəkkürünü ifadə etdi.

1945-ci ildə Sovet əsgərlərinin qələbə sorağı Əhmədiyyəni çox sevindirirdi. Eyni vaxtda əks tərəfdən amerikalılar, ingilislər, ərəblər başqa xalq və millətlərin nümayəndələrindən ibarət qoşunlar da almanları geri sıxışdırırdılar. 1945-ci il martın 1-də o, 3-cü briqadanın 4-cü eskadronuna daxil olur. Əhmədiyyənin də daxil olduğu 3-cü batalyon Qolimor, Strasbur, Ştuttqart şəhərlərinin alınmasında fəal iştrak etdi.

16 martda o, 3-cü briqadadan tərxis olunur. Müdafiə Nazirliyinin Mərkəzi milli xidmət müdiriyyətinin hərbi komendaturasının Mərkəzi Arxiv İdarəsinin verdiyi çıxarışda bu fakt da təsdiqini tapır.

1945-ci ilin mayında Birinci Fransız Ordusunun tərkibində yenidən Vozj və Elzasdakı döyüşlərə qatılır. Son döyüşlərdən birində, müharibənin lap son günlərində Əhmədiyyə tank üzərindəykən yaralandı. Onu Parisə xəstəxanaya göndərdilər. O, sağaldı. Artıq müharibə də başa çatmışdı. Onun bərpaya ehtiyacı olduğu aşkar hiss olunurdu. Xeyli arıqlamışdı. Fransa qəhrəmanı kimi ona münasibət tam fərqli idi.

Hamı onu doğması, öz əzizi bilirdi. Qəhrəmanı bərpa dövrünü keçmək üçün Dijon yaxınlığında dağlarda yerləşən Perqola zonasına yolladılar, sonra 3 ay Parisdə yerləşən Vitirisirsendə dincəlmək tapşırıldı.

Onun əməyini hamı qiymətləndirirdi. Amerikanlar qəhrəman əsgərə 100 min dollar mükafat təklif etdilər, onu Amerikaya dəvət etdilər. Ona ABŞ-da işləmək təklif olundu. La-



kin Əhmədiyyə təşəkkürünü bildirib onların dəvətini qəbul etmədi.

Müqavimət Hərəkatının liderləri Fransada qardaşlıq, iqtisadi-sosial bərabərlik və insanların əsl azadlığı prinsiplərinəsöykənənyenicəmiyyəti qurmaya başladılar. Cəmiyyət də onları dəstəkləyirdi. Müvəqqəti hökumət dövlət mülkiyyəti hüquqlarını artıran yeni sosial proqramın həyata keçirilməsinə başladı. Bu, ölkədə maliyyə sistemini qeyri-sabit vəziyyətə saldı. Lakin yeni sosial bazanı təmin etmək üçün ölkədə iqtisadi baza bərpa olunmalı, sistemləşdirilməli və sənayenin hərtərəfli genişləndirilməsi ilə müşayiət olunmalı idi. Bununla bağlı müvafiq planları Jan Monnenin başçılığı ilə ekspertlər qrupu hazırlamağa başladı.

Əhmədiyyə nə qədər qayğı və diqqətlə əhatələnsə də, Vətən həsrəti güc gəlirdi. 1946-cı ildə öz xahişi ilə o, SSRİ konsulu Duxımovun yanına getmək qərarına gəldi. Görüş təyin etdi.

General de Qoll da Əhmədiyyənin xidmətlərini yüksək qiymətləndirərək, Fransa qəhrəmanına fabrik bağışladı. O, Əhmədiyyəni öz yanında dəftərxanaya işə götürdü. Burada artıq Əhmədiyyə ailə qurmuşdu. Onun iki övladı da var idi. Lakin Əhmədiyyənin bir istəyi var idi: Vətənə qayıtmaq, yenə Azərbaycanın, doğma Şəkinin, Oxudun havasını doyunca canına çəkmək, suyundan içmək istəyirdi. İndi o torpaqlar onu bir ilahi qüvvə kimi özünə çəkirdi.





# Vətənə doğru

Əynində Amerika forması, döşündə fransız ordeni ilə konsulluğa daxil oldu.

Duxımov onunla fransızca danışır, suallar verir, Əhmədiyyə isə rusca cavab verirdi.

Duxımov soruşdu:

- Rus dilini harada öyrənmisiniz?

- Mən rusam, qafqazlıyam. Bakıdanam, azərbaycanlıyam.

Duxımov dərhal ayağa qalxdı, yaxınlaşıb onu qucaqladı.

- Siz Fransaya necə düşmüsünüz?

Əhmədiyyə başına gələnləri ətraflı danışdı. Sözünü istəyi, arzusu ilə tamamladı.

- Bir an belə Vətənsiz qalmamışam, daim ölkəm ürəyimdə olub. Çünki vuruşanda da vətənimin azadlığını düşünmüşəm. İndi ölkəmə qayıtmaq istəyirəm. Mən yalnız öz elobamda xoşbəxt ola bilərəm.

Bu söhbətlərdən sonra Duxımovun əhvalı yüksəlmişdi. Onlar bir



xeyli söhbətləşdilər. Görüşün sonunda Əhmədiyyəni özü ilə otelə apardı, yemək hazırlatdı.

Bütün hazırlıq işləri görüldü. Əhmədiyyə Vətənə qayıdırdı. O, çox sevincli idi. Fransadakı dostları da onu başa düşür, qərarını anlaşıqlı qarşılayırdılar.

Əhmədiyyə qayıdanda amerikan pistoletini Simon adlı fransalı kommunistə bağışladı.

Təbiətin elə vaxtı idi ki, Parisdə şabalıd yetişməyə başlamışdı. Bu xatirələr Əhmədiyyəni uzaq Şəkiyə, doğma Oxuda apardı. Yenə uşaqlıq, yeniyetməlik illəri gözü önündən keçdi. Şabalıd ağaclarına necə qulluq etmələri, onun meyvələrinin möcüzəli böyümə tərzi, şabalıd ağacının gətirdiyi sərinlikdə həmyaşıdları ilə dincəldiyi anlar yadına düşdü. İndi Vətən onu salamlayır, həsrətlə yolunu gözləyir. Əhmədiyyənin ürəyindən həsrət yanğısı keçdi. Amma bilirdi ki, bu yanğı tezliklə keçəcək. Axı o, Vətənə qayıdırdı.

***

Paris uçulub dağılsa da, öz gözəlliyini qoruyurdu. Axşam xüsusi dirəklərdə yandırılan yaşıl fənərlər şəhəri daha təmtəraqlı, bərbəzəkli edirdi. Müharibənin odlu-alovlu günlərindən bir uçmuş evlər, hərdənbir görünən hərbi texnika, bir də əsgər geyimlilərin çoxluğu xəbər verirdi. Amma onlar neçə vaxt idi, belə asudə olmamışdılar. Özü də belə alışıb-yanan, işıqlı şəhərdə.

Doyunca şəhəri gəzdi, Sena sahillərində xeyli xəyala daldı. Çayın yaşıl suyu bir anlıq ona Kiş çayını xatırlatdı. Bir anlıq qəlbinə qüssə qondu. Görəsən, o diyarlar indi onsuz necədir, ata-anası, bacı-qardaşları nə edirlər? Müharibə onlara nə edib? Sağdırlarmı?

Əhmədiyyə çayın kənarından qüssəni qovmaq üçün ayrılıb şəhərə gəldi. Paris gurlayırdı. Yox, o, heç də heç vaxt heç yana tələsməyən insanlarının sakit həyat tərzi ilə seçilən Nuxaya bənzəmir.

Müharibə artıq şərqə, Elba sahillərinə üz tutmuşdu. Uzun illərdən bu yana ilk dəfə idi Əhmədiyyənin istirahət üçün kifayət qədər vaxtı var idi. Partizanların əksəriyyəti bir neçə günlük evlərinə yollandılar. Əhmədiyyə ilə şəhərdə yalnız Marsel Pyer qalmışdı. Onlar şəhəri gəzib dolaşır, küçədə qızlara kompliment deyir, zarafatlaşır, bir sözlə, istirahət edirdilər. Artıq onları qəfil peyda ola biləcək düşmən əsgəri təhlükəsi gözləmirdi. Amma Əhmədiyyə hiss edirdi ki, dostunun üzü gülmür, nəsə qəmgindir.



Əhmədiyyəni qatara yola salmaq üçün xeyli adam toplaşmışdı.

Kapitan Delplon Əhmədiyyəni yola salanda ona bir attestasiya sənədini təqdim edib dedi:

- Bunu Sovet rəhbərliyinə çatdırarsan.

Sənəddə deyilirdi: *«Mən kapitan Delplon, «Tarn et Garonne» azad korpusunun komandanı, şahidlik edirəm ki, Armed Mişel Fransa müqavimət Hərəkatının üzvü olub. O, sonsuza qədər qoçaq və cəsarətli döyüşçü kimi həmişə yoldaşlarını heyran edib».*





Onun əlində bir sənəd də var idi. 1945-ci il martın 13-də Montoban şəhər bələdiyyə idarəsinin başçısı Trankunun təsdiqlədiyi sənəddə onun Fransa müqavimət hərəkatında fəal iştirak etdiyi göstərilir.

Şarl de Qollun da ona vida hədiyyəsi var idi. De Qoll Əhmədiyyəni otağına çağırtdırdı. Əhmədiyyə iri kabinetin astanasından içəri keçib bir qədər qərarsız görünürmüş kimi gözləməyə başladı. Ciddi bir işlə məşğul görünən de Qoll başını qaldırıb Əhmədiyyəni görən kimi ayağa qalxdı. Sifətinin hər bir cizgisinə hopmuş mülayim təbəssümlə Əhmədiyyəni salamlayıb onun əlini bərk-bərk sıxdı.

Əhmədiyyə hələ də ehtiyatlı və bir qədər də ürkək göründü. Açığı, elə bilirdi ki, de Qoll qalmaq üçün onu dilə tutacaq.

- Siz Fransa naminə cəsarətlə döyüşmüsünüz - deyə, o, Əhmədiyyənin sinəsini örtmüş fransız orden və medallarına nəzər saldı, - Əmin olun ki, Fransa xalqı Sizin bu qəhrəmanlığınızı heç vaxt unutmayacaq.

Daha sonra o, Əhmədiyyənin ailəsi haqqında soruşdu. O, atası, anası və qardaşları haqqında məlumat verdi.

- Onların taleyi haqqında bir məlumatın varmı?

- Xeyr.

- Bəlkə nəsə bir arzun, istəyin var. Bəlkə Fransa sizə necəsə kömək edə bilər? Rica edirəm, çəkinmədən hər bir şeyi deyəsiniz.

- Çox sağ olun. Mən, sadəcə, tezliklə Vətənə qayıtmaq və ailəmi görmək istəyirəm.

De Qoll ayağa qalxıb Əhmədiyyəyə bir kağız uzatdı. Əhmədiyyə də dərhal ayağa qalxdı. Generalın əlindəki xüsusi blanka oxşayırdı.

Əhmədiyyə onu əlinə aldı. Orada yazılmışdı: *«Siz bizim fəxri qonağımızsınız. Bu sənəd Sizə Fransada bütün növ nəqliyyatdan pulsuz istifadə etmək hüququnu verir».* Bu, müstəsna hüquq idi. Çünki bu ixtiyar yalnız bir nəfərə – Fransa Respublikasının prezidentinə verilirdi.

Bu görüş Əhmədiyyəni çox kövrəltmişdi. Lakin yeni dostla-



rı nə qədər doğmalaşsalar, ona münasibət nə qədər nəzakətli olsa da, Əhmədiyyə Vətənə tələsirdi. Doğma ellər üçün burnunun ucu göynəyirdi. Az qala hər gecə yuxuda ata-anasını, bacı-qardaşlarını, doğma kəndini görür, onun qoxusunu hiss edirdi. Hər gecə onu geri səsləyirdilər.

1946-cı ilin axırlarında Əhmədiyyə artıq Vətənə qayıdırdı. Qatar yerindən tərpənəndə, Əhmədiyyə kimi, dostları da kövrəlmişdilər. Bəli, Əhmədiyyə bu illər ərzində qazandığı dostlarla yanaşı, artıq ona əziz, doğma olan, ömrünün bir parçasına çevrilmiş və xatirələri daim onunla olacaq qurduğu yeni dünyadan da ayrılırdı.

Əhmədiyyəni Almaniyaya gətirdilər. Burada bir sutkaya yaxın qaldıl. Postda dayanan amerikalılar qatarda gedənləri başdan-ayağa yoxladılar, suallar verdilər. Əhmədiyyəyə bağışlanmış qızıl saatı «Bunu aparmaq olmaz» deyə, əlindən aldılar.

Dəstə qatarı dəyişdi. Onlar Polşa sərhəddinə çatanda, qatarı yenə saxladılar. Burada Amerika və Sovet əsgərləri postda dayanırdılar. Onları yenidən yoxlamağa başladılar. Fransada olarkən onun motosiklətə marağını nəzərə alaraq, motosiklet bağışlamışdılar. Yola çıxanda da onu qatara fransız dostları özləri qoymuşdular. «Bunu sürə-sürə partizanlıq etdiyimiz illəri xatırlayarsan», demişdilər. Bu dəfə ona bağışlanmış «Harli Devidson» motosikletini aparmağa icazə vermədilər. 5 saatdan sonra qatar yenidən hərəkətə başladı. Sovet sərhəddinə çatdılar. Yenə qatar dayandırıldı. Sorğu-suallar başladı. Amma bu dəfə onları daha sərt və soyuq münasibətlə qarşılamışdılar. Sorğu-sual aparanlar NKVD – SSRİ Daxili İşlər Xalq Komissarlığının nümayəndələri idi.



Əhmədiyyənin orden və medalları onların diqqətini çəkmişdi. Zabit:

- Görünür, qoçaq adamsan ki, səni bu qədər təltiflərə layiq görüblər.

Onunla şirin-şirin danışmağa başladılar. Lakin sorğu-sual davam edirdi. Onlar müharibə illərində gördüklərini ətraflı soruşdular. 3 gün onu saxladılar. Yola düşəndə Litpeti biletini qaytarmadılar.

Qatar Kiyevdə də bir müddət dayandı, lakin daha burada sorğu-sual edən yox idi. Nəhayət, Moskva. Hər şey burada sona çatır. Sona çatır Əhmədiyyənin müharibəsi, azadlıq savaşı, vətən uğrunda verdiyi qurbanlar.

Bundan sonra yeni həyat başlayacaq.

Moskvada, təbii ki, onun birinci aparılacağı qapı NKVD-nin iri darvazaları idi. Onu bir podpolkovnik qəbul etdi. Səmimi söhbət edirdi. Elə bil, heç sorğu-sual da deyildi. O, ayağa qalxıb, kabinetindəki şkaflardan birindən kərə yağ, çörək, salat və araq çıxardı. Söhbət edə-edə Fransadakı ümumi duru-





mu müzakirə edirdilər. Əhmədiyyə bütün gördüklərini düşündüyü kimi çatdırmağa çalışdı. Ona burada yataq verdilər.

Bilirdi ki, ona nəyisə səhv demək və ya çaşmaq olmaz. Yoxsa aqibəti heç də yaxşı olmayacaq. Əhmədiyyə onu da bilirdi ki, ona münasibət dəyişməyəcək, çünki o, müharibədə ölməyib, əsir düşüb. Əsirlərə isə SSRİ-də istənilən halda «Vətən xaini» kimi baxırdılar. O, müharibənin amansız od-alovundan keçsə, başı inanılmayacaq dərdlər çəksə də, buna baxmayaraq, bir an belə vətəninə xilaf çıxmasa, daim onun üçün, onun uğrunda çarpışsa da, yenə ona xain gözü ilə baxacaqdılar.

NKVD-nin binasında təqdim etdiyi sənədələri, orden, medal və mükafatları belə, ona bəraət qazandırmayacaqdı. Amma Əhmədiyyə hələ SSRİ-yə qaytmazdan əvvəl bunu dəqiq bilsə də, qərarını qəti vermişdi və o, peşman deyildi: «Hər nə olursa-olsun, Vətəndə olsun. Artıq qəriblik həyatı yetər» deyə, o, düşünürdü.

Ona açıq da bildirirdilər ki, nə Qollun, nə əqidə yoldaşı Moris Torezin rəyi ona haqq qazandıracaq.

Ertəsi həmin podpolkovnik yenə onu qəbul etdi. Səmimi qarşıladı. Hal-əhval tutdu. Necə yatdığını soruşdu. Əhmədiyyə də zarafatla:

- İlk dəfə evdə olduğu kimi - deyə, təbəssümlə cavab verdi. Podpolkovnikin dodağı qaçdı.

Zabit oturduğu masanın yeşiyini açıb sonra əlini bir paketlə ona tərəf uzatdı:

- İki min rubldur. Bir də sənə yol üçün azuqə verəcəyik. Yoldaş Kalininin tapşırığıdır. Gəlin, gedək.

Podpolkovnik onu zabitlər yeməkxanasına gətirdi. Nahar vaxtı idi. Onu görən hər kəs sinəsindəki orden və medallara baxıb heyranlıqlarını gizlətmirdilər.



Podpolkovnik onu səmimiyyətlə vağzaldan yola saldı. Xoş yollar, yaxşı istirahət, uzun ömür və cansağlığı arzuladı. Lakin onun mükafatlarının və verilmiş hədiyyələrinin bir qismi qaytarılmadı.

Əslində, Əhmədiyyə əsirlikdə olduğu üçün bu münasibətə görə heç də narazı görünmürdü. Zaman belədir. O, tam yoxlanılmalıdır. Bunun üçün lazım gələrsə, bir az da əziyyət çəkməlidir. Lakin o, vətən xaini damğasına tuş gəlmək istəmirdi. Axı əsirlikdə olsa da, o, hər nəfəs aldığı anı məhz vətəninin azadlığı, düşmən tapdağından qurtulmasına həsr etmişdi. Nə ailəsini düşünmüşdü, nə öz xeyrini. Düşünsəydi, müharibədən sonra heç vətənə də qayıtmazdı.

Qatar Xarkov-Rostov-Mahaçqala-Bakı marşrutu ilə hərəkətə başladı. Yolboyu Əhmədiyyə hey xəyallara dalırdı. Bu yollar ona nə qədər də əziz və doğmadır. Amma bu yollarla əks istiqamətə axırıncı yolçuluğu heç də xoş günlərlə yadda qalmayacaq. Əzab-əziyyətlər, məhrumiyyətlər, dost-yoldaş itkisi, su əvəzinə axan qan – bütün bunlar, müharibənin dəhşətləri onu ömürlük təqib edəcəkdi. Bu müharibənin izi hələ uzun müddət slinməyəcəkdi. Elə yolboyu çölləri, yetimsəmiş çəmənləri izləmək özü o müharibənin, o dəhşətlərin ağrı-acısından xəbər verirdi.

Qatar Dərbəndə çatırdı. Artıq o, Azərbaycanın da nəfəsini, havasını udmağa başlamışdı.

- Hə, bura Vətəndir – deyə, dərindən nəfəs aldı. Tezliklə, doğma el-obasına qovuşacaq, yeni həyata başlayacaqdı.

Sovet ordusunun geyimində əli silahlı dörd nəfər ona yaxınlışıb bileti istədilər. Biletə baxıb soruşdular:

- Haradan gəlirsiniz?

- Parisdən.

Daha heç nə soruşmadılar. Bileti də və ordenini də aldılar, amma qaytarmadılar.

- Bakıya düşəndə, adınızı mütləq dəftərə saldırın.

- Ordenimi neyləyirsiniz?

- Onu muzeyə qoyacağıq - deyib, getdilər.

Qatar Azərbaycanın şəhərlərini, kəndlərini saya-saya Bakıya üz tutdu. O, pis heç nə düşünmək istəmirdi. Hərçənd Dərbənddə əsgərlərin davranışı ürəyincə olmamışdı. O, yeni xəyallara daldı.

Qatar Bakıya çatırdı. Cəmi bir stansiya, bu torpaqdan, Vətəndən onu cəmi bir stansiya ayırırdı. Cəmi bir stansiyadan sonra yeni həyatın ilk nəfəsini istədiyi kimi udacaqdı. Özünə söz vermişdi ki, düşən kimi doyunca gəzəcəkdi.

Birdən ona mülki geyimdə iki nəfər yaxınlaşdı. Başqa vaqona keçməli olduğunu söylədilər. Çantasını da götürüb deyilən kimi etdi. Burada daha altı nəfər də var idi.

Nəhayət, Bakı vağzalı. Səhər saat 7 idi. Onlara «gözləyin» dedilər. Qatarda artıq heç kim qalmamışdı. Amma nədənsə onlara nə etməli olduqlarını deyən də yox idi. 10 dəqiqə sonra gəldilər. Gəlin bizimlə. Əhmədiyyə yaman acmışdı, susuzluq da onu birtəhər etmişdi.

Gözətçilər nə yemək, nə də içmək üçün bir şey almağa, «olmaz» deyə icazə vermədilər. İki saatdan sonra vağzalın işçiləri də bir-bir öz yerini tutdular. Onları böyük





bir zala apardılar. İçəri daxil olan kimi Əhmədiyyəyə kənarda qoyulmuş divanda əyləşmək göstərişini verdilər. Ortada uzun bir masa var idi. Burada rus polkovnik, bir erməni qadın kapitan, iki leytenant və görkəmindən, üst-başından azərbaycanlı olduğu bilinən daha iki nəfər də var idi. Tezliklə otağa onun üç çamadanını və əsgər çantasını gətirdilər.

Bütün əşyaları masanın üzərinə tökdülər. İçində hər nə var idisə, bir-bir yoxladılar, gözdən keçirdilər.

Onun əşyalarını toplayıb yerbəyer etdilər.

Rus polkovnik sözə başladı:

- Səni kimsə incitsə, bura - dəmir yol NKVD-sinə gəlib məktub yazarsan - deyə, əl uzatdı.

Əhmədiyyə təşəkkür edib, çamadanlarını götürdü.

- Onu yola salın - polkovnik azərbaycanlılardan birinə dedi.

Həmin iki nəfər ona bilet alıb, əşyalarını qatara qədər apardılar. Sonra sağollaşıb yola saldılar. Qatar Yevlaxa yola düşdü. Artıq qatarın hər taqqıltısı, hər ötən mənzərə, hər saat, hər dəqiqə, hər an onu Şəkiyə, doğma Oxuda yaxınlaşdırırdı.

Əhmədiyyə Yevlaxda düşdü. Hər şey dəyişmişdi. Buralar müharibə görməmişdi. Amma hər addımda, insanların simasında müharibənin bütün' ağırlığının çəkilmədiyini hiss etmək olurdu. Qadınların əksəriyyəti qara geyimdə idi. Amansız müharibə heç kimdən yan ötməmişdi. Amma bütün bu qara pərdə arxasında o, yeni həyatın da cizgilərini axtarmağa çalışdı. Hər nə olsa da, o, sağ-salamatdır, indi doğma el-obasından onu çox az məsafə ayırır.

Çantasını, çamadanlarını götürüb Şəkiyə üz tutdu. Yol boyu ötüşən mənzərələr ona nə qədər də tanış idi. Bu da Şəki. Onu həyəcan bürüdü. Kəndə necə çatacağını, evin qapısını necə açacağını canlandırmaq istədi. İllərin həsrəti necə tamamlanacaqdı, evləri, görəsən, necədir, onu necə qarşılayacaqdılar, bir də və ən əsası, onu kim qarşılayacaqdı. Əhmədiyyə evə tələsirdi.

Tezliklə bu fikirləri başından atdı. O, yol gedə-gedə qoyub getdiyi doğma yerləri xəyalında canlandırdı. Hə, burada o, dostları ilə çox olmuşdu. Atası ilə bu yollardan çox keçmişdi. Hə buradan atası ilə tez-tez keçərdi. Kolxoz sədri olanda, onunla bu yolları gün ərzində bir neçə dəfə o baş-bu baş gəzərdilər. Bəli, o, artıq Oxuda çatmışdı.

# Doğma yurdda

«Fransada yuxularımda tez-tez doğma torpağımızı görürdüm. *Görürdüm ki, o, insan sinəsi kimi qalxıb-enir; o, canlıdır, nəfəs alır, çiçəklənir»* - bu ifadəni Əhmədiyyə müharibədən qayıtdıqdan sonra tez-tez işlədirdi. Hər dəfə də bu sözləri deyəndə, xəyalları harasa uzaqlara gedirdi. Sanki elə bu an xəyallar onu alıb uzaqlara, bəlkə də həmin yuxuları gördüyü yerlərə aparırdı.

Əhmədiyyə doğma kəndinə qədəm qoyanda 1947-ci il idi. Gör neçə il keçmişdi. Axırıncı dəfə bu kənd onu belə yola salmamışdı. Yadına gəlirdi ki, yola çıxanda, pişvazına bütün kənd çıxmışdı. İllər keçdi, indi kənd qəhrəman oğlunu sükutla qarşılayırdı. Bu sükutu anlamaq olardı.

Şəkidən müharibəyə 14434 nəfər yola düşmüşdü, böyük əksəriyyəti – 12515 nəfəri geri qayıtmadı. Amma Oxud müharibədən qayıdan hər övladı kimi, Əhmədiyyəni də əvvəllərdə olduğu kimi, həmin gülər üzü ilə salamlayırdı. Bu kənd yaxşı mütəxəssis olmaq üçün oğul yola salmışdı, indi onu qəhrəman kimi qarşılayırdı.

Kəndinin havasını canına çəkdikcə elə bil, meyxoş olurdu. Beynindən xoş bir sızıltı keçdi.

- Salam, əziz kəndim. Mən qayıtdım – deyib, gözlərində sevinc yaşları ilə ətrafa boylandı. O baş-bu baş kəndi







doyunca süzdü. Kəndin havası, suyu heç dəyişməmişdi. Əlbəttə, hər şey bir az dəyişib. Amma yollar, dağlar, təbiət, çay, uzaqdan görünən dərələr elə həminki idi. Əhmədiyyəyə elə gəldi ki, yaxın-uzaq su-torpaq, dağ-daş onu salamlayır. Əyilib torpaqdan bir parça götürdü. Üzünə sürtdü. Dilinə vurdu.

Evin qarşısına çatanda, sakitliyə dözə bilmədi. Ürəyi döyünməyə başladı. Elə kənardan da aydın görünürdü ki, ev elə bil, yetimləyib, baxımsızlıqdan atılmış dəyirmana bənzəyir.

Qapını açdı, cırıltıya bir nəfər döndü. Kiçik qardaşını dərhal tanıdı. Onlar bir-birinə sarıldılar. Hər ikisinin gözləri yaşardı. Bir nəfərin də onlara tərəf qaçdığını eşidib, döndü. Bacısı idi. Bacı-qardaş bir-birinə sarıldı.



Qardaşı tez evə sarı qaçdı.

- Ana, ana, ay ana, muştuluğumu ver, oğlun qayıdıb, Əhmədiyyə qayıdıb.

Otaqdan səs eşidildi:

- A bala, mənlə belə zarafat etmə.

- Ay ana, bir bayıra çıx.

- Bəsdir, a bala, Əhmədiyyənin qara kağızı bəsimdir. Dərdlərimi təzələmə.

- Ay ana, bir bayıra çıx.

Əhmədiyyə qapıdan çıxan qadını az qala tanımayacaqdı. 6-cı hissiyyatı – doğmalıq duyğusu anasını ona tanıtdı...

- Ana! - deyə, həyəcanla Əhmədiyyə anasına sarı atıldı. Anası Əhmədiyyəni görər-görməz özündən getdi. Onu ayıltdılar, tir-tir əsirdi. Əhmədiyyə anasını qolları arasına alıb bağrına basdı.

Axşama qədər oturub doyunca söhbət etdilər. Gah şirin, gah da acı xatirələr, biri xoş, o biri qara xəbərlərin sevinci-kədəri ovqatını dəyişirdi. Əhmədiyyənin gəldiyini eşidən kənd bir-bir gəlib anasına gözaydınlığı verir, ondan hal-əhval tuturdular. Kimi oğlunu, kimi atasını, kimi ərini, kimi qardaşını görüb-görmədiyini xəbər alırdı.

Əhmədiyyəni daha çox anasının bu illərdə keçirdiyi hisslər, yaşayışı ağrıdırdı. Aclıq, müharibənin dəhşətləri deyil, aldığı dörd oğlunun qara kağızı və ərinin ölümü ananı dəli-divanə etmişdi. Ərinin ölümünə dözməyib, o, gecələr dağlara qaçıb onu səsləyirmiş.

Əhmədiyyənin atası Mikayıl kişi 1943-cü ildə xəstələnib yorğan döşəyə düşür. Həyat yoldaşı Səfurə ana uşaqların qara kağızlarını Mikayıl kişiyə göstərmirmiş. Bilirdi ki, göstərsə, əri bu dərdə dözməyəcək. Ancaq Mikayıl kişi müharibənin nə olduğunu yaxşı bilirdi. Səsini çıxarmasa da, oğlanlarından bir xəbər çıxmamasından nigaran idi. Mikayıl kişi ögey oğlu Məmmədsadiqin Bakı şəhərindən müharibəyə yollandığını eşidəndə, üzdə büruzə verməsə də, çox sarsılır. Səfurə ana onun nigarançılıq dərdinə dözməyəcəyini görüb qara kağızları ona göstərir. Yalnız bir il sonra o, bilir ki, Əhmədiyyə Ukraynada itkin düşüb və qara kağızı gəlib. 1943-cü ilin əvvəlində Paşa Moskva ətrafında döyüşlərdə qəhrəmancasına həlak olub, Məmmədiyə Stalinqrad ətrafında qəhrəmanlıq göstərib, amma

həlak olub, Əbdüsalam Qara dənizdə şücaətlə həlak olub. Bu qara kağızların hamısı kişinin ürəyinin qara yarasına çevrilir.

Bir gün o, kiçik oğlu Ələsgəri yanına çağırır:

- Ələsgər, səndən başqa oğlum qalmadı. Bu evin bütün yükü sənin üzərinə düşəcək. Ev-eşikdən muğayət ol.

Bu sözləri deyib, Mikayıl kişi canını tapşırır. Mikayıl kişini kənd əhalisi böyük hörmət və ehtiramla dəfn edirlər. Amma həyat ağır idi, camaat onlara çox kömək edə bilmirdi. Ana övladlarına baxa bilmirdi. Onların qarnını doyurmağa günlərlə bir şey tapılmırdı. Səfurə ana çarəsizlikdən nə edəcəyini bilmirdi. Amma bir gün dözmür, gözünün qarşısında övladlarının şam kimi əriməsinə dözə bilmir. 4 oğlunu itirmiş ana bəlkə də haradasa təskinlik tapırdı ki, tək deyil, həm də oğlanları müqəddəs bir amal uğrunda – Vətən naminə canlarından keçmişdilər. Amma gözü görə-görə iki övladının aclıqdan ölməsinə o, dözə bilməyəcəkdi.

Bir gün Səfurə ana qərar verir. Kiçik oğlu Ələsgəri və qızı Naziləni uşaq evinə qoyur. Əli hər şeydən üzülmüş ana evdə olan, ərindən qalan bütün əşyaları satıb bir təhər dolanmağa başlayır. Əşyalar qurtaran kimi həyətyanı torpaq sahələrini də bir-bir satır. Teztez gedib övladlarına da baş çəkirdi.

Bu əhvalatları eşitdikcə, Əhmədiyyə gah kövrəlir, gah təəssüflənir, gah anasına halı acıyır, gah atasını, gah qardaşları ilə keçirdiyi vaxtları düşünüb kədərlənirdi. Sonra bu illərdə keçən həyatına nəzər salırdı. Görəsən, 1943-cü ildə atasının ölüm xəbərini eşitsəydi, bir gün onların sağ-salamat olmasını düşünməsəydi, həyatı necə olardı?

Səfurə ana kənddə hamının ona hörmətlə yanaşdığını deyib, yalnız bu dəstək sayəsində sağ-salamat qaldığını dedi. Ələlxüsus da İsmayıl kişi ona imkanı daxilində çörək, taxıl, düyü ilə yardım edirmiş. İsmayıl kişinin qızı Süraye atasının əvəzinə kənddə poçtalyon işləyirdi. Süraye hər gün Səfurə anaya baş çəkir və ürək dirək verirdi. Bu vəziyyət 1946-cı ilə kimi davam edir.

Əhmədiyyə bir neçə gün idi qayıtmışdı. Doyunca kəndi, dağları gəzib dolaşdı. O, yeni həyata başlamalı idi. Həm də uğrunda məsuliyyət daşıdığı insanların sayı az deyildi. Ailə üzvlərindən başqa, Paşanın iki qızı, Ələsgərin bir oğlu, iki qızı qalmışdı.

O, kolxoz sədrinin yanına getdi. Amma eşitdiyi cavab onu dəhşətə gətirdi:

- Sən əsir olmusan. Kolxozda sənə iş yoxdur.

Bu sözlərdən əvvəlcə özünü itirdi, çaşdı. Nə deyəcəyini bilmədi. Qəhər onu boğdu.

- Məgər əsirlikdə olmaq xəyanətdir? - deyə, sualına etinasız yanaşılmasına dözə bilmədi. Tez də otaqdan çıxıb getdi. Doğma ellərdən çox-çox uzaqlarda vətənin azadlığı, düşmən istibdadı ilə vuruşasan, yad ellərdə qəhrəman kimi qarşılanasan, amma Vətənində sənə düşməndən də betər münasibət bəslənsin.

Bir neçə gün özünə gələ bilmədi. Bir gün müharibədən əvvəl çalışdığı Quba rayonu idarəsinə teleqram vurdu. Dörd gündən sonra onu Nuxa şəhər kommunist partiyasına çağırdılar. Onu birinci katibi Səfərəliyev qarşıladı. Səmimi idi. Hal-əhval tutdu. Orden və medalları ilə maraqlandı.





Xeyli söhbətdən sonra telefon dəstəyini götürüb zəng etdi:

- Bəxtiyar, qəhrəman oğul Əhmədiyyə Cəbrayılovu qəbul et, onu işlə təmin et - dedi. Dəstəyi asıb üzünü Əhmədiyyəyə tutdu.

- Torpaq şöbəsinin müdiri Bəxtiyar Mustafayevə yaxınlaş. O, sənə bir iş verəcək. Narahat olma, hər şey yaxşı olacaq.

Torpaq şöbəsinin müdiri onu səmimi qarşıladı. Hal-əhval tutub əsas mətləbə keçdi.

- Bilirsən, rayonumuzda əsas sahə ipəkçilikdir. Səni tutçuluq üzrə baş aqronom təyin edəcəyik.

21 nömrəli əmrlə Əhmədiyyə yeni işə başladı. 1949-cu ilə qədər burada çalışdı. Bütün tapşırıqlara əməl etdi. Onun sayəsində işlər öz qaydasına düşmüşdü. Əmək cəbhəsində də qəhrəman olacaqdı. Hətta səmərəli fəaliyyətinə görə, Nazirlər Sovetinin əmrinə əsasən, 10 min manatla mükafatlandırıldı.

Hər şey öz qaydasında gedirdi. Elə anasının da davranışından hiss edirdi ki, evlənməlidir. Əhmədiyyə anasının kimə gözü düşdüyünü dəqiq bilirdi. Elə özü də dəqiqləşdirmişdi ki, onun taleyinə məhz bu qız yazılıb. Axı onların bir-birinə bağlılığının tarixçəsi təkcə müharibə illərində anasına qulluq etməsi, ya da ki, onu əsirliyin qaz duşxanasından qurtarmış yaylıq deyil. Onların tarixçəsi lap əvvəl başlamışdı.

Oxud kəndində İsmayıl bəy çox hörmətli, mötəbər, həm də qoçaq, cəsur bir adam idi. Sərrast atıcılığı dillər əzbəriydi. Onu Zaqatala quberniyasına milis rəisi təyin etmişdilər. Gecəsi-gündüzü at üstündə, dağda-daşda keçərdi. Sovet ölkəsinin düşmənləri, quldur-qaçaqlar ondan tük salardılar.

İsmayıl bəy Qax rayonunun Küllük kəndindən olan Həsiyə adlı bir qızla evlənmişdi. Bu izdivacdan beş qızı, üç oğlu dünyaya gəlmişdi. Bir oğlu uşaq ikən vəfat edir. Qalanları böyüyür, məktəbdə oxuyur, evə, təsərrüfata kömək edirdilər. Amma İsmayıl böyük qızı Sürayəni qalan övladlarından çox istəyirdi. 1926-cı ildə dünyaya göz açmış Süraye həm gözəl, həm bacarıqlı, həm savadlı, həm də cəngavər kimi qoçaq bir qız idi. Ailəni idarə edir, qardaş-bacıları ilə məşğul olur, öz dərslərini oxuyur, evdə sözü eşidilən, hökmü keçən yeniyetməyə çevrilirdi. Kənd cavanları içərisində nəzər-diqqəti cəlb etsə də, ona söz deməyə heç kəs cəsarət etmirdi. Amma Sürayənin ürəyində heç kəsə deyə bilməyəcəyi, pünhan saxladığı bir sirr vardı: o, artıq qəlbini kimə verəcəyini bilirdi və fikri qəti idi.

Kənddə ovçuluğu ilə şöhrət tapmış Məşədi Mikayıl kişi ovdan qayıdan vaxt bütün kənd tamaşaya duranda, heyranlıqla küçəyə qaçanlar arasında Süraye də olardı. Amma o, Məşədi Mikayılın oğlunun Əhmədiyyə ilə ovuna deyil, elə bu gənc bacarıqlı oğlana tamaşa etmək üçün küçəyə boylanırdı. Onun sirri də elə bu oğlana məhəbbəti idi.

Əhmədiyyənin hünərinin dillər əzbəri olması, elə bil, Sürayənin ürəyini dağa döndərirdi. Onun istər kənddə, istər məktəbdəki uğurları Sürayəyə ilham verirdi. Tezliklə onlar dostlaşdılar. Süraye hər dəfə min bir bəhanə ilə ona yaxınlaşıb nəsə soruşardı. Bu minvalla onlar bir-birinə xeyli yaxınlaşdılar, Süraye hətta hiss olunacaq qədər ona heyranlığını gizlətmirdi. Harada olsa, məktəbdə, kənddə, həyətdə, toyda, yarışlarda daim Əhmədiyyəni axtarar, min

bir bəhanə ilə ona yaxnlaşıb söhbət edərdi. Hər səhər o, yola erkən çıxıb, Əhmədiyyəni qarşılayar, ona «sabahın xeyir» deyib, yola uğurlamaqdan zövq alardı.

Süraya məhz elə bu fürsətlərə görə hər yerdə, hər zaman Əhmədiyyənin fərqlənməsini istəyərdi. Əhmədiyyə harasa - yarışa, tədbirə, müsabiqəyə gedəndə, ona uğur arzulamaq üçün qarşısına çıxar, həsrətlə qayıtmağını gözləyər, gəlməsinə xeyli qalmış yoluna çıxardı. Hər dəfə də «Bilirdim ki, sən qalib gələcəksən», ya da «Bilirdim ki, sən birinci yeri tutacaqsan» və s. ifadələrlə onu təbrik edərdi.

Əhmədiyyənin bacısı Nazilə Süraya ilə bir sinifdə oxuyurdu. Süraya bu fürsətdən də həmişə istifadə edərdi. Onun bacısına tez-tez baş çəkərdi.

Süraya toylarda Əhmədiyyəni gözdən qoymazdı. Mikayıl kişinin oğlu «Heyvagülü» havasını xüsusi zövqlə rəqs edirdi. Süraya də hər dəfə ona başqa qızlarla «xələt» göndərərdi.

Əhmədiyyə Şəki Kənd Təsərrüfatı texnikumuna daxil olandan sonra müxtəlif idman və təhsil yarışlarına gedərdi. Əvvəlcə Bakıya gedərdi, sonralar səsi Moskva, Xarkov, Kiyev və başqa şəhərlərdən gəldi. Hər dəfə qayıdacağı günü dəqiqləşdirən Süraya atasından müxtəlif bəhanələrlə icazə alıb şəhərə gedər, onu gül-çiçəklə qarşılayardı. Əhmədiyyənin qəzet və jurnallarda çap olunan uğurları, ya da hansısa yarışda adının qeyd olunması Sürayənin sevimli işinə çevrilmişdi. O, qəzet və jurnalların həmin səhifələrini kəsib götürərdi. Onları ən əziz xatirə kimi toplayıb səliqə ilə bir qovluğa yığardı.

Bir gün əmisi Əsəd təsadüfən qəzetlərdən birini papiros bükmək üçün götürür və eşiyə çıxır. Süraya bunu görüb, qeyri-ixtiyari qışqırıq çıxarıb, əmisinin üstünə atılır, qəzeti alıb kənara çəkiləndə, nə etdiyini anlayır. Hamının təəccübünü görüb yalan danışmaq məcburiyyətində qalır:

- Qəzetdə mənim dərsim üçün lazım olan məqalə var.

Əhmədiyyə Cəbrayılovun da qeyd etdiyi belə çoxlu xatirələr var idi.

- Texnikumda oxuyurdum. Bir gün dərs vaxtı qumbara atırdıq. Yoldaşlarımdan birinin atdığı alət başıma dəydi, huşumu itirdim. Məni xəstəxanaya çatdırdılar. Gözümü açanda Sürayəni başımın üstündə gördüm. Soruşmağa məcbur oldum: «Sən məni niyə izləyirsən?» - Süraya hazırcavab idi: «Mən qoçaqları çox sevirəm».

O, gündən aralarında dostluq telləri yava-yavaş məhəbbətə çevrilməyə başlamışdı. Texnikumu bitirən Əhmədiyyəni təyinatla Quba-Xaçmaz-Dəvəçi-Qusar-Yalama rayonlarına zona üzrə aqronom göndərirlər. Süraya bunu eşidib çox narahat olur və Əhmədiyyənin anasını dilə tutmağa başlayır: «Oğlunu uzaqlara buraxma, o, özünə baxa bilməz». Səfurə ana da bunu istəyirdi. Amma faydası olmur. Əhmədiyyə inadından dönmür. Belə olduqda nigarançılıqda qalan Süraya ona məktublar yazmağa başlayır. Hərdən Səfurə ana da Sürayəni səsləyib Əhmədiyyədən gələn məktubları ona oxutdurardı. Süraya bunu sevə-sevə edərdi. Səfurə ana da qızın oğluna məhəbbətini hiss etmişdi. Hər fürsət düşdükcə onu təriflәyər: «Sənin kimi gəlini olan ana xoşbəxt olar», deyərdi.

Əhmədiyyə məktublarında anasına yazırdı ki, işləri yaxşı gedir. Tezliklə anasını sevindirəcək. O, evlənmək istəyir. Hətta bir neçə paltarlıq parça da alıb.





Çox maraqlıdır ki, neçə illər sonra Parisdən Vətənə qayıtdıqdan sonra - Xaçmaz stansiyasında kirayənişin qaldığı evin sahibi onun qayıtdığını bilib parçalarını ona çatdırmışdı. Əhmədiyyə bundan çox təsirlənmişdi. Çünki müharibənin od-alovu aləmi bürüdüyü bir vaxtda aclıq-səfalət içində yaşayan həmin insan bu parçaları da satıb özünə bir parça çörək ala bilərdi. Əhmədiyyə nə qədər andaman etsə də, ev yiyəsi «elə şey olmaz, oğul, bizdə əmanətə xəyanət olmur» deyə, parçalarını sahibinə qaytarmışdı.

Müharibədən Sürayəyə Əhmədiyyədən bir hədiyyə də qalmışdı. Sonuncu dəfə Şəkidən Xaçmaza qayıdanda Əhmədiyyə avtobusa minərkən, pencəyini çıxarıb Sürayəyə verir ki, aparıb anasına versin. Amma o, pencəyi gizlincə öz evlərinə aparır və saxlayır və müharibənin axırına qədər sandığından yalnız gecələr çıxarırmış ki, Əhmədiyyənin qoxusunu alsın.

1941-ci ildə Süraya məktəbi başa vurdu. Amma amansız müharibə minlərlə qız kimi, onun da arzularını ürəyində qoydu. Hər yerdə olduğu kimi, Oxudda da başı papaqlı qalmır. Bütün evlərdəki 18-55 yaşlı kişilər cəbhəyə göndərilir.

Müharibə illərində artıq qocalmış İsmayıl kişi poçtalyon işləyirdi. Süraya fürsət tapan kimi: «Ata, ver məktubları mən paylayım, sən yorğunsan» deyərək, cəbhədən gələn məktubları paylayardı. Bu vaxt o, Əhmədiyyəgilə baş çəkər, Səfurə anaya kömək edərdi. Evlərində olan ərzaqlardan düyü, un, yağ və s.-dən ona tez-tez pay aparar, tək və kimsəsiz qalan anaya hər cür yardım edərdi. Əhmədiyyədən arasıra gələn məktublar elə də böyük məzmunda olmurdu. O, həmişə eyni sözü yazırdı: *«Ana, sapsağlamam, kefim yaxşıdır, döyüşürük. Hər şey yaxşıdır. Məndən nigaran olma».*

Əhmədiyyə təyyarəçilik məktəbində oxuyanda, Sürayəyə yazdığı məktublar da çox əhatəli olmazdı. Əvəzində yazdığı kağıza gül ləçəkləri qoyar, şəkillərlə bəzəyərdi. Süraya xanım böyümüşdü, ərgənlik qız olmuşdu. İsmayıl kişinin qapısını elçilər döyürdü. Ata-ana qızlarını gələn elçilərdən birinə vermək istəyir, qohum-qardaşlar da razılaşırlar. Bircə Süraya «Mənim hələ ərə gedəsi vaxtım deyil» deyə, bütün təklifləri inadla rədd edirdi.

Müharibənin qızğın çağı idi. Artıq İsmayıl kişi də əldən düşmüşdü. 1943-cü il avqustun 1-də qapısını daha bir sanballı ailənin böyükləri döyür. Bu dəfə ailə sözünü qəti şəkildə Sürayəyə bildirir: «Bu elçilərə «yox» deyilməyəcək!».

Ancaq qız iki ayağını bir başmağa dirəyir: «getməyəcəyəm». Anası bir qədər də narahatlıqla qızını dilə tutur, amma alınmır.

- Yaxşı, bəs sənin dərdin nədir, onu de!».

Ayrı əlac olmadığını görən Süraya məsələni anasına açmağa məcbur olur:

- Mən Mikayıl dayının oğlu Əhmədiyyəni sevirəm. Onun yolunu gözləyəcəm.

Bu gələn elçilər də kor-peşman geri qaytarılır. İsmayıl kişi çox qəzəblənir. Səs kəndə yayılır. Cürbəcür şayiələr kəndi bürüyür. Bu, elə bir vaxt idi ki, artıq Əhmədiyyədən heç bir səs-soraq yox idi. Məktubları kəsilmişdi - ölüb qaldığından da xəbər yox idi.

Yaşıdları Sürayəyə təsir etməyə çalışır, eşitdiklərini ona çatdırırdılar. «Deyirlər ki, Əhmədiyyənin təyyarəsini vurublar, təyyarənin içində yanıb kül olub».

Bir gün Əhmədiyyənin ölüm kağızını Səfurə anaya özü aparmalı olur. Həmin gün Sürayə özünə gələ bilmir. Hey ağlayır, sızlayır. Amma haradasa qəlbinin dərinliyində Əhmədiyyənin ölüm xəbərinə inanmırdı. «O, mənim qəlbimdədir. Tanrı onu mənə bağışlayar. Allah mənim gözümü yolda qoymaz. Getsəm odur, ya da ölüm». Dili belə desə də, qəlbində için-için ağlayırdı.

İllər keçir. Müharibə başa çatır. Əhmədiyyədən xəbər çıxmır, qohum-qonşu, tanış-biliş qızı dilə tutur, inadından döndərmək istəyir, lakin bacarmırlar. Deyirlər: «O, lap sağ olsa da, gəlsə də, bəlkə səni almayacaq. Nə bilirsən?» Sürayəyə bu sözlər heç bir təsir etmirdi. İnadla yol gözləyirdi. Hərçənd qara kağızı da unutmurdu.

Elə buna görə də Əhmədiyyənin sağ-salamat qayıtdığını eşidəndə, özünü itirdi, az qala huşunu itirib yerə yıxılacaqdı. Dərhal Əhmədiyyəgilin evinə sarı qaçdı.

Sürayə onu təbrik edib ayrıldıqdan sonra elə anası da olub-keçənləri ona danışdı. Ancaq bundan sonra Sürayə o tərəfə keçmədi, daha gözə görünmədi.

İsmayıl kişinin Əhmədiyyədən xoşu gəlmirdi. Deyirdi ki, çılğındır, ədalıdır, arvad saxlayana oxşamır. Ona görə də onun göndərdiyi ilk elçini əliboş yola salır. Bunu eşidən Sürayə atası ilə mübahisə edir. Sürayə qonşuda yaşayan Pəri qarını Səfurə ananın yanına göndərir ki, elçiləri yenə göndərsin. «Sürayə ata-anasının üzünə durub. Deyir, «getsəm, ya Əhmədiyyədir, getməsəm, özümü öldürəcəyəm». Səfurə ana Pəri qarıdan razılıq edib deyir ki, Sürayənin bu sevgisini çoxdan bilir. Elə oğlu da ya Sürayəni alacaq, ya da bir daha başqası ilə evlənməyəcək.

İkinci gəlini Zərifəni və bir də boğça götürüb İsmayıl kişigilə gəlir. O vaxta qədər İsmayıl kişinin evində bütün mübahisələr, dava-dalaş artıq çözülmüşdü.

- Səni orda döysələr, ac saxlasalar, boşasalar da, sənə yiyə durmayacağam - bunu qulağına sırğa et, - deyə, İsmayıl kişi qızı verir.

1947-ci ilin noyabrında toy edirlər.



Sürayə elə ilk gündən ailəni bacarıq və qabiliyyətlə idarə edir. Bu evə layiqli gəlin olduğunu sübut edir. Baldızı Naziləni köçürür, qaynı Ələsgəri oxudur. Evin dirəyi olur, kolxozda işləyir, tütünə baxır, barama yetişdirir, gecə-gündüz işləyir ki, uşaqlarının heç kəsə ehtiyacı olmasın. Onların 7 övladı dünyaya gəlir. Ailənin ilki Hədiqət (ər soyadı İsmayılova) 1948-ci il iyulun 16-da doğulur. 1950-ci il aprelin 27-də ilk oğul övladı Mikayıl kişinin çırağını yandırır. Əhmədiyyə ona atasının adını qoyur.





# Vətən xaini

Ailənin həyatı bundan sonrası illərdə heç də rəvan keçmədi. Əhmədiyyənin əsirlik həyatı yaşaması ona asan başa gələ bilməzdi. Axı müharibədən sonrakı illərdə əsirlərə münasibət məlum idi. Stalin höküməti onları bağışlamaq fikrində deyildi.

Bir gün elə iş yerində ikən bir leytenant içəri daxil oldu. NKVD zabiti idi. Onunla NKVD-nin Nuxa şöbəsinə getməli olduğunu söylədi. Zabitin danışıq tərzindən şübhəli qaldı. O, artıq çoxdan insanları ilk kəlməsindən tanımağı öyrənmişdi.

Çatan kimi orden, medal və mükafatlarını alıb bir qovluğa yığdılar. Oturmağa icazə vermədən otaqda sorğu-sual başladı. Həmin leytenant sual verib sonra cavaba əsasən nəsə qeyd edirdi. Qurtarandan sonra kağızı oxumağa qoymadan «bura qol çək» deyib, imza atılan kimi kağızı dərhal əlinə alıb «çölə çıx» dedi.

Özü isə pilləkənlərlə yuxarı mərtəbəyə üz tutdu. Bir neçə dəqiqədən sonra qayıdıb onu otağa yuxarı çağırdı.

Bir otağa daxil oldular. Bu, yerli NKVD şöbəsinin rəisi, mayor Zahidov idi. Yanında bir erməni katibə də oturmuşdu.

- Oxudda kimlərin var - deyə, soruşdu.

Əhmədiyyə tanıdıqlarının adlarını bir-bir çəkdi.

Zahidov yanındakı leytenanta üzünü tutub:

- Əliyev, indi danış.

- Yoldaş mayor, tapşırığınıza əsasən, Oxud kəndinə getdim, orada öz işimi gördüm. Gecə qalmalı oldum, Oxudda anbar müdiri Orucun toyuna getdim. Toyda oynadım, mənə çoxlu şabaş verdilər. Toy qurtaran kimi evə gəldik. Evdə əvvəl mürəbbəli çay, sonra isə toyuq, aş, yarım litr konyak süfrəyə qoyuldu. Bir az yeyib içdikdən sonra ev yiyəsi Kərəm kənd sovetinin katibindən soruşdu ki, bu ordenli oğlan nə işə baxır. «Əhmədiyyə heç bir şey bacarmayan, toyuq başı belə kəsə bilməyən bir adamdır. Orden və medalları necə alıb, bilmirəm?» - deyə, cavab verdi. Bütün bunlara əsasən iş açmışıq.

Bir qədər ara verdilər. Zahidov otaqdan çıxıb bir qədər sonra əlində fotoşəkillərlə qayıtdı. Onları Əhmədiyyənin üzünə sıxaraq hirslə soruşdu:

- Hə, indi de görüm, niyə alman formasındasan. Moris Torez, Jak Düklo mənim üçün heç kimdir. Mən həqiqəti bilməliyəm.

Gecə saat birə qədər Əhmədiyyəni sorğu-sual etdilər. Evə buraxdılar. Amma həmin gündən başlaya-

raq, hər gün onu NKVD-nin rayon şöbəsinə aparır, sorğu-sual edir, sonra döyürdülər. Dırnaqlarını kəlbətinlə kəsmişdilər. Suallar isə gündən-günə dəyişirdi. «Nə üçün əsir düşmüsən?», «Əsirlikdə kimləri tanıyırsan?», «Kimlərlə əlbir olmusan?», «Almanlara harada və necə qulluq etmisən?» kimi suallardan Əhmədiyyə ondan nə istədiklərini anlayırdı. Beləcə, onu hər gecə tər-qan içində gətirib qapılarının ağzına atardılar, səhər tezdən yenə gəlib aparardılar.

Bir gün ondan orden, medal, sənədlər, şəkillər olan qovluğu istədilər.

- Mən bilmirəm. Siz məni evimin qarşısına atanda, heç özümdə olmamışam. Doğrusunu siz bilərsiniz.

Mayor Zahidov acı təbəssümlə:

- Əhmədiyyə, sənin bu möhtərəm orden və medalların olmasaydı, səni sürgün etdirərdim. Bir az qorxuram, yoxsa sənə bir toy tutaram ki, adın da yadından çıxar.

Bir müddətdən sonra ondan əl çəkdilər. Artıq hər gün deyil, ay ərzində iki-üç dəfə NKVD rayon şöbəsinə çağırırdılar. Moris Torezlə şəkillərindən, orden və medallarından, ələlxüsus da SSRİ-də heç kimə nəsib olmayan ordenindən, Qollun şəxsi imzası ilə verdiyi blankdan, Montoban merinin məktubundan, Düklonun təqdim etdiyi şəhadətnamədən və almanların başına 10 min marka qiymət qoymasından çəkinirdilər. Bəlkə də ömrünün müharibədən sonrakı illərini Sibir düşərgələrində keçirməməsinə görə o, məhz bu mükafat, xasiyyətnamə və məktublara borclu idi.

Problem tək bu deyildi. Artıq Əhmədiyyəni işə götürən də yox idi. Evdə də vəziyyət gündən günə ağır-








laşırdı. NKVD rayon şöbəsinin tapşırığına əsasən, onu heç yana işə götürmürdülər. Şəhərdə onun kimi mütəxəssislərin sayı bir əlin barmaqlarının cəmi qədər də deyildi, amma ona yalnız təsərrüfatlarda yardımçı işlər verə bilərdilər. Onu da hər kəs cürət edib Əhmədiyyəyə həvalə edə bilməzdi.

Nəhayət, onu Çəltik kəndində donuz fermasının qarovulçusu qoydular. Fermada az qala hər yoldan ötən ona sataşır, bir söz deyəndə də işdən azad etməklə hədələyirdilər.

Sonra onu öz kəndinin kolxoz sədri yanına çağırıb dedi:

- Bilirəm, vəziyyətin çətindir. Amma məni də başa düşməlisən. Sənə iş verəcəyəm. Çoban işləyəcəksən. Kəndin motosikletini də sənə verəcəyəm. Gecələr dağlarda, gündüzlər çobanlığında olarsan. Köhnə okladını da ailənə verəcəyəm.

Beləliklə, o, gecəsi ilə gündüzü bilinmədən çöllərdə, dağlarda yaşadı. Hər şeyə dözər, bircə ailəsinə toxunmasınlar.

Bir müddət ona dəyib-dolaşan olmadı. Amma günlərin bir günü 1952-ci ildə Göyçaya prokurorluğa çağırdılar. Elə otağa girər-girməz prokuror təhqirlə ona ağzından çıxanı dedi:

- Alçaq, mən indi sənin dərinə saman təpərəm. Onda bilərsən ki, cinayət işləyib aradan çıxmaq nədir.

Əhmədiyyə heç nə anlamırdı.

- Gecənin bir aləmində uşağı, bir də inəyi vurub niyə aradan çıxmısan, alçağın biri alçaq. İndi gedərik hadisə yerinə, ətraflı izahat verərsən.

Prokurorun şahidləri yerində idi. Orta yaşlı bir kişiyə:

- Bunu tanıyırsan?

- Bəli, yoldaş prokuror - deyə, xırıltılı və sakit tərzdə cavab səsləndi.

– İki gün əvvəl uşağı, bir də inəyi vurub qaçan budur.

Sonra onu ikinci şahidin yanına apardılar:

- Bunu tanıyırsan?

- Haradasa görmüşəm, tanış gəlir.

Əhmədiyyə onun yaddaşını təzələdi.

- Yaxın, bax, burada, uşağı və bir də inəyi vurduğum yerdə.

- Hə, hə, elədir – lap astadan şahid dedi və başını aşağı saldı.

- Yox, ay prokuror, bu o deyil axı. O hara, bu hara, - deyə, elə həmin küçədə yaşayan qadın dilə gəldi - o, kök idi, bu, heç ayaq üstə dayana bilmir ki. Hələ onun bığı da var idi.

Prokuror sifətini turşudub əli ilə qadına sarı «rədd edin» işarəsini verdi.

- Eybi yox, Əhmədiyyə, bizim üçün iki şahidin ifadəsi də kifayətdir. Yoldaş Stalinə lazımdırsa, istəsək, motosikletlə lap fili də gəbərdə bilərsən.

Məhkəmə işə başladı. Bilirdi ki, qarşısında duranların hamısı buyruq quludur, sahiblərinə xoş gəlmək üçün hürürlər.

- Heç utanırsınız - Əhmədiyyə artıq dözə bilmirdi, - Məni qorxutmaq istəyirsiniz. Mən düşmən düşərgələrində, yad ellərdə hər saat, hər dəqiqə, hər an ölümlə üz-üzə olmuşam, qorxmamışam, çəkinməmişəm. Ölümün gözünə dik baxmışam. Həbs etmək istəyirsinizsə, edin, birinci dəfə deyil ki! Kişiliyiniz çatırsa, məni uşaq ölümündə ittiham etməyin, bir başqa bəhanə tapın.

Müharibədə ona bu sözləri tez-tez deyərdilər: «Mələklər səni indi aparmaq istəmir». Görünür, indi də belə oldu. Ona bəraət qazandırdılar. Əslində, onlar utanmayacaqdılar. Sadəcə,

Dövlət Avtomobil Müfəttişliyinin müfəttişi insafa gələrək, «məni günaha batırmayın, qəzanı törədən bu adam deyil» sözləri ilə Əhmədiyyəni Sibir çöllərindən qurtarmışdı.

1953-cü ildən sonra Əhmədiyyəni yavaş-yavaş sakit buraxmağa başladılar. Həyat get-gedə öz axarına düşürdü.

Bir gün Əhmədiyyənin ögey qardaşı Məmmədsadiq də müharibədən sağ-salamat qaydıb dəlir. İki qardaş bir-birinə sarılırlar. Kənd onu böyük sevinclə qarşılayır. Kənddə bu, adət halını almışdı. Müharibədən hər qayidanı hamı öz övladı kimi qarşılayırdı. Axı qayıdanların, qayıdacağına ümid olanların sayı o qədər az idi ki, hər əsgər qayıdışı camaat üçün böyük ümid parçasına çevrilirdi.

Məmmədsadiq Mikayıl kişinin ölüm xəbərindən çox sarsıldı. Evdəki vəziyyət də ona pis təsir edir. O, Bakıya getmək qərarına gəlir. Ali partiya məktəbində dərs deməyə başlayır, doktorluq müdafiə edir. Bir qədər sonra Qax rayonundan Leyla adlı bir qızla tanış olub evlənir. Onun iki oğlu, bir qızı olur.

Əhmədiyyənin çətin günləri isə 1960-cı ilə qədər davam edir. Bir gün Azərbaycan Elmlər Akademiyasının Tarix İnstitutunun dosenti T.Mədətov onun haqqında eşidib, maraqlanır. Şəkiyə ezam olunur və Əhmədiyyə haqqında tezliklə «Bakinski raboçi», «Nuxa fəhləsi», «İzvestiya» qəzetlərində, sonra daha neçə-neçə qəzet və jurnalda məqalələr dərc olunur. Vəziyyət birdən birə tam əks istiqamətdə dəyişir. Onun

СССР

**Министерство Иностранных Дел**

ВХ.13173 Отдел КОНСУЛЬСКОЕ УПРАВЛЕНИЕ

МОСКВА 200, Смоленская-Сенная площадь, дом 32/34. Телефон Г 4-24-69 — Н/индекс и дата — Н/индекс и дата

" 6 " X 1961 г.

КУ-I-Фр-570 25107

гр. ДЖАБРАИЛОВУ Ахмедия — Азербайджанская ССР, Нухинский р-н, с. Охуд.

При этом направляется после истребования и легализации документ на Ваше имя о службе во Французской армии и также возвращается фотокопия аттестата.

ПРИЛОЖЕНИЕ: упомянутое.

ЗАВ.ОТДЕЛОМ КОНСУЛЬСКОГО УПРАВЛЕНИЯ /А.АБРАМОВ/

2-ИК/ав
5.X.61 г.





hətta Kommunist Partiyası üzvlüyünə namizədliyi də verilir.

1961-ci il oktyabrın 5-nə SSRİ Xarici İşlər Naziliyinin Konsulluq İdarəsinin şöbə müdiri A.Abramovun imzaladığı məlumatda bildirilirdi ki, onun Fransa ordusundakı xidməti leqallaşdırılaraq qanuni fakt kimi qəbul edilir. Bu xüsusda həmin sənədin fotosurəti ona göndərilir. Beləcə, Əhmədiyyə vaxtilə keçdiyi şərəfli, lakin çətin və ağır günlərini, qəhrəmanlıqlarla dolu həqiqətlərini indi, necə deyərlər, qram-qram, zərrə-zərrə qaytarmağa başladı. O, damla-damla öz hüquqlarını bərpa etməklə cəmiyyətdəki statusunu qaytardı. Artıq o, nə düşmən idi, nə də xain.

Çox təkidlərdən sonra Əhmədiyyə Nəriman Nərimanov adına kolxozda inşaat biriqadiri olmağa razılıq verir. Ona münasibətin dəyişdiyini görən Əhmədiyyə artıq kəndlərində bəzi sosial məsələləri həll etməyə çalışır. Oxudda orta məktəb yox idi. Daha doğrusu, bir məktəb var idi, amma çox köhnəlmiş, uçuq-sökük vəziyyətdə idi, rütubət iyindən otaqlara daxil olmaq mümkün deyildi. Əhmədiyyə Oxudda kolxoz hesabına orta məktəb tikdirir. Briqadasına pəhləvan kimi oğlanları yığmışdı. Hamısı da canla-başla işləyirdi.

Əhmədiyyənin NKVD macəraları hələ bitməmişdi. Ayda 2-3 dəfə onu NKVD-də sorğu-sual edirdilər. 6 il beləcə keçdi.

Bu illərdə Əhmədiyyənin daha 5 övladı dünyaya gəldi. Cavanşir 1952-ci il iyunun 18-də, Elxan 1955-ci il martın 13-də, ikinci qızı Rayə 1957-ci il mayın 25-də, Solmaz 1959-cu il noyabrın 28-də, Almaz isə 1962-ci il martın 26-da dünyaya göz açdı.

Bir gün xəbər gəldi ki, rayon katibi təcili onu görmək istəyir. Əhmədiyyə artıq belə çağırışların heç də xeyrinə olmadığına alışmışdı. Qanı qaraldı, yenicə özünə gəlməyə, sakit yaşamağa, elinə-obasına kömək etməyə başlamışdı ki, indi yenə başına oyun açmağa başlayacaqlar.

# Köhnə-təzə qəhrəman

Otağa daxil olan kimi katib ona tərəf gəlib əlini sıxdı. Bir az həyəcanlı idi. Əhmədiyyə də narahat oldu, amma katibin üzündəki təşviş həyəcanında qorxu olsa da, Əhmədiyyə bunun onun üçün heç bir narahatlığı olmayacağını müəyyən etdi.

- Səni Moskvaya çağırırlar. Xüsusi dəvət göndərilib. Bakıdan da zəng edib xüsusi tapşırıblar.

Bütün kənd, camaat Əhmədiyyənin Moskvaya gedəcəyini eşidib əl-ayağa düşdü. Hamı sevinirdi. Yığışıb tez onun üçün pal-paltar aldılar. Qonşuluqdakı təzə evlənmiş bir oğlan ona bəylik kostyumunu verdi.

Bakıda dedilər ki, Əhmədiyyə Moskvada böyük qəbulda iştirak edəcək. Onu «birinci»nin özü, yəni, Kommunist Partiyasının birinci katibi Nikita Sergeyeviç Xruşşov qəbul edəcək.

Moskvada ona dedilər ki, partizan yoldaşları, Müqavimət Hərəkatının Veteranlar Şurası ona külli miqdarda pul göndərib. Armed Mişeli axtarıb tapmaq, şəxsiyyətini müəyyən etmək üçün arxivləri ələk-vələk ediblər.

Açığı, Əhmədiyyə artıq həyatda ehtiyatlı olmağı öyrənmişdi. Ehtiyatlanırdı ki, sonradan buna da min bir don geyindirəcəklər. Nə bilim, «Əhmədiyyənin Fransadan olan xain milyonçu dostları ona pul göndəriblər», yaxud «payını göndəriblər», «Əhmədiyyə vətəni pula



satır» və s. kimi ifadələr dərhal gözünün önündən keçdi.

N. S. Xruşşovla görüşdə Əhmədiyyə həmin pulları götürməyəcəyini bəyan etdi.

- Mənim hər şeyim var. Bu pullara ehtiyacım yoxldur. Xahiş edirəm onu geri qaytarın.

Bu sözləri N.S.Xruşşovun da xoşuna gəlmişdi. O, «əsl Sovet adamı mövqeyi»ndən çıxış edirdi. Ona Kommunist Partiyasının birinci katibi məsləhət gördü ki, bu pulları geri qaytarmasın, Sovet Sülh Fonduna yardım kimi versin. O da ərizə yazıb elə də etdi.





Bu qəbuldan sonra o, Bakıda hakimiyyətin diqqət mərkəzinə düşdü. Ona ev, maşın, pul, vəzifə təklif edirdilər. Lakin yarıac, yarıtox yaşasa da, o, yalnız orden və medallarını, bütün mükafatlarını, sənədlərini geri istədi.

O vaxt aclıqdan qurtarmaq üçün boş vaxtlarında meşələrə gedirdi. Qaban vurub, qayıdanda anasına deyirdi ki, maral ətidir. Çünki Səfurə ana bir mömin, dindar insan kimi qaban ətini dilinə də vurmazdı. Günləri beləcə keçirdi.

Geri qayıdanda ona münasibət də kökündən dəyişmişdi. Axı Şəkidə hər adam özü də öz xoşu ilə deyil, ən yüksək səviyyədə dəvətlə rəhbərin qarşısına çıxmırdı. Ona kolxozda briqadir vəzifəsini verdilər.

1964-cü ildə Sovet Ordusu və Hərbi Hava Donanması günü, qısası, SSRİ-də «Kişilər günü» kimi qəbul edilmiş 23 fevral tarixində ittifaq nəşri olan «İzvestiya»da Fransa Kommunist Partiyasının sədri Moris Torezin bir təşəkkür məktubu dərc olundu. Həmin məktuba həsr olunmuş məqalə «Starşina-serjant» jurnalında da dərc olunmuşdu. Məqalədə fəxrlə qeyd edilirdi: *«Fransanın azad olunması uğrunda göstərdiyi şücaətə görə Fransa kommunistlərinin rəhbəri Moris Torez Cəbrayılova təşəkkür məktubu göndərib.»* Həmin il Parisin azad olunmasının 20-ci ildönümü qeyd olunacaqdı.

Ümumiyyətlə, 1964-cü ildə Əhmədiyyə həyatının sonrakı axarını artıq qəti müəyyən etmişdi. O, Gəncə (o vaxt – Kirovabad) Kənd Təsərrüfatı İnstitutunda yarımçıq qalmış təhsilini davam etdirməyə başlayır.

Onun həyatını tam dəyişəcək, bu dəfə ölkədə məşhur edəcək daha bir hadisə 1966-cı ildə baş verdi. Moskvada Sovet Müharibə Veteranları Komitəsinin sədri, məşhur təyyarəçi Aleksey Maresyevin imzası ilə iyunun

**ЕГО БЛАГОДАРИЛ МОРИС ТОРЕЗ**

«За отвагу, проявленную в боях в дни освобождения Франции, Джебраилову прислал благодарность генеральный секретарь Французской коммунистической партии товарищ Морис Торез...» — писал журнал «Старшина-сержант» в небольшой заметке, опубликованной в № 2 за 1964 год. Заметка эта потом была перепечатана в «Известиях» 23 февраля 1964 года.

Колонна военнопленных шла на Запад. Путь был изнурительным и долгим. Для Ахмедия Джебраилова он начался в районе украинского города Изюм.

Тяжело раненный Джебраилов потерял сознание и очутился в плену. Правда, где-то под Киевом он пы-



С С С Р

СОВЕТСКИЙ КОМИТЕТ ВЕТЕРАНОВ ВОЙНЫ

Адрес: Москва, Г-34, ул. Кропоткинская, 10

№ 1112/1 .II. июня 1966

Нухинский РК КП Азербайджана

г.Нуха, Азербайджанской ССР

Как известно, 20 июня с.г. в Москву с визитом прибывает Президент Французской Республики Ш.де Голль.

В соответствии с решением инстанции Советскому комитету ветеранов войны поручено привлечь к участию во встрече Президента советских товарищей – бывших командиров и бойцов французского движения Сопротивления.

В этой связи просим вас рассмотреть вопрос о целесообразности и возможности участия в указанном мероприятии тов.Ахмедия Михаил оглы Джабраилова, а также оказать содействие в откомандировании его в Москву, в распоряжение Комитета на трое суток, с 19 по 21 июня с.г. /прибыть в Комитет 19/VI, ул.Кропоткинская, дом 10/.

Просим заблаговременно сообщить нам ваше решение телеграммой или по телефону: Г 6-71-00.

В положительном случае просим предупредить тов Джабраилова о необходимости иметь ордена или орденские планки советских и французских боевых наград.

Сообщаем его адрес: Нухинский район, село Охуд.

Ответственный секретарь
Советского комитета ветеранов войны /А.Маресьев/



11-də Nuxa Rayon Kommunist Partiyasına ünvanlanmış məktubda bildirilir ki, iyunun 20-də Fransa Respublikasının prezidenti Şarl de Qoll SSRİ paytaxtı Moskvaya rəsmi səfər edəcək.

Müvafiq *«instansiyanın qərarına əsasən, Prezidentin qarşılanmasında Sovet yoldaşlarının – Fransa Müqavimət Hərəkatının keçmiş komandirlərinin və döyüşçülərinin cəlb edilməsi Sovet Müharibə Veteranları Komitəsinə həvalə olunub. Bununla əlaqədar olaraq, Sizdən xahiş edirik ki, qeyd edilən tədbirdə yoldaş Əhmədiyyə Mikayıl oğlu Cəbrayılovun iştirak etməsinin məqsədəuyğunluğunu və bu imkanı nəzərdən keçirəsiniz, həmçinin onun 3 sutka müddətinə – iyunun 19-dan 21-dək Komitənin (Kropotkinskaya küçəsi, ev 10 ünvanı) sərəncamına gəlməsinə - Moskvaya ezam edilməsinə kömək göstərəsiniz. Xahiş edirik qərarınızı teleqramla və ya Q 6-71-00 telefonuna zəng edərək vaxtında bildirəsiniz. Müsbət qərar veriləcəyi təqdirdə xahiş edirik, Əhmədiyyə Cəbrayılova Sovet və Fransa döyüş mükafatlarını, orden və orden tamasalarını özü ilə götürməsinin vacibliyini çatdırasınız».*



Əhmədiyyə özü sonralar həmin günü belə xatırlayır:

- Bir gün Moskvadan xəbər gəldi ki, səni təcili çağırırlar. Qohum-qonşudan iki yüz manat borc yığıb, orden və medallarımı qoltuğuma vurub Moskvaya yola düşdüm - deyə, o günü xatırlayan Əhmədiyyə, amma nə üçün onu Moskvaya çağırdıqlarını heç ağlına belə gətirmirdi.

Səbəbini isə yalnız Moskvada öyrənir. SSRİ-yə rəsmi səfər edən Fransa prezidenti Şarl de Qoll özü xahiş edib ki, onu hava limanında qarşılayanlar arasında müqavimət Hərəkatında dostu olmuş Armed Mişel də qarşılasın.

Əhmədiyyə Moskvaya yola düşəndə, onun çağırılmasının səbəbi yerli hakimiyyət orqanlarına da məlum olur. Dərhal təşvişə düşürlər. Birdən Fransa prezidenti köhnə silahdaşı ilə görüşüb onun evinə baş çəkmək istəsə, necə





olacaq? Gah qərar verirlər ki, qonşuların da evini söküb təcili onun mülkünü böyütsünlər, bütün inşaatçı qüvvəsini kəndə atıb ona təcili bir ev tiksinlər. Axı belə bir qəhrəmanın uçuq-sökük daxmada qaldığını görənlər onlara nə deyər? Ən vacibi, bu barədə xaricdə xəbər tutsalar, hökumət onların evinin daşını daş üstə qoymaz.

Amma Əhmədiyyə Moskvada lazımi təlimatı almışdı. Onlar hər şeyi dəqiq bilirlər:

- Ona görə də Kommunist Partiyasının birinci katibi Leonid İliç Brejnevin qəbulunda onlarla səmimi və açıq danışa bilərsiniz.

Amma nümayəndə heyətinin qəbuluna bir az qalmış bir əlavə də etdilər:

- Soruşsalar, deyərsiniz ki, sizi kolxoz sədri təyin ediblər.

Beləcə, 1966-cı ilin iyunu. Hava limanındadırlar. Hər tərəf SSRİ-nin və Fransanın bayraqları ilə bəzədilib. Yerə xüsusi xalı döşənib. Budur, təyyarənin qapısından de Qoll özü görünür. O, təyyarə trapı ilə asta-asta enir. Bütün rəsmi nümayəndə heyəti ilə bir-bir görüşür. Əhmədiyyəni görən kimi o, gözlərini qıyır, diqqətlə baxmağa başlayır. Başı ağarmış, arıq cüssəni tanıyan kimi onu bağrına basır.

Fransızca danışmağa başlayırlar:

- Necəsiniz?

- Təşəkkür edirəm. Əla.

- Səhhətiniz necədir? Ailəniz necədir?

- Çox sağ olun. Hər şey öz qaydasındadır. Bəs siz necəsiniz?

- Sağ ol, dostum, hər şey yaxşıdır.

Onun həyatında ən böyük dönüşü də elə de Qolla bu görüş həll edir. O, artıq həm diqqət mərkəzində idi, həm də onun xaricdəki dostlarına qapısı açılmışdı. İndi o, dostları ilə rahat ünsiyyət qura, məktublaşa bilərdi. 1968-ci ildə Sovet hökuməti tərəfindən «vətən xaini» adı onun üstündən götürülür və bəraət verilir.

Bu isə onun Fransaya yolunu da açır.

# Aqronom Əhmədiyyə

1970-ci ildə Kənd Təsərrüfatı İnstitutunda təhsilini başa vurduqdan sonra Şəki rayonu Nəriman Nərimanov adına kolxozda baş aqronom işləməyə başlayır. Növbəti il ona «Qırmızı Əmək Bayrağı» ordeni verilir. 1976-cı ildə müharibədə iştirakına görə «Oktyabr İnqilabı» ordeni ilə ilə təltif olunur.

Onun normal həyata qayıdışı tam təmin edilmişdi.

Əhmədiyyə danışdıqları arasında bir xatirə haqqında xüsusi dayanmaq olar. Çünki qəzet səhifələrində Əhmədiyyənin bacarıqlı kənd təsərrüfatı mütəxəssisi, aqronom kimi fəaliyyətindən bir-iki quru cümlədən başqa heç nə tapmaq olmur.

Şəkidə 1925-ci ildə tarixdiyarşünaslıq muzeyi yaradılır. 1980-ci ildə həmin muzey 1895-ci ildə kazarma kimi inşa olunmuş binaya köçürülür. Yeni binaya köçəndə orada kənd təsərrüfatı şöbəsi yaradılır. Həmin vaxt kənd təsərrüfatı məhsullarının sərgi dekadası təşkil olunur. Və bu münasibətlə muzeyin Baş fondun mühafizəçisi olan Nəsib Muxtarov maraqlı bir əhvalat danışır.

Əhmədiyyə Cəbrayılov sərgiyə diametri 70 santimetrdən artıq olan bir balqabaq gətirir. Üzünü Nəsib Muxtarova tutub deyir:

- Götürün, bu da sizin şöbəyə məndən hədiyyə.

Onun əsl sənəti aqronom idi. Balqabaq öz təsərrüfatındandı, yeni üsulla yetişdirmişdi.

- Baxın ha, bu sizə indiki gübrədərmanlı balqabaq deyil, onu dədəbaba qaydası ilə yetişdirmişəm.

Balqabaq bir müddət muzeydə eksponat kimi nümayiş etdirilir. Beləcə, xeyli vaxt keçir. Bir gün Nəsib Muxtarov Əhmədiyyəni yenidən muzeyə dəvət edir:

- Əhmədiyyə dayı, biz sərgidən qalan məhsulları ya yiyəsinə, ya da onunla maraqlananlara bağışlamışıq. Sən də öz balqabağını götür, apar. Burada qalıb çürüyəcək, tələf olacaq. Həyıfdır, əziyyət çəkmisən.

- Sən nə danışırsan, bu balqabaq çürüyə bilməz, içi də elə əvvəlki kimi təzə-tər təravətini qorumalıdır.

- Yox əşi, Əhmədiyyə dayı, nə danışırsan, gör, nə qədər vaxt keçib.

May ayı idi. Balqabağın ətri qalsa da, onun içinin də salamat olması əsl möcüzə olardı.

- Gəl çatışaq - deyə, Əhmədiyyə mərc gəlməyi təklif edir.

Nəsib Muxtarov qalib gələcəyini zənn edib məmnuniyyətlə razı olur.

- Nə deyirəm, gəl çatışaq.

Əhmədiyyə Cəbrayılov divarda asılmış qədim qılınclardan birini götürüb balqabağı iki yerə bölür. Balqabaq həqiqətən də çox gözəl, tər-təmiz və







sapsağlam idi. Elə bil, indi dərmisən.

Nəsib Muxtarov məmnuniyyətlə uduzduğunu etiraf edir

- Sən böyük sənətkarsan - deyərək, onun əlini sıxır.

Əhmədiyyənin böyük təsərrüfatçı bacarığı respublika mətbuatından da yan keçmirdi. Belə məqalələrdən biri bu gün də arxivdə qorunur. Respublikanın kənd həyatına həsr olunan Mərkəzi Komitənin rəsmi nəşri «Sovet kəndi» qəzetinin 1971-ci il 9 yanvar tarixli 3-cü (2712) nömrəsinin birinci səhifəsində dərc olunmuş məqalədə ölkənin qabaqcıl təsərrüfatları arasında Nərimanov adına kolxoz və xüsusən baş aqronom Əhmədiyyə Cəbrayılovun novatorluğu xüsusi qeyd olunur.

Məqalədə xüsusi vurğulanır ki, Sov.İKP MK və SSRİ Nazirlər Sovetinin 1970-ci il 23 iyul tarixli qərarında qarşıya qoyulan vəzifələrin müvəffəqiyyətlə yerinə yetirilməsində yeni-yeni qələbələr əldə olunur. Adı sadalanan bir neçə təsərrüfatçı sırasında Əhmədiyyə Cəbrayılovun da *«yenilik və qabaqcıl təcrübənin, elm və mütərəqqi üsulların geniş təbliğ və tətbiq edilməsində səylə»* işləməsi qeyd olunur. «Onlar aqrotexnika qaydalarının istehsalatda düzgün həyata keçirilməsinə çox ciddi fikir verirlər.»

Onun qabaqcıl ideyaları haqqında çox danışmaq olar. Ən vacibi o idi ki, Əhmədiyyə hansı sahədə çalışırdısa, işini mükəmməl yerinə yetirməyə çalışır, onu sevir və daim yeniliklər axtarırdı. Belə olmasaydı, təbii ki, böyük qəhrəman taleyi də yaşamazdı. Çünki qəhrəmanlığın ağır tələbləri olduğu kimi, o ucalığa yüksəlməyin də ağır şərtləri var.

Əhmədiyyə həmişə və hər yerdə ona olan etimadı doğruldacağını və hər zaman görə biləcəyi işdən yapışdığını, öhdəsinə götürdüyünü bir daha sonrakı təyinatında da uğurla sübut etdi. Onun növbəti iş yeri Şəki Karvansarayı oldu. Şəkinin böyük və ulu tarixinin bir parçası olan bu ocağın faliyyəti məhz onun fəaliyyəti dövründə yeni çiçəklənmə dövrünə qədəm qoydu. Əhmədiyyə nəsillərdən nəsillərə keçmiş və yeni erada xalqın mədəniyyət məbədi kimi qorunan bu muzeyin keşiyində uğurla dayandı.

Necə deyərlər, qəhrəman daim göz önündə olmalıdır – fərqi yoxdur, kürsüdə, ya dar ağacında. Əhmədiyyə bu sınaqların hamısından əsl Vətən oğlu, əsl qəhrəman kimi çıxaraq, əbədiyyət qazandı və əbədiyyət içərisində də daim yeni-yeni nəsillərə örnək olacaq. O, Şəkinin ulu tarixinin kemişindən sabahına salam aparan Xan Sarayı kimi özü də bu xalqın canlı səsinə, sədasına çevrildi. O, yaşayacaq və yaşadacaq.



























































# Keçmişin yolları ilə gedərkən

Əhmədiyyə bir neçə dəfə Fransada oldu. 1972, 1975, 1982-ci illərdə döyüşlərdə iştirak etdiyi yerləri gəzməyə icazə verilir.

Ona ilk dəvətnamə 1972-ci ildə təqdim edilir. Fransa Veteranları Milli Assambleyasının prezidenti olan silahdaşı Jak Düklonun imzası ilə teleqram iyunun 22-də göndərilir.

Silah yoldaşları, döyüşü bir keçdiyi qəhrəmanlar onu hərarətlə qarşıladılar. Əhmədiyyə ilə keçmiş günləri, ötənləri xatırladılar. Artıq hər biri üçün müqəddəs olan yerləri - Montoban, Rodez, Tuluza, Albi şəhərlərinə getdilər, həmçinin Paris, Bordo, Strasbur, Lion, Dijon və Marseldə oldular, artıq dünyasını dəyişmiş dostlarının qəbirlərini ziyarət etdilər.

*«Mən öz keçmişimin yolları ilə gedirdim»* - bu səfərlərini Əhmədiyyə belə adlandırırdı.

Fransaya səfərlər ona ikinci həyat verdi. Hər addımı bir xatirə olan ölkədə o, nələri xatırlamırdı ki?!

Budur, Əhmədiyyə Bordodadır.

- Yadımdadır. Bordonun azad olunması uğrunda ən ağır və təhlükəli döyüşlərimizdən birini keçirmişdik. Mən öz qrupuma ancaq könüllüləri toplamışdım. Üçqat əyilib, qurşağa qədər bataqlığın içində neçə saat yol ölçdük. Qəfil və gözlənilməz istiqamətdən gəlməyimiz düşməni təlaşa saldı, onlar təşviş içində vurnuxmağa başladılar.

Bu da Paris.

- Parisi ilk dəfə yanan, od-alov içində görmüşdüm.

Daha bir ağrılı xatirə. Dostlarının çoxu o böyük qələbə gününü görmədi:

- Çox təəssüf ki, biz qələbələrlə irəliləyəndə, addım-addım irəliləyəndən, əziz dostlar, çox təəssüf, çox təəssüf ki, siz artıq bizimlə deyildiniz – Əhmədiyyə köks ötürərək gözlərində yaş damlaları ilə partizan dostlarından birinin qəbri üzərində bu sözləri deyir və onu həlak olmuş bütün dostlarına ünvanlayır.

Budur, onun Parisə gəlişini eşidib bura yığışmalı olan bütün dostlarını Əhmədiyyə özü elə onların vətənində qarşılayacaq. Görüş yerinə özü qəsdən deyilən vaxtdan xeyli əvvəl gəlmişdi. Düz 30 il əvvəl elə həmin akasiya ağacının altında onlar son dəfə təmtəraqla yeyib içmişdilər.

- Hə, lap yadımdadır. Elə bu akasiya da burada idi. Qələbə gününü elə burada qeyd etmişdik. Görəsən, dostlardan kimlər gəlib çıxacaq – kimlər sağdır, kimlər artıq dünyasını dəyişib. Gör, nə qədər vaxt keçib.

1975-ci il onun həyatında xüsusi oldu. Həmin il o, ilk dəfə Azərbaycan SSR rəhbərliyindən təbrik məktubunu aldı. Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin katibi Heydər





Əliyev, eləcə də Azərbaycan SSR Ali Sovetinin Rəyasət Heyətinin sədri K.Xəlilov və Azərbaycan SSR Nazirlər Sovetinin sədri A.İbrahimovun adından ona daxil olan teleqramda deyilirdi:

- *Hörmətli yoldaş, Ə.M.Cəbrayılov.*

*Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsi, Azərbaycan SSR Ali Sovetinin Rəyasət Heyəti və Azərbaycan SSR Nazirlər Soveti Sizi əlamətdar bayram – Sovet xalqının Böyük Vətən Müharibəsində qələbəsinin 30-illiyi münasibətilə ürəkdən təbrik edir.*

*Vətən müharibəsinin cəbhələrində fəal iştirakınızla Siz faşist işğalçılarının darmadağın edilməsinə layiqli töhfə vermisiniz, böyük sosialist Vətənimizin azadlığı və müstəqilliyi, onun sonrakı qüdrətinin çiçəklənməsi uğrunda əsl vətənpərvər borcunun yerinə yetirilməsi nümunəsini göstərmisiniz. Sizin xidmətləriniz qədirbilən xalqımızın yaddaşında əbədi yaşayacaq.*

Dərin minnətdarlıq hissi ilə Sizə cansağlığı, böyük şəxsi səadət, əməkdə və ictimai fəaliyyətdə yeni-yeni uğurlar arzulayırıq.

1975-ci ildə Fransaya onun gəlişi şərəfinə general Şarl de Qoll böyük ziyafət verdi. Banket zalına onun sağ qalmış bütün dostları toplaşmışdı.

- Armed Mişel, bil ki, Fransa sənin, böyük Sovet əsgərinin xidmətlərini heç vaxt unutmayacaq və həmişə sənə minnətdar olacaq, – de Qollun bu sözlərini hamı ayaq üstə və alqışlarla qarşıladı.

***

1975-ci ildəki səfəri zamanı onu Fransa Senatında senator Jak Düklo qəbul edir və ona bu görüşdən xatirə medalı təqdim edir. Onun Fransaya səfərinin səbəbi təkcə bu deyildi.

O vaxt 1972-ci il «Fransa qəhrəmanları» («Le Franc Tireur») filmi də çəkilmişdi. Bu ekran əsəri birmənalı qarşılanmamışdı. Onun taleyi də çox qəribə oldu. Film ekranlara düz 30 il sonra yalnız 2002-ci ilin yanvarın 16-da çıxdı. Filmin müəllifləri Jan-Maks Koss və Roje Tavern, ssenarini müəlliflərlə yanaşı, Pyer Deqreqori də yazmışdı. Prodüsser Fransua Lerua idi. Əsərdə baş qəhrəman Əhmədiyyə olmasa da, ona da yer ayrılmışdı. «Əhməd» rolunu Serj Lassen oynamışdı. Əsərdə Filipp Leotar, Estella Bleyn, Roje Lümon, Roje Riffar, Robert Dadi yer alıblar.

1975-ci ildə Əhmədiyyənin Fransaya səfəri zamanı çox geniş və maraqlı proqramı var idi. 30 ildən sonra İkinci dünya müharibəsində keçdiyi yolu addımbaaddım təkrarlayan qəhrəman partizan yola düşməzdən əvvəl Vətəndən bir parça torpaq da götürmüşdü. O, bu torpağı Fransada uyuyan həmvətənlərimizin qəbirləri üzərinə səpdi. Kimlər var idi burada: Ceyran xanım, Mikayıl Hüseynov, Vəli Vəliyev, Feyzulla Qurbanov və s. Bu əsirlərin əksərinin o, məhz alman düşərgəsində ikən xəstəxana komendantı kimi məhbəsdən azad edilməsində həlledici rol oynamışdı. Nə qədər qəribə olsa da, onlar üçün tikanlı məftillərin o üzü həyatın sonu demək oldu. *«Əzizlərim, Vətən torpağının bu parçasını qəbul edin. Qoy, bu torpaq Sizin qəbrinizə nur gətirsin, qoy, ruhunuz şad olsun»*

Dövlət kino arxivində qəhrəmanın Fransa səfərinə həsr olunmuş «Mübarizənin 1000 günü» filmi qorunub saxlanılır. Filmin çəkilişi məqsədilə



operator R.İsmayılov hətta Fransada onun qəhrəmanlıq göstərdiyi torpaqlarda, onun dostları ilə görüşündən, dost qəbirlərini ziyarət etməsindən tutmuş döyüşdüyü məkanlara qədər müxtəlif yerlərdə çəkilişlər aparmışdı. Ekran əsərini izlədikcə, kövrəlməmək mümkün deyil. Bir insan gör, nələrə qadirdir. Həqiqətən də Yer üzündə insandan güclü və dözümlü məxluq tapmaq olmaz.

1977-ci ildə Tarn və Qaronda Fransa partizan hərəkatında əvvəldən sonadək Əhmədiyyəyə yoldaş olmuş Rene Şambar SSRİ-yə gəlir və Əhmədiyyə Cəbrayılovla görüşür. Görüş əvvəlcə bir qədər qəribə sakitliklə keçdi. Sanki onlar bir-birini süzə-süzə olub keçənləri xatırlayır, dövrün bu gərdişi ilə razılaşa bilmirdilər. Hər ikisi çox qocalmışdı. Amma çox keçmədi onların söhbəti qızışdı. Bu iki dostun bir-birinə deyəcəyi sözləri hələ çoxdu. Axı onlar birlikdə cəmi üç il yol yola olsalarda, bu müddət ərzində minillərə bərabər ömür yolu keçmişdilər. Neçə dəfə ölüb dirilmişdilər, həyatda onlar neçə dəfə qırılmaq həddinə çatmışdı, neçə dəfə bütün ümidlər kəsilən anda, yenidən haradansa, ilahi bir qüvvə onlara güc vermişdi.

Ümumiyyətlə, bu görüşlər bəlkə də onların nisgilli xatirələrinin canlanması, ömürlərinə ömür qatılması baxımından əhəmiyyət kəsb edirdi. Lakin onlar qocalırdılar. Hər görüşdə sıralarından bir-ikisi azalırdı. Hər görüşdə daha birinin səhhəti ilə bağlı problemlərinin kəskinləşdiyini eşidirdilər. Onlar bir-birinə dayaq olmağa çalışırdılar. Bu görüşlər həm də onlara ömrün sonunun sürətlə yaxınlaşdığını göstərirdi.

Rene Şambarla görüşdən bir az sonra Əhmədiyyənin dostuna yazdığı məktubdan bu sətirlər bəlkə də onların bir-birinə təsəlli verməsi baxımından rəmzi xarakter daşıya və onların bütün yazışmalarının ümumiləşmiş xarakterinə uyğun gəlir: *«Mən çox istərdim ki, səni dərhal tanıyım. Bilirəm, əlbəttə, xarici görkəmimiz çox dəyişib, heç də əvvəlki kimi ola bilməz. Mən sənin kürən qıvrım saçlarının düm ağ rəngə boyanmasını, ürəyinin arabir sözə qulaq asmamasını təsəvvür edə bilmirəm. Mənim üçün sən elə o vaxtkı, 1942-ci ildə olduğu kimi qalmısan».*

Sonrakı illərdə o, bütün dostları ilə məktublaşırdı. O, Madam Jannanı da unutmamışdı. Ona həyatının sonuna qədər minnətdar olacaqdı. Əhmədiyyənin Jannaya yazdığı bir məktubdan sətirlər də bunu əyani göstərir: *«Mənim əziz Jannam! Mənim unudulmaz Jannam! Siz mənə həyat verdiniz, ömrümü yenidən mənə bəxş etdiniz, deməli, siz mənim anamsınız. Hərçənd deyirlər ki, insanın yalnız bir anası ola bilər. Amma mənim iki anam var və mən onlarla qürur duyuram».*

Ömür yolları belə keçirdi.







Əhmədiyyə ailəsində övladlarını böyüdürdü. Deyir, həyatda qazanılan ən yaxın dost bəzən qardaşdan əvvəl olur. Əhmədiyyə Cəbrayılovun illərin sınağından çıxan dostu Ərşad Əliyev idi. Onlar bir-birinə doğma qardaş qədər əziz idilər. Əhmədiyyənin bu günümüzə gəlib çatmış qəhrəmanlıq dastanlarının bir çoxunu yaddaşında saxlayıb xalqa çatdırılmasında onun da əvəzsiz xidmətləri olub.

1990-cı ildə Şarl de Qollun Parisdə keçirilən 100-illik təntənələrinə Əhmədiyyənin yol yoldaşı olan Ərşad müəllim həm də onun xatirələrinin canlı şahidinə çevrilmişdi. Dekabrda Şarl de Qollun anadan olmasının yubiley mərasimində iştirak etmək üçün Əhmədiyyə də Parisə yollandı. Bu təntənələrdə iştirak etmək ona xüsusi qurur verirdi. Axı sonra min bir əziyyətlə ömür sürən, təhdid olunan Əhmədiyyəyə ikinci həyat vermişdi. Məhz onun Fransadakı dostlarının göndərdiyi pul mükafatının yaratdığı sədа onu vətənində bütün təqiblərdən, daimi xarakter almış təzyiqlərdən qurtarmışdı.

Həmin günlərin böyük tarixi Əhmədiyyənin dostu Ərşad Əliyevin xatirəsində sonralar minlərlə insanın həqiqətinə çevrildi. Çünki məhz o, həmin tarixi günlərin əbədi xatirəsinin yeganə şahididir. Amma o günlərin daha bir hadisəsi bu gün Əhmədiyyə Cəbrayılovu onu tanıyanların və tanımayanların gözündə bir qədər də başqa insan kimi tanıdır. Ərşad Əliyev xatırlayırdı:

- Parisdə küçə ilə gedirdik. Qəfil o özünü pis hiss etdi. Ayaq saxladı, əlini sinəsinə – ürəyinin üstünə apardı, büdrədi, az qala yıxılacaqdı. Qolundan tutdum. Bir kənara çəkilib daş səkinin üzərində oturdu. Güc toplayıbmış kimi qəfil ayağa qalxdı, yeriməyə başladıq. Ara-sıra ayaq saxlayır, ürəyini tutur, nəfəs aldıqdan sonra irəliləyirdi. Qəfil nəsə pis bir şey hiss edibmiş kimi dedi: «Ya Azərbaycanda nəsə baş verib, ya evimdə, ya da Mikayıla nəsə olub».

Onlar məcbur olub tədbirləri yarımçıq qoydular, bir həftə erkən Vətənə qayıtdılar. Qayıdandan bir gün sonra xəbər gəldi: Mikayıl Qarabağda qəhrəmanlıqla həlak olub.






















































1945
Май
1942
Март






















ВЕТЕРАН
ВЕТЕРАН


























GAJUZINE
DJABRAILOV
IVANOV


ПРОМЕТ










1941-1945





































YENƏ VƏTƏN YAXŞI






















ИЗВЕСТ









[redacted]-PRÉSIDENT
DU COMITÉ DES ANCIENS COMBATTANTS
DE LA RÉSISTANCE [redacted]
**OSEROV OLEG**
Moscou, rue Sovietskoi Armii 7, appart. 68.
Tel. 281-96-44

[redacted]-ПРЕЗИДЕНТ
[redacted] комитета
бойцов французского сопротивления
**ОЗЕРОВ О.Н.**
127018, Москва, ул. Советской Армии, 7-68
тел. 2819644

Москва
08.09.94

т. Джебраилову А.М

Уважаемый Александр Михайлович!

Поздравляю Вас с наградой — „Юбилейной медалью в честь 50-летия освобождения Франции от гитлеровских оккупантов, в которое вложен и Ваш ратный труд маквизара!

Я получил из Франции документ, подтверждающий Ваше участие в Сопротивлении, которое дает право на получение французской воен-





ной пенсии.

Я опасаюсь его посылать Вам, т.к. боюсь, что военная обстановка в Азербайджане не благоприятствует почте и документ может потеряться.

Я Вам писал дважды, но ответа не получил.

В этом письме посылаю медаль и когда получу от Вас ответ, то сразу же ~~вышлю~~ Ваш документ.

Как Ваше здоровье, как жизнь

С уважением

*Уважаемый товарищ ДЖЕБРАИЛОВ А. М.*

*Центральный Комитет Коммунистической партии Азербайджана, Президиум Верховного Совета и Совет Министров Азербайджанской ССР сердечно поздравляют Вас со знаменательным праздником — 30-летием Победы советского народа в Великой Отечественной войне.*

*Своим активным участием на фронтах Отечественной войны Вы внесли достойный вклад в дело разгрома фашистских захватчиков, показали пример образцового выполнения патриотического долга в борьбе за свободу и независимость нашей великой социалистической Родины, за дальнейший расцвет ее могущества. Ваши заслуги вечно будут жить в памяти нашего народа.*

*Горячо желаем Вам крепкого здоровья, большого личного счастья, новых успехов в труде и общественной деятельности.*

| СЕКРЕТАРЬ ЦК КП АЗЕРБАЙДЖАНА | ПРЕДСЕДАТЕЛЬ ПРЕЗИДИУМА ВЕРХОВНОГО СОВЕТА АЗЕРБАЙДЖАНСКОЙ ССР | ПРЕДСЕДАТЕЛЬ СОВЕТА МИНИСТРОВ АЗЕРБАЙДЖАНСКОЙ ССР |
|---|---|---|
| Г. АЛИЕВ | К. ХАЛИЛОВ | А. ИБРАГИМОВ |

г. Баку, май 1975 г.





ДОРОГОЙ Брат Ахмедие

Поздравляю Тебя и Твою семью с первомайским праздником. Желаю здоровья, счастья, успехов.

Одновременно сообщаю, что в феврале месяце, на заседании французской группы, Ты был включен в список на туристскую поездку во Францию (без членов семьи).

Дальнейшими делами по организации поездки во Францию занимается председатель французской группы генерал Ищенко Я.Н.

Все ~~запросы прошу направлять ему, по адресу~~:
Москва, Кропоткина, д.10, Советский Комитет ветеранов войны ген. Ищенко Я.Н.

С уважением А.Федоров

P.S. Привет супруге

СССР

# СОВЕТСКИЙ КОМИТЕТ ВЕТЕРАНОВ ВОЙНЫ

Адрес: Москва, Г-34, ул. Кропоткинская, 10

№ 1112/I  II июня 1966

Нухинский РК КП Азербайджана
г.Нуха, Азербайджанской ССР

Как известно, 20 июня с.г. в Москву с визитом прибывает Президент Французской Республики Ш.де Голль.

В соответствии с решением инстанции Советскому комитету ветеранов войны поручено привлечь к участию во встрече Президента советских товарищей – бывших командиров и бойцов французского движения Сопротивления.

В этой связи просим вас рассмотреть вопрос о целесообразности и возможности участия в указанном мероприятии тов.Ахмедия Михаил оглы Джабраилова, а также оказать содействие в откомандировании его в Москву, в распоряжение Комитета, на трое суток, с I9 по 2I июня с.г. /прибыть в Комитет 19/VI, ул.Кропоткинская, дом I0/.

Просим заблаговременно сообщить нам ваше решение телеграммой или по телефону: Г 6-7I-00.

В положительном случае просим предупредить тов Джабраилова о необходимости иметь ордена или орденские планки советских и французских боевых наград.

Сообщаем его адрес: Нухинский район, село Охуд.

Ответственный секретарь
Советского комитета ветеранов войны
/А.Маресьев/





"копия"

Дирекции центральной национальной
службы Министерства обороны
Центральное архивное управление
военной комендатуры
Казерн Бернадот
64023 РАН
тел: 59-84-39-45 Почта:

ВСААМ Аи ЗЕТН 201689 РТ

Служба выписки:
принадлежит господину
Джабраилову Ахмедие

Просьба была принята:
ДАИ СЕ ДЕХ АСААМ

Комендант господин колонел

Выписка из книги розыска с 26.II.1990 года была принята просьба.

Лейтенант центральной военной комендатуры архивного управления утверждает, что эти документы принадлежат мне и очень точно были выписаны в следующей форме:

Фам.: Джабраилов Ахмедия Микаил оглы
Имя: Ахмед
родился: 22.09.1920 году

Из управления переписки в управление службы поступили следующие сведения:

I-ый эскадрон II класс 28.08.1944г.
Для того, чтобы добровольно служить на войне III-ий 04.I0.1944

В госпиталь поступил раненный 07.II. 1944 года по I9.I2.44г.
II-ий в 0I.03.1945 году поступил в IУ-ый эскадрон.
закончил: I6.03.1945 году.
Выписка утверждается Р О А А Р Р А
руководителя группы:

PI ВСААМ рап

Выписка заверена натариальной конторой № I
г.Шеки, Азерб.ССР

Копия верна:
НАЧАЛЬНИК ОТДЕЛЕНИЯ ШЕКИНСКОГО ОГВК
МАЙОР: /АХУНДОВ/






































ЈАШАСЫН ПАРТИЈА ИЛӘ ХАЛГЫН БӨЈУК ВӘ САРСЫЛМАЗ БИРЛИЈИ!
ЈАШАСЫН ХАЛГЛАР АРАСЫНДА СУЛҺ ВӘ ДОСТЛУГ!






















































OLYMPUS
APPAREIL PHOTO OLYMPUS
PIONEER
HI-FI STEREO
Fouquet's





























# Ataların oğlu - ot kökü üstə bitər

Deyirlər, ot kökü üstə bitər. İllər keçdi. Əhmədiyyə övladlarının hamısını böyüdüb ölkəsinə layiqli vətəndaş kimi yetişdirdi.

20-ci əsrin 80-ci illərinin ortasından SSRİ-nin yenidənqurma adı ilə başlayan dağılması prosesi tezliklə əksər fəal respublikalarda azadlıq hərəkatının, milli müqavimət hərəkatının güclənməsinə gətirib çıxardı. Sovet dövlətinin özü müharibələr ocağına çevrildi.

90-cı illərdə isə bir-birinin ardınca 15 respublikanın hamısı öz azadlığını elan etdi. Bu azadlıq payı yeni yaranmış hər ölkəyə bir cür verildi. Azərbaycanın müstəqilliyi ona Qarabağ adlı yara ilə başa gəldi. 70 il qardaş cinsinə girmiş, amma elə ötən əsrin əvvəlində olduğu kimi, məkrli niyyətindən əl çəkməmiş imperiya nökərliyi ilə özünə vətən qazanmış ermənilər Zəngəzur, Göyçə və Ermənistan SSR-ə pay verilmiş digər torpaqlarımızın qanuni və tarixi sakinlərini öz el-obasından qovmaqla kifayətlənməyib, Qarabağı da erməniləşdirmək iddiasına düşdülər. Hələ bu gün də bitib-tükənməmiş yüz minlərlə insanı ev-eşiyindən, doğma ocağından etmiş, minlərlə insanı qurbanına çevirmiş bu müharibə Azərbaycanın say-seçmə oğullarının da qanı bahasına başa gəldi.



Cəbrayılovlar ailəsində qəhrəmanlığın irsi xarakter alması təkcə Mikayıl kişinin Nuxada çıxardığı ad-san, oğlu . Əhmədiyyənin İkinci dünya müharibəsindəki şücaəti ilə tamamlanmadı. Bu irsiyyətin daşıyıcısı Əhmədiyyənin atasının adı ilə böyütdüyü böyük oğlu Mikayıl idi. Mikayılın payına doğma Azərbaycanın azadlığı və müstəqilliyi uğrunda çarpışmaq və canını Vətən yolunda fəda etmək düşdü...

Mikayıl orta təhsilini doğulduğu kənddə alır. Səkkizinci sinifdən sonra təhsilini Şəki şəhər 5 saylı fəhlə



gənclər məktəbində davam etdirir. 1971-ci ildə Şəki Şəhər Daxili İşlər Şöbəsində milis kimi fəaliyyətə başlayır. Qısa müddətdə o, bilik və bacarığına görə, təhsilini milis məktəbində davam etdirməyə göndərilir. 1978-ci ildə N.K.Rizayev adına xüsusi milis məktəbini bitirir, leytenant rütbəsi alır və sahə müvəkkili təyin edilir. Sonra, səmərəli fəaliyatinə görə, Şəki Daxili İşlər Şöbəsində inspektor vəzifəsində fəaliyyətini davam etdirir.

Onun uğurlu fəaliyyətini layiq görüldüyü fəxri fərmanlar, «Qüsursuz fəaliyyətə görə» birinci dərəcəli medalı, müxtəlif mükafatlar əyani göstərir. 1981-ci ildə onun xidmət göstərdiyi sahə «Nümunəvi sahə» adına layiq görülmüşdü. Həmin il, nümunəvi xidmətinə görə, ona Şəkinin ən böyük ərazisində – Böyük və Kiçik Dəhnə kəndlərində sahə müvəkkili olmaq tapşırılır. Qısa müddət ərzində onun səmərəli işi sayəsində bu kəndlərdə cinayətin sayı dəfələrlə azalır. İşlədiyi dövrün son məlumatlarında isə burada bir cinayət belə qeydə alınmamışdı. Həmin illərdə o, cəmiyyətin qəbul etmədiyi bir sıra şəxsin işə düzəlməsi, bir çoxlarının əmək fəaliyyətindən yayınmasının qarşısını almaqla nümunəvi fəaliyyəti və təsirli işi ilə seçilməyə başlayır.

İnspektor işlədiyi dövrdə isə onun keçirdiyi əməliyyatlar sayəsində 30 ağır cinayətin üstü açılaraq, məhkəmə orqanlarına təhvil verilib. Bu xüsusda 11 ay axtarışda olan cinayətkarın izinə düşüb onun Bərdədə həbs əməliyyatını təşkil etməsi də xüsusi dayanır. Oğul atasına çəkmişdi. O, haqq-ədalət carçısı, keşikçisi idi. Bu bağlılıq onların





həyatında son ana, son nəfəsə qədər davam etdi...

Əhmədiyyəni Parisdə hisslərini çulğalayıb, onu Vətənə qaytaran qüvvənin hökmü də elə bu zaman – Qarabağ uğrunda savaşın get-gedə qızışdığı bir zamanda baş verdi. Qarabağda savaş başlayanda Mikayıl polis leytenantı işləyirdi. 1990-cı il dekabrın 12-də baş leytenant Mikayılı 4 nəfər polis əməkdaşı ilə birgə Qarabağa ezam edirlər. Onlar Cəmilli kəndinin müdafiəsində iştirak etməli idilər. O vaxtlar təpədən dırnağa qədər silahlanmış erməni quldur dəstələri Dağlıq Qarabağın azərbaycanlılar yaşayan kəndlərinə tez-tez hücum edir, əhaliyə dinc yaşamağa imkan vermirdilər.

Mikayıl kəndə gələn kimi onun müdafiəsi üçün kifayət qədər qüvvə lazım olduğunu dərhal müəyyən etmişdi. Səbəb təkcə ermənilər deyildi. Əksəriyyəti ruslar olan Sovet ordusunun hərbçiləri Cəmilli camaatına qənim kəsilmişdi. Onlar kəndi deyil, silahlı erməniləri əliyalın azərbaycanlılardan qoruyurdular. Azərbaycanlılara qarşı cinayətlər törədiləndə qeybə çəkilir, ermənilərə kömək lazım gələndə qudzlaşırdılar. Başqa çıxış yolu da yox idi.

Cəmilli ona yaxın milis işçisinin ümidinə qalmışdı. Dərhal təşkilatçılığı üzərinə götürüb kəndin ətrafında postlar qoydurdu. Çünki müşahidə məntəqəsinin yaradılması vacib idi. O, kənd camaatını toplayıb ayıq-sayıq olmağın vacibliyindən söhbət açıb onlara müdafiə baxımından vacib olan məqamalardan danışdı.





Problem bununla bitmirdi. Kəndin ümid yolu da, demək olar ki, bağlanmışdı. Buradan keçmək ölümlə üz-üzə olmaq demək idi. Yolları nəzarətdə saxlayan hərbçilər bütün ixtiyarı erməni quldur dəstələrinə buraxmışdı. Onlar burada istədikləri özbaşınalıqları edirdilər. Şuşaya gedən hər kəsin həyatı tükdən asılı olurdu. Şuşaya yolun bağlanması isə Cəmillinin ərzaq təminatının da pisləşməsi demək idi.

Cəmillinin son ümidi milis işçiləri idi. Şuşadan gələn yolun təhlükə altında olmasına görə, çörək ardınca qonşuluqdakı Kosalar kəndinə getmək lazım gəlirdi. Amma bu yol da təhlükəli idi. Onun üstünlüyü yalnız yaxınlıqda yerləşməsi idi.

Dekabrın 15-də mühasirədə qalmış Cəmilli kəndinin əhalisi üçün ayrılmış 4 ton taxılı gətirmək məqsədilə polis dəstəsi Kosalar kəndinə yola düşür. 15 nəfər polis işçisini kənddə saxlayıb Mikayıl işi öz öhdəsinə götürdü. Yük maşını təşkil olundu. İş yoldaşı milis serjantı Arzu Əliyevlə və yeddi nəfər kənd sakinini götürüb Kosalar kəndinə yola düşdü. Bilirdilər ki, qayıdanda şər qarışıcaq, yollar təhlükəli olacaq. Ancaq başqa çarə də yox idi. Onlar kənd camaatına çörək gətirməli idilər.

Cəmilli ilə Kosalar arasında ən təhlükəli yer kiçik bir çay üzərində qurulmuş və «Qıl» adlandırılmış körpü idi. Burada iki kənd arasında gedib-gələnlər daha çox atəşə tutulurdular.

Körpünü keçdilər. Amma sakitlik idi. Kimsə «Allaha çox şükür» demişdi ki, atəş səsi eşidildi. Güllə maşının şüşəsini dəlib keçdi. Sanki pusqu qurublarmış kimi ermənilər qəflətən hücuma keçdilər. 70-80 nəfərə qədər erməni quldur maşını dövrəyə aldı. Onlar Cəmillidən gələnləri əsir tutmaq istəyirdilər. Azğın quldurlar maşını hərəkətdən saxlamaq üçün benzin bakına, təkərlərə atəş açdılar. Maşın dayandı. Sonradan açılan snayper gülləsi Arzu Əliyevin başına dəydi. Atışmada Mikayıl da qolundan yaralandı. Maşındakıların hamısının taleyi təhlükə altında qaldığından, Mikayıl qolunun yarasına məhəl qoymadan yerə düşdü və maşındakılara qışqıraraq onların tez aradan çıxmalarını tələb etdi.

Özünü maşının altına verdi, avtomatı sinəsinə sıxıb düşmənə cavab atəşi açaraq onu irəliləməyə qoymadı. Ölüm-dirim mübarizəsi davam edirdi. Mikayılın sərrast atəşləri erməni quldurlarını susdurdu. Artıq kənd adamları xilas ola bilmişdilər. Cəsur döyüşçü kimi düşmən əhatəsində qalmışdı. Son damla qana qədər döyüşərək qəhrəmanlıqla həlak oldu.

Əhmədiyyə bu xəbəri mərdanə qarşıladı. Bu ölüm onun qəddini əyə bilmədi. Dəfn mərasiminə, sonra onun yas məclisinə gəlib başsağlığı verənlərə o, bir kəlmə demişdi:







- Qarabağda şəhid olan hər kəs mənim oğlumdur. Mikayılı onlardan ayıra bilmərəm. Vətən uğrunda ölmək şərəfdir.

Moskvadan hadisəni tədqiq etmək üçün istintaq qrupu gəldi. Çünki qəhrəman Əhmədiyyənin oglunun ölüm xəbəri adi hadisə kimi qalmayacaqdı. Onun səsi-sorağı ermənilərin qatil imicini yaratmaqda, Qarabağ savaşında həqiqətlərin yayılmasında əhəmiyyətli hadisə olacaqdı. İstintaq qrupu hadisəni ört basdır etmək üçün, guya, azərbaycanlıların bir-birini atəşə tutduqlarını və qırdıqları qənaətini elan edəcəkdi. Amma Suraxanı rayon Daxili İşlər Şöbəsinin müstəntiqi D.Quliyev rayona ezam olunaraq təhqiqata başladı. O, istintaq qrupunun rəhbəri kimi 1991-ci ilin mayında, hadisədən 5 ay sonra ora yollanmışdı.

Hadisənin təhqiqatı zamanı Cəmilli kənd mağazasının satıcısı Cavadov da yaralanmış vəziyyətdə komandir Cəbrayılovun əmrini yerinə yetirmək üçün maşını atəşdən çıxarmağa çıxış yolu axtarırdı. O da yaralanmışdı. Çayın kənarında yerə yıxılanda, atəş səsi kəsilir. Erməni dilində səslər eşidildi. Onlar canlı adam axtarırdılar. Gələnlərdən biri onların keçmiş həmkəndlisi Karen Ayrımyan idi. Onlar Mikayılı ölü bilib avtomatını götürüb getdilər. Min bir əzab-əziyyət, dəfələrlə müraciətdən sonra cinayətkarlardan üçünü tutub Şuşa rayon dustaqxanasına apara bildilər.

Məsələ elə bununla da tamamlandı.

Ölümündən sonra 1991-ci ilin 4 dekabrında SSRİ Prezidenti M.Qorbaçovun fərmanı ilə «Qırmızı Ulduz» ordeni ilə (Orden№ 3841103) təltif olunan qəhrəmanın mükafatı ata-

sına Şəki şəhər Daxili İşlər Şöbəsində keçirilən təntənəli mərasimdə təqdim olundu.

1992-ci il iyun ayının 6-da Azərbaycan Respublikası Prezidentinin fərmanı ilə Mikayıl Əhmədiyyə oğlu Cəbrayılova ölümündən sonra Azərbaycanın Milli Qəhrəmanı adı verilir və «Qızıl ulduz» nişanı (№ 000204) yenə atasına təqdim olunur.

O da ailəli idi. Özündən sonra dörd övladı qalıb. Onun ölüm xəbəri bütün Şəkini sarsıtmışdı. Mikayıl öldüyü Qarabağdan gətirilərək, doğma Oxud kəndində dəfn edildi. Küçələrdən birinə onun adını verdilər. Şəki şəhər Xalq Deputatları Sovetinin rəyasət heyətinin iclasında İcraiyyə Komitəsi yanında fəaliyyət göstərən «Küçə və meydança adlarına yenidən baxılması və dəyişdirilməsi üzrə komissiyanın rəyi haqqında» məsələyə baxılaraq, Şevçenko küçəsinin adının dəyişdirilərək Mikayıl Cəbrayılov adlandırılması qərara alındı.

Həlak olduğu kənd indi onun şərəfinə Mikayıllı adlandırıldı. Doğma məktəbində «Mikayıl Cəbrayılov» adına mükafat təsis olundu.

Ölümündən bir il sonra onun məzarı üzərində abidəsi ucaldıldı. Xatirə abidəsinin ucaldılmasında Azərbaycan Nazirlər Kabinetinin sədr Həsən Həsənovun, Qarabağa Yardım Komitəsinin sədri Bayram Bayramovun və Köçkünlər Cəmiyyətinin sədri Şakir Kərimovun zəhməti çox oldu.



Abidənin açılışına rayon rəhbərliyi və ictimaiyyətin ən müxtəlif təbəqələrinin təmsilçiləri toplaşdılar. Mitinqi Oxud kənd Xalq Deputatları Soveti İcraiyyə Komitəsinin sədri R.Rəsulov açdı. Abidənin önünə əklillər qoyuldu. Heykəltaraş Əsgər Kərimov Mikayılı elə milis paltarında, xalqa xidmət edən, onun qarşısında əbədi qulluğa hazır və usanmaz qəhrəman obrazında canlandıra bilmişdi.

Bu gün iki qəhrəmanın nəvə-oğul övladı da vətənin xidmətindədir. Müşfiq Cəbrayılov Şəki Rayon Polis Şöbəsinin əməkdaşıdır, mayor rütbəsindədir.





# «Yenə Vətən yaxşı»

1994-cü il yanvarın 6-da Rene Rassel Əhmədiyyəyə «Fəxri Legion» ordenini təqdim edir. Sanki bu ali orden onun ömrünün son səhifəsi olmağa məhkum idi. Sanki o bu ordenin yolunu gözləyirmiş.

Həmin il sentyabrın 8-də Əhmədiyyə Cəbrayılov Müqavimət Hərəkatının Veteranlar Assosiasiyasının «Kombatan Volontyor» Regionlararası Xeyriyyə Assosiasiyasının prezidenti Oleq Ozerovdan növbəti mükafatla bağlı təbrik teleqramı alır. Teleqramda deyilirdi ki, Əhmədiyə Cəbrayılov Fransanın hitlerçi işğalçılardan azad olmasının 50-illiyi münasibətilə təsis edlmiş yubiley medalına layiq görülüb və veteranlar komitəsi bu münasibətlə onu təbrik edir.

İkinci dünya müharibəsinin odu-alovundan, inanılmaz ölüm səhnələrindən xilas olub qurtulan Əhmədiyyəyə Vətənində öz ölümü ilə dünyasını dəyişmək nəsib olmadı. O, bir avtomobil qəzasının qurbanı oldu. 1994-cü il oktyabrın 9-da Əhmədiyyə Cəbrayılov Şəkidə yol qəzası zamanı həlak olur. Sürücü yük maşınını idarə edə bilmir və telefon kabinasına çırpılır. Həmin an kabinada olan şəxs «Xarqo», «Fraji», «Kuraje», «Rus Əhməd», «Armed Mişel» və ya bizim Əhmədiyyə Cəbrayılov idi.

Nə qədər qəribə olsa da, onun ölümünün ertəsi günü Fransada Barışıq günü elan olunub. Bu, Birinci dünya müharibəsinin başa çatdığı gündür. Fransızlar bu dünya savaşında da böyük itkilərə məruz qalmışdılar. Fransada bu gün qeyri-iş günü hesab olunur.

Fransadan onun qonaqları başqa Sovet ailələri ilə müqayisədə, çox olardı. Hər dəfə Fransadan uşaqları, ya dostlarının dostu, onların övladları gələndə, onun əzablı yollarından xəbər tutanda ondan soruşardılar:

- Sən bura niyə qayıtdın?

Əhmədiyyə isə həmişə ona xas təbəssümlə deyərdi:

- «Le fortune est une franche sourtisane» - «Tale həqiqətən kurtizankadır».

Axı o, dəqiq bilirdi ki, bu sualı dostları ona heç vaxt verməz. Çünki müqavimət ustadları bilirlər ki, heç vaxt heç nə, heç bir məşəqqət heç yerdə, ələlxüsus da Vətəndə əsl partizanı sındıra bilməz.

Əhmədiyyə bu məktəbin ən mahir məzunu idi.

Bəli, həyatı rəmzlərlə əhatə olunan, hər addımında da rəmzlər kifayət qədər çox olan, hətta bu həyatda qalması da rəmzlərin sehrində olan Əhmədiyyə Cəbrayılov üçün bu dünya burada bitdi. Buradan o yanda onun haqq dünyası başlayır.

Onu Oxud kənd qəbristanlığında dəfn etdilər. Matəm mitinqində mərhumun həmkəndlisi və partizan dostu Nuru Abdullayev də çıxış edərək, onun keçdiyi şərəfli partizanlıq fəaliyyəti haqqında böyük fəxrlə söz açdı.

Bu ölüm bütün Azərbaycanı kədərləndi. Dövlət adından Azərbaycan Prezidenti Heydər Əliyevin, eləcə də yüksək rütbəli dövlət məmurlarının ictimai xadimlərin adından yayılan nekroloqda Əhmədiyyə Cəbrayılovun keçdiyi yola nəzər salınır, onun həm müharibə illərində, həm də ondan sonra əmək cəbhəsindəki fəaliyyətinə yüksək qiymət verilir.

*Nekroloqda deyilir:*

*- Respublika ictimaiyyətinə ağır itki üz vermişdir. İkinci dünya müharibəsində rəşadətli döyüş yolu keçmiş, Fransa Müqavimət Hərəkatında fəal iştirak etmiş Fransanın Milli Qəhrəmanı Əhmədiyyə Mikayıl oğlu Cəbrayılov 1994-cü il oktyabrın 9-da vəfat etmişdir.*

*Əhmədiyyə Mikayıl oğlu Cəbrayılov 1920-ci ildə Şəki rayonunun Oxud kəndində anadan olmuşdur. Kənd Təsərrüfatı İnstitutunu bitirdikdən sonra əmək fəaliyyətinə başlayan Ə.M.Cəbrayılov 1939-1941-ci illərdə Quba, Xaçmaz, Dəvəçi rayonlarının təsərrüfatlarında aqronom işləmişdir.*

*Böyük Vətən müharibəsinin ilk günlərindən Ə.M.Cəbrayılov könüllü surətdə cəbhəyə getmiş, döyüşən ordunun sıralarında, partizan hərəkatında böyük qəhrəmanlıqlar göstərmişdir. Tale Ə.M.Cəbrayılovu 1942-ci ildə Fransaya gətirmişdir. Burada o, 1946-cı ilədək partizan hərəkatında iştirak etmiş, bir çox mühüm tapşırıqların icrasında xüsusilə fərqlənmiş, mərdlik və qəhrəmanlıq nümunəsi göstərmişdir. Faşizmə qarşı mübarizədə fransız xalqı qarşısında xidmətlərinə görə Ə.M.Cəbrayılov Fransanın beş ordeni ilə təltif edilmiş, ən yüksək fəxri ada — «Fransanın Milli Qəhrəmanı» adına layiq görülmüşdür.*

*1947-ci ildə Vətənə qayıdan Ə.M.Cəbrayılov dinc quruculuq işlərində fəal iştirak etmiş, doğma Şəkinin müxtəlif təsərrüfatlarında çalışmış, rəşadətli əməyinə görə dəfələrlə müxtəlif orden və medallarla təltif edilmişdir.*

*Uzun illər Şəki Veteranlar Şurasına başçılıq etmiş Əhmədiyyə Cəbrayılov gənclərin hərbi-vətənpərvərlik tərbiyəsi işində yaxından, fəal iştirak etmişdir.*

*Alovlu vətənpərvər, Fransa Müqavimət Hərəkatının iştirakçısı, Fransanın Milli Qəhrəmanı Əhmədiyyə Mikayıl oğlu Cəbrayılovun parlaq xatirəsi xalqımızın qəlbində daim yaşayacaqdır.*

***Heydər ƏLİYEV, Rəsul QULİYEV, Fuad QULİYEV, Abbas ABBASOV, Əsgər MƏMMƏDOV, Elçin ƏFƏNDİYEV, Arif RƏHİMZADƏ, Nurəddin SADIXOV, Qabil HÜSEYNLİ, Hidayət ORUCOV, Vəfa QULUZADƏ, Yusif HÜMBƏTOV, Bəxtiyar VAHABZADƏ, Nəzir ƏHMƏDOV, Bahadur HÜSEYNOV.***

Onun ölümü ilə bağlı Azərbaycan Respublikası Müdafiə Nazirliyinin adından da nekroloq dərc olundu. Nazir, general-leytenant Məmmədrəfi Məmmədov, baş qərargah rəisi general-leytenant Nəcməddin Sadıqov, eləcə də digər yüksək rütbəli hərbi məmurların adından verilən başsağlığında Əhmədiyyənin keçdiyi həyat yolu şərəfli əsgər və ictimai xadim,





vətəndaş kimi yüksək qiymətini alıb:

*- Respublika ictimaiyyətinə ağır itki üz vermişdir. İkinci dünya müharibəsinin iştirakçısı, əfsanəvi partizan, Fransanın Milli Qəhrəmanı Əhmədiyyə Mikayıl oğlu Cəbrayılov 1994-cü il oktyabrın 9-da vəfat etmişdir.*

*1920-ci ildə Şəki rayonunun Oxud kəndində anadan olmuş Ə.M.Cəbrayılov Kənd Təsərrüfatı İnstitutunu bitirib respublikanın müxtəlif rayonlarının təsərrüfatlarında işləmişdir. Gənc aqronom Böyük Vətən müharibəsinin əvvəllərindən, könüllü olaraq, silaha sarılmış, alman işğalçılarına qarşı mərdliklə vuruşmuşdur. 1942-ci ildə Ə. M. Cəbrayılov Fransa Müqavimət Hərəkatına qoşularaq, 1946-cı ilədək partizanlıq etmiş, bu illərdə dəfələrlə çətin, təhlükəli döyüş tapşırıqlarını yerinə yetirmiş, xüsusi cəsarət və qəhrəmanlıq nümunəsi göstərərək, yad ölkədə Azərbaycan xalqının adını şərəfləndirmişdir. Ümumi düşmənə qarşı savaşlarda təkrarolunmaz igidliklər nümayiş etdirdiyinə görə Ə.M.Cəbrayılov Fransanın beş ordeninə və həmin ölkədə ən yüksək fəxri ada — «Fransanın Milli Qəhrəmanı» adına layiq görülmüşdür.*

*Müharibədən sonra - 1947-ci ildə doğma Azərbaycana qayıdan Ə. M. Cəbrayılov Şəki rayonunun təsərrüfatlarında əmək fəaliyyətini vicdanla davam etdirmiş, müxtəlif orden və medallarla mükafatlandırılmışdır. Şəki Veteranlar Şurasına uzun müddət rəhbərlik etmiş Ə.M.Cəbrayılov minlərlə azərbaycanlı gəncin sağlam mənəviyyatla tərbiyə olunmasında mühüm rol oynamışdır.*

*Bütün varlığı ilə Vətəninə bağlı olan, fransız və Azərbaycan xalqlarının sevimlisi, əfsanəvi partizan Əhmədiyyə Mikayıl oğlu Cəbrayılovun əziz xatirəsi qəlbimizdə əbədi yaşayacaq, onun şərəfli həyat yolu gənclərimiz üçün bir məktəb, örnək olacaqdır.*

***General-leytenant Məmmədrəfi Məmmədov, general-leytenant Nəcməddin Sadıqov, polkovnik Elxan Orucov, general-mayor Kazbek Qurbanov, polkovnik Ayaz Məmmədov, polkovnik Tale Əliyev, general-mayor Məmmədhüseyn Sarıyev, general-mayor Rahil Rzayev, kontr-admiral Rafiq Əsgərov.***

Əhmədiyyənin ölümü Heydər Əliyevə çox təsir etmişdi. Əhmədiyyənin timsalında o, Azərbaycanı tərənnüm edəcək bir şəxsiyyəti, sədaqətli oğulu itirmişdi. Əhmədiyyənin ona münasibəti də xüsusi idi. Məhz Heydər Əliyevin respublikaya başçılıq etdiyi illərdə, Əhmədiyyə Azərbaycanda və SSRİ-də layiq olduğu kürsüyə qalxmışdı. O, hər dəfə qurultay, tədbir, konfrans və mərasimlərə dəvət edilir, əksərən, rəyasət heyətlərində, fəxri kürsülərdə yer alırdı. Heydər Əliyevin birbaşa göstərişi ilə onun ölümü xüsusi öyrənildi. Onun tapşırığı ilə yaradılmış komissiya bu ölümə qiymət verdi.

Nə qədər qəribə olsa da, onun ölümündən xəbərsiz olan Fransa hökuməti 1995-ci ildə faşizm üzərində qələbənin 50 illiyi münasibətilə ona fəxri təqaüd və xatirə medalları göndərir. Sanki bu qərarda da bir rəmzilik var idi. O, Fransa üçün ölməmişdi. Elə Şarl de Qollun dediyi kimi, «Fransa xalqı səni heç vaxt unutmayacaq».

Onun ölüm xəbərindən yalnız sonrakı ilin əvvəlində xəbər Fransaya gedib çıxır. 1995-ci il fevralın 10-da

Fransa Müqavimət Hərəkatının Veteranlar Assosiasiyasının «Kombatan Volontyor» Regionlararası Xeyriyyə Assosiasiyasının prezidenti Oleq Ozerovun adından başsağlığı teleqramı daxil olur. Teleqramda yazılıb:

*«Fransa Müqavimət Hərəkatının veteranlarının «Kombatan Volonytor» Assosiasiyasının və şəxsən öz adımdan atanızın, Fransa antifaşist müqavimət hərəkatının qəhrəmanı Əhmədiyyə Mixayloviç Cəbrayılovun faciəli ölümü ilə əlaqədar Sizə və ailənizə ən dərin hüznlə başsağlığı verirəm.*

*Əhmədiyyə mənim dostum idi, biz bir-birimizi qardaş sayırdıq və mənə bu dost və qardaş itkisi daha ağrılıdır.*

*Əhmədiyyə Mixayloviçin məzarı üzərinə Assosiasiyamızın və şəxsən mənim adımdan qırmızı qızılgül dəstəsi qoyasınız.*

*Əhmədiyyə Mixayloviç Cəbrayılov qoçaq makizar idi, Fransanın azadlığı uğrunda çoxlu döyüşlərdə iştirak edib və qəhrəmanlıqlarına görə dövlət mükafatlarına layiq görülüb.*

*Qardaşım və döyüş yoldaşımın əbədi xatirəsi daim yaşayacaq».*

1995-ci ilin oktyabrında, onun ölümün ildönümündə qəbri üzərində memar Əhməd Salihovun hazırladığı bürünc heykəli qoyulur.

1998-ci il 15 oktyabrda Fransa Müqavimət Hərəkatının könüllü döyüşçüsü Əhmədiyyə Cəbrayılova ölümündən sonra Fransanın azadlığı uğrunda döyüşlərdə iştirakına görə «Minnətdarlıq diplomu» verilir. Həmin il Əhmədiyyə Cəbrayılovun döyüş yoldaşı Rene Şambar Şəkidə onun ailəsinə baş çəkir.

Oğlu Cavanşir Cəbrayılovun əməyi və vəsaiti hesabına bu gün Şəkidə Əhmədiyyə Cəbrayılovun ev-muzeyi fəaliyyət göstərir. Muzeydə onun əlyazmaları, rəsmi sənədlər, ona verilmiş mükafatlar, orden və medallar, müxtəlif illərdə çəkilən fotoşəkillər qorunur. 1997-ci ildə Fransaya rəsmi səfəri zamanı Azərbaycan Prezidenti Heydər Əliyev Əhmədiyyənin xatirəsinin bir parçasını da özü ilə apardı. Məhz Əhmədiyyə Cəbrayılovun oğlu Cavanşir Azərbaycan və Fransa münasibətlərini tərənnüm edən qəhrəmanın oğlu kimi Fransada təqdim olunacaqdı. Bəli, qəhrəmanlar ölmür, onlar hətta ölümlərindən sonra da Vətənə xidmət göstərirlər.

Yəqin ki, Əhmədiyyə Cəbrayılov haqqında söz açanda, onun keşməkeşli həyatının müharibədən sonrakı illərinin məşəqqətləri ilə bağlı keçirəcəyi, hisslər daim hər kəsi düşündürəcək. Amma yox, bu sual heç vaxt kiminsə qarşısında dayanmayacaq. Çünki bu sual ona verilib və cavabı da əsl qəhrəmana layiq olub. Jurnalist Abid Tahirov Əhmədiyyə Cəbrayılovla müsahibəsini məhz bu sualla bitirib:

- Əhmədiyyə dayı, Sizi Vətəndə də çox incidiblər. Heç olubmu ki, Parisdən gəldiyiniz üçün peşmançılıq çəkəsiniz?

Saçının rəngi qarı xatırladan 68 yaşlı keçmiş partizan aynabəndin önünə gəldi, pəncərəni açdı. Dağların ətəyində hay-həşir qoparan Kiş çayının səsi otağa daxil oldu. Zirvəsi buludlu İncəzunud, Kiş və Oxud dağlarının döşünə duman çökürdü. Əhmədiyyə dayı qollarını geniş açdı:

- Bunları mən göydələnlərə, milyonlara, saraylara dəyişmərəm, bala. Oxudsuz yaşaya bilərdimmi? Bəli, məni Vətəndə incidiblər, günümü qara ediblər. Fikirləşmişəm ki, bu, ayrı-ayrı adamların səhvidir, günahıdır – bu sözləri deyəndə, onun gözləri yaşardı. Özünü bir təhər toxtatdı, astadan pıçıldadı:

- Yenə Vətən yaxşı!

Amma tək bu deyil. Ən yaxın dostu Ərşad Əliyev də xatirələrində Əhmədiyyənin Vətənə bağlılığından söz düşəndə, bu ifadələri işlədərdi. Sonra bir qədər fikrə gedib, deyərdi ki, Əhmədiyyənin bu sevgisini kimsə anlamasa da, o özü onun gözlərindəki baxışlarda hər şeyi-duyur hiss edirdi. Ərşad müəllimin xatirələrində belə bir epizod da var:

- Bir gün Əhmədiyyəgilə qonaq getmişdim. Bir az hal-əhvaldan sonra Əhmədiyyə dedi ki, dur gedək meşəliyə. İki dost təbiət qoynunda istirahət edib, şirin-şirin söhbət edəndə, Əhmədiyyə mənə Fransadakı xatirələrindən danışardı. Bu dəfə söhbət onun oradakı ailəsindən düşdü. Axı Əhmədiyyənin orada həyat yoldaşı və iki övladı qalmışdı. Doğrudur, onlar orada tam firavan həyat sürürdülər. Özlərinin mülkü, müəssisələri var idi. Bunları əldə etmələrində Əhmədiyyənin də qəhrəman imicinin rolu az olmamışdı. Bir gün ona dedim.

- Əhmədiyyə, müharibədən sonra nə əcəb Azərbaycana qayıtdın? Axı burada nə ailə qurmuşdun, nə də səni hansı aqibət gözləyəcəyini bilirdin. Hələ üstəlik yaxşı qarşılanmayacağını da ehtimal edirdin.

O, mənə dedi:

- Bilirsən, Ərşad, deyirsən ki, ailə qurmuşdum, hər şey əla idi, münasibətə də söz ola bilməzdi. Gələndə bilirdim ki, həyatım heç də yaxşı olmayacaq. Bəlkə də nəyəsə ümid edirdim. Amma əsas bu deyil. Bu dağları, daşları, görürsən – az qala, hər gün, hər gecə yuxularımda, xəyallarımda bu dağları görürdüm. Bu torpağın ətri, bu təbiətin səsi məni elə hey çağırırdı. İnsan Vətəndən kənarda həyatdan, onun hər bir nemətindən məhrum olur. Səni min cür naz-nemətlə nə qədər əhatə etsələr də, Vətənsiz yaşamaq olmur. Mən dədə-baba yurdumu qoyub getmişdim. Amma bu kökümdən, əsilnəcabətimdən ayrı yaşaya bilməzdim. Çünki bu mirası atam mənim üçün qoyub gedib, mənim də borcum onu övladlarıma çatdırmaqdır. Nə Fran-

















# МАВФС

**БЛАГОТВОРИТЕЛЬНАЯ МЕЖРЕГИОНАЛЬНАЯ АССОЦИАЦИЯ ВЕТЕРАНОВ ФРАНЦУЗСКОГО СОПРОТИВЛЕНИЯ «КОМБАТАН ВОЛОНТЕР»**

Association Interregionale de Bienfaisance des Veterans Russes de la Resistance Francaise «COMBATTANT VOLONTAIRE»

101475-ГСП-Москва, А-55, ул. Образцова, 15, МИИТ, МАВФС — тел: 978.50.64, 284.21.05

101475-ГСП-Moscou, A-55, rue Obraszova, 15, MIIT, MAVFS — tel: 281.96.44

«10» февраля 1995 г. — № ФС-868

Дорогие друзья !

От имени Ассоциации ветеранов французского Сопротивления "Комбатан волонтер" и от себя лично выражаю Вам и Всей Вашей семье глубокое соболезнование по поводу трагической гибели Вашего отца, героя французского антифашистского Сопротивления - Джебраилова Ахмедия Михайловича.

Ахмедия был моим другом, мы считали друг друга братьями и для меня эта потеря друга и брата особенно болезненна.

Прошу Вас возложить на могилу дорогого, бедного Ахмедия Михайловича букет красных цветов от нашей Ассоциации и от меня самого.

Ахмедия Михайлович Джебраилов был отважным макизаром, участвовал во многих боях за свободу Франции и за свои подвиги был награжден высокими правительственными наградами.

Вечная Память моему брату и боевому товарищу.

Президент МАВФС [signature] О.Н. Озеров

В этом письме посылаю официальное французское свидетельство к Джебраилову АМ
[signature]







sadakı həyatıma, nə olduğum vaxta, nə müharibədə döyüşməyimə, nə qayıtmağıma, nə Stalin repressiyasına, nə də Vətən xaini damğasına görə peşmanam. Hər şeyi taleyin qisməti kimi qəbul etmişəm. Bu həyat mənə verilibsə, onu alnıaçıq yaşamalıyam.

Əhmədiyyə elə belə də yaşadı – alnıaçıq, vicdanlı, eyni zamanda qorxmaz, igid və qəhrəman kimi.

Onun qəhrəmanlığı Azərbaycan üçün şərəf lövhəsi, fəxarət mənbəyi və nümunə oldu. Təkcə onu demək kifayətdir ki, ölkəmizdən kənarda 200-dək qəzet və jurnalda tərənnüm edilib. Onun haqqında 15-ə yaxın kitab yazılıb. Bütün bunlar həm də Azərbaycanın tərənnümü, onun səsidir. Çünki artıq Azərbaycan müstəqil ölkədir. Ölkəmizin Fransa ilə əlaqələri ən yüksək səviyyədə qurulub və milli-mədəni əlaqələrin genişləndirilməsi istiqamətində əhəmiyyətli addımlar atılıb. 2012-ci il sentyabrın 19-da Parisdə məşhur Eyfel qülləsinin yaxınlığında 1904-cü ildə inşa olunmuş tarixi binalardan birində Heydər Əliyev Fondunun və şəxsən onun rəhbəri Mehriban Əliyevanın dəstəyi ilə Azərbaycan Mədəniyyət Mərkəzi açılıb. Təntənəli mərasimdə Azərbaycan Prezidenti İlham Əliyev də iştirak edib. Bu isə Fransa kimi dünyanın aparıcı ölkələrindən birində və bu dövlətin xətti ilə bütün dünyada Odlar yurdunun təbliğ olunmasında əhəmiyyətli rol oynaya bilən addımdır. Elə Əhmədiyyə Cəbrayılovun da Fransa qarşısındakı xidmətlərinin daim xatırlanmasında, şücaətinin nümunəsində iki ölkə arasında münasibətlərin daha da dərinləşməsində bu mərkəzin ən öz mövqələrini möhkəmləndirməsində böyük qəhrəmanın həyatının da böyük rola olacağı şübhəsizdir. Bir sözlə, artıq Vətən və Əhmədiyyə yalnız bir məqsədə - bu ulu torpağın və onun həqiqətlərinin dünyaya çatdırılmasında vahid bir qüvvədir. Çünki Əhmədiyyənin həyatı necə başlamışdısa, elə də başa çatdı və onun meyarı, əbədi ifadəsi, gələcəyə nümunəsi və sözü də elə bu oldu:

- Yenə Vətən yaxşı.

Çapa imzalanıb: 15.01.2012
Formatı: 60x84 1/8. Ofset çapı.
Həcmi 27
Sifariş № 21.

CBS POLYGRAPHIC PRODUCTION
Tel:447-75-05, Faks: 447-75-04

mətbəəsində çap olunub